FƏXRƏDDİN CƏFƏROV

# NAXÇIVAN POLİSİNİN İNKİŞAF YOLU

(1920-2008-ci illər)

67.99(5Az)116
C 51

FƏXRƏDDİN CƏFƏROV

# NAXÇIVAN POLİSİNİN İNKİŞAF YOLU

## (1920-2008-ci illər)

110533

BAKI – 2008

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

MƏSLƏHƏTÇİ: **Əhməd ƏHMƏDOV**
Naxçıvan Muxtar Respublikası
Daxili İşlər Naziri,
general leytenant

RƏYÇİ: **İsmayıl HACIYEV**
AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor

**ELMİ REDAKTOR: Hacı Fəxrəddin SƏFƏROV**
tarix elmləri doktoru.

**Fəxrəddin Cəfərov. Naxçıvan polisinin inkişaf yolu (1920-2008-ci illər).** Bakı, «Nurlan», 2008, 190 səh.

Monoqrafiyada Naxçıvan polisinin 1920-2008-ci illərdəki fəaliyyəti geniş faktik materiallar əsasında öyrənilmişdir. Tədqiqat işində XX əsrin əvvəllərindən XXI əsrin əvvəllərinə kimi Naxçıvan polis orqanlarının fəaliyyətindən və müstəqillik illərində müxtəlif qüvvələrə qarşı mübarizəsindən bəhs edilMişdir.

Monoqrafiya tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

C $\frac{4603000000}{N-098-2008}$ Qrifli nəşr

© F.Cəfərov, 2008

# ÖN SÖZ

*«Hər bir müstəqil dövlət bir neçə böyük sütun üzərində fəaliyyət göstərə bilər. Hər bir dövlət üçün, o cümlədən Azərbaycan dövləti üçün sütunlardan biri Daxili İşlər Nazirliyi, polis orqanlarıdır.*

*Polis peşəsi ağır peşədir. O, bir tərəfdən cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil, təcrübə tələb edir.*

*Polis orqanı gərək xalq tərəfindən hörmət edilən bir orqan olsun, polis işçisi gərək xalq tərəfindən sevilsin, ona hörmət edilsin».*

Heydər ƏLİYEV
Azərbaycan xalqının ümummilli lideri

Azərbaycan polisinin fəaliyyətində mühüm yer tutan Naxçıvan polisinin dövlətçiliyin qorunub saxlanılmasında, demokratik cəmiyyət quruculuğunda, cinayətkarlığa qarşı mübarizədə xidmətləri böyükdür.

Tarix elmləri namizədi Fəxrəddin Cəfərovun yazdığı «Naxçıvan polisinin inkişaf yolu» (1920-2008-ci illər) ikinci kitabı da XX əsr və XXI əsrin əvvəllərində mövcud boşluğu doldurmağa xidmət edən qiymətli bir əsər kimi mühüm əhəmiyyət kəsb edir. Əsər Azərbaycan polisinin mütəşəkkil bölməsini təşkil edən Naxçıvan polisi haqqında tam və bitkin monoqrafiq tədqiqatdır. Haqqında söz açılan kitab Naxçıvan polisinin əhatəli tarixi salnaməsidir.

Fəxrəddin Cəfərovun ikinci kitabı bir neçə cəhətdən mühüm əhəmiyyətə malikdir.

Naxçıvan polisinin keçdiyi inkişaf yolunun tədqiqi kitabın ana xəttini təşkil edir. XIX əsrdə çar Rusiyası dövründə yaradılmış qəza polisi idarəsindən sonrakı mərhələlərdə təşkil olunmuş Baş polis idarəsinə, Daxili İşlər Komissarlığı və indiki Daxili İşlər Nazirliyinə qədər Naxçıvanda polisin keçdiyi çətin, keşməkeşli və mübariz yolun bütün mənzərəsi «Naxçıvan polisinin inkişaf yolu» kitabında faktların, sənədlərin, informasiyaların

köməyi ilə dərin və əhatəli şəkildə işıqlandırılmışdır. Bu, bir mübariz orqan kimi milli polisin inkişaf yolunun tarixinin və təcrübəsinin müəyyənləşdirilməsinə və ümumiləşdirilməsinə imkan verir. Yaxşı cəhətdir ki, müəllif həm də Naxçıvanın polis orqanlarında xüsusi xidmətləri olan, xalqa vicdanla xidmət etmiş, tanınmış, adlı-sanlı polis işçiləri, polis rəhbərləri haqqında zəruri məlumatları da oxuculara çatdırır. Bu məqamda daxil edilmiş şəkillər kitabın sənədlilik səviyyəsini qüvvətləndirməklə bərabər, həm də oxunaqlığını, faydalığını artırır.

1920-1940-cı illərdə xaricdən göndərilən və daxildəki qaçaqquldur dəstələrinə qarşı fəal mübarizə aparmış, dincliyin və asayişin qorunmasında mətinlik göstərmiş, 1941-1945-ci illər müharibəsi dövründə ön cəbhələrdə faşistlərə qarşı və arxa cəbhədə hər cür cinayətkar ünsürlərə qarşı mərdliklə vuruşan polis işçilərinin həyat və fəaliyyətinə dair maraqlı faktlar və mülahizələr kitabda öz əksini tapmışdır.

«Naxçıvan polisinin inkişaf yolu» kitabında müstəqillik dövründə yerli polis orqanlarının mübarizəsi və fəaliyyəti obyektiv şəkildə təhlildən keçirilmişdir. Ərazi bütövlüyünün qorunması, müstəqilliyimizin möhkəmləndirilməsi uğrunda Naxçıvan polisinin apardığı yorulmaz mübarizənin təqdiminə kitabda xüsusi yer verilir. Görkəmli dövlət xadimi, müdrik siyasətçi Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsində işləyərkən baş vermiş dövlət çevrilişi cəhdini aradan qaldırmaq üçün həyata keçirdiyi məqsədyönlü, düşünülmüş tədbirlərin bütün yönləri ilə açıqlanması və bu prosesdə polisin işinin aydınlaşdırılması gənc, müstəqil dövlətimizin keçdiyi çətin, məsuliyyətli yolun dolğun mənzərəsini təsəvvür etməyə şərait yaradır. Həmçinin Qərbi Azərbaycandan məcburi köçürülməyə məruz qalmış həmvətənlərimizin Naxçıvanda qarşılanması, yerləşdirilməsi və Bakı şəhərinə yola salınması sahəsində Naxçıvan polisinin fədakar mübarizəsinin əsas məqamları da kitabda öz əksini tapmışdır.

Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun muxtar respublikanın bütün sahələri ilə yanaşı, Naxçıvan polisinin inkişafına göstərdiyi diqqət və qayğı, polisin hazırkı şəraitdə fəaliy-

yəti və vəzifələri də kitabın səhifələrində konkret informasiyalar əsasında obyektiv olaraq dəyərləndirilmişdir.

Fəxrəddin Cəfərovun oxuculara təqdim olunan bu kitabı Naxçıvan muxtar respublika polisinin yaranma tarixindən, onun keçdiyi keşməkeşli, şərəfli həyat yolundan ətraflı söhbət açır. Kitabda bir sıra tarixi faktlar arxiv materiallarının dili ilə öz dolğun əksini tapmışdır. Burada, kommunist rejiminin törətdiyi fəsadlarla yanaşı, müstəqillik illərində erməni Daşnaqlarının xalqımızın başına gətirdiyi müsibətlərdən də bəhs olunur. Müəllifin böyük zəhməti bahasına ərsəyə gətirdiyi bu kitab tarix sevərlər üçün dəyərli töhfədir.

*İsmayıl HACIYEV*

# MÜQƏDDİMƏ

Bütün zamanlarda dövlətin quruluşundan asılı olmayaraq onun ictimai qayda-qanunu gözləyən, sabitliyi təmin edən sistemə həmişə ehtiyac olub. Ona görə bir dövlət hakimiyyəti başqa dövlət hakimiyyəti ilə əvəzlənən kimi başqa sistemlərlə yanaşı ilk növbədə özünün hüquq-mühafizə orqanını yaradıb.

28 iyul 1920-ci ildə XI Rus ordusunun Naxçıvana gəlməsi ilə Naxçıvanda Sovet hakimiyyəti elan edilir və İnqilab Komitəsi yaradılır. 10 oktyabr 1920-ci il tarixli İnqilab Komitəsinin qərarı ilə Daxili İşlər şöbəsi təsis edilir. 1924-cü ilin yanvarında Şöbə Komissarlığa çevrilir və milis idarəsinin əsasnaməsinə baxılaraq yenidən təsdiq olunur.

1920-1940-cı illərdə Daxili İşlər Komissarlığı və onun yerli orqanları daxili asayişin qorunmasında, cinayətlərin qarşısının alınmasında, daşnaq ermənilərin Naxçıvan bölgəsindən çıxarılmasında, İran kürdlərinə və xaricdən gələn quldur dəstələrə və banditizmə qarşı mübarizədə böyük xidməti olmuş və onlarla milis işçiləri bu mübarizədə həlak olmuşdur.

30-cu illərin əvvəllərindən başlayaraq Şərur rayonunun Yaycı, Dəvəölən, Şahbuz rayonunun Keçili, Külüs, Sələsüz, Qışlaq, Kolanı, Əbrəqunus (indiki Culfa) rayonunun Milax, Ərəfsə və sair kəndlərdə mövcud dövrlə əlaqədar baş qaldırmış qolçomaq üsyanlarının yatırılması və banditizmin ləğv edilməsində milis işçilərinin böyük xidmətləri olmuşdur. Onu da deyək ki, bu mübarizə çox da asan olmamışdır, çoxlu itkilər verilmişdir.

1930-cu illərdə banditizmə qarşı mübarizədə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarının müavini və Baş Milis İdarəsinin rəisi Abbas Qasımov, milis işçilərindən Aban Quliyev, Qurban Qurbanov, çekanın əməkdaşlarından Kəlbalı Eynullayev, Yusif Mustafayev və başqaları həlak olmuşdur.

30-cu illər təkcə banditizmin ləğv edilməsi ilə bitmir. Bu illərdə Azərbaycanın hər yerində olduğu kimi Naxçıvan Muxtar Respublikasında da yüzlərlə günahsız insan represiyanın qurbanı olmuşdur.

1941-ci ilin aprel ayına kimi Naxçıvan Xalq Daxili İşlər Komissarlığı nəzdində fəaliyyət göstərən milli təhlükəsizlik şöbəsi ayrılaraq Komissarlığa çevrilmişdir.

Böyük Vətən Müharibəsi illərində də milis işçilərinin alman-faşist işğalçılarına qarşı apardıqları mübarizənin şanlı tarixi vardır. Həmin illərdə Azərbaycandan, eləcə də Naxçıvan Muxtar Respublikasından yüzlərlə milis işçisi cəbhələrə getmişdir. Cəbhələrdən qayıtmayanlar da oldu. Vətəni, xalqı, öz ailəsi üçün canını qurban verdilər.

Müharibə Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına olduqca ziyan vurmuşdur. Odur ki, müharibədən sonra Azərbaycanın bütün bölgələrinin, eləcə də Naxçıvan Muxtar Respublikasının zəhmətkeşləri siyasi fəallıq və əmək coşğunluğu ilə bərpa və quruculuq işlərinə başlamışdılar. Təbiidir ki, müharibənin tüğyan etdiyi bir ölkədə qəsbkarlıq, soyğunçuluq, dövlət əmlakını oğurlama və sair cinayət halları baş verirdi. Bütün bunlara qarşı mübarizədə milis orqanlarının üzərinə ciddi məsuliyyət düşürdü.

1946-cı ilin martında Naxçıvan Muxtar Respublikasında Daxili İşlər Nazirliyi təsis olunur. 16 il sonra, 22 fevral 1962-ci ildə isə DİN Asayişin Mühafizə Nazirliyi adlandırılır. Amma bu çox çəkmir, 60-cı illərin sonlarında DİN yenidən bərpa olunur.

1 noyabr 1950-ci il tarixdə SSRİ Ali Soveti DİN əməkdaşlarının təltifi üçün «Asayişi mühafizədə əla xidmətə görə» medalı, 23 dekabr 1958-ci ildə «Milis əlaçısı» döş nişanı təsis etdi.

Sonrakı illərdə daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı bir sıra mühüm qərarlar qəbul edilmişdir. Hələ 1969-cu il Azərbaycan KP MK-nın avqust plenumunda qəbul edilmiş qərar respublikamızın milis əməkdaşlarının fəaliyyətində baş vermiş nöqsanların aradan qaldırılmasına, onların işinin yaxşılaşdırılmasına, mühüm tədbirlərin həyata keçirilməsinə təkan vermişdir.

Azərbaycan KP MK-nın 1982-ci il oktyabr plenumunda qəbul edilmiş qərarla hüquq-mühafizə orqanları qarşısına aşağıdakı tələblər qoyulmuşdu: işdə süründürməçiliyə son qoyulmalı, cinayətin başvermə səbəbləri və onun zəmini aşkar edilməli, onlar aradan qaldırılmalıdır.

Bu plenumda Azərbaycan KP MK-nın birinci katibi H.Əliyev çıxış etmiş, hüquq-mühafizə orqanlarının fəaliyyətində olan nöqsanları çox ciddi şəkildə tənqid etmişdir. H.Əliyev çıxışının bir yerində belə deyirdi: «Cinayətkarlığa qarşı səmərəli mübarizədə hüquq-mühafizə orqanları kadrlarının seçilməsinin və yerləşdirilməsinin son dərəcə böyük əhəmiyyəti vardır».

70-80-ci illərdə Naxçıvan Muxtar Respublikasında narkomaniya və alkoqolizmə qarşı mübarizə daxili işlər orqanlarının ön planda duran sosial profilaktik tədbirlərindən biri və əsası hesab olunurdu. Sərxoşluq, narkomaniya və alkoqolizm sosial təhlükə törətdiyi kimi qanun pozuntularının meydana gəlməsində də əsas rol oynamışdır. Belə ki, ağır cinayətlərin çoxu-ölüm, zorlama, soyğunçuluq, kobud xuliqanlıq məhz sərxoş vəziyyətdə törədilirdi.

Azərbaycan KP MK-nin və Naxçıvan Vilayət Partiya Komitəsinin «Sərxoşluq və alkoqolizmə qarşı mübarizə tədbirlərin gücləndirilməsi haqqında» 25 iyun 1985-ci il tarixli qərarının icrası ilə əlaqədar Naxçıvan MSSR DİN-də tədbirlər planı hazırlanıb icraya yönəldilmişdir. Bu sahədə hüquqi təbliğata daha geniş yol verilmiş, sərxoş halda edilən cinayətlərin istintaqına diqqət daha da artırılmış, cinayətin baş vermə səbəbləri təhlil edilmiş, cinayəti doğuran səbəb və şəraitin aradan qaldırılması üçün təsiredici vasitələrdən geniş istifadə edilmişdir.

Bu illərdə Naxçıvan MR DİN və şəhər, rayon daxili işlər şöbələrinin başlıca vəzifələri əməliyyat profilaktik işi düzgün və səmərəli təşkil etməkdən, baş vermiş cinayətlərin vaxtında açılması idi və cinayətkarların ifşa edilməsinə nail olmaqdan, dövlət əmlakını dağıdanlara, rüşvətxorluq edib başqasının hesabına varlanmaq istəyənləri ifşa etməkdən, sərxoşluq, alkoqolizm, narkomaniyaya qarşı qəti və ciddi mübarizə aparmaqdan ibarət olmuşdur.

Ulu öndərimiz Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının fərmanları ilə Naxçıvan MR DİN-də və onun yerli orqanlarında xidmət edən bir qrup polis əməkdaşının əməyi yüksək qiymətləndirilmişdir. Dörd nəfər polis əməkdaşı «Azərbaycan bayrağı» ordeni, 20 nəfərə yaxın

"İgidliyə görə", 10 nəfərdən çox "Vətən uğrunda", 421 nəfər Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əmri ilə «DİO qüsursuz xidmətlərinə görə» medalları ilə təltif olunmuşdur.

Bütövlükdə daxili işlər orqanları üzrə 727 nəfər mükafatlandırılmışdır.

Prezidentimizin bu humanist qayğısı polis əməkdaşları arasında böyük ruh yüksəkliyi oyatmış, əməklərinə verilən bu qiymət onları bir daha cinayətkarlığa qarşı qəti mübarizə aparmağa səfərbər etmişdir.

Ulu öndərimiz Heydər Əliyev cənablarının 1993-cü il sentyabr ayının 20-də DİN-də və 29 aprel 1994-cü ildə Prezident Aparatında DİN-in rəhbər işçilərinin iştirakı ilə keçirdiyi müşavirədəki çıxışları son illərdə polisin fəaliyyətində böyük rol oynamış, həmin çıxışlar polis əməkdaşları üçün həyati dərs, məramnamə və proqram olmuşdur.

1992-ci ilin 6 iyunda milisin adı dəyişdirilərək polis adlandırılmışdır. Yəni 72 ildən sonra polis adı yenidən özünə qaytarılmışdır.

Təkcə Naxçıvan bölgəsində topraqlarımızın erməni işğalçılarından azad edilməsi uğrunda 16 nəfər polis əməkdaşı şəhid, 35 nəfər əlil olmuş və 10 nəfər əməkdaş isə yaralanmışdır.

Dövlətçiliyimiz və xalqımız uğrunda vuruşan, istər torpaqlarımızın mənfur erməni tapdağından azad olunmasında, istərsə də cinayətkarlığa qarşı mübarizədə şücaətlər göstərən həmin oğulların qəhrəmanlıqları ürəklərə və Azərbaycan tarixinin qızıl səhifələrinə yazılmış, adları əbədiləşdirilmiş (məktəblər, küçələr, xiyabanlar, və s.) barələrində kitablar yazılmış, büstləri, heykəlləri ucaldılmışdır.

Bu gün Azərbaycanda, eləcə də Naxçıvanda mövcud olan sabitlik, insanların təhlükəsizliyi, dövlətçiliyin möhkəm olması ilk növbədə polis orqanlarının xidmətidir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev demişdir: «Hər bir ölkədə polis orqanlarının çox böyük əhəmiyyəti var. İlk növbədə cinayətkarlığa qarşı mübarizə daha da gücləndirilməlidir. Bu sahədə böyük uğurlar var. Azərbaycanda krimenogen vəziyyət bütün MDB məkanında və hətta geniş mənada bölgədə ən müsbətdir. Biz bunu həm statistik göstəricilərdə, ey-

ni zamanda, gündəlik həyatda görürük. AzərbayCanda insanlar rahat yaşayırlar. Azərbaycanda sabitlik var, ictimai təhlükəsizlik var. İnsanlar günün istənilən vaxtında – gündüz, günorta, gecə rahat gəzirlər, dincəlirlər. Yəni bütün bunlar Azərbaycanın reallıqlarıdır. Biz bütün bunları əldə etmişik. Ulu öndər Heydər Əliyevin siyasəti nəticəsində, onun Azərbaycana xidmətləri nəticəsində biz bu gün bunu yaşayırıq və Azərbaycanı, müstəqil dövlətimizi daha da gücləndiririk».

Daxili işlər orqanlarının xidməti sayəsində kriminogen durum tam olaraq nəzarətdədir. Daxili işlər orqanlarının roLunun yüksək qiymətləndirilməsi hər birimizin qəlbini qürur və iftixar hissi ilə doldurur. «Xalq qəzetində dərc olunan bir yazıda deyilir: "Təbii ki, bu müsbət rəylər faktlara, rəqəmlərə, günümüzün reallıqlarına, dayanıqlı sabitliyə, cinayətkarlığa qarşı peşəkar mübarizəyə, insan və vətəndaş hüququ və azadlıqlarının təminatlı müdafiəsi sahəsində qazanılmış uğurlara əsaslanır. Yuxarıda qeyd etdiyimiz kimi, müstəqilliyimizin ilk illərində Azərbaycan kriminogen vəziyyətə görə keçmiş sovet respublikaları arasında ən ağır durumda olan ölkə idisə, bu gün (nəinki bu gün, neçə illərdir belədir) sabitliyə, cinayətkarlığa qarşı mübarizəyə görə ön sıradadır. Bu da təbii ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun və bu kursun Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir». (M.Səfərov. Azərbaycan polisi dövlətçiliyin, qanunçuluğun, insan hüquqlarının keşiyində. «Xalq qəzeti», 29 avqust 2007).

Tarixi nailiyyətimiz, iftixarımız olan milli dövlətçiliyimizin keşiyində sədaqətli dayanan Azərbaycan polisi, onun tərkib hissəsi olan Naxçıvan polisi ötən hər günü tarixin yaddaşına qızılı xətlə yazır, öz şöhrət salnaməsini daha da zənginləşdirir.

# I FƏSİL

## NAXÇIVAN POLİSİ SOVET HAKİMİYYƏTİNİN İLK İLLƏRİNDƏ (1920-1940-ci illər)

28 iyul 1920-ci ildə XI rus ordusunun Naxçıvana gəlməsi ilə Naxçıvanda Sovet hakimiyyəti elan edilir. İnqilab Komitəsi ilk gündən başlayaraq keçirdiyi iclas və yığıncaqlarında yeni yaranmış dövlətin möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün bir sıra təxirə salınmaz qərarlar qəbul edir.

Naxçıvan İnqilab Komitəsinin 10 oktyabr 1920-ci il tarixli qərarı ilə İnqilab Komitəsinin nəzdində bir neçə şöbələrlə yanaşı, Daxili İşlər şöbəsi də yaradılır (1).

İnqilab Komitəsi öz şöbələrinə daxili asayişin qorunması, cinayətlərin qarşısının alınması, daşnak ermənilərinin qəzanın işğal etdikləri ərazilərindən çıxarılması, dövlət sərhəddinin mühafizə edilməsi, torpaqların, meşələrin, yeraltı sərvətlərin hesaba alınması, aptek və xəstəxanaların təşkil olunması, yeni məktəblərin, savad kurslarının açılması və digər tədbirlərin həyata keçirilməsini tapşırır.

Daxili İşlər şöbəsi yarandığı gündən onun yarımşöbələri- ümumi məlumat, təlimat və milis (polis adı dəyişilərək fəhlə-kəndli milisi adlandırılmışdır-F.C.) şöbələrindən ibarət idi. İnqilab Komitəsinin qərarı ilə ümumi məlumat-təlimat şöbəsinə rəis Mirzəbağır Əliyev, milis (polis) şöbəsinə isə Murtuz Hacıyev təyin edilir (2). Milis şöbəsinin rəisi M.Hacıyevdən tələb edilir ki, Naxçıvan zəhmətkeşlərinin asayişini qorumaq, dövlət və şəxsi əmlakı oğurlayıb talan edən bandalara qarşı və ölkədə əminamanlığı bərpa etmək məqsədi ilə Naxçıvanın qəza və dairələrində milis şöbələrini təşkil etsin.

Naxçıvan İnqilab Komitəsi milisin (polisin) şəxsi heyətinin təşkilatı cəhətcə möhkəmləndirilməsinə, onun daha da təkmilləşdirilməsinə daimi xüsusi diqqət yetirir. Fəhlə-kəndli milisinin 1920-ci ildəki əsasnaməsində

1. Nax. MR DA. f.63. s.1. iş.1. v.9-10.
2. Yenə orada. v.10.

deyilir: «Fəhlə-kəndli milisinə necə bir silahlanmış icraedici orqan kimi belə əhəmiyyətli ad verilir. O, hər cür hüquq və vəzifəyə ixtiyarlı olmaqla xüsusi təyinatın silahlı hissəsi adlanır» (1).

Az vaxt içərisində 1920-1921-ci illərdə Naxçıvan qəzasında (11 noyabr 1920-ci il), Şərur qəzasında (11 dekabr 1920-ci il), Ordubadda (noyabr 1920-ci il), həmçinin Tumbul, Cəhri, Parağa, Nərimanabad, Culfa, Baş Noraşen, Şahbuz, Əbrəqunus və Qıvraq dairə icraiyyə komitələri nəzdində milis (polis) şöbələri təşkil edilir (2).

Naxçıvan qəza Milis İdarəsinə rəis Salman Əbilov (sonralar baş Milis İdarəsinə rəis təyin edilmişdir-F.C.), Şərura rəis H. Cabbarov, Ordubada rəis M.Sarmazbəyov, Culfa dairəsinə rəis Yusif Nadirxanov, Əbrəqunus dairəsinə rəis A.Qasımov, Şahbuz dairəsinə İsmayıl İsmayılov, Tumbul dairəsinə rəis Həsən Qasımov, Dəmiryol milisinə Nasrulla Şahtaxtınski, Cəhri dairəsinə Mirzəli Tarquliyev rəis təyin edirlər (3).

17 noyabr 1920-ci ildə İnqilab Komitəsi nəzdində olan Daxili İşlər şöbəsi keçirdiyi iclasda Naxçıvan və Ordubad şəhər milis (polis) şöbələrinin ştat vahidlərini müzakirə edərək Naxçıvan şəhərində 37 nəfər, bunlardan 1 rəis və 1 rəis müavini, 2 baş milis və 33 kiçik milis işçisi və Ordubad şəhər milis şöbəsinin ştat vahidini 17 nəfər olmaqla 1 rəis, 2 baş milis və 14 kiçik milis işçisi ilə təsdiq etmişdir (4).

Naxçıvanda Sovet hakimiyyəti qurulduğu günlərdə ölkənin vəziyyəti olduqca ağır idi. Ermənilərin, onların havadarlarının əli ilə müharibə meydanına çevrilmiş Naxçıvan ölkəsinin kəndləri dağıdılmış, əhalisi var-yoxdan çıxarılmış, minlərlə adam evsiz qalmışdır. Zəngəzurdan, Dərələyəzdən, Vedibasardan, İrandan və s. yerlərdən Naxçıvana gəlmiş minlərlə qaçqın bu vəziyyəti daha da ağırlaşdırmışdı. Qaçqınları nəinki ərzaqla, hətta yaşayış mənzilləri ilə təmin etmək lazım idi.

---

1. «Бессменная вахта», Алма-ата, Газахыстан. 1986. с.4.
2. Nax. MR DA. f.63. s.1. iş.4. v.16.
3. Yenə orada. v.1-8.
4. Yenə orada. v.13-14.

Naxçıvan İnqilab Komitəsi Daxili İşlər şöbəsi ilə birlikdə bir sıra təxirəsalınmaz vəzifələrin həyata keçirilməsinə başlayır. Qulluqçulara natura ilə əmək haqqı vermək, o vaxt yeganə gəlir mənbəyi olan duz mədənində işləri almaq, xalq maarifini və səhiyyə işlərini, ərzaq məhsullarının respublikadan kənara daşınması üzərində nəzarət qoymaq, qaydaya salmaq, qaydaya salmaq və duzu hesaba qaçqınları yerləşdirmək əhalinin asayişini qorumaq və s. kimi məsələlər İnqilab Komitəsinin iclaslarında müzakirə olunaraq müvafiq qərar qəbul edilmişdir.

Naxçıvanda Sovet hakimiyyəti qurulmasına baxmayaraq Şərur qəzası hələ də daşnak ermənilərinin əlində idi. Şərur qəzasını ermənilərdən azad etmək və ölkədə əmin-amanlıq yaratmaq üçün xalq milisini genişləndirmək və yerli xalqdan ordu təşkil etmək lazım idi. Bu məqsədlə də 1920-ci il noyabr ayının 28-də İnqilab Komtəsi gənclərdən bir alay əsgər təşkil etməyi və xalq milisi yaratmağı qərara alır (1).

Abbasqulu bəy Şadlinskinin komandiri olduğu «Qırmızı tabor» və taborla birlikdə vuruşan xalq milisinin köməyi ilə 1920-ci il dekabr ayının əvvəllərində Şərur qəzası erməni Daşnaklarından azad edilir. Naxçıvan İnqilab Komitəsinin 11 dekabr 1920-ci il tarixli qərarı ilə Şərur İnqilab Komitəsi və Şərur qəza Milis Şöbəsi yaradılır (2).

Şərur qəzası Baş Noraşen, Yengicə və Şahtaxtıdan ibarət üç məntəqəyə bölünür. Qəza İnqilab Komitəsi Baş Noraşendə yerləşir. İnqilab Komitəsinin sədirliyi müvəqqəti olaraq Naxçıvan torpaq şöbəsinin müdiri Abbas Qədimova tapşırılır. Qəza milis şöbəsinə isə Hüseyn Cabbarov təyin edilir (3). Qəza İnqilab Komitəsinə təşkilat işləri üçün 300 min manat pul buraxılır və mərkəzi hökumətin təlimatına uyğun olaraq kəndlərdə İnqilab Komitələrinin və milis şöbələrinin yaradılması tapşırılır (4).

1921-ci il yanvar ayında İnqilab Komitəsinin nəzdində yaranmış Daxili İşlər şöbəsi (bir çox sənədlərdə komissarlıq yazılır

1. Nax. MR DA. f.63. s.1. iş.1. v.11.
2. Yenə orada.
3. Yenə orada. v.5.
4. Yenə orada. v.13-15.

– F.C.) nəzdində Naxçıvan qəza fəhlə-kəndli baş Milis İdarəsi yaradılır. Baş Milis İdarəsinin rəisliyinə Salman Əbilov, ona müavin isə Yunus Naxçıvanski təyin edilir (1).

Naxçıvan Ölkə İnqilab Komitəsi 11 aprel 1921-ci il tarixli qərarı ilə Naxçıvan Daxili İşlər Şöbəsinə Ş.Əliyevi Daxili İşlər Komissarı təyin edilir (2). Ş.Əliyev 1921-ci ilin axırlarına kimi bu vəzifədə çalışmışdır.

Ermənilərlə müharibə vaxtı dəfələrlə əldən-ələ keçmiş Şərur qəzasının kəndləri də xarabalıqlara çevrilmiş, minlərlə adam evsiz qalmış və torpaqlar yararsız hala düşmüşdü. Kənd təsərrüfatı Alətləri sıradan çıxmışdı. Dartıcı qüvvə və əkin üçün toxum yox idi. Bu çətinliklərə baxmayaraq yerli camaat həvəslə dinc quruculuq işlərinə başlamışdı. Lakin bəzi qüvvələr, ələlxüsüs Arazın o tayından sərhəddi keçən silahlı İran kürdləri xalqın dinc quruculuğuna mane olur, kəndləri talayır, yerli xalqı soyur, mal-qaranı qovub aparırdılar. Ucqar kəndlərdə vətəndaşların, o cümlədən milis işçilərinin həyatına suiqəsd təşkil edirdilər. 1921-ci ilin mart ayında Ordubad qəzasından Naxçıvan Ölkə İnqilab Komitəsinə və Daxili İşlər Şöbəsinə yazılan məktubda Dırnıs kənd sovetinin sədri Əziz Bədəlxanovun qolçomaqlar tərəfindən öldürüldüyünü bildirərək tədbir görməsini xahiş edirdilər (3).

Bundan başqa arxiv sənədlərində İran kürd quldur dəstələrinin Şərur qəzasının kəndlərinə soyğunçuluq və talançılıq məqsədi ilə etdikləri silahlı basqınlarına dair məlumatlar vardır. 3 mart 1921-ci ildə Şərur qəzasının Püsyan kənd sakinləri Cəlil Hacı Əkbər oğlu və İsmayıl Hüseyn oğlu Şərur qəza İnqilab Komitəsinə göndərdikləri məktublarında yazırdılar: «3 mart keçən gecə 25 nəfər İran kürdləri silahlı basqın edərək 14 baş iribuynuzlu malqara, 2 ulax, 1 at və 40 baş xırdabuynuzlu heyvan aparmışlar» (4).

Bu sənəd isə Naxçıvan İnqilab Komitəsinin sədri B.Vəlibəyovun adına 7 mart 1921-ci ildə Şərur qəza İnqilab Komitəsinin

---

1. Nax. MR DA. f. 314. s.5. iş.28. v.38.
2. Yenə orada. f.63. s.1. iş.1. v.39-40.
3. Yenə orada. v.13-16.
4. Yenə orada. iş.17. v.12.

sədr əvəzi M.Q.Şahtaxtınski tərəfindən vurulan teleqramdır. Teleqramda yazılır: «Quldurluq və talançılıq İran kürdləri tərəfindən hər gün çoxalır. Qəza milisinin silahının çatışmaması üzündən bu talançılığın qarşısını almağa imkan yoxdur. Kifayət qədər milis nəfərinin ayrılmasına və və silah buraxılmasına sərəncam verməyinizi xahiş edirik» (1).

Azğınlaşmış İran kürd quldur dəstələrinin qarşısını almaq üçün xalq milisini gücləndirmək lazım idi. Bu məqsədlə Naxçıvan İnqilab Komitəsi 12 mart 1921-ci il tarixdə keçirdiyi iclasda Şərur qəza milisinə silah, o cümlədən süvari ehtiyat hissələrindən milis nəfərləri göndərilməsi haqqında məsələ müzakirə edərək qərar qəbul edir. Bununla əlaqədar Naxçıvan İnqilab Komitəsi 14 aprel 1921-ci ildə Naxçıvan ölkə partiya komitəsinə yazırdı: «Son vaxtlar əsasən İran kürdlərindən ibarət olan quldur dəstələri tez-tez Şərur qəzasına keçərək yerli əhalini soyur, mal-qaranı aparırlar. Bu hal hər gün baş verir. Hətta elə gün olur ki, bir gündə bir neçə dəfə təkrar olur. Belə hadisələrin qarşısını almaq mümkün deyil. Ona görə ki, onlarla mübarizə aparmaq üçün silah çatışmır. Bu vəziyyət eyni zamanda əmək adamlarına imkan vermir ki, tarla işləri ilə məşğul olsun. Naxçıvan ölkə hərbi komissarlığı tərəfindən Şərur Rayon Partiya Komitəsinə 30 silah, patronla birlikdə buraxılmışdır ki, orada kommunist dəstəsi yaradılsın. Məlumata görə kommunist dəstəsi bu günə qədər yaradılmayıb. Silah isə təşkilatçı Əhməd Şüabinin evində istifadəsizdir. Nəzərə alaq ki, Naxçıvan hökumətinin sərəncamında artıq silah olmadığından Şərur milisini silahlandıra bilmirik. Buna görə xahiş olunur ki, Şərurda kommunist dəstəsi yaratmaq üçün buraxılmış 30 silah patronla birlikdə milisləri silahlandırmaq üçün müvəqqəti istifadə məqsədilə Şərur qəza İnqilab Komitəsinin sərəncamına verilsin» (2).

Xalq milisi silahla təmin edilir. İran kürdləri dəfələrlə döyüş meydanında bir neçə nəfər itirdikdən sonra öz əməllərindən çəkinməyə məcbur olurlar. Şərur qəza İnqilab Komitəsi Naxçıvan Ölkə Hərbi Komissarlığına göndərdiyi məktubda yazır: «İrandan 20 nəfər kürd sərhəddi keçib kəndlərə hücum edərkən kürd öldürüldü,

1. Nax. MR DA. f.63. s.1. iş.1. v.16.
2. Yenə orada. iş.17. v.30.

qalanlar geri çəkilməyə məcbur oldular. Bir milis nəfəri yaRalanmışdır» (1).

Naxçıvan şəhər Milis İdarəsinin sənədlərindən məlum olur ki, 1921-ci ilin təkcə mart ayında İran kürd bandaları tərəfindən oğurluğa görə 28 protokol, dalaşmaya görə 7 protokol, təhqir etmək və öz həddini aşmalarına görə 2 protokol, sərxoşluğa görə 3 protokol, qaçaqmal və xarici valyuta alverinə görə 8 protokol tərtib edilmiş və xarici valyuta alverinə görə vətənDaşlardan 775 manat 50 qəpik cərimə olunaraq Xalq Daxili İşlər Komissarlığının kassasına təhvil verilmişdir (2).

Naxçıvan Daxili İşlər Komissarlığı öz kollegiya iclasında Naxçıvan şəhər Milis İdarəsinin verdiyi bu məlumatı müzakirə edərək gələcəkdə bu kimi cinayətlərin qarşısının alınması haqda qərar qəbul etmiş və milis şöbələrinə lazımı göstərişlər verilMişdir.

Məhz elə o dövrlərdə Naxçıvan milisinin fəaliyyətini genişləndirmək məqsədi ilə xüsusi təlimat verilmişdir. Milis əməkDaşları bu təlimatı əldə rəhbər tutaraq ölkədə asayişin bərpası naminə, qaçaqmalçılığa, quldurluğa və hər cür neqativ hallara qarşı kəskin mübarizə aparır. Əminamanlıq xatirinə əllərindən gələni əsrgəmirdilər. Bu təlimatı olduğu kimi siz oxucuların da nəzərinə çatdırmağı məqsədəuyğun hesab edirik:

## Naxçıvan ölkəsində həbs və axtarış aparmaq hüququ haqqında təlimat

1. Cinayətkar caniləri həbs etmək hüququ ölkə, əyalət və sahə inqilab komitələrinə, əyalət, şəhər və sahə milisinə, habelə öz idarələrində milis səlahiyyətlərini yerinə yetirən vəzifəli şəxslərə və xalq ədliyyə komissarlığına verilir.

Qeyd: Xalq məhkəmələrinin və tribunalların bu sahədəki hüququ xüsusi göstərişlə müəyyən edilir.

2. Göstərilən idarələr və şəxslər cinayət əlamətləri və əməlləri olan hadisələr haqqında alınmış məlumatı təxirə salmadan, bir sut-

1. Nax. MR DA. f.63. s.1. iş.1. v.44.
2. Nax. MR DA. f.235. s.1. iş.2. v.2.

kadan gec olmayaraq aidiyyatına çatdırmalı və bu hadisə haqqında əldə edilmiş əlavə məlumatlar da həmin ünvana göndərilməlidir.

3. Əgər müəyyən cinayət əməlinə görə müqəssir həbsə alınıbsa onun həbsə alınması barədə qərar həbs yerinə, Ədliyyə Xalq Komissarlığına, habelə xalq hakiminə, tribunaya və digər aidiyyatı olan yerlərə bir sutkadan gec olmayaraq göndərilir.

4. Kiçik xidməti qəbahətlərə görə qulluqçu intizamı qaydasında müvafiq komissarların və onlara bərabər olan vəzifəli şəxslərin qərarı ilə həbsə alınırlar.

Qeyd: Bu cəzanın müddəti 7 sutkadan artıq olmamalıdır.

5. Şübhəli şəxslər istintaqdan və məhkəmədən yayındıqda onların bu hərəkətlərinin qarşısını almaq üçün tədbirlər, əgər onların törətdikləri əməllər həbs olunmaqdan aşağı cəza ilə cəzalandırıla bidməzsə aşağıdakı hallarla tədbiq edilir:

a) Şübhəli şəxs cinayətkar əməl törədərkən, yaxud cinayət əməlini törətdikən dərhal sonra.

113353

b) Əgər zərərçəkmiş və yaxud da cinayətin şahidləri şübhəli şəxsi göstərdikdə.

v) Əgər şübhəli şəxslə və yaxud onun yaşadığı evdə cinayət izi tapılıbsa.

q) Əgər cinayətin törədilməsinin sübutuna aid olan əşyalar şübhəli adama məxsusdursa və və yaxud onda tutulmuşsa.

d) Şübhəli şəxsin daim yaşayış yeri olmadıqda və ya oturaq həyat tərzi keçirmədikdə.

6. Hansı yerlərdə güclü mühafizə tədbiq olunduğu elan edilibsə, orada ölkə inqilab komitəsi onun tərəfindən verilmiş məcburi qərarların yerinə yetirilməsini inzibati qaydada həll edə bilər.

7. Bu kimi hallarda ölkə inqilab komitəsi günahkarları inzibati qaydada 3 ay müddətindən artıq olmayaraq həbs edə bilər.

8. Ayrı-ayrı işlərin inqilabi tribunal tərəfindən baxılmağa verilməsi ölkə inqilab komitəsindən asılıdır. Əgər o ictimai qayda-qanun və asayişin qorunması üçün bunu zəruri hesab edirsə o, günahkar şəxsin işinə müharibə dövrünün qanunları əsasında tribunalda qapalı surətdə və yaxud açıq şəkildə baxılmasına qərar verə bilər.

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

Evlərdə axtarış aparılması və günahkarların tutulması xalq hakimləri, müstəntiqlər tərəfindən, onlar olmayan yerlərdə isə milis rəisi və digər vəzifəli şəxslər tərəfindən əhatə etdikləri idarə və təşkilatlarda aşağıdakı hallarda həyata keçirilir:

a) Evlərdə və başqa yaşayış yerlərində axtarış aparmaq və həbslər keçirmək o zaman həyata keçirilə bilər ki, həmin yerlə müqəssirin və yaxud cinayət əşyalarının, habelə iş aydınlaşdırmaq üçün əşyayi-dəlillərin olması haqqında əsaslı şübhələr var.

b) Evlərdə axtarış və həbsetmə ev sahibinin və şahidlərin iştirakı ilə həyata keçirilir. Əgər ev sahibi yoxdursa və evlidirsə onun arvadının iştirakı ilə və yaxud bu evdə yaşayan və yaşca böyük olan şəxsin iştirakı ilə həyata keçirilir.

v) Axtarış aparılarkən və həbs tədbiri həyata keçirilərkən bu işdə iştirak edənlərin hamısı həmin məcburi tədbirlərin həyata keçirilməsi zamanı orada ola bilərlər. Kənar şəxslər isə ev SAhibinin razılığı olmadan heç bir vəclə evə daxil ola bilməzlər.

q) Axtarış və həbsetmə tədbiri bir qayda olaraq gündüz vaxtları keçirilir. Lakin ciddi zərurət olarsa bu işi gecə vaxtı da keçirmək olar. Bu zaman bu fövqaladə tədbirin keçirilməsinin səbəbləri protokolda göstərilməlidir.

d) Axtarış aparılarkən ev sahibinə və şahidlərə hansı iş üzrə bu tədbirin həyata keçirilməsi bildirilməlidir.

e) Şübhəli şəxslərin kağızlarında (sənədlərində) axtarış aparılarkən son dərəcə ehtiyatlı olmaq lazımdır ki, istintaqa aid olmayan sənədlər haqqında kənar məlumat yayılmasın.

ə) Axtarış zamanı zəruri kağızları götürüb işə əlavə etmək lazımdır ki, bunlar da axtarışda iştirak edən şahidlərə və başqalarına göstərilir.

j) İstər vəzifəli, istərsə də sadə mülkü şəxslər işə aid olan yazılı sübutları və əşyayi dəlilləri verməkdən imtina edə bilməzlər.

Hüquq Komissarı: Ə. Rüstəmov.

Üzvlər: H. Qazıyev, B. Kəngərlinski. 01. X. 1921-ci il (1).

Naxçıvan İnqilab Komitəsi Azərbayjan SSR Daxili İşlər Komissarlığına 20 noyabr 1921-ci ildə göndərdiyi məktubunda

---

1. Nax. MR DA. f.235. s.1. iş.26/99. V.1-3.

göstərir ki, kənd icraiyyə komitələrinin zəifliyi üzündən muxtar ölkədə hərc-mərclik artmış, ayrı-ayrı quldurlar peyda olmuşdur. Quldurlarla mübarizə aparmaq üçün Fövqəladə Üçlük Komissiyası yaranmışdır. Görülmüş tədbirlər nəticəsində quldurlar ləğv edilmiş, sakitlik bərpa edilmişdir.

19 dekabr 1921-ci il tarixdə Naxçıvan İnqilab Komitəsi nəzdində yaranmış Naxçıvan Fövqəladə Üçlük Komissiyası Əsəd Novruzov yoldaşın sədirliyi ilə iclas keçirir. Həmin iclasda gündəlikdə duran bir çox məsələlərlə yanaşı bu məsələlər: («Girovlar haqqında») 8 nəfər İrandan keçmiş kürdün zamına verilməsi haqda, banditizmin iştirakçısı Əli Çavuş haqqında və s. Müzakirə edilərək qərar qəbul edilmişdir.

«Girovlar haqqında» qərar layihəsində yazılır ki, məşhur quldurlar Əsəd və Əhməd bəyin hazırda İranda olduqlarını və artıq Naxçıvan əhalisinə ziyan vurmaq imkanları olmadığını nəzərə alaraq bütün «Girovlara» amnistiya verilsin və onlar dustaqlıqdan azad edilsinlər. Onlar haqqında cinayət işinə xitam verilsin və işlər arxivə verilsin, bu məsələ barədə mətbuatda dərc edilsin.

Banditizmin iştirakçısı Əli Çavuş haqqındakı qərar layihəsində isə göstərilir ki, «Əli Çavuş quldurlar tərəfindən zorla tutulub aparıldığını nəzərə alaraq ona amnistiya verilsin, quldurlarda aşkar edilmiş ev əşyaların Əli Çavuşa məxsus olduğunu nəzərə alaraq həmin əşyalar ona qaytarılsın» (1).

İran kürdlərinə və xaricdən gələn quldur dəstələrinə qarşı mübarizədə Şərur qəza milis rəisi İbrahim Həsənzadə 1922-ci ildə bir dəstə partiya sovet işçisi ilə birlikdə Naxçıvana göndərilir. İ.Həsənzadənin milis aparatlarındakı zəngin təcrübəsi və bacarıqlı işçi olmasını nəzərə alaraq o Şərur qəzasına milis rəisi təyin olunur.

Xaricdən göndərilən quldur dəstələrinə qarşı mübarizə məsələsində 26 yaşlı İbrahim Həsənzadənin qarşısında çox ciddi və mürəkkəb əməliyyat işi dururdu. Çünki quldur dəstələri müxtəlif taktiki əməliyyatlar işlədirdilər. Xaricdən göndərilən quldur dəstəsi Şərur qəzasının müxtəlif yaşayış məntəqələrindən keçib mal-qara aparır, yolçuları qarət edir və Bağırsaqdərədə, Şərur

1. Nax. MR DA. f.235. s.1. iş.2. v.2.

da, Əyricə yaylağına gedən heyvandarların qabağını kəsib var-yoxlarını əllərindən alıb özlərinə xəsarət yetirirdilər.

İbrahim Həsənzadənin bacarığı, təşkilatçılıq səyi ilə yerli kommunist, komsomolçu və sovet işçilərindən ibarət mübarizə dəstələri yaradılır.

Ermənistan SSR-nin Vedi-Qəmərli rayonlarından gələn milis dəstəsi ilə Şərur qəzasının milis zərbə dəstəsi quldur dəstəsini mühasirəyə alır, qızğın çarpışma başlanır. Çarpışma ciddi xarakter alır, iki tərəfdən sıxışdırılan banda mühasirədən çıxmaq üçün quldurcasına döyüşə girir və sərhəddən keçməyə çalışırlar. Bu zaman düşmənə aman verməyən İ.Həsənzadə döyüşçüləri ayağa qaldırıb onları Paradaşdan çıxarmaq istəyir. Dəstənin bir qismi öz mövqeyindən çıxaraq bir naxır malı sərhəddən keçirmək istəyir. Şərurun zərbə dəstəsi bandanı naxırdan uzaqlaşdırır. Ağır vəziyyətə düşən quldurlar canlarını qurtarmaq üçün arası kəsilmədən gülləni hər tərəfə səpələyir. Həsənzadə düşmən gülləsindən yaralanandan çox keçməmiş həlak olur. Bunu görən döyüşçülər mərdliklə vuruşur, quldur dəstə sərhəddən uzaqlaşdırılır və mal-qara geri alınır.

İgid milis rəisi İbrahim Həsənzadənin quldur dəstə ilə vuruşmada həlak olması barədə Baş Noraşen Nahiyyə İcraiyyə Komitəsinin sədri Rəcəbəli ölkə İcraiyyə Komitəsinə təqdim etdiyi məlumatda yazır: «Sabiq milis rəisi İ.Həsənzadə bir milis nəfəri-lə quldur dəstə ilə vuruşmada öldürülmüşdür» (1).

Şərur qəza partiya və sovet təşkilatlarının məsləhəti ilə cəsur milis rəisi İbrahim Həsənzadə böyük matəm mitinqi ilə hökumət idarəsinin həyətində (indiki 8 illik) dəfn edilir. Mitinqdə qəza Partiya Komitəsinin katibi Ələkbər Novruzov, qəza Komsomol Komitəsinin katibi Ələsgər Qasımov, milis işçisi Cəfərqulu Süleymanov, qəza Yerli Meşə Həmkarlar İttifaqının sədri Zülfüqar Rzayev atəşin nitq söyləyirlər.

Sərhəd pozan quldurlara qarşı əməliyyatın iştirakçılarından Qəşəm və Bəhlul Səfərovlar (Şərur rayonunun Dizə kəndi) və başqaları xatirələrində söyləyirdilər ki, İbrahim Həsənzadənin

1. Nax. MR DA. f.40. s.1. iş.24,1. v.9.

vurulmasını eşidən Yengicə Nahiyyə Komitəsinin sədri Mirməhəmməd Seyidov 2-3 nəfər milislə Güznüt kəndindən çıxıb Bağırsaqdərə ilə gələrkən Daşlıqda quldur dəstəsinin qalıqları tərəfindən qəflətən atəşə tutulur. M.Seyidov özünü itirmədən atını düz atəş açılan tərəfə sürür. Bu zaman düşmən gülləsindən açılan atəş onun döşündən keçir. Bununla da ikinci bədbəxtlik baş verir. Beləliklə Mirməhəmməd Seyidov da müqəddəs sərhədlərimizin qorunmasında həlak olur.

İlk illərdə xalqına sədaqətlə xidmət edən, etimadı doğruldan komissar, rəis və milis işçiləri ilə yanaşı, onların arasında arzu olunmayan rəis və milis işçiləri də olmuşdur. Məhz bu səbəbdən 29 mart 1922-ci il tarixdə Daxili İşlər Komissarlığının qərarı ilə yaradılmış «milislərin təmizlənməsi komissiyası» muxtar respublika üzrə 133 milisin şəxsi işinə baxmış və bundan 49 nəfər milis işçisini milis sistemindən uzaqlaşdırmışdı (1). Baxmayaraq ki, bunların bəziləri rüşvətxorluğa, silah satmaqlarına və öz vəzifəsini layiqincə yerinə yetirmədiklərinə görə sistemdən çıxarılıblar.

1922-ci il may ayının 9-da Naxçıvan SSR (9 fevral 1924-cü ilə kimi Nax. SSR adlanıb-F.C.) Xalq Komissarları Soveti respublikada baş verə biləcək cinayətlərin qarşısını almaq və baş vermiş cinayətlərin üstünün vaxtında açılması məqsədi ilə Naxçıvan baş Milis İdarəsinin nəzdində cinayət axtarış şöbəsinin yaradılması haqqında qərar qəbul edilmişdir. Yenicə yaradılmış cinayət axtarış şöbəsinin apardıqları bir sıra əməliyyat tədbirləri nəticəsində açılmayan oğurluq və digər cinayət işləri qısa müddətə açılaraq cinayətkarlar ifşa edilmişdilər.

1922-ci ilin yeni ştat smetası üzrə Naxçıvan Daxili İşlər Şöbəsində (Komissarlığında) 13 nəfər ştat vahidi, Naxçıvan qəza Milis İdarəsində 15 nəfər, Tumbul dairəsində 13 nəfər, Cəhri dairəsində 11 nəfər, Əbrəqunus dairəsində 9 nəfər, Culfa dairəsində 10 nəfər, Naxçıvan şəhər Milis şöbəsində 32 nəfər, Ordubad şəhərində 22 nəfər, Şərur qəza Milis İdarəsində 16 nəfər, Şərur 1-ci məntəqəsində (Baş Noraşen) 8 nəfər, 2-ci məntəqədə (Yengicə) 8 nəfər, 3-cü məntəqədə (Şahtaxtı) 9 nəfər, o cümlə

1. Nax. MR DA. f.235. s.1. iş.18. v.1-3.

dən gözətçi məntəqəsi olan Qazançıda 4 nəfər, Vənənddə 8 nəfər, Çənnəbdə 8 nəfər, Dəstədə 4 nəfər, Sədərək gözətçi məntəqəsində 4 nəfər, Ərəbyeycədə 3 nəfər və Xələc gözətçi məntəqəsində 3 nəfər milis ştatı olmaqla respublika üzrə 225 nəfərdən ibarət ştat vahidi təsdiq edilmişdir (1).

29 dekabr 1922-ci il tarixdə Naxçıvan Daxili İşlər Komisssarlığının 194 №-li əmri ilə Naxçıvan qəza və şəhər Milis İdarələri birləşdirilərək Naxçıvan Milis İdarəsi adlandırılır (2).

1922-1923-cü illərdə ştat vahidi üzrə Naxçıvan baş və şəhər Milis (polis) İdarəsində Həsənqulu Qazıyev (rəis) həm də Daxili İşlər Komissarının müavini, Əkbər Məmmədov, Məmməd Fətulla oğlu, Əhməd Tağı oğlu, İsa Vəzirov, Məmməd İbRahimov, Mahmud Əli oğlu, Əli Tahirov, Qavar Əliyev, Rüstəm Əliyev, Əsəd Həsən oğlu, Novruz Həsən oğlu, Mustafa Əhməd oğlu, Həbib Şirəliyev, Əsgər Sadıqov, Hacı Mirzəliyev, Nəcəf Axundov, Qurban Babayev, Heydərqulu Həsənov, Əhməd Mehdiyev və başqaları çalışmışlar.

Şahbuz rayon dairəsi üzrə İsmayıl İsmayılov (rəis müavini), Bilal Orduxanov (rəis müavini), Vəlixan Kazımov, Bağır Axundov, Abutalıb İsmayıl oğlu, İsa Ağababa oğlu, Abbasəli İsmayılqulu oğlu, Mirzəməmməd M. İsmayıl oğlu, Kərbəlayi Vəli Məşədi ağa oğlu, Həbib Rzayev, Eynalı Axundov, Şahbuz postunda Hüseyn Səfərəli oğlu, Murtuz Novruzov, Vəli Kərbəlayi Hüseyn oğlu və Həşim Hüseynqulu oğlu işləmişlər. Əbrəqunus rayonu üzrə Abbas Qasımov (milis rəisi), Hacıağa Hüseynov (rəis müavini), Bəhlul Cabbar oğlu, Hüseyn Hüseyn oğlu, Əsəd Fətulla oğlu, Əli Kərbəlayi Qurban oğlu, İsa Səfəralı oğlu, Hüseyn Kərbəlayi Məhəmməd oğlu, Hüseyn Kərbəlayi Hüseynqulu oğlu. və b.

Culfa rayonu üzrə Yusif Nadirxanov (milis rəisi), Rəhim İsmayıl oğlu, Mirhəbib Mirbaba oğlu, Miryusif Seyidəli oğlu, Hüseyn Qulaməli oğlu, Qafar Əliyev, Yəhya Məşədiəli oğlu və s.Tumbul dairəsi üzrə Həsən Qasımov «rəis», Muxtar Novruzov (rəis müavini), Cabbar Səfərov, Hüseyn Kərbəlayi Qurban oğlu,

---

1. Nax. MR DA. f.235. s.1. iş.25. v.1-2.
2. Yenə orada. iş.4. v.23.

Bayraməli Kərbəlayi Süleyman oğlu, Fərzəli Kərim oğlu, Bəhmən Şadlinski, İbrahim Səlimov və b.

Şərur qəzası üzrə İbrahim Həsənzadə (rəis), 1923-cü ildən H. Qazıyev (rəis), Şahtaxtınski (rəis müavini), M.İsmayılov, A.Qənizadə, K.Zöhrabov, Xəlil Kazımov, Nəzmi Şərifov, Hüseyn Həsən oğlu və s. 1-ci milis məntəqəsində də Q.Qasımov (rəis), Dadaş Mahmudov, Məmməd İrza oğlu, Əkbər Məmməd oğlu, İmran Əsəd oğlu, 2-ci milis məntəqəsində M.Bağırov (rəis), Rəhimov Cəfər Hüseynəli oğlu, Əli Kərbəlayi Məhəmməd oğlu, Səfər Əhməd oğlu, Həsən İsmayıl oğlu, Həsən Şərifov, 3-cü milis məntəqəsində Firidunbəyov (rəis), A. Kazımbəyov, Miseyib Seyidov, Q. Şahtaxtınski, Məmməd Qəhrəman oğlu, Əziz Paşa oğlu, Hüseyn Əli oğlu və b. işləmişdilər.

Ordubad qəzası üzrə: Qulam Hüseyn Salmanov (rəis), Novruz Əlimərdanov, Cəbrayıl Kərimov, Ramazan Cəfərov, Qədim Möhsümov, Həsən Abdullayev, Əli İbrahimov və başqaları işləmişdir (1).

Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin 18 yanvar 1924-ci il tarixli birinci plenum qərarı ilə Daxili İşlər şöbəsi Komissarlığa çevrilmişdir (2). Komissarlıq tərəfindən Naxçıvan ölkə Fəhlə-kəndli Milis İdarəsinin əsasnaməsinə yenidən baxılaraq təsdiq edilmişdir. Əsasnamədə göstərilmişdi ki, Naxçıvan baş Milis İdarəsi Naxçıvan Daxili İşlər Komissarlığının tərkibində olmaqla müstəqil idarə sayılır. Naxçıvan ölkəsində olan bütün milis şöbələri baş Milis İdarəsinin tabeliyində olur. Əsasnamənin başqa maddələrində göstərilir ki, baş Milis İdarəsi respublikada milis xətti ilə keçirilən tədbirlərin təşkilatçısıdır. Onun işinə yalnız Daxili İşlər Komissarlığı nəzarət edə bilər (3).

Bu əsasnamə ilə baş Milis İdarəsinin 2 şöbəsi: inzibati-sıravi, cinayət axtarış və siyasi şöbələr mövcud olmuşdur.

Naxçıvan MSSR Daxili İşlər Komisarlığının 13 sentyabr 1925-ci il tarixli əmri ilə Şərur qəzasında binditizmin ləğv edilməsində fəal iştirak etdiklərinə, yorulmadan inqilabi qanunların həyata keçirilməsində və ictimai təhlükəsizliyin bərpa olunmAsında fəda-

---

1. Nax. MR DA. f.235. s.2. iş.8. v.16-17.
2. Yenə orada. s.1. iş. 153/27. v.1; f. 40. s.1. iş. 597. v.4.
3. Yenə orada. f. 314. s.5. iş.28. v.51-52.

karlıq göstərdiklərinə görə muxtar respublikanın milis orqanlarında işləyən ehtiyat milis nəfərlərindən İsmayıl İsmayılov, İbRahim Məmməd oğlu, Hüseynqulu Abdullayev, Kərbəlayi Qasım Hüseyn oğlu, Müzəffər İsmayılov, Həsən Qasımov, şəhər milis işçilərindən Xəlil Rzayev, Cabbar Qasımov, Məmmədəli Əliyev, Süleyman Mehdiyevə və başqalarına təşəkkür elan etməklə, hərəsinə 5 manat məbləğində pul mükafatı verilmişdir (1).

İrandan keçən kürd quldur dəstələrinə qarşı mübarizədə göstərdiyi şücaətə görə, əvvəllər Baş Noraşen İcra hakimiyyətinin sədr müavini işləmiş və 1926-cı ildən Naxçıvan MSSR Baş Milis İdarəsinin rəisi işləyən Qənbər Qənbərov Naxçıvan MSSR Xalq Komissarları Soveti və Mərkəzi İcraiyyə Komitəsinin 15 sentyabr 1926-cı il tarixli qərarı ilə üstü qızıl hərifl ərlə «Şəxsi igidliyinə görə» sözləri yazılmış gümüş qol saatı ilə mükafatlandırılmış və ona təşəkkür elan edilmişdir (2).

1925-ci il noyabr ayının 11-də Naxçıvanda Fəhlə-kəndli Milisinin yaradılmasının 5-ci ildönümü münasibəti ilə Azərbayjan SSR Daxili İşlər Komissarlığının, Bakı şəhər Milis İdarəsinin, Ordubad rayon milis şöbəsinin, 16-cı hərbi sərhəd dairəsinin və bir çox idarə, müəssisə və təşkilatların Naxçıvan Baş Milis İdarəsinin ünvanına təbrik teleqramlarında Naxçıvan milisinin göstərdiyi qəhrəmanlıq daha parlaq surətdə əks olunurdu.

Bakı şəhər Milis İdarəsinin rəisi M.E.Şəkinski tərəfindən göndərilmiş təbrik teleqramında oxuyuruq: «Azərbaycan milis işçiləri Naxçıvanda Fəhlə-kəndli Milisinin yaranmasının 5-ci ildönümü münasibəti ilə keçirdiyiniz bayram şənliyində özlərini sizinlə hiss edir və Sizə qardaşlıq salamı göndəririk. Şəkinski» (3).

Bu illərdə Daxili İşlər Komissarlığı və Baş Milis İdarəsi milis orqanlarında çalışan milislərin savadlanması sahəsində də tədbirlər görmüşlər. Çünki milis orqanlarında çalışanların demək olar ki, 80%-nin heç ibtidai təhsili belə yox idi. Buna görə DİK və Baş Milis İdarəsi tərəfindən milis işçiləri üçün savad kursları-məktəblər açılır.

---

1. Nax. MR DA. f. 358. s.1. iş.1. v.1.
2. Yenə orada. f. 2. s.2. iş. 22. v.4.
3. Nax. MR DA. f.235. s.1. iş. 26. v.29.

Əgər 1921-1922-ci illərdə savad kurslarına 18 nəfər cəlb edilmişdirsə, 1923-1924-cü illərdə 32 nəfər, 1926-1927-ci illərdə isə 69 nəfər milis işçisi savad kurslarına yazılaraq savadların artırmışlar (1).

İldən-ilə milis kadrların sayı artaraq daha da möhkəmləndirilir. Əgər 1920-ci ildə respublikada 21 nəfər milis işçisi var idisə, 1927-ci ildə bunların sayı 224 nəfərə qaldırılmışdır (2). Bunlardan 29 nəfər partiyaçı, 28 nəfəri isə komsomolçu idi. Milis işçilərinin demək olar ki, 90%-ni kəndli sinfi təşkil edirdi.

Milis işçilərinin fəal mübarizəsi nəticəsində 1926-1927-ci illərdə muxtar respublikaya İran və Türkiyə sərhəddindən keçən kürd quldur silahlı dəstələrinin basqını xeyli azalır. Bunu biz Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığnın inzibati şöbəsinin rəisi işləmiş Antadzenin Daxili İşlər Komissarlığının 1927-ci ildəki fəaliyyəti haqqında hesabat məruzəsindən görürük. Antadze qeyd edirdi: «Məlum edim ki, Naxçıvan MSSR İran və Türkiyə ilə həmsərhəddir. Bizi onlardan Araz çayı ayırır. Mən bunanla bizim ərazinin xarici banditizmlə üz-üzə qallmaq təhlükəsini qeyd etmək istəyirəm. 1920-ci ildən başlayaraq bu günədək xüsusi ilə yaz gələndə göstərilən xarici dövlətlərdən silahlı kürd quldur dəstələri bizim ərazilərə basqınlar edirlər. Onlar köçəri həyat sürərək ancaq soyğunçuluqla məşğul olan bu silahlı quldur dəstələri öz dövlətinə belə tabe olmurlar. Bu quldur dəstələrinə qarşı 20-30 nəfərdən ibarət milis dəstələri yaradılaraq onların qarşısını almağa göndərilir və onlar aylarla həmin rayonlarda olurdular. Kürd quldur dəstələrinin sərhəddi keçmələrini gözləyirlər. Milis işçiləri sayca az olmasına baxmayaraq bu quldur dəstələrinin qarşısını cəsurluqla alırlar.

Əvvəlki illərə nisbətən 1927-ci ildə banditizm halları azalmışdır. İran kürd quldur dəstələri tərəfindən törədilmiş cinayətlərə qarşı əməliyyatlarda atlı və piyada milisindən istifadə edilmişdir. Quldurlarla vuruşmalarda 1927-ci ildə ölüm halları olmamışdır. 1927-ci ilin əvvəlində Baş Noraşen dairəsində 5 nəfərdən ibarət soyğunçular dəstəsi yaranmışdır. Lakin onlar tezliklə tutulub məhkəməyə verilmişdilər (3).

1. Nax. MR DA. f.235. s.1. iş.150. v. 5.
2. Yenə orada. iş.129. v.1-5.
3. Nax. MR DA. f.235. s.1. iş.149. v.1-2.

1920-1927-ci illərdə xaricdən göndərilən və daxildəki qaçaq quldur dəstələrinə qarşı fəal mübarizə aparmış, dincliyin və asayişin qorunmasında mətinlik göstərmiş və hər cür cinayətkar ünsürlərə qarşı mərdliklə vuruşan onlarla milis işçilərinə təşəkkürlər, fəxri fərmanlar, pul və üstü yazılı silah hədiyyələri verilmişdir. Milis işçilərindən Səfərəlı Allahverdiyev, Cabbar Səfərov, Qasım Hüseynov, İbrahim Fərzəliyev, Abdulla Qasımov, Həsənqulu Qazıyev, Rüstəm Əliyev, Qafar Əliyev və başqalarını qeyd etmək olar.

1927-1930-cu illərdə muxtar respublikada təsərrüfat artellərinin yaranması ilə əlaqədar bəy-xan, mülkədarların torpaqları əllərindən alınaraq birləşdirilir, kənd təsərrüfatı artelləri, kolxozlar yaradılmağa başlayır.

SSRİ Xalq Komissarları Sovetinin 2 fevral 1930-cu il tarixli «Mülkədarlıqla mübarizə işinin təşkili və bütün SSR ərazisində kolxozların təşkili» barəsində qərarının bütün maddə, müddəalarını xüsusi səylə və canfəşanlıqla yerinə yetirməyə çalışan yerli partiya və sovet təşkilatları, həmçinin hüquqi orqanların səyi ilə 1930-1932-ci illərdə mülkədar təsərrüfatı xeyli sıxışdırılır. Artıq demək olar ki, 1930-1931-ci illərdə muxtar respublikanın əksər kəndlərində kənd təsərrüfatı artelləri, kolxozlar yaradılmışdır.

Qolçamaq təsərrüfatının məhdudlaşdırılması və onun aradan qaldırılması yerlərdə qolçamaq üsyanlarının baş verməsinə səbəb oldu. Belə ki, Şahbuz rayonunun Keçili, Külüs, Biçənək, Tırkeş, Sələsüz, Aşağı Qışlaq, Şərur rayonunun Dəmirçi, Yengicə, Mahmudkənd, Püsyan, Əbrəqunus, Culfa rayonunun Milax, Ərəfsə və s. kəndlərində üsyanlar baş verir.

Bu üsyanlara əsasən «qolçamaqlar» rəhbərlik edirdi. Ona görə ki, onların torpaqları əllərindən alınmışdır. Məhz bu səbəbdən qolçamaqlar dağlara çəkilərək başlarına öz yaxınlarını toplayaraq quldur dəstələri yaradıb qaçaq kimi yeni yaranmış kolxozlara basqın edir, kolxozların, həmçinin həmin kənd əhalisinin evlərinə od vurub yandırır, yeri düşdükdə dövlət işçiləri ilə bərabər milis işçilərini də öldürmüşlər.

Bu qaçaq hərakatının başında Kəbəlayi Süleyman, Kərbəlayi İsmayıl, Cəfərqulu xanın sərkarı Quşdan, Ərəfsəli Səlim bəy, Milaxlı Kərbəlayi Yəhya, Keçili Məşədi İsmayıl və başqaları dururdu.

Ümumiyyətlə, bunların başlıca mübarizəsi yeni hakimiyyət və kolxoz quruluşuna qarşı olmuşdur.

Naxçıvan MSSR-də baş verən bu üsyan və qaçaqçılıqla əlaqədar olaraq Azərbaycan KQK MK-nın tapşırığı ilə Naxçıvan vilayətinə partiya və milis işçiləri göndərilir. Göndərilənlərin içərisində Bahadur Vəlibəyov, Teymur Əliyev, Eynulla Sulltanov, Məhərrəm Məhərrəmov, Qasım Əliyev, Qəzənfər MuSAbəyov, Y.Mustafayev və başqaları var idi.

1930-cu ilin əvvəllərində Şahbuz rayonunun Keçili, Sələsüz, Külüs və Biçənək kəndlərində «qolçamaqlar» çıxışlar təşkil edib öz ətraflarına böyük yerli dəstələr toplayıblar. Bununla əlaqədar olaraq Naxçıvan MSSR Daxili İşlər Komissarlığı (İKVD) bu çıxışların və quldur dəstələrin qarşısını almaq üçün, kommunistlərdən, komsomolçulardan, keçmiş qırmızı partizanlardan ibarət zərbəçi dəstələr düzəldir. Bu dəstələrin başında Naxçıvan çekasının məsul əməkdaşı Qənbər Qənbərov, baş Milis İdarəsinin rəisi Daxili İşlər Komissarlığının müavini Abbas Qasımov, milis işçilərindən İbrahim Fərzəliyev, Nəcəf Əliyev, Qasım Hüseynov, qırmızı partizanlardan Ələsgər Kərimov, Rzaqulu Abdullayev, respublika prokuroru Vahid Qəhrəmanov, Şərur Rayon Partiya Komitəsinin katibi Lətif Zeynalov, Şərur rayon prokuroru, əvvəllər milis sistemində çalışan Nağı Qəhrəmanov Naxçıvan (indiki Babək) partiya komitəsinin katibi Heydər Novruzov, Bakıdan gələn nümayəndələrdən Qasım Əliyev, Məhərrəm Məhərrəmov, Eynulla Sultanov və başqaları dururdu.

Yuxarıda adlarını çəkdiyimiz yoldaşların başçılığı ilə şəhər və rayon milis şöbələrinin əməkdaşları, könüllü dəstələr və Naxçıvan ərazilərini müdafiə edən hərbiçilərlə birlikdə 30-cu illərin əvvəllərindən başlayaraq Şərur rayonunun Yaycı, Dəvəölən, Şahbuz rayonunun Keçili, Külüs, Sələsüz, Qışlaq, Kolanı, Əbrəqunus rayonunun (1949-cu ilə kimi ayrıca rayon oldu - F.C.) Milax, Ərəfsə və s. kəndlərində mövcud dövrlə əlaqədar baş qaldırmış üsyanların yatırılması və banditizmin ləğv edilməsində böyük xidmətləri olmuşdur. Onu da deyək ki, bu mübarizə çox da asan olmamışdır, çoxlu itkilər verilmişdir.

Xüsusi ilə 1930-cu ilin mart ayında Şahbuz rayonunun Keçili kəndində baş qaldıran qolçamaqlar və onların tabeliyində olan bandalar ilə döyüşlərdə Naxçıvan çekasının məsul əməkdaşı Qənbər Qənbərov, Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarının müavini və Baş Milis İdarəsinin rəisi Abbas Qasımov, milis işçilərindən Aban Quliyev, Qurban Qurbanov, çekanın əməkdaşlarından Kəlbalı Eynullayev, Yusif Mustafayev, QaRabağlar kənd sovetinin sədri Xudayar İsmayılov, Əbrəqunus rayon icraiyyə komitəsinin sədri Fərhad Əliyev, sərhədçilərdən İ.Celeznyak, V.Zaxarov, M.Şumkin, İ.Afanasyev, S.Baxımyanin və başqaları həlak oldular.

Banditizmə qarşı mübarizədə fəal iştirak etmiş mərhum Qasım Tağıyev xatirələrində yazır: «1930-cu il mart ayının 24-də Şahbuz zonasında baş qaldıran qaçaq-quldur dəstələrini məhv etmək üçün bir dəstə milis, kommunist və sərhədçilərlə ora getdik. Keçili kəndində Quşdanın dəstəsi ilə vuruşduq. Qaçaqlardan itki olmasına baxmayaraq biz tərəfdən də ölən və yaralanan oldu. Həlak olanlardan 17 nəfərini şəhər parkında dəfn etdik» (1).

Qırmızı partizan Məhəmmədəli Mehdiyev isə xatirələrində belə yazır: «1930-cu ildə baş Milis İdarəsinin rəisi Abbas Qasımov Keçilidə quldurlar tərəfindən öldürüldükdən sonra vəziyyət mürəkkəbləşdi. Quldurluğun yatırılması üçün milis hissələrinə kömək məqsədi ilə ordu hissələrindən də kömək göndərilmişdir. Keçili ətrafında döyüşlərdə ordu hissələrindən bir neçə nəfər öldürülür. Belə bir vəziyyətdə Azərbaycandan əlavə qoşun hissələri Naxçıvana göndərilir. Bu vaxt qoşun hissələri ilə birlikdə milis hissələri də Şahbuza tərəf hərəkət edirlər.

Qəzənfər Musabəyov yoldaş o vaxt quldurluğun yatırılması üçün Şahbuz rayonuna gəlmişdir. Yerli sovet təşkilatları təbliğat üçün 2 nəfər yoldaş göndərirlər ki, yerli əhalini sakitləşdirsinlər və quldurluğun yatırılması üçün kömək göstərsinlər. Bunlardan biri Əbrəqunus rayon icraiyyə komitəsinin sədri Kəlbalı Eynullayev, o birisi isə Naxçıvan MSSR Daxili İşlər Komissarlığının müvəkkili Qənbər Qənbərov idi. Eynullayev Şahbuz rayonunun Remeşin kənd sakini olduğu üçün və Şahbuz zonasını yaxşı tanıdığına görə

---

1. Nax. MR DA. f.728. s.1. iş.4. v.43.

Qənbərovla oraya göndərilMişdir. Təbliğat zamanı hər ikisi quldurlar tərəfindən tutulub vəhşicəsinə öldürülmüşdülər» (1).

Həmin ilin aprel-may aylarında da Keçili qaçaqları ilə böyük döyüşlər olur. Naxçıvan baş Milis İdarəsinin rəisi işləmiş mart hadisələrində həlak olan Abbas Qasımov, onun yerinə təyin olunan Eynulla Sultanov iki qrupdan ibarət dəstə düzəldərək Keçili kəndinə gedirlər. 1-ci dəstəyə qırmızı partizan Nifti Məmmədov, 2-ci dəstəyə isə baş Milis İdarəsinin rəisi Eynulla Sulltanov rəhbərlik edirdi. May ayında qaçaqlarla gedən döyüşlərdə Baş Milis İdarəsinin rəisi Eynulla Sultanov Keçili zonasında dəyirmanın yanında qaçaq gülləsindən ölür. Eynulla Sultanovu öldürən qaçaqlar onun başını kəsərək tullayırlar. Ancaq bir neçə gündən sonra Naxçıvan MSSR Daxili İşlər Komissarlığının operativ qrupu onu tapıb Naxçıvana gətirərək şəhər parkında, 17-lərin dəfn edildiyi yerdə dəfn edirlər.

Bu döyüşlərin iştirakçısı olmuş və qaçaqlara qarşı yorulmadan vuruşmuş milis işçilərindən biri Yusif Hüseynov xatirələrində yazır: «Mən 1929-cu ildən Şahbuz rayonunda milis sistemində işləməyə başlamışam. Rayonumuzda kollektiv təsərrüfatlar yaranmağa başlandıqda qolçamaq kolxozun daxili yaralarına od vurur, hər cür çirkin əməllərə əl atırdılar. Sələsüz və Şahbuz kəndlərində də kolxoz qurulurdu. Bunu görən qolçamaqlar rayonun Keçili, Sələsüz, Biçənək, Külüs kəndlərində Sovet hakimiyyəti və kolxoz quruluşu əleyhinə çıxışlar edirdilər. Bu vaxt Naxçıvan MSSR Daxili İşlər Komissarının müavini Abbas Qasımov, milis işçilərindən Aban Quliyev, Qurbaq Qurbanov və başqaları Keçili kəndinə gəlmişdilrə. Keçilidə qaçaqlarla vuruşmada A.Qasımov və A.Quliyev qəhrəmancasına həlak olurlar.

Sələsüzdə qaçaqların başçısı Kərbəlayi Fətulla öldürüldü. Beləliklə də qaçaqların basqınlarının qarşısı alındı» (2).

Onların xatirəsini əbədiləşdirmək üçün Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi 12 iyul 1830-cu il tarixli qərarı qəbul olunur: «Naxçıvan partiya təşkilatı yerli zəhmətkeş əhalinin və Qızıl Ordu hissələrinin köməyi ilə əmələ gələn bandanı ləğv etmişdir. Bu müba-

---

1. Nax. MR DA. f. 582. s.1. iş.13. v.42.
2. «Şərq qapısı» qəzeti, 22 noyabr 1970-ci il.

rizədə, sosialist quruluşuna qarşı mübarizədə bir sıra kommunistlər, milis işçiləri, könüllülər və qızıl əsgərlər həlak olmuşlar.

Naxçıvan MSSR MİK-si Naxçıvan MSSR-i zəhmətkeşləri adından həlak olanların ailəsinə başsağlığı verərək aşağıdakı tədbirləri qəbul edir:

1. Xalq Komissarları şurasının meydançasına və bir nümunəvi kolxoza «On yeddilər» adı verilsin.

2. Böyük bağdan Puşkinə gedən küçəyə Abbas Qasımovun adı verilsin.

3. Naxçıvan MSSR hökuməti həlak olan yoldaşların həddibuluğa çatmayan uşaqlarını və əməyə qəbul olmayan ailə üzvlərini bütünlüklə təminata götürür.

4. Həlak olan yoldaşların təsərrüfatı 5 il ərzində hər cürə vergidən azad edilsin.

5. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət heyəti qarşısında xahiş qaldırılsın ki, yuxarıdakı tədbirlərin həlak olan əsgər ailələrinə şamil edilməsi respublikaların mərkəzi İcraiyyə Komitələrinə təklif edilsin» (1).

Muxtar Respublikanın Şahbuz, Şərur, Əbrəqunus Rayonlarının kəndlərində və kənd təsərrüfatı artellərinin yaranması ilə əlaqədar olaraq 1930-1931-ci illərdə kolxoz quruluşu əleyhinə çıxanların sayı artır. Ayrı-ayrı kəndlərdə yeni quruluş əleyhinə bandalar əmələ gəlir.

Şərur rayonunun Qarabağlar kəndində qolçamaq İsgəndərovlar, Fərəc ağanın oğlanları, Mustafa xan, Hacı xan, Ağa xan və Kərbəlayi Miseyib kolxozun əmlakın toplayıb aparmışlar. Yaycı kənd quldurları daşnak Baurla əlaqəyə girib Yaycı, Xaçik, Cağazur kolxozlarını dağıtmış və kəndin qabaqcıl adamlarını vəhşicəsinə döymüşdülər.

Qolçamaqların kolxoz quruluşu əleyhinə fitnəkar səyləri ilə öz mal-qaralarını kütləvi surətdə qırır və məhv edirdilər. Şərur rayonunun Mahmud kəndində qolçamaq ünsürləri kolxozda pambığın əleyhinə çıxaraq əkini dayandırmaq üçün kiçik yaşlı uşaqlara traktorun qabağına atır, onun yolunu kəsir, işlərə mane olurdular.

---
1. Nax. MR DA. f.40. s.1. iş.346. v.14-15.

Bu zaman milis işçilərindən Qasım Hüseynov (Şərur rayon Milis İdarəsinin rəisi), Süleyman Abbasov, Abdulla Məmmədov, Əkbər Vəliyev və başqalarının birgə səyi ilə qolçamaq müqaviməti sındırılaraq traktorların normal işləməsinə şərait yaradılır. Belə vəziyyət rayonun Alışar, Aralıq, Dəmirçi və s. kəndlərdə də baş vermişdir.

Qolçamaqların kolxoz quruculuğuna qarşı olan müqaviməti Şahbuz rayonunun Keçili, Kolanı, Sələsüz, Qışlaq kəndlərində daha güclü olmuşdur. Şahbuz rayonunda baş qaldıran bandalara qarşı milis işçiləri, kommunistlər və könüllü zərbəçi dəstələr səfərbərlik edilərək kəndlərə banditizmin ləğv edilməsi üçün göndərilir.

Bu illərin canlı iştirakçısı olmuş mərhum maarifçi Qasım Tağıyev xatirələrində yazır: «1930-cu il 17 avqustda Zaqafqaziya Xalq Komissarları Sovetinin sədri Qəzənfər Musabəyov, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Əliheydər Qarayev və Naxçıvan MSSR Daxili İşlər Komissarı Həmid Yaqubov yoldaşlar Şahbuza gəldilər. Şahbuzda üçlük və qərargah yaradılmışdır. Həbs edilən qaçaqlar üçlüyün qərarı ilə yerində güllələndi.

Avqust ayının 21-də Şahbuzda daxili müşavirə oldu. Müşavirənin qərarı ilə mən, Kolanı zonasına gedib qaçaqların başçısı Məşədi Məhi ilə söhbət etməyə və onun təslim olmağı təklif etməli idim. Mən həmin gün Kolanı kəndinə getdim. Burada ilk əvvəl Əsəd adlı qoca kişiyə rast gəldim. O, «qardaş haralısan?» deyə soruşdu. Mən, «Nehrəmliyəm,»-dedim. O, «Nehrəmli Qənbər Hacıyevi tanıyırsanmı?» deyə soruşdu. Mən, «Bəli o bizim qohumdur,» dedim. Bu əsnada İsa Həsənov gəldi. Əsəd kişi üzünü İsaya tutub dedi: «Qonağın atını tövləyə, özünü isə evə aparın». Biz İsanın evinə gəldik. Məşədi Məhiyə sifariş etdi ki, o mən olan evə gəlsin. Axşam 8 radələrində Məşədi Məhi əlində çap tüfəng və belində patron-daşı İsanın evənə daxil oldu. İsanın anası yaylığını Məşədi Məhinin ayağının altına açdı. Bu qonağı mənim yaylığıma bağışla demək idi.

Məşədi Məhi «qonaq xoş gəlib» deyə mənimlə əl verib görüşdü. Mən onunla gecə saat 2-dək söhbət etdim. Nəhayət, o mənə söz verdi ki, bu gündən onun qaçaq dəstəsi təslim olacaq və o özü də səhər mənimlə birlikdə rayona gedəcək.

Səhər Məşədi Məhi Şahbuzun yaxınlığındakı İşcə suyadək mənimlə gəldi. Lakin İşcə suda atını saxlayıb dedi: «Sizə yaxşı yol». Mən ona çox bənd oldum ki, mənimlə Şahbuza getsin. O mənə dedi ki, «mən bura qədər ona görə səninlə gəldim ki, bu ətrafda qaçaqlar var. Onlar məni sənin yanında görüb şuluq etməzlər. Ancaq məndən tam arxayın ol, sözüm sözdür». O geri qayıtdı, mən isə Şahbuza getdim. Mən gəlib Q. Musabəyova hadisəni olduğu kimi çatdırdım. Kolanı zonasında sakitlik oldu.

1930-cu il avqust ayının 28-də Məşədi Məhini həbs edib, qolu bağlı halda Şahbuza gətirdilər. Onu həbs edib gətirən Daxili İşlər Komissarlığını Şahbuz rayon müvəkkili Səməd Aslanov idi. Mən dərhal Musabəyov yoldaşa yenidən ətraflı söhbət etdim. MuSAbəyovun əmri ilə Məşədi Məhi həbsdən azad edilir. Daxili İşlər Komissarlığının müvəkkili S.Aslanova isə fitnəkar hərəkətinə görə inzibati cəza aldı. Biz Məşədi Məhini öz zərbəçi dəstəmizə cəlb etdik, o bizimlə qaçaqlara qarşı vuruşmağa getdi» (1).

1931-ci ildə Şahbuz rayonunun Keçili, Tırkeş, Sələsüz və Kolanı kəndlərində baş qaldırmış bandalara qarşı vuruşmada bir çox milis işçiləri, həmçinin könüllü dəstələrdən neçə-neçə qurbanlar verildi.

31 iyul 1931-cü ildə Şahbuz rayon milis şöbəsinin rəisi İ.Fərzəliyev Naxçıvan MSSR Baş Milis İdarəsinin rəisi Abdullayevə göndərdiyi raportunda yazırdı: «İyul ayının 25-də səhər saat 11-də quldurlar ilə atışma nəticəsində rayon milis şöbəsinin əməkdaşı Hüseyn Fərzəliyev həlak olmuşdur, quldurlar onun silahını, 100 patronu və tapancasını aparmışlar» (2).

Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin 10 noyabr 1931-ci il tarixli qərarı ilə Keçili hadisələrində öldürülən könüllü dəstələrin üzvləri və milis nəfəri Hüseyn Fərzəliyevin ailəsinə təqaüd təyin edilməsi haqqında qərar qəbul etmişdir (3). Qərarda Azərbaycan Xalq Komissarı Şurasından həmin milis nəfəri Fərzəliyevin zərbəçi Bəşirəlinin, partizan Cabbarovun, Həmzəqulunun, Əsgər və Abbasın ailəsinə təqaüd ayrılması üçün lazımi sərəncam verilməsi xahiş

1. Nax. MR DA. f.712. s.1. iş.4. v.37-38.
2. Yenə orada. f.358. s.1. iş.5. v.116.
3. Nax. MR DA. f.40. s.1. iş.231. v.42.

edilmişdir. Banditizmə qarşı mübarizədə onlarla milis işçilərimiz öz həyatlarını qurban vermişdir. Neçə-neçə milis işçilərimiz banditizmə qarşı döyüşlərdə böyük igidliklər göstərmiş və dövlət tərəfindən igidliyinə görə mükafatlandırılmışdı. Bunların içərisində Ağa Vəzirov, Qasım Hüseynov, Məmməd Fətullayev, Qəmbər Vəzirov, Qulaməli Sultanov, Qurban Babayev, Tapdıq Qulamov, İbrahim Fərzəliyev, Həbib Babayev, Cabbar Məmmədov, Abbas Abdullayev, Şirəli İsmayılov, Hüseyn Namazov, Qurban Axundov, Süleyman Abbasov, İbrahim Zeynalov, Heydər Nağıyev, İbrahim Bağırov, Abdulla Şərifov və başqaları da var idi. Bu milis işçilərimizdən bir neçəsi haqda qısa da olsa məlumat verməyi özümüzə borc bildik.

İbrahim Qurbanəli oğlu Fərzəliyev 1892-ci ildə İrəvan qəzasının Çəmən kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Ağır ailə həyatı keçirmiş, bir tərəfdən iqtisadi çətinlik, digər tərəfdən də 1905-1907-ci illər inqilabı dövründə çar hökumətinin xalqlar arasında törətdiyi milli çaxnaşmalar əhalini var-yoxdan çıxartmışdır.

Keçən ağır günlərin izləri aradan qaldırılmamış 1914-cü ildə qanlı-qadalı imperialist müharibəsi başlayır. Müharibə meydanlarından biri də Qafqaz cəbhəsi idi. Müharibənin ən yaxın arxası olan İərvan qəzası kəndləri Vedibasar, Zəngibasar hərbi vəziyyətə keçirilir. Bu zaman hərbi xəsarətə uğrayan kəndlərdən biri İbrahim Fərzəliyevin yaşadığı Çəmən kəndi idi. Hələ müharibə qurtarmamış çar hökuməti yıxılır, ölkənin hər yerində, eyni zamanda ucqarlarda hərcmərclik başlayır. Ermənilərlə müsəlmanlar arasında milli ədavət yenidən törədilir. Zəngibasar, Vedibasar, bir sözlə İrəvan qəzasındakı

Azərbaycan kəndlərinə daşnaq təcavüzkarlığı başlayır. Azərbaycan kəndlərinin əhalisi özlərini müdafiə etmək üçün Böyük Vedi kəndinə toplaşır. 1918-ci ilin yaz aylarından başlayaraq Böyük Vedi kəndi daşnak qoşunları tərəfindən mühasirəyə alınır. Müdafiənin başında Abbasqulu bəy Şadlinski durur. Kəndin qəhrəman müdafiəçilərindən, Abbasqulu bəyin igid əsgərlərindən biri də 21 yaşlı İbrahim Fərzəliyev idi.

1920-ci il iyun ayının axırlarında erməni daşnak qoşunları güclü bir qüvvə ilə Vediyə hücum edir və mühasirəni daha da sıxlaşdırır. Üstün qüvvəyə tab gətirə bilməyən əhali Abbasqulu bəyin başçılığı altında kəndi tərk edərək Şərura çəkilir. Çox keç-

mədən Şərur da daşnak qoşunları tərəfindən işğal olunur. Vedi əhalisi Abbasqulu bəy başda olmaqla Cənubi Azərbaycana üz tutur keçir. Bütün bu çətinliklərə baxmayaraq mühacirlikdə də hərbi partizan vəziyyəti davam etdirilir.

1920-ci il iyul ayının 28-də Naxçıvanda sovet hakimiyyəti qurulması xəbəri Vedi müdafiəsinin döyüşçülərinə çatdırılır və Naxçıvana qayıdırlar.

Abbasqulu bəyin dəstəsinin tərkibində İbrahim Fərzəliyev də 1920-ci ilin sentyabr ayında Naxçıvana gəlir, burada həmin dəstəyə – «Qırmızı tabor»a Abbasqulu bəy Şadlinski komandir, İbrahim Fərzəliyev isə bölük komandiri təyin edilir.

A.Şadlinskinin «Qırmızı tador»unda bölük komandiri kimi Naxçıvan və Şərur qəzalarının erməni daşnaklarından təmizlənməsində fəal iştirak etmiş İ.Fərzəliyev 1922-ci ildən milis sistemində işləməyə başlayır.

1922-ci ildən 1934-cü ilə kimi milis sistemində çalışan İ.Fərzəliyev aşağı rütbəli milis nəfərindən rayon milis rəisliyinə kimi yüksəldilmişdir. Əbrəqunus və Şahbuz rayonlarından milis rəisi kimi çalışan İbrahim Fərzəliyevin qolçamaq bandaların aradan qaldırılmasında və asayişin bərpa olunmasında böyük xidmətləri olmuşdur.

Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi İ.Fərzəliyevin xidmətlərini nəzərə alaraq hədiyyə olaraq «naqan» markalı tapança bağışlamış və onu fəxri fərman ilə təltif etmişdir (1).

Banditizmin ləğv edilməsində fəal iştirak etmiş milis işçilərindən biri də yoldaşları və xalq içərisində «Bığlı Əhməd» ləqəbi ilə tanınan Məmmədov Əhməd Hüseyn oğludur. Şahbuz rayonunun Yenikənd kəndindən olan Ə.Məmmədov da Naxçıvanda Soveti hakimiyyəti quruldugdan sonra milis sistemində çalışaraq, İrandan keçən kürd quldur bandalarına qarşı mübarizədə fəal iştirak etmiş, asayişin möhkəmləndirilməsində əzmlə mübarizə aparmışdır.

Ə.Məmmədov milis sistemində müxtəlif vəzifələrdə-Şahbuz, Əbrəqunus və Naxçıvan şəhər milis şöbələrində cinayət axtarış müvəkkili, Naxçıvan rayon (indiki Babək) milis şöbəsinin rəis müavini kimi vəzifələrdə işləmişdir.

1. Nax. MR DA. f.574. s.2. iş.94. v.7.

Banditizmə qarşı mübarizədə fəal iştirak etdiyinə görə Baş Milis İdarəsi rəisinin təqdimatı ilə Əhməd Məmmədov Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin 14 sentyabr 1932-ci il tarixli qərarı ilə xatirə yazısı olan «Naqan» markalı 37713 №-li tapança ilə mükafatlandırılmışdır.

Xalq içərisində «Bığlı Əhməd» kimi tanınan, ömrünün son günlərinədək asayişin keşiyində duran Ə.Məmmədov xalqın səadəti üçün sevdiyi peşəsindən, milis işindən ayrılmamışdır.

Adlarını çəkdiyimiz və qısa arayış verdiyimiz milis işçilərimizlə yanaşı Keçili, Sələsüz, Qışlaq, Külüs, Payız, Şada, Ərəfsə, Milax və s. kəndlərdə və eləcə də dağlarda məskən salmış quldur-qaçaq dəstələrinin ləğv edilməsində fəal iştirak edən milis işçilərimizdən Ağa Vəzirov, Qasım Hüseynov, Tapdıq Qulamov, Qənbər Bayramov, Hüseyn Həsənov, Heydər Nağıyev, Məmməd Fətullayev, Nağı Qəhrəmanov, Qulaməli Sultanov, Süleyman Abbasov, Həbib Babayev və bir çox başqaları Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin 27 iyul 1930-cu il tarixli qərarı ilə hədiyyə və pul ilə mükafatlandırılmışdılar (1).

30-cu illər təkcə banditizmin ləğv edilməsi ilə bitmir. Bu illərdə Azərbaycanın hər yerində olduğu kimi Naxçıvan Muxtar Respublikasında da yüzlərlə günahsız insan represiya qurbanı olmuşdur. Sənədlərdə göstərilir ki, 30-cu illərin əvvəllərində keç miş bəy-xan və varlılara «kulak» damğası vurularaq 300-ə qədər Naxçıvanlı öz yurdlarından sürgün edilir. Çar Rusiyası dövründə polisdə işləyən, müsavatçı olanlar, o cümlədən tacirlər, mollalar, neçə-neçə yoxsul kasıblar belə öz yurdlarından sürgün edilmiş və güllələnmişdir.

Bəs Milax, Sələsüz, Ərəfsə, Qışlaq, Kolanı və s. kəndlərin ortabab və kasıb kəndlərinin günahı nə idi? Milli təhlükəsizlik orqanlarında Daxili İşlər Komissarlığında, eləcə də partiya və sovet təşkilatlarında çayır otu kimi yayılmış ermənilərin, xüsusi ilə Azərbaycan Siyasi İdarəsinin operativ müvəkkili A.Orbeliyanın Naxçıvan Muxtar Respublikasında azərbaycanlılara qarşı törətdiyi vəhşilikləri, sürgünləri, bir sözlə böyük soyqırımı qələmə alsaq neçə-neçə cildli kitablar əmələ gələr.

1. Nax. MR DA. f.40. s.1. iş.198. v.58-59.

A.Orbeliyanın cinayətləri haqqında Naxçıvan MR Daxili İşlər Naziri işləmiş Sadıq Zeynaloğlu (Sadıqov) 1932-1940-cı illərdə Naxçıvanda represiya soyqırımı ilə bağlı «Tarixin qanlı yaddaşı» kitabında yazır: «... uzun axtarış axır ki, uğurla nəticələndi. Nəhayət ki, «Keçili işi» adlanan sənədləri tapmağa nail oldum.

İki cildlik işi «Keçili üsyan hərakatı»nı hədsiz diqqətlə oxuduqca əmin oldum ki, Orbelyan həddindən artıq səylə çalışmışdır ki, bu kəndin üsyanına qorxunc və dəhşətli «bandit» kəlməsini yapışdırsın.

«Keçili işi» məni daha faciəli bir işlə, həmin Orbelyan tərəfindən törədilmiş faciəli bir işlə qarşılaşdırdı. Məlum oldu ki, Orbelyan 1930-cu il yanvarın əvvəlində «Milax işini» uydurmuş, nəticədə onlarla günahsız milaxlı və ətraf kəndlərin sakinlərini güllələdəndən sonra bundan vəcdə gələrək «keçili işini» də saxtalaşdırmağa başlamışdır. Nəticədə bu kənddə də onlarla günahsız adam qanunsuz edam edilmişdir» (1).

Təkcə Keçili, Milax, Ərəfsə kəndlərində Orbelyanın «bandit», «kulak» damğası ilə neçə-neçə azərbaycanlıya qarşı etdiyi cinayətlər bununla bitmir. Belə ki, 30-cu illərdə Naxçıvan şəhərindən, Ordubad, Şərur, Culfa və Naxçıvan (Babək) rayonlarından onlarla günahsız insanlar sürgün edilmiş və güllələnmişdir.

Araşdırılan sənədlərdən məlum olur ki, Naxçıvan şəhərindən polis sistemində müxtəlif vəzifələrdə çalışan, keçmişi xan-bəy və mülkədar olan neçə-neçə insanlar yuxarıların, həmçinin Naxçıvan partiya, sovet və hüquq orqanlarında yüksək rütbələrdə olan ermənilərin əli ilə sürgün edilmiş və güllələnmişdir. Onlardan Yunis Naxçıvanski, Əli bəy Kəngərlinski, Həsən Mussayev, Məşədi Heydər Babayev, Qurban Səfəroğlu, Balabəy Balabəyov, Kərbəlayi Nəcəf Axundov və başqaların qeyd etmək olar.

Naxçıvan (Babək) rayonu üzrə Rza bəy Tağı bəy oğlu, Bəylər Teymur oğlu, Qənbər Həsənəli oğlu, Həsən Əliyev, Baba Rüstəm oğlu, Əli Babayev, Məşədi Əhməd Axundov, İbad Tağı oğlu, Kərbəlayi Muxtar Adıgözəlov, Müslüm Vəli oğlu, Hacıağa Abbas oğlu, Məşədi Hüseyn Mehdiyev, Kərbəlayi Muxtar Cəfərza-

---

1. Sadıx Zeynaloğlu «Tarixin qanlı yaddaşı», Bakı-Gənclik, 1999, s.15.

də, Məmmədrza bəy Allahverdiyev (bunların əksəriyyəti ermənilərə qarşı vuruşanlar idi-F.C.), Ordubad rayonu üzrə Rəhim Kərbəlayi Məmmədhəsən oğlu, Əliyev Əli Kərbəlayi İsmayıl oğlu, Məşədi Rzaqulu Məşədi Sadıx oğlu, Əliyev Kərbəlayi Hüseynqulu Məşədi Hüseynqulu oğlu, Hüseynov Ələkbər Əsgər oğlu, Səfərov Sadıq Mövsüm oğlu, Məşədi Qulaməli Murad oğlu, Nəsirov Hüseyn və başqaları sürgün edilmişlər.

Həmin illərin canlı şahidi olan Qasım Tağıyev xatirələrində yazırdı: «14 iyun 1932-ci ildə bir qrup qolçamaq ailələrini sürgün edirlər. Nehrəm kəndindən Kərbəlayi Novruzu da sürgün edirlər. Halbuki Kərbəlayi Novruz 20 il muzdur olmuşdur. Mən bu məsələni Vilayət Partiya Komitəsinin katibi B.Vəlibəyova çatdırdım. B.Vəlibəyov, Ağamirov (Mərkəzi İcraiyyə Komitəsinin sədri) və mən Naxçıvan dəmir yol vağzalına gəldik.

Sürgün olunan adamları eşalona mindirmişdilər. Bu zaman Kərbəlayi Muxtar Cəfərzadə (Nehrəm özünümüdafiə dəstəsinin komandiri, 1918-1920-ci illərdə Andranikin qoşunu ilə mərdliklə vuruşan-F.C.) eşalonun qapısına çıxıb üzünü B. Vəlibəyova tutub dedi: «Yoldaş Vəlibəyov, sovet hökuməti məni sürgün etməyə haqlıdır. Çünki mən 25 il qlava olmuşam. Bəs bu Kərbəlayi Novruzu niyə sürgünə göndərirsiniz. Bu ki, mənim yanımda 20 il muzdur olub». Bu sözü eşidən B.Vəlibəyov və Ağamirov çox qəzəbləndilər və Naxçıvan Dövlət Siyasət İdarəsinin rəisi Əyyub Qasımova təklif edirlər ki, Kərbəlayi Novruzu təcili vaqondan yendirsinlər. Qasımov Kərbəlayi Novruzu dərhal azad etdi» (1).

Xatirələrdən, eləcə də bir çox sənədlərdən məlum olduğu kimi 30-cu illərdə təkcə qolçamaqlar, ortabab kəndlilər deyil, həmçinin kasıb, muzdur kəndlilər də günahlı kimi sürgün edilmişdilər.

30-cu illərin ən ağır bir dövründə 1937-1941-ci illərdə rus, erməni və üzdən iraq bəzi «qeyrətli» azərbaycanlılar tərəfindən muxtar respublikamızın qolçamaqları, yoxsulları deyil, o cümlədən ziyalılarına, hərbiçilərinə və hüquq orqanlarında işləyənlərə qarşı edilən represiyalar geniş araşdırılmalıdır.

1937-1941-ci illərin represiya qurbanları içərisində Cəmşid-

1. Nax. MR DA. f.728. s.1. iş.4. v.43.

Naxçıvanski, Heydər Novruzov, Qurban Həsənov, Heydər Vəzirov, Qafar Babayev, Abbasqulu Əliyarov, Həsən Səfərov, Hüseyn Cavid, Əli Səbri Qasımov, Əbdüləzim Rüstəmov və başqalarının adlarını qeyd etmək olar.

Bu represiyalar yenə də ermənilərin senarisi ilə qurulmuşdur. Qeyd etdiyimiz kimi A.Orbelyan, Danelyan, Qranski, Baziyan kimiləri azərbaycanlıların milli mənliyini təhqir etməklə bir əqidə sahibi kimi muxtar respublikanın nəinki varlılarını, kasıblarını, həmçinin bir çox ölkələrdə tanınmış ziyalı, hərbiçi və mühafizə orqanlarında vətən üçün, xalq üçün yorulmaq bilmədən çalışanları belə təmizləməyə çalışmışdılar.

1937-1940-cı illərin sənədlərini vərəqlərkən məlum olur ki, Naxçıvan MSSR Daxili İşlər Komissarı olmuş Qranskiy, həmçinin milli təhlükəsizlik orqanlarında işləmiş baş leytenant Pavel Vakulçik və Beldpolov, Naxçıvan MSSR Daxili İşlər Komissarlığının katibi Perel, baş kargüzar Baziyan, Baş leytenant Zakiyan, leytenant Maleseyev, türmə rəisi Qeverkov, Naxçıvan Baş Milis İdarəsində işləyən Aram Danelyan və başqalarının əli ilə yüzlərlə azərbaycanlı represiyanın qurbanları olmuşdur.

30-cu illərin axırlarında Milis İdarəsinin cinayət axtarış şöbələrində hüquq pozuntularına qarşı profilaktikanın gücləndirilməsi üçün əməliyyat xidməti işi yenidən təşkil edilir.

Əvvəllər cinayət axrış şöbəsinin əsəs işi törədilmiş cinayətin açılması idi, onun qarşısının alınmasına lazımı diqqət verilmirdi. Cinayət işlərinin əsas hissəsi zərərçəkənlərin ərizələri əsasında qaldırılırdı. Əməliyyat heyyətinin işi cinayətlərin növünə görə yox, ərazi prinsipi ilə qurulurdu.

1940-cı il mart ayında Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığı cinayət axtarışının əməliyyat xidməti fəaliyyətində könüllü dəyişikliklər elədi. Əməliyyat işçiləri ilə ilk növbədə konkret cinayət növləri üzrə məsuliyyət daşıyırdılar, başlıca olaraq xüsusi təhlükəlilərindən. Bu onlardan cinayətin xarakterini və dinamikasını daha dərindən öyrənməyi profilaktik fəaliyyətinin güclənməsini tələb edirdi.

Bununla əlaqədar Naxçıvan Baş Milis İdarəsinin cinayət axtarış şöbəsinin rəhbərlik metodu dəyişildi. Mərkəzi aparatın hadisə

yerinə gedib müayinə edilməsi minimuma yendirildi. Əsas diqqət cinayətkarlığa qarşı mübarizədə praktiki köməyə verildi.

Bu illərdə Baş Milis İdarəsinin cinayət axtarış şöbəsi xuliqanlıqla mübarizədə, həmçinin sənayedə xırda oğurluğa qarşı mübarizədə bəzi işlər görmüşdür.

1940-cı ilin avqust ayında Azərbaycan SSR Ali Soveti «Sənayedə xırda oğurluq və xuliqanlığa qarşı məsuliyyət» haqqında qərar qəbul etdi. Bununla əlaqədar olaraq sənayedə, müəssisədə, ictimai yerlərdə xuliqanlıq hərəkəti törədənlər 1 il müddətinə azadlıqdan məhrum edilirdi. Bu qanunun qəbul olunması kəndlərdə və şəhərlərdə xuliqanlığın ciddi azalmasına gətirib çıxarmışdır.

1 sentyabr 1939-cu ildə SSR Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin «Ümumi hərbi xidmət» haqqında qanunu milis orqanlarının işini bir daha artırmışdır. Belə ki, hərbi xidmətlərin qeydiyyatı və onların səfərbərlik edilməsi işləri milis orqanlarının üzərinə qoyulmuşdur. Bütün şəhər və rayon milis şöbələrində hərbi qeydiyyat stolu yaranmışdır.

1940-cı il dekabr ayında milis orqanlarında azyaşlı uşaqlar üçün otaqlar təşkil olunmuşdur. Azyaşlıların işində çətinliklərə, çatışmamazlıqlara baxmayaraq, tüfeyli həyat sürənlərlə mübarizə aparılırdı. Aparılan tədbirlər nəticəsində 1941-ci ildə muxtar respublikada tüfeyli həyat sürən azyaşlılar demək olar ki, yox idi.

Onu da qeyd edək ki, 1941-ci ilin aprel ayına kimi Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığı nəzdində fəaliyyət göstərən dövlət təhlükəsizlik şöbəsi Naxçıvan MSSR Ali Sovetinin 13 aprel 1941-ci il tarixli fərmanı ilə ayrılaraq yeni komisssarlığa çevrildi. Birinci Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığı, ikinci isə Naxçıvan MSSR Xalq Dövlət Təhlükəsizlik komissarlığı adlandırılmışdı (1).

Beləliklə, 1920-1941-ci illərdə Naxçıvan milisinin (polisin) istər qanunçuluğun və asayişin qorunmasında, xaricdən gələn kürd quldur dəstələrinin ləğv edilməsində, kolxoz quruculuğu dövründə qaçaq-quldur dəstələrinə qarşı mübarizədə, dövlət və şəxsi əmlak oğrularına və s. cinayətlərin qarşısının alınmasında Naxçıvan milisinin özünə layiq yeri vardır.

1. Nax. MR DA. f.613. s.1. iş.1364. v.41.

## II FƏSİL
## NAXÇIVAN POLİSİ 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİ DÖVRÜNDƏ

Müharibənin ilk günlərində Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı yerlərində keçirilən mitinq və yığıncaqlar xalqımızın tam birliyinin parlaq nümayişinə çevrildi. O ağır, qanlı-qadalı günlərdə fəhlələr, qulluqçular, kolxozçular, ziyalılar, dəstə-dəstə hərbi komissarlığa gedərək, döyüşən ordu sıralarına göndərilmələrini xahiş edirdilər.

Böyük Vətən müharibəsi illərində milis işçilərinin alman-faşist işğalçılarına qarşı apardıqları mübarizənin şanlı tarixi vardır. Həmin illərdə Azərbaycandan, eləcə də Naxçıvan Muxtar Respublikasından yüzlərlə milis işçisi cəbhələrə getmişdir. Gedənlərdən qayıtmayanlar da oldu. Vətəni, xalqı, öz ailəsi üçün canını qurban verdi.

Böyük Vətən müharibəsində göstərdikləri şücaətə görə həmyerlilərimizdən üç nəfəri-Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev və Abbas Quliyev Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüşdür. Səkkiz nəfər Lenin ordeni, 1 nəfər I, II, III dərəcəli şöhrət ordeni, 102 nəfər "Şöhrət ordeni"nin ayrı-ayrı dərəcələri, 105 nəfər I və II dərəcəli, "Böyük Vətən müharibəsi" ordenləri ilə təltif olunmuşdur. Minlərlə döyüşçü müxtəlif medallar və ali baş komandanlığının təşəkkürünü almışdır (1).

1941-ci il 22 iyul tarixinə olan məlumata görə Naxçıvan Muxtar Respublikasından 1127 nəfər kommunist, 2156 nəfər komsomolçu, 3208 nəfər bitərəf döyüşən cəbhələrə yollanmışlar. Yola düşənlərin sırasında milis işçiləri də var idi. Onlardan Əliyev Seyfulla və Babulla Vəli oğulları, Tahar Məmmədov, İsa Nəbiyev, Zeyni Zeyniyev, Cəfər Hüseynov və başqalarını qeyd etmək olar.

Tahar Məmmədov 1941-ci ildə Şahbuz rayonunda milis nəfəri idi. Bir neçə ay əvvəl onu partiya sıralarına qəbul etmişdilər. 27 yaşlı Tahar dincliyin və asayişin keşiyində dayanmışdır. Müharibə başlanan günü o da hərbi komissarlığa gəlib «Cəbhəyə getmək istəyirəm» dedi.

Taharın döyüş yolu Terek, Don, Dnepr, Visla, Oder, Neyse çaylarının üzərindən keçdi. O, Kubanın, Krımın, Ukrayna və Belarusiya-

---

1. Nax. MR DA. f.728. s.1. iş.22. v.3; f.314. s.5a. iş.428. v.12.

torpaqlarının, Polşanın və Almaniyanın faşist işğalından təmizlənməsində mərdlik və rəşadət göstərmiş və bu döyüşlərdə göstərdiyi igidliyə görə dövlət tərəfindən 3 orden və 8 medalla təltif olunmuşdur.

1944-cü ilə aid «Şərq qapısı» qəzetində şair Əyyub Əhmədovun belə bir şerinə rast gəldik. Ə. Əhmədov şerin başlığında yazır: «Şahbuz rayon milis işçiləri sırasında vətən müharibəsi cəbhələrinə gedib, qəhrəmanlıq göstərib və 3 dəfə orden və meddalla təltif edilən Tahar Məmmədova ittihaf edirəm.

*Azərbaycan balasısan, qorxma faşist hiyləsindən.*
*Alqışlayır ölkələr səni, ölkəmizdə sevilirsən.*
*Qəhrəmanlıq üsulunu öyrətginən hər əsgərə.*
*Atəşimiz guruldasın, səda versin dağ, dərəyə,*
*Faşistlərin başın əzin, qoy qalmasın heç əsəri.*
*Özün kimi çalışdırıb qəhrəman et hər əsgəri.*
*Üç ordeni sən almısan, döşün gündə işıq saçır.*
*Sənin bu şən, şərəf adın şadlıq verib qəlbi açır,*
*Sən doğulan Şahbuz eli qoy sevinsin şərəfinlə...» (1).*

Müharibənin ilk günündə iki qardaş Seyfulla və Babulla Əliyevlər də mülkü libası əsgər geyimi ilə əvəz etdilər. Müharibə bir çoxları kimi onları da doğma evindən, ailəsindən ayrı saldı.

Məktublarında tez-tez yazırdılar: «Gün gələjən görüşəcəyik, amma indi vuruşmaq lazımdır».

İki qardaş bu günü çox arzulayırdı. Arzularına çatmadılar. Həyatdan, taledən diləkləri çox idi, heç birinə yetmədilər. Minlər, milyonlar kimi döyüşlərin birində düşmən gülləsinə tuş gəldilər. Ömür yolları qırıldı. Ata evində qorunub saxlanan məktublar yarımçıq qalmış və ömrün acı xatiratına döndü yaşadı.

Baş milis işçilərimiz müharibədən əvvəl respublikamızda sakitliyi, asayişi qorumaqla, cinayətkara qarşı mərdliklə mübarizə apardıqları kimi vətən müharibəsi cəbhələrində də igidliklər, qəhrəmanlıqlar göstərərək bir çox orden və medallarla təltif olundular. Çox təəsüflər ki, bir çoxları həlak oldular.

Oğul və qızlarımızın, həmçinin milis işçilərimizin ön cəbhədə mərdliklə vuruşmalarından ruhlanan Naxçıvan MSSR zəhmət

---

1. Şərq qapısı qəzeti, 14 iyul 1944-cü il.

keşləri, o cümlədən Daxili İşlər Komissarlığında çalışan milis işçiləri öz işlərini bir an belə zəiflətməmişlər. Onlar istər asayişin qorunmasında, istərsə də müdafiə fonduna yardımın daha da inkişaf edib artmasına xeyli köməklik göstərmişdilər.

Müharibənin birinci günündən 1943-cü ilin oktyabr ayına kimi Naxçıvan MSSR-nin zəhmətkeşləri müdafiə fonduna 1.080.085 manat pul, 244.000 istiqraz vərəqəsi, 1 kq 233 qr qızıl, 10 kq 283 qr gümüş, bundan əlavə 38.811 cüt əlcək, çorab, cəbhədəki əsgərlərə 6520 sovqat qutusu, 99 baş qoyun, 4452 pud taxıl, 4046 pud ət, 1118 kq yağ, 692 pud tərəvəz, 786 kq pendir, 742 ədəd dəri, 2135 kq yun və s. toplayaraq göndərmişlər (1).

Bu yardım və hədiyyələrin göndərilməsində Naxçıvan MSSR Daxili İşlər Nazirliyinin və onun tabeliyində olan şəhər və rayon milis şöbələrinin əməkdaşlarının rolu çox olmuşdur.

7 noyabr 1942-ci il tarixli «Şərq qapısı» qəzeti yazırdı: «Muxtar Respublikanın zəhmətkeşlərinin şanlı Qızıl ordumuzun döyüşlərinə bayram qabağı sovqat göndərməyi surətlə davam etdirirlər. Naxçıvan MSSR Daxili İşlər Komissarlığının işçiləri daha fəal iştirak etmişlər. 12 gündə döyüşçülərə 828 ədəd qutu dolusu bayram sovqatı göndərmişlər» (2).

Müharibə illərində Naxçıvan baş Milis İdarəsinin işçiləri tərəfindən 612 ədəd qutu sovqat göndərilmiş, müdafiə fondu yaratmaq üçün dövlət bankına 65.000 manat pul toplayıb verilmişdir.

Bundan başqa milis işçiləri tərəfindən müharibə illərində «Azərbaycanın gənc pioneri» və «Azərbaycan kolxozçusu» tank dəstələrinin yaradılması üçün və azad edilmiş bir çox şəhər və rayonların əhalisinə çoxlu miqdarda ev əşyaları, yeyinti və geyim şeyləri göndərilmişdir.

Azərbaycan kolxozçusu tank dəstələrinin yaradılması üçün təkcə 1944-cü ilin sentyabr ayında Şahbuz rayon milis şöbəsinin əməkdaşları 30 min manat pul vermişlər. Şərur rayon milis şöbəsinin əməkdaşları 55 min manat, Ordubad milis işçiləri 38 min manat, Culfa rayon milis şöbəsinin əməkdlaşları 12 min manat, Naxçıvan rayon (Babək) milis şöbəsinin əməkdaşları 52

---

1. «Şərq qapısı» qəzeti, 20 sentyabr 1944-cü il.
2. «Şərq qapısı» qəzeti, 20 sentyabr 1942-ci il.

min manat pul toplayaraq tank dəstələrinin yaradılması fonduna keçirmişlər (1).

Zaqafqaziya cəbhəsində gedən döyüşlər zamanı Azərbaycan ərazisində alman faşistləri hava desantları və kiçik diversant qrupları atırdılar ki, bunlar da lazımi obyektlərin tutulması və diversiya aktlarının həyata keçirilməsi məqsədini güdürdü.

Bunların qarşısının alınması və məhv edilməsi üçün istər Azərbaycan SSR-də Xalq Daxili İşlər Komissarlığı, istərsə də Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığı nəzdində «Qırıcı batalyonlar» yaradıldı ki, bunların da çox böyük xidmətləri oldu. 1941-ci ilin axırlarına kimi demək olar ki, muxtar respublikanın Naxçıvan, Ordubad, Şahbuz, Şərur, Əbrənus və s. rayon və kəndlərində qırıcı batalyonlar və onun dəstələri təşkil edilmişdir.

Azərbaycan SSR Xalq Daxili İşlər Komissarı Ə.Yaqıbovun 30 iyul 1941-ci il tarixli 292 №-li əmri ilə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının qırıcı batalyonunda əməliyyat qrupu təşkil olunur və Malışev qrupun rəisi təyin edilir.

Azərbaycan SSR XDİK, Azərbaycan dairə sərhəd qoşunlarının rəisi, qırıcı batalyonların əməliyyat qrupunun rəisi Malışev son əmri ilə Ordubad qırıcı batalyonun üzvlərini silahlandırmaq məqsədi ilə 20 ədəd polşa istehsalı olan tüfəng, hər bir tüfəng üçün 100 ədəd patron göndərmişdir.

Ordubad rayonunda yaradılmış 22№-li «Qırıcı batalyon»un 1 yanvar 1942-ci il tarixdə siyahı üzrə 75 nəfər üzvü olmuşdur. Siyahıdan məlum olur ki, A.Y.Mütəllibov (dəstə rəisi), Səfiquliyev Mirzəcan Səfiqulu oğlu (Ordubad rayon milis şöbəsinin rəisi), Ağayev Rüstəm Hüseyn oğlu (milis işçisi),

Babayev Müzəffər Əsgər oğlu (milis işçisi), Sadıxov Abazər Əli oğlu (milis işçisi), Ağayev Rüstəm Hüseyn oğlu (dəstə hərbi rəisi), Qəhrəmanov Müzəffər Qulu oğlu (nizami hissə rəisi), Abdullayev Abdulla Həşim oğlu (starşina), Seyidov Mehdi Yəhya oğlu (dəstə həkimi), Novruzova Təhminə Novruz qızı (tibb bacısı), Babayev Adil Abutalıb oğlu (starşina), Qəhrəmanov Həsənqulu Əli oğlu (dəstə komandiri), Seyidov Mirağa Əli oğlu (sıravi

1. Nax. MR DA. f.649. s.1. iş.3. v.65-67.

əsgər), Kazımov Firudin Kazım oğlu (sıravi əsgər), Əliyev Məmməd Salman oğlu (sıravi əsgər), Quliyev Məmməd Abbas oğlu (dəstə komandiri), Orucəliyev Oruc (dəstə komandiri), Cabbarov Ağalar Əli oğlu (dəstə komandiri), Rəsulov Rəsul Qasım oğlu (dəstə komandiri), Məmmədov Əsgər Teymur oğlu ( sıravi əsgər) və başqaları batalyonun fəal üzvlərindən idi (1).

Batalyonda milis işçiləri ilə bərabər təşkilat, müəssisə və kolxozlardan da fəallar qəbul edilmişdir.

Ordubad qırıcı batalyonunun Əylisdə, Kotamda, Dəstədə, Bistdə, Biləvdə, Tividə, Nüs-nüsdə, Çənnəbdə, Dırnısda və s. kənd sovetlərində şöbələri yaradılmışdır (2).

Naxçıvanda fəaliyyət göstərən 19№-li qırıcı dəstənin 80 nəfərdən ibarət şəxsi heyyətinin 1942-ci il siyahısından məlum olur ki, Orucov Abbas Cəbrayıl oğlu (Naxçıvan rayonu-(Babək) milis şöbəsinin rəisi, həmçinin qırıcı dəstənin rəisi), Mehdiyev Qasım Heydər oğlu (dəstənin hərbi komissarı), Mövsümov Yəhya Nuruş oğlu (nizami hissə rəisi, qərargah rəisi), Əsgərov Qasım İmamqulu oğlu (I-ci atıcı vzvodun komandiri), Zeynolova Adilə Heydər qızı (qırıcı dəstənin həkimi), Əliyev Hüseyn Salman oğlu (I-ci dəstənin, I-ci vzvodun komandiri), Məmmədov Yolçu Bayram oğlu (sıravi əsgər), Kazımov Sadıx Məmməd oğlu (sıravi əsgər), Hacıyev Haşım Abdulla oğlu (sıravi əsgər), Əsgərov Qasım Həsən oğlu (sıravi əsgər), (Qasımov Yusif Həsən oğlu (sıravi əsgər), Bağırov Allahverdi Qurban oğlu (sıravi əsgər), Musayev Cəbrayıl Əli oğlu (sıravi əsgər), Salmanov Qurban Əlisüleyman oğlu (sıravi əsgər) və başqaları qırıcı dəstə komandiri və əsgərləri idi.

Yaradılmış bu qırıcı dəstələr ərazimizə düşmən tərəfindlən atılmış desantların və diversiya qruplarının vaxtında aşkar edilərək məhv edilməsi, əhəmiyyətli sənaye obyektlərinin və su anbarlarının qorunması, ordu sıralarından qaçıb fərrarilik edənlərin üzə çıxarılması və orduya cəlb edilməsi, casusluq edənlərin aşkar olunaraq tutulması və s. hərbi əməliyyatları yerinə yetirirdilər.

17 noyabr 1943-cü ildə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarı mayor Q.Nağıyev və Naxçıvan MSSR Xalq Daxili İşlər Ko-

---

1. Nax. MR DA. f.648. s.1. iş.1. v.1.
2. Yenə orada. v. 6.

missarlığının 19-cu qırıcı batalyonunun qərargah rəisi böyük leytenant Miloserdiyev Azərbaycan SSR XDİK-nın qırıcı batalyonunun qərargah rəisi Doluxanov yoldaşa xüsusi məlumatlarında yazırdı: «14 noyabr 1943-cü ildə Naxçıvan MSSR XDİK-na Ermənistan SSR-nin Əzizbəyov rayonundan gələn casusların yerinin təyin edilməsi barədə məlumat verilmişdir. Həmin quldurların ləğv edilməsi üçün 19-cu qırıcı batalyonun rəisi və bir qrup əsgərlər göndərilərək onlara Şərur rayonunun Qarabağlar kəndindən az aralı Porsuğ dağında və Ermənistan SSR-nin Əzizbəyov rayonunun Sultanbəy yerində axtarışlar aparılmasına dair göstəriş vermişdir. Axtarışlar zamanı üç quldurun gizləndiyi yer müəyyən edilmiş və quldurlara silah işlətmədən təslim olmaları məsləhət görülmüşdür. Lakin üç nəfərdən ibarət olan quldur qrupu təslim olmamışdır. Bundan sonra batalyon əsgərləri tərəfindən ilk atəş açılmışdır və beləliklə onlar arasında atışma başlamışdır. Atışma nəticəsində quldurlardan Hüseynov Cümşüd Qasım oğlu öldürülmüş, ikinci quldur Əlipaşayev İmran Qurban oğlu sağ ayaqdan yaralanmış, üçüncü quldur isə Cabbarov Hüseyn Həsən oğlu diri tutulmuşdur.

Quldurlarda olan 75 ədəd döyüş mərmiləri və rus nümunəvi silahlar götürülmüş və quldurlarla birlikdə Naxçıvan MSSR DİK-na təhvil verilmişdir.

Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığı bunları bildirməklə qırıcı batalyonun əsgərlərinin göstərdikləri mərdlik və igidliyə görə mükafatlandırılması xahiş olunur» (1).

Şahbuz zonasına düşmən tərəfindən atılan desantların tutulmasında böyük xidmətləri olmuş Şahbuz rayon milis şöbəsinin rəisi, həmçinin Şahbuz üzrə qırıcı batalyonun rəisi Qasım Sadıq oğlu Hüseynovun bu sahədəki xidməti daha böyükdür. Qasım Hüseynov kimdir?

Qasım Hüseynov 1898-ci ildə Sədərək kəndində anadan olmuş, uşaq yaşlarından kənd həyatının tələb etdiyi fiziki işlərdə çalışmışdır.

Yoxsul ailədə böyüyən Qasım iqtisadi çətinliklərə və haqsızlıqlara məruz qalır. Bu azmış kimi 1918-ci ildə erməni daşnak qoşunlarının Şərur-Dərələyəz qəzalarına basqınları əhalini daha da var-

1. Nax. MRDA. f.648. s.1. iş.1. v.12-14.

yoxdan çıxarır. Erməni daşnak hücumlarının qarşısının alınması üçün Sədərəkdə Həsən Şahverdi oğlunun başçılığı ilə cavanlardan ibarət müdafiə dəstəsi yaradılır. Q.Hüseynov gənc ikən bu dəstəyə daxil olur. Beləliklə Q.Hüseynovun döyüş fəaliyyəti 1918-ci ildən başlayır. Sədərək kəndi 3 il döyüş məkanına çevrilir.

Partizan Qasım Hüseynov öz xatirələrində yazırdı: «İngilis hərbiçiləri ilə əlbir olan daşnak qoşunları böyük qüvvə ilə hücuma keçdi. Həsən Şahverdi oğlunun dəstəsi mütəşəkkil sürətdə kəndi tərk etdi. İzdihamlı mühacir axını Abbasqulu Şadlinski ilə birləşərək Xoya (İrana) getdik, Naxçıvana bolşeviklərin gəlməsini eşidib geriyə, vətənə qayıtdıq. Bu zaman Abbasqulu bəyin də dəstəsi Culfadan keçmişdi. Biz yenidən onunla birləşdik. Abbasqulu bəyin rəhbərliyi ilə hərəkət edən «Qırmızı tabor» erməni Daşnaklarının əlində olan Şərur və Dərələyəzi azad etmək üçün döyüşə getdi. Rind altında daşnak süvariləri ilə döyüşə girdik. 17 nəfər itgi verdik. Bizim Sədərək dəstəsindən Əli Qədim oğlu, Məhərrəm Kərbəlayi İsmayıl oğlu, yetim Məhəmməd və başqaları öldürüldü. Biz yenidən Rind kəndinə girdik, daşnaklara əsir düşən 30 nəfər bolşeviki azad etdik» (1).

«Qırmızı tabor»un vzvod komandiri Qasım Hüseynov daşnaklara qarşı aparılan bütün hərbi əməliyyatlarda mərdliklə iştirak etmişdir. Qasım Hüseynov Dərələyəz və Mehri hərbi əməliyyatlarında göstəriyi rəşadətə görə «Qırmızı bayraq» ordeni ilə təltif edilmişdir.

Vətəndaş müharibəsi başa çatır. Qasım Hüseynov dinc quruculuq işlərinə qayıdır. Bir neçə il kənddə əkinçilik təsərrüfatında çalışır. İnzibati orqanlara böyük həvəs göstərən Qasım 1924-cü ildə Şərur qəza Milis İdarəsinə dəvət edilir. O da bu işə qəbul olunur. Bu dövrdə xaricdən göndərilən kürd quldur basqınlarına qarşı mübarizədə milis baş leytenantı Qasım Hüseynovun da misilsiz xidmətləri olur.

Kollektivləşmə illəri keçib taborçunun həyatında xüsusi ilə silinməz illər olmuşdur. O, rayonda və kəndlərdə kollektivə təsərrüfatına qarşı çıxan bir çox qolçamaq ünsürlərə, silahlı bandalara qarşı mərdliklə mübarizə aparmışdır.

Naxçıvan MSSR Baş Milis İdarəsi Q.Hüseynovun milis xidmətində perspektivini nəzərə alaraq 1933-cü ildə onu bir illik

---

1. Nax. MRDA. f.582. s.1. iş.26. v.39-40.

Azərbaycan milis məktəbinə göndərir. Məktəbdən o, Şərur rayon Milis İdarəsinin sərəncamına verilir. Burada 10 il sahə müvəkkili kimi fəaliyyət göstərir. İnzibati orqanlarda püxtələşən Qasım 1943-cü ildə Şahbuz rayonuna milis rəisi təyin edilir.

Bu dövrdə Şimali Qafqazda və Cənubi Krım ətrafında alman faşist işğalçıları ilə ölüm-dirim mübarizəsi gedirdi. Alman komandanlığı başqa cəbhəarxası rayonlar kimi Naxçıvan MSSR-nin dağ meşələrinə də desant tökdürdü.

Milis rəisi Qasım Hüseynovun başçılığı ilə desant qüvvələrinə qarşı zərbə dəstəsi yaradılır. Biçənək və Nurs dərələrinə tökülən faşistlər axtarılıb tapılır, desant dəstələri tamamilə ləğv edilirdi. Qasım Hüseynov bu yüksək xidmətlərə görə ikinci dəfə «Qırmızı bayraq» ordeninə layiq görülür. 1950-ci ildə onun milis sistemində 30 illik qüsursuz fəaliyyəti isə yüksək mükafat olan «Lenin ordeni» ilə qeyd edilir.

1954-cü ildən təqaüdə çıxan Qasım Hüseynov 1980-cı ildə Sədərək kəndində vəfat etmişdir.

31 yanvar 1943-cü ildə 19-cu qırıcı batalyonun Naxçıvan şəhərində yerləşən qərargahında bütün şəxsi heyətin yığıncağı keçirilmişdir. Yığıncaqda qırıcı batalyonun müharibə şəraitində fəaliyyətindən, gördüyü işlərdən geniş söhbət açılmışdır. Sonra şəxsi heyət bu yığıncaqda qırmızı ordunun yaranmasının 25-ci il dönümü münasibəti ilə bir çox şəhər və kəndlərin alman faşistlərindən azad edən partizanlara pul və baratlar göndərilməsini qərara alır. Elə həmin yığıncaqda 19-cu qırıcı batalyonun şəxsi heyəti tərəfindən 1170 rubl pul və bir çox isti paltarlar yığılaraq göndərilir. Yığıncaqda iştirak edənlər Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən digər qırıcı batalyonlara müraciət qəbul etmiş onları da döyüşən cəbhələrdə vuruşan oğullarımıza yardım etməyə çağırmışlar.

1943-cü ilin yanvar ayında 19-cu qırıcı batalyonun milis işçiləri tərəfindən 4 nəfər tutulmuş və Naxçıvan rayonunun (indiki Babək) Əznəbürd kəndi ilə Şahbuz rayonunun sərhəddinə düşmən aviasiyası tərəfindən atılmış minlərlə təxribat xarakterli kağızlar yığılaraq Naxçıvan MSSR Daxili İşlər Komissarlığına təhvil verilmişdir.

Araşdırılan sənədləri və «Şərq qapısı» qəzetinin səhifələrini vərəqlədikdə məlum olur ki, müharibə illərində muxtar respublikanın milis orqanları əməkdaşları zəhmətkeşlərin asayişini qorumaqla faşist

desantlarının tutulub məhv edilməsində və həmçinin dövlət əmlakını oğurlamaqla qanunçuluğu pozanlara qarşı fəal mübarizə aparmışlar.

19 yanvar 1944-cü il tarixli «Şərq qapısı» qəzeti yazır: «Ərəfsə kolxozunun sədr və briqadiri yaz əkini müddətində 4 tondan artıq taxılı yerə səpməyərək oğurlamışlar. Milis işçiləri bu cinayəti açmışlar, cinayətkarlar isə 10 il həbs cəzası ilə cəzalanmışlar» (1). Sənədlərdə 1944-1945-ci illərdə belə faktların digər rayon kolxozlarında da olduğu aşkar edilmiş, cinayətkarlar vaxtında aşkar edilərək həbs edilmişlər.

Ağır müharibə illərində yorulmaq bilmədən xalqın asayişi keşiyində duran cinayətkarlığa qarşı amansız mübarizə aparan Naxçıvan MSSR-nin Daxili İşlər Komissarı işləmiş Qarabala Məşədi oğlu Nağıyevin (1942-1951-ci illərdə), Naxçıvan Baş Milis İdarəsinin rəisi işləmiş A.S.Antadzenin, Nəbi İmamquliyevin, Şərur rayon milis şöbəsinin rəisi Məmmədqulu Əlimirzə oğlu Quliyevin, Ordubad rayon milis şöbəsinin rəisi Hacıbala Sadıq oğlu Maksimovun, Şahbuz rayon milis şöbəsinin rəisi Cabbar Xəlil oğlu Abbasovun (1937-1943-cü illər) və Qasım Hüseynovun (1943-1950-ci illər), Naxçıvan rayon (Babək) milis şöbəsinin rəisi Məmməd Məmmədovun, Naxçıvan şəhər milis şöbəsinin rəisi Abbas Orucovun, Əbrəqunus rayon milis şöbəsinin rəisi Qasım Abdulla oğlu Hüseynovun, Culfa rayon milis şöbəsinin rəisi M. Məmmədovun və milis işçilərindən Kərim Quliyevin, Məmməd Həsənovun, İbrahim Qasımovun, İsmayıl Rüstəmovun, Yusif Əliyevin, İdris Abbasovun, Ömər Muradovun, Əsəd Əsədovun, Səməd Quliyevin və onlarla başqalarının böyük xidmətləri bu gün də unudulmur.

Neçə-neçə milis işçimiz Böyük Vətən müharibəsini zəfərlə başa vuraraq göstərdikləri qəhrəmanlığa görə orden və medallarla təltif olunmuşlar.

Qısaldılmış formada yazılmış bu faktlar Böyük Vətən müharibəsi illərində, ağır imtahan günlərində Naxçıvan milisinin vətənə və xalqa hədsiz sədaqətini parlaq şəkildə nümayiş etdirir. Bu bir tarixdir. Bu tarix qorunmalı, sevilməli və öyrənilməlidir. Bu günkü gənclər yeni tarixi yaradarkən keçilmiş yolların təcrübəsini ümumiləşdirməlidirlər.

---

1. «Şərq qapısı» qəzeti, 19 yanvar 1944-cü il.

# III FƏSİL
# NAXÇIVAN POLİSİ QURUCULUQ DÖVRÜNDƏ

Müharibə Azərbaycana, o cümlədən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına olduqca ziyan vurmuşdur. Odur ki, bərpa və quruculuq illəri adlanan həmin dövrlərdə Muxtar Respublika zəhmətkeşləri siyasi fəallıq və əmək coşğunluğu ilə çalışırdılar. Təbiidir ki, müharibənin tüğyan etdiyi bir ölkədə qəsbkarlıq, soyğunçuluq, dövlət əmlakını oğurlama və s. cinayət halları təzahür edir. Bütün bunlara qarşı mübarizədə milis orqanlarının üzərinə ciddi məsuliyyət düşürdü. Odlu və soyuq silahlarla silahlanmış cinayətkarlar çirkin fəaliyyətləri ilə ictimai asayişi pozurdular. İctimai və vətəndaşların şəxsi əmlaklarının təhlükəsizliyi təmin etmək məqsədi ilə qəti tədbirlər görmək tələb olunurdu. 4 iyun 1947-ci ildə SSRİ və Azərbaycan SSR Ali Soveti «Vətəndaşların əmlakının qorunmasını gücləndirmək barədə» qanun qəbul etdi. Bu qanunda soyğunçuluq və vətəndaşların əmlakının oğurlanmasına qarşı daha ciddi cinayət məsuliyyəti təyin olundu.

İctimaiyyətin köməyi ilə milis orqanları əhalidə olan qanunsuz silah və sursatları yığmağa başladı. Bu da silahlı quldur hücumlarının qarşısını almağa, qanunçuluğun möhkəmlənməsinə xeyli kömək göstərmiş oldu. Müharibədən sonra milis orqanlarına döyüşlərdə fərqlənmiş yeni qüvvələr cəlb olunurdu. Müharibə dövründə təcrübəli milis' işçilərinin bir çoxu cəbhədən geri dönməmiş, digərləri isə arxa cəbhədə düşmənlərin agentləri və cinayət elementləri ilə mübarizədə həlak olmuşdular.

1946-1951-ci illərədək partiya və sovet orqanlarının qərarı ilə 100-dən artıq yeni kadr milis orqanlarına xidmətə göndərilMişdir. Onların sırasında Cəfər Hüseynov, Məmməd Şahgəldiyev, Rza Hacıyev, Baloğlan Rüstəmov, Əli Qurbanov, Cəbi Mahmudov, Məmməd Həsənov, İbrahim Həsənov, Bağır Sadiqov, Rahi Əliyev, Həsənqulu Əliyev, Bədəl Bədəlov, Asəf Tağıyev, Elman Əhmədov, Mustafa Nəcəfov, Aydın Hüseynov və başqalarını göstərmək olar.

Təcrübəli zabitlərin və əsgərlərin milis orqanlarına göndərilməsi milis orqanlarının işində əsaslı dönüş yaratdı. Onlar özlərinin döyüş təcrübələrindən istifadə edərək cinayətkarlığa qarşı ba-

carıqla mübarizə aparır, həmçinin öz bilik və təcrübələrini gənc milis işçilərinə həvəslə öyrədirdilər. Lakin onların özləri də kifayət qədər operativ xidmətin spesifikası ilə tanış deyildilər. Bu baxımdan lazımi səviyyədə təcrübəli milis orqanlarının hazırlanmasını təşkil etmək problemi əsas məqsəd kimi ortaya qoyuldu.

Buna görə də Naxçıvan MSSR Daxili İşlər Nazirliyi (1946-cı ilin martından Daxili İşlər Nazirliyi adı təsis olunur) tərəfindən 1947-1955-ci illərdə ixtisaslarını artırmaq məqsədi ilə 30-dan çox milis işçisi Bakı milis məktəbinə və ali məktəblərə göndərildi.

Naxçıvan milis orqanlarının fəaliyyətini yaxşılaşdırmaq sahəsində, həmçinin ixtisaslı milis kadrlarının hazırlanmasında və cinayətkarlığa qarşı mübarizədə böyük əhəmiyyəti olmuş, 10 ilə yaxın (1942-1951-ci illərdə) Naxçıvan MSSR Daxili İşlər naziri işləmiş Qarabala Kərim oğlu Nağıyevin də böyük xidmətləri olmuşdur.

Qarabala Nağıyev istər müharibə, istərsə də müharibədən sonrakı dövrlərdə Naxçıvan Muxtar Respublikasında neçə-neçə cinayətlərin (saysız-hesabsız oğurluğun, soyğunluğun, qətillərin) üstünün açılmasına bacarıqla rəhbərlik etmiş, yeri gəldikdə özü də əməliyyatlarda adi milis nəfəri kimi iştirak etmişdir.

Milis polkovniki Qarabala Nağıyevin Daxili İşlər Naziri işlədiyi dövrdə onun fəaliyyəti və əməyi yüksək qiymətləndirilərək «Qırmızı ulduz», «Qırmızı bayraq» ordenləri, «Qafqazın müdafiəsinə görə», «Asayişin mühafizəsində olan xidmətlərinə görə», və s. medallarla, fəxri fərmanlarla təltif olunmuş, banditizmin ləğvində göstərdiyi şücaətə görə «Valter» markalı tapança ilə mükafatlandırılmışdır.

Həmin illərdə hər cür cinayətkarlığın aradan qaldırılmasına kömək məqsədi ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin və Daxili İşlər Nazirliyinin bir sıra qərarları olmuşdur. Belə ki, Naxçıvan MSSR DİN-nin milis işçilərinin, partiya fəallarının 10 avqust 1954-cü il tarixdə keçirilən iclasında qeyd olunur ki, Milis İdarəsinin və rayon şöbələrinin rəhbərləri ictimai asayişin mühafizəsi və cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi ilə əlaqədar partiya və hökumətin göstərişlərindən özləri üçün ciddi nəticə çıxararaq cinayətkar elementlərə qarşı mübarizəni daha da gücləndirmişlər. Lakin buna baxmayaraq muxtar respublikada hələ də

sosialist əmlakını dağıdanlara, alverçi və ictimai asayişi pozanlara qarşı təsirli tədbirlər görülmür, elə buna görədir ki, təkcə 1954-cü ilin 7 ayı ərzində 26 cinayət hadisəsi baş vermişdir.

Həmçinin yol hərəkəti qaydalının mühafizəsi işi yarıtmaz təşkil olunduğundan Naxçıvan MSSR Daxili İşlər Nazirliyinin Dövlət Avtomobil Müfəttişliyinin işçiləri avtomaşınların texniki baxışına lazımı səviyyədə nəzarət etməməsi, sürücülərə qarşı laqeyid davranışı nəticəsində 1954-cü ilin 7 ayında 15 avtonəqliyyat qəzası baş vermiş, qəza nəticəsində 17 adam həlak olmuş və 22 adam yaralanmışdır.

Yığıncağın qərar hissəsində Naxçıvan milis idarəsinin və şəhər rayon milis şöbələrinin rəislərinə və milis işçilərinə cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, şəxsi əmlakın oğurlanmasının qarşısının alınması, ictimai asayişin qorunması və yol nəqliyyat hərəkəti qaydalarınn pozulmasında yol verilmiş nöqsanların tezliklə aradan qaldırılması barədə tapşırıqlar verilir (1).

30 noyabr 1956-cı il tarixdə isə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin büro iclasının gündəliyində bir çox məsələlərlə yanaşı «Naxçıvan MSSR ərazisində şəxsiyyət əleyhinə (qəsdən adamöldürmə) qarşı törədilən cinayətlərin vəziyyəti və bu sahədə mübarizənin gücləndirilməsi tədbirləri haqqında» məsələ də müzakirə olunmuşdur.

İclasda qeyd olunmuşdur ki, muxtar respublika ərazisində şəxsiyyət əlehinə (qəsdən adamöldürmə) qarşı törədilən cinayətlərin azaldılması və aradan qaldırılması məqsədi ilə aparılan profilaktiki tədbirlər qeyri-qənaətbəxş olması səbəbindən bu kimi cinayətlər artmaqda davam etməkdədir.

Belə ki, 1955-ci il ərzində cəmi dörd qəsdən adamöldürmə faktı qeydə alınmışdırsa, 1956-cı ilin on ayında 3 adamöldürmə cinayəti törədilmişdir ki, bunlardan bir fakt bu günə qədər açılmamışdır.

Şəxsiyyət əleyhinə qarşı törədilmiş cinayətlərin artmasının başlıca səbəblərindən biri də bu cinayətlərin vaxtında üstünün açılmaması, cinayət törədənlərin məsuliyyətə cəlb edilməməsi ilə əlaqədardır.

Bu kimi halların baş verməsi yerlədə prokurorluq, daxili işlər və məhkəmə orqanlarının fəaliyyətinə partiya və sovet orqanla

1. Nax. MR DA. (keçmiş partiya arxivi), f.1. s.1. iş.499. v.4-6.

rının zəif nəzarət etməsi, həmin təşkilatlarda çalışan bəzi məsuliyyətsiz əməkdaşların hərəkətlərinə göz yumaraq buraxılan nöqsanlara qarşı barışdırıcı mövqedə dayanmasıdır.

Naxçıvan muxtar respublikası ərazisində qeydə alınmış şəxsiyyət əleyhinə qarşı törədilən cinayətlərin təhlili göstərir ki, cinayətlər əksər hallarda oğurluq, qisasalma və digər zəminlərdə baş vermişdir.

Bütün bunlar onu göstərir ki, vətəndaşların şüurlarından hələ də keçmişin qalıqları silinməmişdir. Onların təlim-tərbiyəsinin yüksəldilməsində, mənəviyyatının formalaşdırılmasında partiya, sovet, komsomol və həmkarlar ittifaqının rolu demək olar ki, yox dərəcəsindədir.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi və Nazirlər Sovetinin qəbul etdiyi qərarda göstərilirdi ki, şəxsiyyət əleyhinə (qəsdən adamöldürmə) törədilən cinayətlərə qarşı əməliyyat-axtarış və təhqiqat tədbirlərinin gücləndirilməsi işi prokurorluq, daxili işlər və məhkəmə orqanlarından ciddi tələb edilsin (1).

4 oktyabr 1960-cı il tarixdə isə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin büro iclasında «Naxçıvan MSSR-də cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və ictimai asayişin qorunmasında ictimaiyyətin rolunun artırılması» haqqında məsələ müzakirə olunmuş və qeyd edilmişdir ki, bu sahə üzrə müəyyən işlər görülsə də hələ də ağır cinayətlərin qarşısının alınmasında, xüsusi ilə qəsdən adam öldürmə hallarında ciddi çatışmamazlıqlar mövcuddur.

Statistik məlumatlar onu göstərir ki, muxtar respublika ərazisində baş vermiş cinayətlərin sayı artmaqda davam edir. Əgər 1959-cu il ərzində cəmi 64 ağır cinayət qeydə alınmışdırsa, artıq 1960-cı ilin altı ayında 56 ağır cinayət törədilmişdir. Bütün bunlar onu göstərir ki, son vaxtlar partiya, sovet və inzibati orqanlar tərəfindən cinayətlərin azaldılmasında məqsədyönlü iş aparılmamış, cinayətkarlara qarşı mübarizə kəskin şəkildə qoyulmamışdır.

Ağır cinayətlərin sayının artması xüsusi ilə Naxçıvan (Babək-F.C.) və Şərur rayonları ərazisində baş vermişdir (2).

---

1. Nax. MR DA. f.1. s.1. iş.499. v.6.
2. Nax. MR DA. f.1. s.28. iş.280. v.39.

1960-cı illərdə milis orqanlarında peşəkar, təcrübəli kadrların komplektləşməsi nəticəsində vətəndaşların şəxsi əmlaklarının oğurlanması, talan, quldurluq, qatillik və s. cinayətlərə qarşı mübarizə daha da gücləndirildi.

60-cı illərdə müxtəlif ağır cinayətkarlıqla mübarizədə təkmilləşmə prosesi gedirdi. İstintaq və məhkəmədən gizlənmiş, axtarışda olan şəxslərin tapılmasına diqqət artırılmış və bunun üçün xüsusi hissələr yaradılmışdır.

Həmin illərdə ağır cinayətlərin açılması, axtarışda olan cinayətkarların aşkar edilib tezliklə tutulması məqsədi ilə milis orqanlarına təcrübəli mütəxəssislər cəlb olunur.

1960-cı ildən 1970-ci ilədək həyata keçirilmiş tədbirlər cinayətkarlıqla mübarizədə bu xidmətin taktikasında müsbət dəyişikliklər üçün şərait yaratdı. Müxtəlif növ cinayətlərlə mübarizədən ötrü xüsusi hissələr yarandı. Mağazalardan oğurluq, ev oğurluqları, cibgirlik, şəxsiyyətə qarşı olan cinayətlər, ailə zəminində olan cinayətlər və s. qarşı mübarizədə forma və metodların təkmilləşməsinə xüsusi diqqət verilirdi.

Araşdırılan sənədlərdən məlum olur ki, əgər 1946-cı ildə muxtar respublikada 52 cinayət hadisəsi qeydə alınmışdısa, 1950-ci ildə 78, 1960-cı ildə 127, 1967-ci ildə 248, 1970-ci ildə isə 347 cinayət hadisəsi qeydə alınmışdır (1). Söz yox ki, bu cinayətlərin artmasına səbəb daxili işlər orqanlarının fəaliyyətində olan ciddi nöqsanlar idi.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin 7 may 1969-cu il tarixli büro iclasında Naxçıvan Daxili İşlər naziri M.Yaqubovun «XXVIII vilayət partiya konfransının qərarlarının DİN tərəfindən icra olunması haqqında» məruzəsi dinlənilmiş və müzakirə olunmuşdur. Müzakirə zamanı qeyd olunmuşdur ki, XXVIII Naxçıvan Vilayət Partiya konfransının və plenimunun qərarlarından sonra ictimai asayişin qorunmasının təşkil edilməsi işi xeyli yaxşılaşdırılmışdır.

Lakin buna baxmayaraq DİN-nin işində yuxarı partiya və sovet orqanlarının qərarlarının həyata keçirilməsində çatışmamaz

1. Yenə orada. s.1. iş.99. v.50-52.

lıqlar var idi. Nazirlik və onun yerli orqanları 19 noyabr 1968-ci il tarixli «Milisin fəaliyyətində ciddi çatışmamazlıqlar və gələcəkdə onların işinin gücləndirilməsi haqqında» qərarının tələblərini zəif həyata keçirmişlər. Belə ki, Naxçıvan Muxtar Respublikasında keçən illərə nisbətən cinayətlərin sayı xeyli artmışdır. Əgər 1967-ci ildə 243 cinayət hadisəsi qeydə alınmışdısa, 1968-ci ildə bu cinayətlərin sayı 312 olmuşdur. Bu ağır cinayətlər xüsusi ilə Ordubad, Naxçıvan (Babək) və Şərur rayonlarında olmuşdur. Büro iclasının qəbul etdiyi qərar layihəsində DİN-ə və onun yerli orqanlarına muxtar respublikada baş verən cinayətlərin tezliklə aradan qalldırılması tövsiyyə edilmişdir (1).

14 dekabr 1971-ci ildə «Şərq qapısı» qəzetində Şahbuz rayon Daxili İşlər şöbəsinin rəisi, milis mayoru M. Məmmədovun «Cinayət baş verməyə bilər» başlığı ilə gedən yazısında oxuyuruq: «Şöbəmizin əməkdaşları quruluşumuza yabancı olan ünsürlərin kökünü kəsmək, onların ictimai-faydalı əməyə cəlb etmək üçün ictimaiyyətlə əlaqəni daha da möhkəmləndirir, vaxtında profilaktiki tədbirlər aparır və rayonumuzda cinayət hadisəsinin baş verməməsi üçün əllərindən gələni edirdilər.

Bir neçə ayın söhbətidir. Növbədə olan milis nəfərimizdən H.Cabbarov və O.Qurbanov Ermənistan SSR-ə məxsus olan QAZ-51 markalı iki avtomaşını saxlayıb sənədlərini yoxlayırdı. Maşınların Yerevan avtonəqliyyat idarəsinə məxsus olduğu və hər birinə 40 çəllək pendir yükləndiyi müəyyən edildi. Hər iki sürücü şöbəyə gətirilib dindirildi. Aydın oldu ki, onların heç birinin sənədi yoxdur. Yol vərəqəsində isə düzəliş edilərək Arınc-Yerevan sözü yazılmışdır. Yük isə Naxçıvan Yağ-Pendir zavodunun Şahbuz rayonundakı Arınc kəndində yerləşən süd qəbulu məntəqəsindən götürülmüşdür.

Lazımi təşkilatlarla əlaqə saxladıq. Aşkar etdik ki, bu işdən məntəqə müdiri Sergey Simonyandan başqa heç kəsin xəbəri yoxdur. Hər şey aydınlaşdırıldı. Cinayətkar cəzasına çatdı.

Cinayət baş verməyə bilərdi. Axı əməliyyat camaatın gözü qarşısında keçirilib. Bəs necə olub ki, Arınc kimi böyük bir kənd

---

1. Nax. MR DA. f.1. s.1. iş.99. v.51.

də bu əməliyyat heç kimin diqqətini cəlb etməyib. Digər tərəfdən süd qəbulu məntəqəsinin müdiri S.Simonyan necə olub ki, mənimsəmə üstündə bir dəfə məsuliyyətə cəlb edildiyi halda ikinci dəfə belə bir məsul vəzifəyə qoyulub.

Belə misallardan çox çəkmək olar, lakin bu bir həqiqətdir ki, bütün ictimaiyyət onların malına xor baxanları vaxtında aşkara çıxarsa, məsul şəxslər düzgün yerləşdirilsə hamı əl-ələ verib işləsə cinayət hadisəsi baş verməyə bilər» (1).

12 mart 1974-cü ildə Naxçıvan Vilayət Partiya Konfransında Azərbaycan KP MK-nın birinci katibi H. Əliyev çıxış edərək hüquq mühafizə orqanlarının fəaliyyətində olan nöqsanları çox ciddi şəkildə tənqid etmişdir. H. Əliyev cənabları çıxışında qeyd edir ki, «Naxçıvan Muxtar Respublikası inzibati orqanlarının fəaliyyətində nöqsan çoxdur. Üç il ərzində törədilən cinayətlərin sayında çox da dəyişikliklər olmamışdır. Lakin bu əsəs göstərici deyildir və Naxçıvan MSSR prokuroru, Daxili İşlər naziri, Ədliyyə naziri və Ali Məhkəməsinin sədri elə zənn etməsinlər ki, onların işinin nəticəsi bununla müəyyən edilir.

Əldə olan məlumatlar göstərir ki, Naxçıvan MSSR-nın Daxili İşlər Nazirliyi, Prokurorluq orqanları cinayətkar ünsürlərə qarşı lazımınca mübarizə aparmırlar. Möhtəkirlər, sovet ticarəti qaydalarını pozanlar, dövlət mülkiyyətini oğurlayanlar çox az hallarda aşkara çıxarılır. 1969-cu ildən sonra Azərbaycan respublikası üzrə dövlət mülkiyyətini oğurlamaq, rüşvətxorluq, qənimətçilik üstündə, vəzifəsindən sui-istifadə etmək üstündə cinayət məsuliyyətinə cəlb edilən şəxslərin sayı xeyli artmışdır. Bu göstərici yaxşıdır, yoxsa pis? Yaxşıdır. Bəziləri statistika məlumatına əsaslanıb deyə bilər ki, cinayətkarlıq artmışdır. Yox, cinayətkarlığa qarşı mübarizə güclənmişdir. Hərçənd əldə edilmiş nəticələri biz qənaətbəxş hesab etmirik. Naxçıvan Muxtar Respublikasında isə cinayətkarlığa qarşı mübarizənin bu cür güclənməsi hiss olunmur. Bununla yanaşı törədilmiş cinayətlər barədə materialların Prokurorluq, Daxili İşlər Nazirliyi orqanlarına, Məhkəmələrə verildiyi hallarda da çox vaxt orada anlaşılmaz süründürmə çilik başlanır. Təsadüfü deyil-

---

1. «Şərq qapısı» qəzeti, 14 dekabr 1971-ci il.

dir ki, Vilayət Komsomol Komitəsinin birinci katibi burada çıxış edəndə mən onun sözünü kəsib soruşdum: necə olar ki, nalayiq əməlləri ifşa edilən bir adamın sonradan öz işinə bərpa etsinlər?

Misal üçün belə bir fakt. Şərur rayonundakı Naxçıvan MSSR-nin 40 illiyi sovxozunda oğurluq və israfçılıq barədə oradan dəfələrlə siqnal alınırdı. Hər dəfə yoxlama aparıb deyirdilər ki, faktlar təsdiq edilmədi. Azərbaycan KP MK işə qarışıb sovxozda yoxlama təşkil etməli oldu. Yoxlama nəticəsində israfçılığa, oğurluğa, sui-istifadə hallarına dair bir çox faktlar aşkar edildi. Təftiş mAteriallları əsasında Naxçıvan MSSR Daxili İşlər Nazirliyi cinayət işi qaldırmış və bu iş prokurorluğa verilmişdir» (1).

XXX Naxçıvan Vilayət Partiya Konfransında H. Əliyev cənablarının hüquq mühafizə orqanlarının işimlə bağlı göstərdiyi nöqsanlarla konfransın qəbul etdiyi qərarda muxtar respublikada bu nöqsanların tezliklə aradan qaldırmaq və cinayətkarlığa qarşı mübarizəni daha da gücləndirmək haqqında hüquq mühafizə orqanlarının qarşısında mühüm vəzifələr qoyuldu.

Naxçıvan MSSR DİN-i və onun şəhər, rayon şöbələri konfransın qərarlarından irəli gələn vəzifələri əldə rəhbər tutaraq 1975-1977-ci illərdə muxtar respublikada cinayətlərin qarşısının alınması sahəsində bir çox profilaktik işlər görmüşlər. Nəticədə 1975-ci illə müqayisədə 1976-cı ildə təhlükəli cinayətlərin sayı 47%, azyaşlılar arasında cinayətlər iki dəfə, şəxsi əmlakın oğurlanması hadisəsi 27,8%, dövlət əmlakının mənimsənilməsi hadisəsi 69%, alkoqolizm və narkomaniya üzrə 39,5%, avtomobil qəza hadisəsi üzrə 18% azalmışdır (2).

Müharibənin sonrakı illərində azyaşlı uşaqların hüquq pozuntularına qarşı mübarizədə Naxçıvan milisinin də böyük xidmətləri olmuşdur. Müharibə illərində yüzlərlə uşaq öz valideyinlərini itirmişdir. Bu da kütləvi surətdə uşaq yiyəsizliyi və uşaq nəzarətsizliyi yaratmışıdır. Müharibədən sonrakı illərdə azyaşlılar arasında cinayətkarlığın artması məhz bununla izah olunurdu. Yüzlərlə kimsəsiz uşağı aclıqdan, cinayətkarlıqdan və avaraçılıqdan xilas etmək lazım idi. Milis orqanları ilə bərabər

1. «Şərq qapısı» qəzeti, 12 mart 1974-cü il.
2. Nax. MR DA. f.1. s.9. iş.19. v.79-80.

səhiyyə və maarif nazirlikləri, həmçinin uşaq evləri tərəfindən bu barədə ciddi tədbirlər görülürdü.

Uşaqlarla işin ağır hissəsi milisin azyaşlılarla iş şöbəsinin üzərinə düşürdü. Bu şöbənin əməkdaşları ictimaiyyətçilərlə birlikdə küçələri, həyətləri gəzərək sahibsiz və nəzarətsiz uşaqları aşkar edir, həmin uşaqları tibbi müayinədən keçirdikdən sonra uşaq evlərinə, Əbrəqunus və Ordubad internat məktəblərinə, yaxud xüsusi peşə məktəblərinə göndərirdilər.

Əgər 1945-ci ildə uşaq evinə və internat məktəblərinə 106 nəfər göndərilmişdisə, 1950-ci ildə 128 nəfər, 1960-cı ildə isə 149 nəfər göndərilmişdir (1).

Naxçıvan Muxtar Respublikasında müharibədən sonra respublikanın xalq təsərrüfatına bir çox hərbi hissə və birləşmələrin buraxılması hesabına çox saylı avtomobil daxil oldu. Bundan əlavə avtomobil sənayesində avtomaşın buraxılışı yüksəldiyindən respublikanın yollarında, şəhər və yaşayış məntəqələrində hərəkət intensivləşirdi. Eyni zamanda müharibədən sonrakı illərdə bir çox köhnə markalı, həmçinin işlənmə müddəti keçmiş maşınlardan istifadə olunurdu.

Hərəkətin yeni idarə olunması sistemi muxtar respublikanın şəhər və rayonlarında genişləndirilmişdir. Keçidlərdə gedişin yüksəlməsi, maşınların boş durması və eyni zamanda yanacağın az işlənməsi, həmçinin milis əməkdaşlarının piyada və nəqliyyat hərəkətinə nəzarəti yaxşılaşdırılımşıdır. Lakin buna baxmAyaraq 50-ci illərə nisbətən 60-cı illərdə muxtar respublikada qəza və yol hərəkəti qaydalarının pozulması, qəza nəticəsində ölüm və ağır yaralanma halları artmışdır.

Azərbaycan KP və Azərbaycan SSR Nazirlər Sovetinin 18 avqust 1959-cu il tarixli «Avtomobil və nəqliyyatda qəza hadisələrinə qarşı mühafizənin gücləndirilməsi haqqında» qərarının muxtar respublikada zəif yerinə yetirilməsi nəticəsində yol qəza hadisələri artmış və ölümlə nəticələnmə halları çoxalmışdır.

1960-cı ilin 10 ayı ərzində Naxçıvan Muxtar Respublikasında yol hərəkəti qəzalarının sayı 1959-cu ilin 10 ayı müddətinə görə

1. Nax. MR DA. f.613. s.2. iş.98. v.45.

19,2% aşağı düşsə də, yol hərəkəti qaydalarının pozulmasından zərər çəkənlərin sayı demək olar ki, dəyişməmişdir (1).

1959-cu ilin 10 ayında 22 yol hərəkəti qaydaların pozulması qeydə alınmışıdr ki, bundan da 35 nəfər zərər çəkmiş, 15 qəza ölümlə nəticələnmişdir. 1960-cı ilin 10 ayı ərzində isə 18 yol hərəkəti qaydalarının pozulması qeydə alınmışıdr ki, bundan da 29 nəfər zərər çəkmişdir. Onlardan 14-ü ölümlə nəticələnmişdir (2).

1967-ci ilin noyabr ayında yollarda qəzaların qarşısınnın alınması məqsədi ilə şəhər yaşayış məntəqələri və avtomobil yollarında təhlükəsiz hərəkətin gücləndirilməsi barədə SSRİ və Azərbaycan SSR Nazirlər Sovetinin qərarı oldu. Qərarla əlaqədar olaraq yol hərəkəti təhlükəsizliyinin təmin olunması üçün dövlət avtomobil müfəttişliyinin fəaliyyətində yeni forma və metodlar strukturuna keyfiyyətli dəyişikliklər edildi. 1967-ci ildə Azərbaycan SSR DİN-nin aparatındakı Dövlət Avtomobil Müfəttişliyi şöbəsi idarəyə çevrildi. 1968-cu ildə isə əlavə şöbəsi, analitik qeydiyyat şöbəsi və texniki vasitələr şöbəsi yaradıldı. Bu dövlət avtomobil müfəttişliyi mərkəzi aparatının işinin təməlini qoydu. Eyni zamanda, Naxçıvan Muxtar RespublikAsında DAM aparatının gücləndirilməsi həyata keçirildi. 1969-cu ildə yol hərəkətinin təşkili və yol nəzarət hissəsi şöbələrinin ştatı hazırlandı və təsdiq olundu. 1971-ci ildən muxtar respublikanın mühüm magistralında xüsusi yol nəzarət hissələri xidməti yaRadıldı. DAM-nin şəxsi heyyətinin ümumi və mədəni səviyyələrinin və onların peşəkarlığının artırılması üçün tədbirlər görüldü.

18 dekabr 1971-ci il tarixdə Naxçıvan MSSR Ali Soveti qanunvericilik mülahizələri daim komissiyanın keçirdiyi iclasında «Naxçıvan MSSR-də yol avtoqəzaları və onun aradan qaldırılması tədbirləri haqqında» məsələ müzakirə olunmuşdur. Həmin məsələ barəsində Naxçıvan MSSR Daxili İşlər Nazirliyinin Dövlət Baş Avtomobil Müfəttişliyinin rəisi Həsənqulu Əliyev məruzə edərək qeyd etmişdir ki, muxtar respublikada küçə hərəkəti qaydalarının pozulması hallarının qarşısının alınması

---

1. Nax. MR DA. f.1. s.1. iş.722. v.12.
2. Yenə orada. v.13.

üçün bir sıra işlər görülmüşdür. Bununla yanaşı muxtar respublikada avtoqəzaların aradan qaldırılması, yol və körpülərin abad hala salınması, sürücülər üzərində ciddi nəzarətin qoyulması sahəsində hələ də nöqsanlar vardır. Bu ilin 9 ayında muxtar respublika ərazisində 25 yol qəzası qeydə alınmışdır.

Muxtar respublika ərazisində baş verən nəqliyyat hadisələrinin təhlili göstərir ki, bunların 80%-dən çoxu sürücülərin hərəkət qaydalarına riayyət etməmələri nəticəsində baş vermişdir (1).

Daimi Komissiya muxtar respublikada avtomobil qəzalarının baş verməsini aradan qaldırmaq məqsədi ilə yol və körpülərin abad hala salınması, nəqliyyat vasitələrindən düzgün və səmərəli istifadə olunması, vətəndaşlara nəqliyyat vasitələrini yaxşılaşdırmaq barədə müvafiq təşkilat başçılarına bir sıra tövsüyyələr vermişdir. Yollarda və dəmir yollarında nəqliyyat hərəkətinin çoxalması respublikada böyük problem yaratmışdır. Bu problem onların təhlükəsizliyini təmin etmək və nəqliyyatda ictimai qaydanın pozulmasını aradan qaldırmaq kimi məsələlərlə bağlı idi.

1983-cü ilin sentyabr ayında «Yol hərəkəti qaydalarını pozduqlarına görə inzibati məsuliyyətə cəlb etmək haqqında» verilən qərar dövlət yol avtomobil müfəttişliyinin işində dönüş yaratdı.

Bu qərarla avtoidarə rəhbərlərinin və digər vəzifəli şəxslərin sürücüdən tələb etmə hüququ alınmışıdır. Məsələn, avtokalonun rəisi yük avtomobilinin «E» dərəcəsi olmayan sürücünü öhdəliyi yerinə yetirməsi naminə yük daşımağa məcbur edirdi. Əvvəllər bu hallara görə rəhbər heç bir məsuliyyətə cəlb olunmurdu. 1983-cü ildə çıxan qərar əsasında DAM-yi işçilərinə sürücünü belə reys etməyə icazə verdiklərinə görə idarə rəisini 30 manatdan 100 manatadək cərimə etməyə səlahiyyət verildi.

70-80-ci illərdə muxtar respublikada böyük quruculuq işləri ilə yanaşı, qanunçuluğun, hüquq qaydalarının, dövlət intizamının möhkəmləndirilməsi sahəsində də geniş miqyaslı iş aparıldı. Cəmiyyətin bütün sağlam, vətənpərvər qüvvələri bu ağrılı, gərgin lakin faydalı prosesdə yaxından iştirak edirdilər. Bu kimi səy sağlam mühit və yorulmaz əzmkarlıq tezliklə qanunçuluğun

1. «Şərq qapısı» qəzeti, 19 dekabr 1971-ci il.

möhkəmləndirilməsi, vətəndaşlarının hüquqlarının qorunması sahəsində neqativ halların aradan qaldırılması ilə nəticələndi, ədalətin zəfər çalmasına meydan açdı.

11 noyabr 1977-ci il tarixli «Şərq qapısı» qəzetində Naxçıvan MSSR Daxili İşlər naziri Y.Əbbülhəsənov «Asiyanın keşiyində» məqaləsində yazırdı: «Biz hər bir təklifi, hər bir ərizəni, hər bir siqnalı diqqətlə, obyektiv şəkildə nəzərdən keçirməli, bunların əsasında müvafiq tədbirlər görməliyik. Bu milis işçilərinin xidməti və müqəddəs vəzifəsidir.

Hazırda milis orqanlarında ixtisaslı hüquqşünaslarla yanaşı, ali təhsilli mühəndis, texniklər, tarixçilər, ədəbiyyatçılar, kimyaçılar, iqtisadçılar və digər bilik sahibləri xidmət edirlər. Milis əməkdaşlarının işini möhkəmləndirmək, kadrların xidmət ustalığını artırmaq üçün də bir çox tədbirlər görülmüşdür.

İşimizdə nöqsanlar da var idi. Muxtar respublikada cinayətkarlığa və onu doğuran səbəblərə qarşı mübarizə işi hələ də qarşıya qoyulan yüksək tələblər səviyyəsində deyildir. Biz nöqsanların aradan qaldırılması üçün lazımi tədbirlər hazırlayıb həyata keçiririk.

...İndiki milis işçilərinin qarşısında daha ciddi və məsul vəzifələr durur. Hazırkı dövrdə milis orqanlarının başlıca vəzifəsi profilaktik işi düzgün və səmərəli təşkil etməkdən, baş vermiş cinayətlərin vaxtında açılmasına və cinayətkarların ifşa edilməsinə nail olmaqdan, cinayətlərin baş vermədən qarşısının alınmasında, dövlət əmlakını dağıdanlar, rüşvətxoruq edib başqasının hesabına varlanmaq istəyənlərlə və bütün antipotlarla qəti və ciddi mübarizə aparmaqdan ibarətdir» (1).

Müharibədən sonra milis şöbələri tərəfindən muxtar respublikada pasport rejiminin təmin edilməsinə də böyük diqqət yetirildi. Çünki istər müharibədən əvvəl, istərsə də müharibə illərində əhalinin qeydiyyatı və uçotu, pasport işi qanuni səviyyədə aparılmışdır.

Əhalinin qeydiyyata alınması, uçotu və pasport işi ictimai-xeyirli işdən qaçan şəxslərin aşkarlanmasına, inzibati qanunun həyata keçirilməsinə, tüfeyli həyat sürənlərlə mübarizəyə və nəhayət saxta sənədlərlə və yaxud qanunsuz pasport ilə qeydiyya-

---

1. «Şərq qapısı» qəzeti, 11 noyabr 1977-ci il.

ta düşmək istəyənlərin aşkar edilib tutulmasına kömək etmək idi. Bütün bunlar muxtar respublikada törədilən cinayətlərin qarşısının alınmasında başlıca amillərdən hesab olunurdu.

1966-cı ildə polis idarələrinin nəzdində olan ictimai asayişin mühafizəsi şöbəsində pasport şöbəsi yaradıldı. Rayon və şəhər milis şöbələrində pasport masaları fəaliyyətə başladı.

1972-ci ildə əhalinin qeydiyyatı kartoteka sisteminə keçirildi ki, bu da evlər idarələrində ev kitablarının aparılması işini yüngülləşdirdi.

Müharibədən sonrakı illərdə Naxçıvan Muxtar Respublikasında post-patrul xidmətinin fəaliyyətinin yüksəldilməsi üçün bir çox işlər görüldü. Xüsusi ilə 60-cı illərin axırlarında 70-ci illərin əvvəllərində ictimai qaydanın mühafizəsi naminə milisin fəaliyyətinin təkmilləşməsi üçün daha fəal yollar axtarıldı. Milisin şəxsi həyatı fövqaladə vəziyyətlərdə və hərbi şəraitdə hərəkətə hazır olmaq ruhunda tərbiyələnirdi. Naxçıvan şəhərində dövlət malının, vətəndaşların şəxsi əmlaklarının mühafizəsi, ictimai asayişin qorunub saxlanması ilə əlaqədar 1972-ci ildən Naxçıvan MSSR Daxili İşlər Nazirliyi yanında mühafizə bölməsi-gecə milisi yaradıldı.

Mühafizə bölməsinin əməkdaşları ilk fəaliyyətə başladıqları vaxtdan bu günə kimi şəhər zəhmətkeşlərinin rahatlığını təmin etməklə dövlət malını, vətəndaşların şəxsi əmlakını, ictimai asayişi göz bəbəyi kimi qoruyur, dövlət mülkiyyətinin keşiyində həmişə hərvaxt dayanırlar.

1972-1980-ci illərdə öz üzərinə düşən tapşırıqlara ləyaqətlə əməl edən gecə milis işçilərindən David Baxşıyev, Südeyif İbRahimov, Hidayət Qədimov, Qafar Əliyev, Eldar Əliyev, Azər Seyidov, Səyyad Rüstəmov, Qasım Namazov və başqalarının adlarını iftixar hissi ilə çəkmək olar (1).

Müharibədən sonrakı illərdə daxili işlər orqanlarında xalqına sədaqətləxidmət edən, etimadı doğruldan, nazir müavini, rəis və kiçik rütbəli milis işçiləri də olmuşdur. Muxtar Respublikanın daxili işlər orqanlarında rəhbərlik edənlər tarixə çevrilmişlər.

1. «Şərq qapısı» qəzeti, 23 oktyabr 1976-cı il.

Onlardan Qarabala Nağıyev (1942-1951-ci illər), İ.Həsənov (1952-1954-cü illər), Şərif Nuriyev (1951-1952 və 1954-1963-cü illər), Məmməd Yaqubov (1964-1965 və 1968-1977-ci illər), Yusif Əbbülhəsənov (1965-1968-ci illər), Rəşid Qurbanov (1974-1977-ci illər), Yusif Əbbülhəsənov (1977-1981-ci illər), Sadıx Sadıxov (1981-1986-cı illər), Sevindik Səfərov (nazir əvəzi 1986-1987-ci illər), Ramil Usubov (1987-1989 və 1993 və 1994-cü illər), Fəxrəddin Rəfiyev (1989-1990-cı illər), Məmməd Məmmədov (1990-1992-ci illər), Əsgər Ələkbərov (08.X-1992-ci il nazir əvəzi), Tahir Allahyarov (1992-1993-cü illər), Mürsəl İsayev (1994-2000-ci illər), Əhməd Əhmədov (2000-ci ilin iyun ayından, hal-hazırdakı dövrə qədər) Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri vəzifəsini icra etmişlər.

Bu illərdə Naxçıvan MSSR-nin şəhər və rayon daxili işlər şöbələrində də bacarıqlı rəhbər kadrlar işləmişdir. Onlardan Məmməd Məmmədov, İbrahim Həsənov, Qasım Mirzəyev, Nadir Məmmədov, Aydın Abdullayev, Xudam Qurbanov, Həsənqulu Əliyev, Kamal Hüseynov, Hüseyn Ramazanov, Məmməd Ağayev, Xeyrulla Məmmədov, Qəzənfər Hüseynov, Akif Əsədov, İbrahim Qədimov, Adil Mahmudov, Rza Hacıyev, Qaçay Quliyev, Bağır Sadıqov, Asəf Tağıyev, Sahib Mirzəyev, Yenisey Hacıyev, Eldar İbrahimov, Akif Əsgərov, Vaqif Əliyev, Ədalət Qasımov, Həsən Məhərrəmov, Xanlar Məmmədov, Rövşən Quliyev, İbrahim Məmmədov və başqalarının adlarını qeyd etmək olar.

Bu illərdə muxtar respublikanın milis işçiləri arasındla iş bacarığına və şəxsi keyfiyyətlərinə görə əməkçilərin hörmət və rəğbətini qazanmış milis kadrları da çox olmuşdur.

10 ilə yaxın Naxçıvan MSSR Daxili İşlər naziri işləmiş Şərif İsmayıl oğlu Nuriyevin də xidmətləri unudulmazdır. 1911-ci ildə Şamaxı rayonu Dədəgünə kəndində anadan olmuş Ş.Nuriyev 13 may 1939-cu ildə daxili işlər orqanlarında fəaliyyətə başlamış, 01 may 1951-ci ildən 1952-ci ilə kimi və 01 iyul 1954-cü ildən 11 dekabr 1963-cü ilədək Naxçıvan MSSR Daxili İşlər naziri vəzifəsində işləmişdir. 1964-cü ildə xəstəliyi ilə bağlı ehtiyata buraxılmışdır.

Şərif Nuriyev xidmət etdiyi müddət ərzində «Qırmızı Ulduz», «Qafqazın müdafiəsinə görə», «Əməkdə əla xidmətlərinə görə» və bir sıra başqa orden, medallarla, fəxri fərmanlarla təltif olunmuşdur.

10 ildən artıq Naxçıvan MSSR Daxili İşlər naziri vəzifəsini icra etmiş milis polkovniki Məmməd Qurban oğlu Yaqubov 08 noyabr 1921-ci ildə Babək rayonunun Mağamılar kəndində anadan olmuşdur. Milliyətcə avardır. 24 mart 1944-cü ildən Daxili İşlər Orqanlarında fəaliyyətə başlayıb, əsasən əməliyyat SAhəsində çalışmışdır.

11 dekabr 1963-cü ildən 8 may 1974-cü ilə kimi Naxçıvan MSSR Daxili İşlər naziri vəzifəsində çalışmışdır. 10 iyul 1980-cı ildə ehtiyata buraxılmışdır.

Məmməd Yaqubovun daxili işlər orqanlarında xidməti yüksək qiymətləndirilərək «Qırmızı bayraq», «SSRİ dövlət sərhədlərinin qorunmasında əlavə xidmətlərinə görə», «Əmək veteranı» orden və medallarla təltif olunmuşdur. O, «Daxili İşlər Nazirliyinin əməkdar işçisi» adına layiq görülmüşdür.

Müharibədən sonrakı illərdə Naxçıvan Muxtar RespublikAsında cinayətkarlıqla mübarizədə böyük xidmətləri olmuş, uzun illər bacarıq və təcrübəsi ilə milis orqanlarında sevilib-seçilmiş bir çox milis işçilərimiz olmuşdur ki, onlardan biri də Şulan Hüseyn oğlu Qasımov hesab edilir.

1924-cü ilin may ayında Naxçıvan şəhərində anadan olan Şulan Qasımov 1943-cü ildən milis sistemində işləməyə başlamışdır. 1943-cü ildən 1951-ci ilə kimi Naxçıvan şəhər milis şöbəsində pasport masa rəisi, mart 1951-ci ildən 1953-cü ilin oktyabr ayına kimi Naxçıvan şəhər milis şöbəsində cinayət axtarış xətti üzrə əməliyyat müvəkkili vəzifəsində çalışmışdır.

Ş.Qasımovun müharibə illərində və müharibədən sonrakı illərdə hüquq pozuntularının qarşısının alınmasında və müxtəlif ağır cinayətlərin açılması və cinayətkarların tutulmasında böyük xidmətləri olmuşdur. Naxçıvan MSSR DİN-yi Ş.Qasımovun böyük bacarığı və təcrübəsini nəzərə alaraq 1953-cü ilin oktyabr ayından Naxçıvan MSSR DİN-də cinayət axtarış şöbəsi xətti üzrə baş əməliyyat müvəkkili vəzifəsinə təyin etmişdir. Naxçıvan MSSR DİN-nin göndərişi ilə Ş.Qasımov 20 sentyabr 1954-cü ildə Bakı milis məktəbinin bir illik hazırlıq kursuna göndərilmiş, kursu bitirdikdən sonra o, iyul 1955-ci ildən Naxçıvan MSSR DİN-də Cinayət Axtarış şöbəsinə rəis vəzifəsinə təyin edilmişdir. Ömrünün axırına kimi hüquq orqanlarında

müxtəlif vəzifələrdə çalışmış Ş.Qasımov neçə-neçə cinayət əməliyyatlarının açılmasına rəhbərlik etmiş, cinayətkarların aşkar edilməsində böyük xidmətlər göstərmişdir.

30 ildən artıq milis sistemində çalışan Ş.Qasımovun xidmətləri dəfələrlə partiya, dövlət, Azərbaycan və Naxçıvan MR DİN-i tərəfindən qiymətləndirilmiş, bir çox medallarla və fəxri fərmanla təltif olunmuşdur.

Milis fəallarından söz düşəndə polkovnik Məmməd Məmmədovun DİN orqanlarındakı əvəzsiz xidmətləri yada düşür. Məmməd Kərim oğlu Məmmədov Çomaxtur orta məktəbini bitirdikdən sonra 1929-1931-ci illərdə Naxçıvan dəmiryol vağzalında fəhlə işləmiş, 1931-ci illərdə hərbi xidmətə çağrılmış və 1933-cü ilə kimi hərbi xidmətdə olmuşdur.

Hərbi xidmətdən sonra M.Məmmədovun daxili işlər orqanlarında işləmək həvəsi olduğundan göndərişlə Bakı milis məktəbinin kiçik və orta rəis heyətinin hazırlıq kursuna daxil olur. Kursu bitirdikdən sonra bir müddət Azərbaycan SSR DİN-nin Bakı şəhər baş Milis İdarəsində vzvod komandiri vəzifəsində çalışır. 1932-ci ildə təhsili artırmaq üçün Tbilisi milis məktəbinə daxil olur. 1940-cı ildə məktəbi bitirən M.Məmmədovu Lerik rayonuna milis rəisi vəzifəsinə göndərirlər. Müharibənin ilk ağır ilini Lerikdə işləyir. 1942-ci ildə Azərbaycan SSR DİK-rı M.Məmmədovu Naxçıvan, Ordubad rayon milis şöbəsində hərbi qeydiyyat masasının rəisi vəzifəsinə göndərir. Müharibə illərində və müharibədən sonrakı illərdə Ordubad, Culfa, Naxçıvan şəhər milis şöbələrində rəis vəzifəsində çalışmışdır. Naxçıvan MSSR DİN-də müxtəlif vəzifələrdə işləmiş polkovnik Məmməd Məmmədovun neçə-neçə ağır cinayətlərin açılmasında, vətəndaşların asayişinin qorunmasında böyük xidmətləri olmuşdur.

Ömrünün yarıdan çoxunu hüquq mühafizə orqanlarında keçirən M.Məmmədovun xidmətləri «Asayişin mühafizəsində əla xidmətlərinə görə», «Qafqazın müdafiəsinə görə», «1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində qələbəyə görə» və s. medallarla və fəxri fərmanlarla qiymətləndirilmişdir.

Naxçıvan milisinin ilk nümayəndələrindən biri olan BayRamov Qənbər Heydər oğlu 1891-ci ildə Culfa rayonunun Başkənd kəndində muzdur ailəsində anadan olmuşdur. Gənc yaşlarından

Culfa rayon Qazançı kəndində dəmirçi köməkçisi işləmişdir. 1921-ci ildə könüllü olaraq «Qırmızı Ordu» sıralarına daxil olmuş, 1924-cü ilədək həmin orduda xidmət etmişdir. Q.Bayramov 1927-ci ilin oktyabr ayının 15-də öz ərizəsi əsasında Şahbuz rayon milis şöbəsinə milis nəfəri vəzifəsinə təyin edilir. «Uzun Qənbər» ləqəbi ilə məhşur olan Q. Bayramov Naxçıvanda banditizmin ləğv edilməsi uğrunda mübarizənin fəallarından biri kimi rayonunun Keçili, Biçənək kəndlərində, Əbrəqunus rayonunun Milax, Ərəfsə, Ləkətağ və s. kəndlərində banditizmin ləğv edilməsində mərdlik və cəsarət göstərmişdir. Cəsur milis işçisi Q.Bayramov 1933-cü ildə bənditizmə qarşı mübarizə bölməsinin və vzvodunun komandiri vəzifəsinə irəli çəkilmişdir.

Banditizmə qarşı mübarizədə fəal iştirakına görə o, 1930-cu ildə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin fəxri fərmanı, fəxri döyüş silahı ilə təltif olunmuşdur.

Böyük Vətən müharibəsi illərində muxtar respublika ərazisində cinayətkarlığa qarşı mübarizə işində fəal iştirak etmiş, 1945-ci ilin mart ayında partiya sıralarına daxil olmuşdur.

Q.Bayramovun partiya və xalq qarşısında xidmətləri yüksək qiymətləndirilmiş, 1944-cü ildə o «Qafqazın müdafiəsinə görə» medalı, «Qırmızı ulduz», 1954-cü ildə isə «Qırmızı bayraq» ordenləri ilə təltif olunmuşdur. Q.Bayramov 1985-ci ildə 96 yaşında vəfat etmişdir.

Onun mənalı həyatı Naxçıvan milis tarixinin ən parlaq səhifələrindən birini təşkil edir.

1927-ci ildə Naxçıvan şəhərində anadan olmuş Məmməd Məmmədov milis işçisi olmağı hələ uşaqlıq illərində arzu edirdi.

1947-ci illərdə Sovet Ordusu sıralarında xidmət edəndə də bu arzu onu tərk etmirdi. Kiçik serjant paltarında hər dəfə komandirə raport verəndə özünü xəyalən milis mundirində hiss edir. Öz doğma şəhərində asayişin keşiyini çəkməyi arzu edən Məmməd böyük sayıqlıqla vətənin keşiyində durmuş, əsgər kitelinin yaxasını bəzəyən nişanlar və çiynində daşıdığı serjant rütbəsi ilə evlərinə qayıtmışdır.

Məmməd Məmmədov 1952-ci ildə 25 yaşında ikən daxili işlər orqanlarında fəaliyyətə başlamışdır. O elə birinci gündən cinayət axtarış bölməsində çalışmış, milisdə keçən 30 illik fəaliyyəti

dövründə özünü muxtar respublikada bu işin əsas incəliklərinə dərindən bələd olan təcrübəli mütəxəssislərdən biri kimi tanıtmışdır. M.Məmmədov cinayət-axtarış işinin bütün pillələrində vəzifə daşımış, əməliyyat inspektoru olmuş, bölmə rəisi işləmiş, milis şöbəsinin rəisinin müavini səviyyəsinə yüksəlmişdir. O, Naxçıvan şəhər milis şöbəsi rəisinin əməliyyat işləri üzrə müavini vəzifəsində çalışmış və bu vəzifədən təqaüdə çıxmışdır.

Onun əsas iş prinsipi belə idi: cinayətin qarşısını vaxtında almaq, profilaktiki tədbirlərin təsirliliyini artırmaq. Tez-tez özünə məxsus təmkinlə deyirdi ki, milis işçisi əslində cəmiyyətin vicdan normalarının keşiyində durur. O elə yaşamalı və işləməlidir ki, içərisində olduğu xalqın rəğbətini qazansın. Yoxsa işləmək çətin olar. Məmməd Məmmədovun fikrincə həqiqi milis işçisi birinci növbədə tərbiyəçi olmalıdır. Buna görə də milis işçisinin pedoqoji sənətdən başı çıxmasını vacib sayırdı. Elə onun özünü də hamı nümunəvi ziyalılardan biri kimi tanıyır, xalq arasında ona «Mayor Məmmədov», «yoldaş Məmmədov» kimi deyil «Məmməd müəllim» deyə müraciət edirdilər. O bununla fəxr edirdi. Söz düşəndə deyirdi ki, mən bu adı asanlıqla qazanmışam.

M.Məmmədov üçün konkret iş vaxtı yox idi. O iş vaxtı ilə fəaliyyətini məhdudlaşdıran milis işçilərini «müvəqqəti qulluqçular» adlandırırdı. Deyərdi ki, milisin, xüsusən də cinayət-axtarış sahəsi əməliyyatçısının əsas işi iş vaxtından sonra başlanır. Yadına soyuq qış gecələrində cinayətin izi ilə apardığı işləri SAlırdı. Bu işlərin ən ibratamiz olanlarından söz açardı. 1969-cu il dekabr ayında baş vermiş bir hadisə onun fəaliyyəti dövründə apardığı mübarizələrdən daha əhəmiyyətlisi hesab olunurdu. Həmin vaxt M.Məmmədov təkbaşına xüsusi təhlükəli bir hadisənin izinə düşmüş, çəldlik, operativlik, sayıqlıq nümunəsi göstərmiş, səhərə qədər yatmayıb əməliyyatı başa çatdırmışdır. Cinayətin üstü açılmış, təhlükə sovuşmuşdur. 1970-ci ilin əvvəllərində o mərdlik və cəsurluqla xüsusi təhlükəli cinayətin üstünü açdığına görə ona Azərbaycan SSR Daxili İşlər Nazirliyinin fəxri fərmanı təqdim olunmuşdur. Onun belə təltifləri çox idi. Qüsursuz xidmətlərinə görə SSRİ Daxili işlər Nazirliyinin birinci, ikinci və üçüncü dərəcəli medalları ilə təltif olunmuşdur. Məmməd Məmmədov həmin me-

dallara xüsusən əhəmiyyət verirdi. Deyirdi ki, milis işi çətin sahədir. Burada qüsursuz işləmək çox vacibdir, həm də hər kəsə müyəssər olan xoşbəxtlik deyil. 1960-cı ildə «Əlaçı milis işçisi» döş nişanı alanda da fikrini çox yığcam ifadə etmişdir:

-- Əlaçı olmaq üçün öz peşəni sevməlisən, onun əziyyətli cəhətlərindən də zövq almağı bacarmalısan.

Öz sözünün həqqi mənasında öz peşəsinin əlaçısı idi. Bu əlaçılığı onun işində, geyimində, davranışında aydın müşahidə etmək mümkün idi. Təsadüfi deyil ki, bu sədaqətli milis işçisinin təltiflərinin əksəriyyətinin adında «Əlaçı» sözü özünə yer tapmışdır: «Əlaçı milis işçisi» (1960) döş nişanı, «İctimai asyişin mühafizəsində əla xidmətlərinə görə» (1965) medalı və s. M.Məmmədov 1977-ci ildə daxili işlər orqanlarında əla xidmətlərinə görə «Şərəf Nişanı» ordeni ilə təltif olunmuşdur.

M.Məmmədov çox yaxşı insan və tərbiyəçi idi. O, şöbəyə işə götürülən milis işçilərinin formalaşmasına, onların peşəkar milis işçisi kimi yetişmələrinə minnətsiz və ürəkdən qayğı göstərirdi. «Biz də öz özümüzə yetişməmişik. Bizi də öyrədən olub. İndi borcumuzu verməliyik» deyirdi.

Bəli, o ürəkdən bağlandığı, bütün varlığı ilə sevdiyi bu sahəyə öz borcunu şərəflə verir, həm xidməti vəzifəsindəki fəaliyyəti, həm də gənclərin tərbiyyə olunması sahəsindəki əvəz olnumaz xidmətləri ilə. Böyük iftixar hissi ilə deməyi özümüzə borc bilirik ki, bu gün muxtar respublikanın daxili işlər orqanlarında çalışan yeni nəslin unudulmaz müəllimi M. Məmmədov olmuşdur. Milis bayramı ərəfəsində xatirəsi həmişə yetirmələrinin qəlbində əziz tutulan M.Məmmədovun keçirdiyi şərəfli yoldan söz açmaqla onun adı ilə bağlı, parlaq əməllərinin xatirələrdən silinib getmədiyini bildirməklə yanaşı, həmin ömür səlnaməsinin indi də gənclər, xüsusən Daxili İşlər Orqanlarında çalışan cavanlar üçün nümunə olduğunu bir daha xatırlatmaq istəyirik.

Öz əməyi ilə sevilib seçilən Ramazanov Hüseyn Qeybalı oğlunun adı bu gün də iftixar hissi ilə çəkilir. 1928-ci ildə Özbəkistan SSR-nin Daşkənd şəhərində anadan olan H. Ramazanov 1955-ci ildən daxili işlər orqanlarında fəaliyyətə başlamışdır. 1957-1967-ci illərdə o sahə müvəkkili, 1967-1970-ci illərdə Nax-

çıvan MSSR DİN-də cinayət axtarış şöbəsinin rəisi, 1970-1974-cü illərdə Şərur rayonunun və 1974-1976-cı illərdə Naxçıvan şəhər DİŞ-nin rəisi vəzifəsində işləmişdir.

Hüseyn Ramazanov rayon və şəhər DİŞ-də rəis işlədiyi dövrlərdə bir çox açılmamış cinayətlərin üstü açıldı. Cinayətkarlar öz cəzasına çatdılar.

Hüseyn Ramazanov 1976-cı ildə Naxçıvan MSSR DİN-də cinayət-axtarış şöbəsinə rəisi vəzifəsinə irəli çəkilir. 1982-ci ilə kimi bu vəzifədə çalışan H.Ramzanov muxtar respublikada baş verən cinayətlərin açılmasını və onları törədən cinayətkarların tutulmasını ən vacib vəzifə kimi qarşısında məqsəd qoymuşdur.

Qüsursuz xidmətlərinə görə H.Ramazanov «V. İ. Leninin 100 illiyi», «Sovet milisinin 50 illiyi» yubiley medalı ilə və Naxçıvan MSSR Ali Soveti Rəyasət heyətinin fəxri fərmanı ilə təltif olunmuş və bir neçə dəfə şəhər və rayon XDS-nə deputat seçilmişdir.

1982-ci ildə istefaya çıxan H.Ramazanov hazırda Naxçıvan MR DİN-də fəaliyyət göstərən polis veteranları şurasının ən fəal üzvlərindən biridir. O DİO-da keçirilən müxtəlif tədbirlərdə yaxından iştirak etməklə, gənc polis əməkdaşlarına hamilik işində fərqlənir.

İnsanın arzusu çox olur. Yaxşı deyiblər ki, arzudan arzu doğar. 1925-ci ildə Culfa rayonunun Başkənd kəndində dünyaya göz açan Sadıxov Bağır Səyyad oğlu da bir vaxtlar milis işçisi olmaq, çiynində zərli paqonlar gəzdirmək istəyirdi. 1940-cı ildə Əbrəqunus kəndində orta təhsilini başa vurur. Yenicə əmək cəbhəsində çalışmağa başlamışdır ki, II Dünya müharibəsi acı xəbərini eşidir. Bir çox gənclər kimi o da hərbi komissarlığa gedərək döyüşən ordu sıralarına səfərbərlik edilməsini xahiş edir. B.Sadıxov 1942-ci ilin əvvəllərindən 1944-cü ilin dekabırına kimi bir çox döyüş cəbhələrində mərdliklə vuruşur. 1946-cı ildən 1947-ci ilin fevral ayına kimi Əbrəqunus rayon xalq məhkəməsində məhkəmə icraçısı vəzifəsində işləyir.

Arzusu daxili işlər orqanlarında işləmək olduğundan 1947-ci ilin fevralından partiyanın göndərişi ilə onu Əbrəqunus (Culfa) rayon milis şöbəsinə, pasport masa rəisi təyin edirlər. 1949-cu ilə kimi Əbrəqunus rayonunda, 1949-1956-cı illərdə isə Naxçıvan şəhər milis şöbəsində pasport masa rəisi vəzifəsində çalışır.

İşlədiyi bu illərdə əhalinin qeydiyyata alınması, uçotu və pasport rejimi işinin qaydaya salınmasında fəallıq göstərir. İnzibati qanunun həyata keçirilməsində, tüfeyli həyat sürənlərlə mübarizədə, nəhayət, saxta sənədlərlə və ya qanunsuz pasport ilə qeydiyyata düşmək istəyənlərin aşkar edilib tutulmasında böyük xidmətləri olmuşdur.

B. Sadıxov 1956-1960-cı illərdə Naxçıvan şəhər DİŞ-də baş əməliyyat müvəkkili, 1960-1965-ci illərdə Naxçıvan şəhər DİŞ-də cinayət-axtarış şöbəsində əməliyyat və baş əməliyyat müvəkkili, 1965-1974-cü illərdə Ordubad rayon DİŞ-nin rəisi, 1974-1977-ci illərdə Naxçıvan MSSR DİN-də kadrlar şöbəsinin baş inspektoru və 1977-1979-cu illərdə Naxçıvan şəhər DİŞ-də SƏDM üzrə baş inspektor vəzifələrində çalışmışdır.

Bağır Sadıxovun müharibə illərində göstərdiyi igidlik, fədakar əməyi «İgidliyə görə», «Almaniya üzərində qələbəyə görə», «Böyük Vətən müharibəsi», «Rəşadətli əməyə görə» medalları və bir çox fəxri fərmanlarla qiymətləndirilmişdir.

Daxili İşlər Orqanlarının möhkəmlənməsində və cinayətkarlığa qarşı mübarizədə böyük xidmətləri olmuş Hacıyev Rza Əkbər oğlunun da adı bu gün iftixarla çəkilir. R.Hacıyev 1958-ci ildən DİO-da fəaliyyətə başlayıb.

O 1958-1967-ci illrədə Naxçıvan MSSR DİN-nin SƏDM şöbəsində inspektor, baş inspektor və cinayət-axtarış şöbəsinin rəisi, 1967-1972-ci illərdə Naxçıvan şəhər Daxili İşlər şöbəsinin rəisi və 1972-1977-ci illərdə Naxçıvan MSSR DİN-nin cinayət-axtarış şöbəsinin rəisi vəzifələrində işləmişdir. 1977-ci ildə istefaya çıxan Rza Hacıyev Böyük Vətən müharibəsinin iştirakçısı kimi göstərdiyi igidliyə görə bir çox orden və medallarla təltif olunmuşdur. Onlardan Böyük Vətən müharibəsinin I-ci, II-ci və III-cü dərəcəli ordenlər, «Qafqazın müdafiəsinə görə», «Polşanın azad edilməsinə görə», «Almaniya üzərində qələbəyə görə», «İctimai asayişin mühafizəsində əla xidmətə görə» və s. medallar iftixarla geydiyi milis mundirini bəzəmişdir.

Milis paqonuna hörmət və etiramla yanaşan, onun şərəfini uca tutan əməkdaşlardan söz düşəndə Kamal Məşədi Camal oğlu Hüseynov da istəklə xatırlanır. Kamal Hüseynov 1930-cu ildə Şahbuz

rayonunun Nurs kəndində kolxozçu ailəsində dünyaya göz açmışdır. 1948-ci ildə Nurs kənd məktəbinin 9-cu sinfini bitirdikdən sonra Naxçıvan şəhərindəki kənd təsərrüfatı texnikumunun aqranom fakültəsinə qəbul olunur. 1949-cu ildə kənd təsərrüfatı mütəxəssisi adı almışdır. 1960-cı ilədək müxtəlif təsərrüfatlarda aqronom kimi fəaliyyət göstərmişdir. O, 1960-cı ilin dekabr ayında Naxçıvan MSSR Daxili İşlər şöbəsinə işə qəbul olunur. Naxçıvan Yanğından Mühafizə Şöbəsində müfəttiş, Naxçıvan şəhərində sahə müfəttişi, SƏDM xətti üzrə əməliyyat müvəkkili işlədiyi müddətdə özünü bacarıqlı və işgüzar kadr kimi göstərə bilmişdir. 1964-cü ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olunmuş, elə həmin il muxtar respublika Daxili İşlər Nazirliyində SƏDM xətti üzrə baş müfəttiş vəzifəsinə irəli sürülmüşdür. Daha sonralar, yəni 1979-cu ilə qədər Culfa rayon Daxili İşlər şöbəsində rəis, Naxçıvan müəssisədən kənar mühafizə şöbəsində pult rəisi və şöbə rəisi işləMişdir. Kamal Hüseynov harada və hansı vəzifədə olursa-olsun milis adını uca tutmuş, cinayətkarlıqla mübarizədə bir an da olsun sayıqlığını itirməmişdir. Məhz işgüzarlığı sayəsində o muxtar respublika daxili işlər nazirliyində cinayət-axtarış şöbəsində baş əməliyyat müvəkkili və şöbə rəisi vəzifələrinə irəli sürülmüşdür. Əməyi «Milis əlaçısı» döş nişanı, bir sıra yubiley medalları, fəxri fərmanlarla qiymətləndirilmişdir. Kamal Hüseynov 1987-ci ilin oktyabr ayından 1989-cu ilin may ayına kimi nazirliyin təsərrüfat bölməsində rəis işləmişdir.

Uzun illər Şərur rayon polis şöbəsində çalışan Cəfər Hüseyn oğlu Hüseynovun da xidmətləri əvəzsizdir. C.Hüseynov 1925-ci ildə Şərur rayonunun Axura kəndində anadan olmuşdur. Məktəbi bitirdikdən sonra 1944-cü ildən 1947-ci ilə kimi hərbi xidmətdə olmuşdur. 1947-ci ildən 1950-ci ilin aprel ayına kimi mədəniyyət şöbəsində çalışmış C.Hüseynov 1950-ci il aprel ayının 5-dən Şərur rayon milis şöbəsinə milis nəfəri kimi qəbul edilmişdir. 1952-1954-cü illərdə şöbə katibi işləmiş, 1954-cü ildən 1980-cı ilədək isə starşina rütbəsi ilə bölmə komandiri işləmişdir. C.Hüseynov işlədiyi müddətdə «Əlaçı polis işçisi» nişanı, 1941-1945-ci illərdə «Qələbə» medalı və bir çox fəxri fərmanlar ilə təltif olunmuşdur.

30 ilə yaxın xalqın asayişinin qorunmasında böyük xidmətləri olmuş Əhmədov Hüseyn Əkbər oğlunun adını iftixar hissi ilə çəkmək olar. H.Əhmədov 1934-cü ildə Naxçıvan MR Şərur rayonunun Tumaslı kəndində anadan olmuşdur. 1952-ci ildə Tumaslı kənd orta məktəbini bitirib Azərbaycan Dövlət Pedoqoji İnstitutuna daxil olmuş və 1956-cı ildə həmin institutu müvəffəqiyyətlə bitirmişdir.

1963-cü ildə Daxili İşlər Orqanlarına daxil olaraq Naxçıvan MR Daxili İşlər Nazirliyi İctimai Təhlükəsizlik şöbəsində müfəttiş kimi fəaliyyətə başlamışdır. O Şərur rayonunda sahə müfəttişi, Naxçıvan MR Daxili İşlər Nazirliyində xüsusi hissədə müfəttiş, Naxçıvan MR Daxili İşlər Nazirliyində SƏDM xətti üzrə müfəttiş, Şərur, Culfa rayonlarında SƏDM xətti üzrə əməliyyat müvəkkili, Naxçıvan şəhər polis şöbəsində pasport xidməti üzrə baş müfəttiş, Naxçıvan şəhər polis şöbəsində pasport masa rəisi, Şərur rayon PŞ-si nəzdində mühafizə şöbəsinin rəisi vəzifələrində çalışmışdır.

Polis mayoru Əhmədov Hüseyn Əkbər oğlu 1990-cı ildən təqaüdə çıxmışdır.

Əhmədov Hüseyn işlədiyi müddət ərzində cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizədə fəal iştirak etmiş gənc kadrların yetişib tərbiyə olunmasında fəal rol oynamışdır.

H.Əhmədov Daxili İşlər Orqanlarında «Qüsursuz xidmətə görə» I-ci, II-ci və III-cü dərəcəli medallarla, əla xidmətinə görə «Polis əlaçısı» döş nişanı və bir çox fəxri fərmanlarla təltif olunmuşdur.

Daxili İşlər Orqanlarında yüksək insani keyfiyyətləri və peşəkarlıq səriştəsi, idarəçilik qabiliyyəti ilə seçilib-sayılan milis işçilərindən biri də Səfərov Nəriman Hüseyn oğludur. Səfərov Nəriman Hüseyn oğlu 1926-cı ildə Ermənistanın Qəmərli rayonunun Qaradağlı kəndində anadan olmuşdur. N.Səfərov 1966-cı ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun mexanikləşmə fakültəsini bitirib, 1945-1951-ci illərdə müxtəlif vəzifələrdə işləyib, 1952-ci ildən isə Daxili İşlər Orqanlarında xidmətə başlamışdır.

1952-1953-cü illərdə Naxçıvan şəhər Daxili İşlər şöbəsində Dövlət Avtomobil müfəttişi, 1953-1956-cı illərdə Naxçıvan MR Daxili İşlər Nazirliyinin Milis İdarəsində baş dövlət avtomobil müfəttişi,

1957-1965-ci illərdə Culfa rayon milis şöbəsində dövlət avtomobil müfəttişi, 1966-1979-cu illərdə Naxçıvan şəhər, Şərur rayon, Naxçıvan MSSR Dövlət Avtomobil Müfəttişliyində müfəttiş, baş müfəttiş vəzifəsində işləmişdir. 1979-cu ildə təqaüdə çıxmışdır.

Polis kapitanı N.Səfərov Daxili İşlər Orqanlarında xidmət etdiyi dövrdə «Qüsursuz xidmətə görə» I-ci, II-ci və III-cü dərəcəli medallarla, fəxri fərmanlarla, qiymətli hədiyyələrlə mükafatlandırılmışdır. O cinayətkarlığa və hüquq pozuntularına qarşı geniş mübarizə aparmış gənc əməkdaşların tərbiyəçisi kimi xüsusi rol oynamış, peşə sirrinin öyrənilməsində bütün qüvvə və bacarığını sərf etmişdir.

Əlbəttə, muxtar respublikanın təhlükəsizliyi uğrunda fədakarlıq göstərmiş milis əməkdaşlarının sayı çoxdur. Onların SAdəcə adlarını sadalamaqla bir kitab yazmaq olar. Lakin bu kitabda adlarını çəkmədiyimiz milis işçiləri bizdən inciməsinlər. Ümüdvarıq ki, gələcəkdə onlar haqqında ayrıca monoqrafiyalar, bioqrafik oçerklər yazılacaqdır.

Bu illərdə milis orqanları əməkdaşlarının işini möhkəmləndirmək, kadrların siyasi biliyini və əməliyyat-xidmət ustalığını artırmaq məqsədi ilə bir çox tədbirlər həyata keçirilmiş, çoxlu ixtisas məktəbi, ali məktəb açılmışdır. SSR Daxili İşlər Nazirliyi Akademiyasına muxtar respublikadan 27 nəfər milis işçisi təhsil almağa göndərilmişdir.

Əgər 1960-cı ildə milisin şəxsi heyətinin 13%-i ali təhsilli, 33%-i orta təhsilli, 54%-i natamam orta təhsilli idisə, 1980-ci ildə heyətin 49%-i ali, 51%-i isə natamam orta təhsilli idi. Onu qeyd edək ki, 80-ci illərdə vətəndaşların şəxsi əmlakının oğurluğuna qarşı mübarizədə profilaktiki işlər lazımi qaydada aparılmadığından 1980-1984-cü illərdə oğurluq halları bəzi illərdə azalmış, bəzi illərdə isə çoxalmışdır.

Əgər 1983-cü ildə 1982-ci illə müqayisədə vətəndaşların şəxsi əmlakının oğurluğu 22% azalmışdısa, 1984-cü ildə 1983-cü ilə nisbətən 33% artmışdır. Bu cinayətlərin çox hissəsi Naxçıvan şəhərində, Şahbuz və Şərur rayonlarında qeydə alınmışdır (1).

Azərbaycan KP MK-nın 4 dekabr 1984-cü il tarixli «VətənDaşların şəxsi əmlakının oğurluğuna qarşı mübarizə haqqında» qərar-

dan sonra Naxçıvan MSSR DİN-i və onun yerli orqanları mühüm işlər görmüşlər. Nəticədə 1985-ci ildə 1984-cü illə müqaisədə vətəndaşların şəxsi əmlakının oğurluğu 42,9% azalmışdır (2).

70-80-ci illərdə Naxçıvan Muxtar Respublikasında narkomaniya və alkoqolizmə qarşı mübarizə daxili işlər orqanlarının ön planda duran sosial-profilaktik tədbirlərindən biri və əsası hesab olunurdu. Sərxoşluq, narkomaniya və alkoqolizm sosial təhlükə törətdiyi kimi qanun pozuntularının meydana gəlməsində də əsas rol oynamışdır. Belə ki, ağır cinayətlərin çoxu ölüm, zorlama, soyğunçuluq, kobud xuliqanlıq məhz sərxoş vəziyyətdə törədilirdi.

Azərbaycan KP MK aprel 1985-ci ildə «Alkoqolizm və sərxoşluq hallarını aradan qaldırmaq, araq çəkməyi ləğv etmək haqqında» Azərbaycan SSR Ali Sovetinin «Sərxoşluqla mübarizənin gücləndirilməsi» qərarları əsasında konkret proqram tərtib olundu. Söhbət təkcə sərxoşluqla və alkoqolizmlə mübarizədən getmirdi. Onun neqativ hallarının aradan qaldırılması sahəsində partiya, sovet, dövlət orqanları, həmkarlar, komsomol və digər ictimai orqanların fəal iştirakı artıq həyat proqRamı kimi təsdiq olundu.

Bu proqramda spirtli içkilərin emalı və satışını azaltmaq, alkoqolsuz içkilərin istehsalını artırmaq, həmçinin idman və mədəni-kütləvi tədbirlərin sayını artırmaqla alkoqolizmlə mübarizənin profilaktikası nəzərdə tutulurdu.

Xuliqanlıq, sərxoşluq və alkoqolizmlə mübarizədə milis müxtəlif vasitələrdən istifadə edirdi. Bunlardan ən başlıcası post-patrul xidmətinin təşkili idi. Onun da mühüm vəzifəsi küçə və meydanlarda sərxoşluq və xuliqanlığın, ictimai qaydanı pozanların qarşısını vaxtında almaq idi. Milli səhiyyə orqanlarının əməkdaşları ilə birlikdə alkoqolizmə aludə olanlara, həmçinin spirtli içkilər çəkənlərə qarşı mübarizəni daha da gücləndirdi. Bu illərdə muxtar respublikada xuliqanlıq və alkoqolizmlə mübarizə ictimaiyyətlə sıx əməkdaşlıqla aparılırdı.

Naxçıvan MSSR DİN-nin 1985-1987-ci illərdəki gündəlik məlumatlarından məlum olur ki, 1985-ci ildə muxtar respublikada 348 cinayət hadisəsi qeydə alınmışdısa, 1986-cı ildə bu ci-

---

1. Nax. MRDA. f.1. s.28. iş.280. v.29-33.
2. Yenə orada. v.30.

nayətlərin sayı 317 olmuşdur. 1985-ci ilə nisbətən qeydə alınan cinayət hadisələrinin sayı 31 və 8,9% azalmışdır. 1985-ci illə müqaisədə 1986-cı ildə qəsdən adam öldürmə 3 hadisə (5 qarşı 2), şəxsi əmlakın oğurluğu 6 hadisə (22 qarşı 16), dövlət əmlakının oğurluğu 2 hadisə (7 qarşı 5), zorlama 2 hadisə (3 qarşı 1), qəsdən bədənə ağır xəsarət yetirmə 7 hadisə (15 qarşı 8), həddə-buluğa çatmayanlar tərəfindən törədilən cinayətlər 7 hadisə (11 qarşı 4) azalmışıdır (1).

Ümumiyyətlə, 1986-cı ildə dövlət və ictimai əmlakın oğurlanmasına qarşı mübarizə gücləndirilmişdir.

Bununla bərabər, ölümlə suiqəsd 2 hadisə (1 qarşı 3), xuliqanlıq 3 hadisə (22 qarşı 25), ölümlə nəticələnən avtoqəza 6 hadisə (17 qarşı 23) artmışdır. O cümlədən xuliqanlıq Şərur və Culfa rayonlarında ölümlə nəticələnən avtoqəza hadisələri Naxçıvan şəhəri, Babək və Şahbuz rayonlarında artmışdır. 1985-ci illə müqaisədə narkomaniya hadisələri sabit qalmış, 5-ə qarşı 5 olmuşdur (2).

1986-cı ildə Babək rayonunda vətəndaşların şəxsi əmlakının oğurluğuna dair 3 hadisə, avtomobil qəzası 2 hadisə, Naxçıvan şəhərində rüşvətə dair 1 hadisə, vətəndaşların şəxsi əmlakının oğurluğuna dair 1 hadisə, Şərur rayonunda quldurluğa dair 1 hadisə, Ordubad rayonunda vətəndaşların şəxsi əmlakının oğurluğuna dair 1 hadisə, muxtar respublika üzrə cəmi 9 cinayət hadisəsi açılmamış qalmışdır ki, bu da 1985-ci illə müqaisədə 1 hadisə azdır.

Açılmayan cinayət hadisələri vaxtaşırı ümumiləşdirilib təhlil edilmiş, bunların açılması məqsədi ilə bir sıra hallarda göstərişlər verilmiş və əməli tədbirlər nəticəsində açılmamış cinayətlər açılaraq cinayətkarlar cəzasına çatdırılmışdır.

Azərbaycan KPMK-nın və Naxçıvan Vilayət Partiya Komitəsinin «Sərxoşluq və alkoqolizmə qarşı mübarizə tədbirlərlərin gücləndirilməsi haqqında» qərarının icrası ilə əlaqədar Naxçıvan MSSR DİN-də tədbirlər planı hazırlanıb icraya yönəldilmişdir. Bu sahədə hüquqi təbliğata daha geniş yol verilmiş, sərxoş halda edilən cinayətlərin istintaqına diqqət daha da artırılmış, cinayətin baş vermə

1. Nax. MRDA. f.613. s.11. iş.373. v.14-16.
2. Yenə orada. v.15.

səbəbləri təhlil edilmiş, cinayəti doğuran səbəb və şəraitin aradan qaldırılması üçün təsiredici vəsaitlərdən geniş istifadə edilmişdir.

Bunun nəticəsində 1986-cı ildə 1985-ci ilə nisbətən sərxoş halda cinayət edənlərin sayı azalaraq 27 hadisəyə qarşı 25 olmuşdur. Sərxoş halda edilən cinayətlərdən 8 hadisə xuliqanlıq, 4 avtomobil qəzası, 4 şəxsi əmlakın oğurluğu, 1 bədənə ağır xəSArət yetirmə, 1 ehtiyatsızlıqdan adam öldürmə, 1 əxlaqsız hərəkət, 1 zorlama, 1 dövlət əmlakının qəsdən məhv edilməsi, 2 milis işçilərinə müqavimət göstərmə və 1 avtomobil qaçırmaya dair olmuşdur (1).

1986-cı ilin I rübündə sərxoş halda törədilmiş 7 cinayət hadisəsi qeydə alındığı halda, 1989-cu ilin I rübündə bu kimi 5 cinayət hadisəsi qeydə alınıb, yəni 2 hadisə azalmışdır. Sərxoş halda törədilən cinayətlər əsasən Naxçıvan şəhərində, Şərur, Babək və Culfa rayonlarında qeydə alınmışdır (2).

1985-1987-ci illərdə DİN tərəfindən muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində müxtəlif cinayət hadisələri xeyli azalmışdır.

Həmçinin Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin 9 iyun 1986-cı il tarixli «Yol nəqliyyat hərəkəti təhlükəsizliyinin bərpası» qərarının icrası ilə əlaqədar Naxçıvan MSSR DİN-nin Dövlət Avtomobil Müfəttişliyi bölmələri bir sıra işlər görmüş, planlar tutulmuş, əməli-profilaktiki tədbirlər həyata keçirilmişdir. Sürücülər arasında təlim-tərbiyə işləri aparılmışdır.

1980-1987-ci illərdə Naxçıvan MSSR ərazisində baş vermiş müxtəlif cinayətlərin sayı aşağıdakı kimi olmuşdur (3).

| № | Cinayətlərin növləri. | İllər. | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | 1980 | 1981 | 1982 | 1983 | 1984 | 1985 | 1986 | 1987 |
| 1. | qəsdən adamöldürmə | 5 | 7 | 4 | 3 | 3 | 5 | 4 | 6 |
| 2. | ölümlə sui-qəsd | 1 | 3 | 4 | 4 | 1 | 1 | 5 | -- |
| 3. | qəsdən bədənə ağır xəsarət yetirmə | 5 | 6 | 5 | 8 | 7 | 3 | 4 | 2 |
| 4. | zorlama | 2 | 1 | -- | 2 | 3 | 3 | 1 | 1 |

1. Nax. MRDA. f.613. s.11. iş.373. v.15.
2. Yenə orada. v.16-17.
3. Nax. MR DİN cari arxivi. iş.11. v.1.

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 5. | dövlət əmlakı oğurluğu | 17 | 10 | 6 | 9 | 7 | 7 | 5 | 8 |
| 6. | şəxsi əmlakı oğurluğu | 17 | 23 | 22 | 18 | 24 | 22 | 16 | 34 |
| 7. | Quldurluq | -- | -- | -- | -- | -- | -- | -- | 2 |
| 8. | dələduzluq | 10 | 6 | 5 | 6 | -- | 3 | 3 | -- |
| 9. | qəsdən bədənə xəsarət yetirmə | 23 | 15 | 14 | 15 | 14 | 15 | 8 | 11 |
| 10. | Xuliqanlıq | 28 | 28 | 31 | 32 | 33 | 22 | 22 | 21 |
| 11. | avtomaşın qaçırma | 3 | 5 | 8 | 4 | 2 | 2 | -- | 4 |
| 12. | Narkomaniya | -- | 1 | 4 | 6 | 5 | 5 | 5 | 7 |
| 13. | CAX üzrə cinayət cəmi | 155 | 154 | 148 | 165 | 158 | 142 | 141 | 152 |
| 14. | Azyaşlılar tərəfindən | 8 | 12 | 9 | 18 | 6 | 11 | 3 | -- |
| 15. | İSCQM üzrə cəmi | 143 | 119 | 108 | 134 | 138 | 113 | 93 | 100 |
| 16. | mənimsəmə | 55 | 34 | 41 | 45 | 55 | 45 | 42 | 40 |
| 17. | möhtəgirlik | 43 | 31 | 27 | 23 | 23 | 29 | 22 | 20 |
| 18. | rüşvətxorluq | 3 | 2 | 1 | 3 | 1 | 1 | 1 | 2 |
| 19. | sair cinayətlər | 43 | 39 | 34 | 66 | 60 | 38 | 27 | 38 |

Respublika üzrə cinayətlərinin açılma faizi 1980-cı ildə 98,7%, 1981-ci ildə 97,7%, 1982-ci ildə 98,3%, 1983-cü ildə 98,9%, 1984-cü ildə 99%, 1985-ci ildə 97,1%, 1986-cı ildə 96,5% və 1987-ci ildə 92,8% olmuşdur.

1980-1987-ci illərdə Naxçıvan MSSR-də baş vermiş yol nəqliyyat hadisələri, ölümün sayı və xəsarət alanların sayı aşağıdakı kimi olmuşdur (1).

| № | Adı. | İllər. | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | 1980 | 1981 | 1982 | 1983 | 1984 | 1985 | 1986 | 1987 |
| 1. | Hadisənin sayı | 66 | 77 | 57 | 65 | 65 | 60 | 61 | 73 |
| 2. | Ölüm. | 40 | 28 | 27 | 31 | 32 | 28 | 44 | 33 |
| 3. | Xəsarət. | 56 | 89 | 56 | 61 | 86 | 62 | 74 | 98 |

Əsasən yol nəqliyyat hadisələri Şərur, Babək rayonlarında və Naxçıvan şəhərində baş vermişdir.

Son iki ildə sürücülərin günahı üzündən törədilən avtonəqliyyat hadisələrinin sayı azalmış, sərnişindaşıma nəqliyyatında yol qəzaları nisbətən aşağı səviyyəyə düşmüşdür. Yol nəqliyyat nişanlarına nəzarət gücləndirilmişdir.

1. Yenə orada. v.4.

1986-1987-ci ilin 6 ayında muxtar respublika DİO-nın DAM xidməti tərəfindən 14.811 yol hərəkəti qaydalarının pozulması qeydə alınmış, 124 sürücü avtomaşını idarə etməkdən məhrum olunmuş və 12.858 sürücü müəyyən cərimələrlə cəzalandırılmışdır.

Bununla əlaqədar hələ də müəyyən işlər lazımı səviyyədə qurulmamış, muxtar respublikanın avtotəsərrüfatında əmək intizamı yoluna düşməmişdir. Bəzi nazirliklərdə, o cümlədən Avtonəqliyyat birliyi, Aqrosənaye Tikinti Tresti, Naxkoopittifaq, Naxçıvan Tikinti İdarəsi, Vayxır Su Tikinti Dəstəsi, Naxçıvan İşıq İdarəsində avtoparklar lazımi qaydada saxlanılmır, avtomaşınların təmir briqadası yaradılmış. Nəzarətçi mexaniklər və dispeçerlər işlərini düzgün qurmamışlar.

Bəzi DAM işçilərinin fəaliyyətsizliyndən, tutduğu vəzifələrinə laqeyd yanaşmalarına görə 1986-cı ildə muxtar respublikada 61 yol nəqliyyat hadisəsi qeydə alınmışdır ki, bu da 1985-ci ilə nisbətən 1,6 % yuxarı olmuşdur (1).

1987-ci ildə 1986-cı illə müqaisədə yol nəqliyyat hadisələri 29,2% artmış, həmçinin ölüm hadisəsi çoxalmışdır. Bu artmanın əsas səbəbi sürücülərin sərxoş vəziyyətdə avtomaşınları idarə etmələri idi (2).

Bu illərdə (1946-1987-ci illərdə) Naxçıvan MSSR DİN və şəhər, rayon daxili işlər şöbələrinin başlıca vəzifələri əməliyyat-profilaktik işi düzgün və səmərəli təşkil etməkdən, baş vermiş cinayətlərin vaxtında açılmasından və cinayətkarların ifşa edilməsinə nail olmaqdan, dövlət əmlakını dağıdanlara, rüşvətxorluq edib başqasının hesabına varlanmaq istəyənləri ifşa etməkdən, sərxoşluq, alkoqolizm, narkomaniyaya qarşı və demək olar ki, bütün antipodlarla qəti və ciddi mübarizə aparmaqdan ibarət olmuşdur.

---

1. Nax. MR DA. f.1. s.33. iş.297. v.47.
2. Yenə orada. v.48.

# IV FƏSİL
# ERMƏNİ İŞĞALÇILARINA QARŞI MÜBARİZƏ

Dövr ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublika DİN və onun yerli orqanları keçmiş SSRİ-nin hakim orqanlarına «Əmir qulu» kimi fəaliyyət göstərsə də, çoxlarının ürəyində, qəlbində həmişə bir çox haqsızlıqlara qarşı barışmaz mövqe olub. 90-cı illərdə bunun canlı şahidi olduq. Bizim faciəmiz 1988-1993-cü illərdə başlanmayıb, onun tarixi kökləri qədimdir. 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə ermənilərin İrəvanda, Qarabağda, Naxçıvanda etnik təmizləmə əməliyyatları, həmçinin soyqırımı yuxarı orqanlar tərəfindən uzun müddət ört-basdır edilmişdir. Bütün bunlar barədə arxivlərdə kifayət qədər material, dəlil-sübut olsa da deportasiya və soyqırım faktına 90-cı illərə qədər siyasi qiymət verilməsi mümkün sayılmamışdır.

Möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının 18 dekabr 1997-ci il tarixdə «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında», 26 mart 1998-ci il tarixdə «Azərbaycanlıların soyqırımı haqqında» fərmanları geniş əks-səda doğurmuşdur. Fərmanda deyildiyi kimi, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Söz yox ki, bu, adi fərmanlar deyildi. O bizi öz tarixi yaddaşımıza dönməyə, uzun illər boyu kütləvi qətllərə və qırğınlara məruz qalmış millətimizin faciələrindən ibrət dərsi götürməyə, haqq işimiz uğrunda ədalət mücadiləsinə qalxmağa, düşmənə qarşı ölüm-dirim savaşına atılmağa səfərbər etmişdir. Bu əsl vətəndaş fəryadıdır, bütün beyinləri, bütün ürəkləri, bütün yumruqları vahid bir beyin, vahid bir ürək, vahid bir yumruq şəklində birləşməyə səsləyən çağırışdı.

Fərmanda deyilir ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Dünya şöhrətli siyasətçi H.Əliyevin sədirlik etdiyi komissiya dövlət arxivində saxlanılan hüquqi sənədlərə əsaslanıb 1948-1953-cü illərdə erməni şovinistlərinin Ermənistan SSR-də yaşamış azərbaycanlıların başına nələr gətirdiyini təhlil edib xalqa çatdırmaqla həmin hadisələrə hüquqi-siyasi qiymət verilməsinə nail olmuşdur.

Ən böyük faciələrdən biri 1948-1953-cü illərdə dünyanın müxtəlif ölkələrindən gətirilən bir sürü daşnakı Ermənistanda yerləşdirmək adı altında Stalinin əmri ilə 150 min nəfər günahsız azərbaycanlını zorla öz qədim ata-baba torpaqları olan, büllur təbiətli, gül-çiçək ətirli gözəl dağ rayonlarından didərgin salıb, Milin, Muğanın şoran torpaqlarında məskunlaşdırılmasıdır.

Bu necə olmuşdur? 1945-ci ilin noyabr ayında Ermənistan Kommunist Partiyasının katibi Q.Arutyunyan İ.Stalinə məktub yazaraq Qarabağın Ermənistana verilməsi məsələsini qaldırır. Stalin dərhal məktubu K.M.Malinkovun üstünə göndərir. O isə öz növbəsində razılıq alınması üçün məktubu Azərbaycana yollayır. M.C.Bağırov cavabında bildirir ki, həmin təklifə etiraz etmir. Bu şərtlə ki, Ermənistanda, Gürcüstanda və Dağıstanda əsasən azərbaycanlılar yaşayan və tarixən bizim olmuş ərazilər Azərbaycana qaytarılsın. Kim idi torpaq qaytaran? Söz söhbət də onunla kəsildi.

Bu dəfə ermənilər və onların Moskvadakı havadarları başqa yola əl atdılar. Aradan düz iki il keçəndən sonra, 1947-ci il dekabr ayının 23-də Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycana köçürülməsi barədə SSR Nazirlər Sovetinin qərarı çıxdı. Həmin bədnam sənəddə tələb olunurdu ki, yüz min kolxozçu və digər əhali 1948-1950-ci ilərdə «könüllülük prinsipləri əsasında» Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülsün. Müddətlər də konkret aydın idi: 1948-ci ildə 10 min nəfər, 1949-cu ildə 40 min nəfər, 1950-ci ildə isə 50 min nəfər.

Bəs bu torpaqlar, neçə-neçə zəhmətli illərin məhsulu olan ev-eşik kimə qalsın? Utanıb çəkinmədən qərarda da göstərilirdi. Onların boşaltdığı tikililərdən və yaşayış evlərindən xaricdən gələn erməniləri yerləşdirmək üçün istifadə ediləcək.

Deportasiya bax bu cür başlandı. Bunları deməkdə məqsədimiz bu illərdə hüquq mühafizə orqanlarında işləyənləri günahlandırmaq, kimisə mühakimə etmək niyyəti deyildir. Bilirik ki,

hər bir dövrün hökmü ilə hərəkət edən milis (polis) işçiləri qanunların daimi keşikçisi, mühafizəçisi və qoruyucusu olmuşdur.

Məhz bu baxımdan söhbət açdığımız Naxçıvan milisinin (polisinin) 1988-2000-ci illərdə Azərbaycan ərazisinin bütövlüyü uğrunda erməni işğalçılarına qarşı mübarizəsi ilə yanaşı dövlətçiliyimizin möhkəmləndirilməsində, apardığı mübarizə və gördüyü işlərdən söhbət etmək, sənədlər əsasında oxucularımıza qısa da olsa məlumat vermək istəyirik.

20 fevral 1988-ci ildə ermənilər gecəyarı Stepanakert (Xan kəndi-F.C.) şəhərində azərbaycanlı evlərə, tələbə yataqxanalarına basqınlar edib azərbaycanlılara qarşı, xüsusi ilə qızlara-qadınlara qarşı cinayət hərəkətləri törətdilər. Bu görünməyən hadisə yerli və mərkəzi mətbuat səhifələrində gecə qaranlığında çaxan şimşək kimi qeyd edildi. Lakin bunu bir neçə xuliqan ünsürün törətdiyi hadisə kimi qələmə verməyə çalışdılar. Sonralar aydınlaşdı ki, bu heç də təsadüfi hadisə deyil, bir neçə ildən bəri plan əsasında daşnak erməniləri tərəfindən düşünülərək həyata keçirilmiş hadisə idi.

1988-ci ilin fevralında fitva verilmiş millətçi ehtiraslarının və Dağlıq Qarabağda separatçı hərəkatının partlayışından başlayaraq Ermənistanın Azərbaycana qarşı açıq müharibəyə keçdiyi bəlli oldu. Son illərin hadisələrinin bütün gedişi sübut edir ki, Azərbaycandan ərazi qoparmaq üçün baş verən bütün hadisələr qabaqcadan planlaşdırılmış və yaxşı təşkil olunmuş qəsd idi.

Dağlıq Qarabağ hadisələri getdikcə genişlənib mart 1988-ci ildə ən dəhşətli hala çatır. Daşnaklar «ölənədək mübarizə edəcəyik» şüarını irəli sürürlər. Zori Balayan göstərir ki, «başqa yol yoxdur», ən dəhşətli günlərdə Dağlıq Qarabağ və Sumqayıt hadisələri ilə əlaqədar Yerevan və Moskvadakı erməni Daşnakları çoxlu uydurmalar düzəldir və xarici təbliğatları işə salırlar: «Azadlıq», «BBS», «Amerikanın səsi» radiostansiyalarında meydan oxumağa başlayırlar. Bu uydurmalarda Qriqoryan, Ayrikyan, Akambekyan və başqaları daha fəallıq göstərirlər (1).

Daşnak partiyasının şantajçılarının həyasızlığı o dərəcəyə çatır ki, azərbaycanlılar. 1988-ci il

---

1. «İzvestiya» qəzeti, 26 aprel 1988-ci il.

**Ermənistandan azərbaycanlıların son köçü**
(19-27 mart, 28 may-28 iyun 1988-ci il).









**Ermənistandan məcburi köçürülməyə məruz qalan azərbayjanlılar**

Ermənistanın Moskvadakı elçisi paytaxtda yaşayan ermənilərin qarşısında çıxış edərək deyir: «Sumqayıtdakı islampərəst azərbaycanlılar, oradakı doğum evinə girib hamilə qadınları doğram-doğram edib körpələrin başları ilə futbol oynamışdılar. Bizə elə gəlir ki, heç faşistlər də belə etməyiblər». Yaxşı ki, «Pravda» və «İzvestiya» qəzetlərinin əməkdaşları ermənilərin bu cəfəngiyatına tutarlı cavab verib, ifşa etmişlər.

Qeyd edək ki, 1988-ci ildə ermənilərin Azərbaycan xalqına qarşı genosidin yeni dövrü başlamışdır. Yaxşı planlaşdırılmış, imansız və cinayətkar tədbir həyata keçirilmişdir. Respublika və yerli hakimiyyət orqanları tərəfindən şirnikləndirilən erməni ekstremistlərinin azğın quldur dəstələri tərəfindən Ermənistandan 185 yaşayış məntəqəsi boşaldıldı, 230 min azərbaycanlı öz doğma yurdlarından didərgin salındı, yüzlərlə günahsız insan qətlə yetirildi. Minlərlə qan qardaşımız bu haqsızlığa tab gətirməyib, qarlı dağ gədiklərində həlak oldu (1).

Özlərinin planlı surətdə həyata keçirdikləri Sumqayıt hadisələrini əllərində bayraq edən ermənilər, Sumqayıtdan gələn ermənilər ilə birləşib Ermənistanda yaşayan azərbaycanlılara qarşı görünməmiş vəhşiliklər törətdikləri üçün azərbaycanlılar 1988-ci ilin mart ayından oradan kütləvi şəkildə köçməyə başladı.

Ermənilər azərbaycanlıların yaşadığı evlərə basqınlar edərək dağıtmış, ev sahiblərini döymüş, neçə-neçə azərbaycanlını qətlə yetirmişlər. Hədə-qorxu gələrək deyirdilər ki, tez müddətdə buradan getməsəniz hamınızı öldürəcəyik.

Məcburi köçürülməyə məruz qalan bacı-qardaşlarımızın bir hissəsi sərnişin qatarı ilə Bakıya, bir hissəsi isə Azərbaycanın ayrı-ayrı rayonlarına getməli oldu. 1988-ci il mart ayının 18-də Ermənistandandan 135 ailə, 20 martda 196 ailə, 21 martda 284 ailə, 22 martda 187 ailə, 23 martda 255 ailə, 24 martda 188 ailə, 28 maydan 22 iyuna kimi və 28 iyundan 9 iyula kimi 1113 ailə məcburi köçürülmüşdür (2).

Polis polkovniki Novruz Quliyevin «Şərur fəryadı» kitabında göstərilir: Ermənistandan Şərura daxil olan köçkün maşın karvanı

---

1. «Azərbaycan» qəzeti, 24 yanvar 1988-ci il.
2. N.Quliyev «Şərur fəryadı», «Şuh nəşriyyatı», Bakı, 1999-cu il, s.44-175.

Sədərək karantin polis postundan keçirdi. Buna görə də nəzarətimlə postdan Şərura daxil olan məcburi köçkünləri ailə başçılarının familiyası, adı, atasının adı, hansı rayondan, kənddən gəlməsi, neçə nəfərlə, hansı nömrəli maşında gəlməsi, hansı ünvana getməsi xüsusi dəftərdə qeyd edilmişdir (1). Doğrudan da, həmin kitabda köçənlərin bütün siyahısı göstərilmişdir. Demək olar ki, polis əməkdaşları bu işdə xüsusi fəallıq göstərirdilər. Şərura gələn azərbaycanlılar müxtəlif vaxtda köçüb Bakı, Sumqayıt şəhərlərinə və Azərbaycan SSR-in ayrı-ayrı rayonlarına getdikdən sonra rayonda 156 ailə, 685 nəfər məcburi köçkün qalmışdır. Onlardan 75 ailə Yexiqnadzor, 58 ailə Ararat, 16 ailə Əzizbəyov, 6 ailə Masis və bir ailə Amasiya rayonundan gəlmişdir. Şərur rayonunda məskunlaşan azərbaycanlıların 266 nəfəri kişi, 270 nəfəri qadın və 149 nəfəri azyaşlı uşaq idi (2).

Bu ailələr Şərur rayonunun sovetlərində bu qaydada yerləşdirilmişdir. Siyaqut kənd sovetində 20 ailə, Sədərək kənd sovetində 19 ailə, Xanlıqlar kənd sovetində 10 ailə, Cəlilkənd kənd sovetində 10 ailə, Yengicə kənd sovetində 8 ailə, Düdəngə kənd sovetində 8 ailə, Qıvraq kənd sovetində 7 ailə-22 nəfər, Qarabağlar kənd sovetində 6 ailə-18 nəfər, Dərvişlər kənd sovetində 5 ailə, Oğlanqala kənd sovetində 4 ailə, İbadullah kənd sovetində 4 ailə, Axura kənd sovetində 4 ailə, Yaycı kənd sovetində 4 ailə, Şərur kənd sovetində 4 ailə, Aralıq kənd sovetində 3 ailə-25 nəfər, Qarxun 3 ailə-19 nəfər, Xok kənd sovetində 1 ailə. Əmək qabiliyyəti olan 296 nəfərin 115 nəfəri münasib işlə təmin edilmişdir. Onların 95 nəfəri daimi pasport qeydiyyatına götürülmüş, 115 nəfər mənzil ilə təmin edilmiş, 75 nəfər məktəb və uşaq bağçalarına yerləşdirilmiş, 8 ailəyə isə torpaq sahəsi verilmişdir (3).

O vaxt Naxçıvan MSSR Daxili İşlər naziri işləmiş milis polkovniki Ramil Usubov 1988-ci ildə azərbaycanlıların Ermənistandan necə qovulduğunun şahidi olub. O, dəstə-dəstə Naxçıvana gələn adamları qəbul edərək, onları dinləmiş, vəziyyətləri ilə mütəmadi olaraq maraqlanmışdır. Nazir o vaxt Ermənistan SSR DİN-i ilə

---

1. N.Quliyev «Şərur fəryadı», «Şuh nəşriyyatı», Bakı 1999-cu il, s.44-175.
2. Yenə orada. s.270-271.
3. «Azərbaycan qəzeti», 24 yanvar 1988-ci il.

telefon əlaqəsi yaratmış, Ermənistanda azərbaycanlılara qarşı törədilən cinayətlərin qarşısının alınmasını tələb etmişdir.

Ermənistandan azərbaycanlıların məcburi köçürülməsinə dair Azərbaycan SSR-dən olan SSRİ Xalq deputatları SSRİ Ali Sovetinin sessiyasında «Ermənistandan azərbaycanlıların zorla qovulması haqqında» qəbul etdikləri müraciətdə oxuyuruq: «1988-ci ilin təkcə üç günü ərzində, noyabrın 27-dən 29-dək Quqarkda, Spitakda və Stepanovda 33 azərbaycanlı, ümumiyyətlə isə 100 nəfərdən çox adam öldürülmüşdür. Quqark Rayonunun Gözəldərə kəndində 21 azərbaycanlı, o cümlədən 6 qadın, 3 uşaq öldürülmüşdür».

1988-ci il iyun ayının sonlarında azğınlaşmış erməni quldurları acıqdan-acığa yolkəsənlik edirdilər. 30 iyun 1988-ci ildə Şərur Rayon DİŞ-dən Naxçıvan MSSR Daxili İşlər nazirinin adına yazılmış məktubda göstərilənləri buna misal çəkmək olar. Məktubda deyilirdi: «Sizin şifahi göstərişinizə əsasən bildirilir ki, 27 iyundan 28 iyun 1988-ci il tarixə keçən gecə Ermənistan SSR Ararat rayon polis şöbəsinin sahə inspektoru polis kapitanı Baqramyan Sədərək karantin polis postuna gələrək həmin gün baş növbətçinin kim olduğunu soruşmuş və bildirmişdir ki, Ararat rayon polis şöbəsinin rəisi Papayan onu gözləyir. Bu çağırışla əlaqədar olaraq Şərur rayon polis şöbəsinin Sədərək kəndi üzrə sahə inspektoru, polis baş leytenantı Sabir Əhmədov deyilən yerə getmişdir. Polis işçilərindən Bayramov Sabir Abbas oğlu, Rəhimov Şamil Hüseyn oğlu və karantin postunun həkimi Hüseynov Həsən Paşa oğlu da onunla birlikdə olmuşlar. Çünki həmin ərəfədə belə çağırışlara tək getmək qorxulu idi.

Arazdəyən postunda dayanan Ararat rayon polis şöbəsinin rəisi Papayan S.Əhmədova bildirmişdir ki, Ararat rayonundakı Armaş kəndi ilə Surenava kəndi arasında Yerevan-Naxçıvan magistral yolunu 200 erməni kəsib. Onlar deyirlər ki, əgər buradan azərbaycanlılar keçsələr onları öldürəcəyik. Papayan bunu da əlavə etmişdir ki, magistral yolda cəmləşən cavanların öhdələrindən gələ bilmərik. Onlar nə mənə, nə də Ararat polisinə tabe olmurlar. Buna görə də magistral yolda gediş-gəlişi dayandırmalısız...» (1).

1. N.Quliyev «Şərur fəryadı», «Şuh nəşriyyatı», Bakı 1999-cu il. s.210-211

Yolların bağlanması əhali arasında bərk narazılıq yaratmışdır. Çünki yolların bağlanması Naxçıvan MSSR ərazisində əhali üçün, eləcə də daim Ermənistanla əlaqəsi olan Şərur vətəndaşları üçün böyük çətinlik törədirdi. Ermənilər gərginliyi təkcə Yerevan-Naxçıvan magistralında deyil, həm də dəmir yolunda, eləcə də gedib-gələn avtobuslarda yaradırdılar.

Naxçıvan blokadada qalmışdır. Fürsətdən istifadə edən ermənilər Yerevan və Mehri rayonlarından Azərbaycan rayonlarına, o cümlədən Naxçıvana çıxışı olan bütün nəqliyyat yollarını istədikləri vaxt bağlayır, istədikləri vaxt açırdılar. Dəmiryol xətti və maşınların gediş-gəlişi, 1992-ci ildən demək olar ki, tamamilə bağlandı.

1988-ci ildən başlayan vəhşiliklər sübut etdi ki, bu «səxavət» və «rəhmdillik» ermənilərin apardıqları məkirli siyasətin bir qoludur. Azərbaycanlıların orada min bir əziyyətlə qurub-yaratdıqları imarətlər axırda ermənilərə qismət oldu.

Daşnakların Ermənistanın yerli sakinləri olan azərbaycanlılara qaşı fitnəkarlıqları tüğyan edəndə Azərbaycanın, eləcə də Naxçıvan MSSR-nin şəhər, rayon və kəndlərindən ermənilər azad-asudə çıxıb gedirdilər. Onlar bu yerlərdən maneəsiz köçürdülər. Hətta mühafizə olunaraq evlərini də satırdılar.

Bütün bunlara baxmayaraq o vaxt partiya və hökumət nümayəndələrinin, eləcə də inzibati orqan rəhbərlərinin dedikləri yerinə yetirilir, qəbul etdikləri qərarlar icra olunurdu.

Daşnakların Ermənistanda törətdikləri cinayətlər azlıq edirmiş kimi bir tərəfdən də Naxçıvanda onlar çörəyimizi yeyə-yeyə gizli terror, sui-qəsdlər etməyə çalışırdılar.

Bu cinayətlərlə bağlı Naxçıvan MSSR Dİ naziri Ramil Usubov Naxçıvan MSSR Ali Sovetinə göndərdiyi 27 fevral 1988-ci il tarixli gündəlik əməliyyat məlumatında yazırdı: «26 fevral 1988-ci il tarixdə saat 19:00 radələrində Yerevan şəhər sakinləri 1961-ci ildə anadan olmuş, əvvəllər məhkum olunmuş Yerevan Əhaliyə Məişət Xidməti Kombinatının sürücüsü Aleksandr Vartqes Anuşanoviç və Yerevanda 1962-ci ildə anadan olmuş Zorik Raifkoviç Naxçıvan şəhər sakini H.Hüseynovun mənzilinə girərək bıçaqla H.Hüseynovun qolundan və həyat yoldaşı S.Hüseynovanının sağ yuxarı kürək hissə-

sindən yaralamış, hər iki vətəndaş Naxçıvan mərkəzi xəstəxanasına aparılmışdır. Bu faktla əlaqədar Naxçıvan şəhər Daxili İşlər şöbəsi tərəfindən tədqiqat aparılaraq cinayət işi qaldırılmışdır..

18 iyun 1988-ci il tarixli gündəlik operativ məlumatda isə göstərilir ki, 1963-cü ildə Təzəkənddə anadan olmuş, bitərəf, məhkum olunmamış, ailəli, hazırda Babək rayonunun «Şəfəq» kolxozunda sürücü işləyən Rəhimov İsmayıl Zal oğlu Babək Daxili İşlər şöbəsinə məlumat verərək bildirmişdir ki, 17 iyun 1988-ci il tarixdə, saat 18 radələrində kolxoz fermasından SAğınçı qadınları gətirərkən 064-14 AQ №-li 02106 markalı «Jiquli» avtomaşınının sürücüsü və yanında olan üç nəfər onun idarə etdiyi QAZ-52 markalı avtomaşına ov silahı ilə atəş açmışdır. Yoxlama zamanı müəyyən edilmişdir ki, 02106 markalı «Jiquli» avtomaşınından atəş açan şəxs 1965-ci ildə Babək rayonunun Əznəbürd kəndində anadan olmuş, bitərəf, orta təhsilli, hazırda Əznəbürd kəndində yaşayan və Naxçıvan şəhər Əhaliyə Məişət Xidməti Kombinatında fəhlə işləyən Arakelyan Amayak Fransoviç olmuşdur. Hadisə ilə əlaqədar Babək rayon Daxili İşlər şöbəsi tərəfindən tədqiqat aparılır (1).

1988-ci ilin axırlarında Naxçıvan MSSR-in ərazisində münaqişə getdikcə qızışırdı. Qatı millətçi olan ermənilər Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə daxil edilməsini təkidlə tələb edirdilər. Bu da muxtar respublika zəhmətkeşlərinin hədsiz qəzəbinə səbəb olurdu. 18 noyabr 1988-ci ildən etibarən Naxçıvan MSSR-in hər yerində milli münasibətlər xeyli kəskinləşmişdir. Buna görə də Azərbaycan SSR və Naxçıvan MSSR Daxili İşlər Nazirliklərinin xüsusi göstərişinə əsasən şəxsi heyət yenidən gücləndirilmiş iş rejiminə keçərək 18 noyabr 1988-ci il tarixdən respublika daxilində tədbirlər həyata keçirməyə başladı. Qrafikə əsasən Şərur rayonunun Kərki, Sədərək, Günnüt, Havuş, Qarabağlar və Aşağı Yaycı kəndlərində, Şahbuz rayonunun Şada, Batabat yaylağının yuxarı hissəsində, Ordubad rayonunun Göy-göl, Bist, Kilit, Nürgüt, Culfa rayonunun Ərəfsə, Babək rayonunun Kərməçataq, Yuxarı Buzqov, Aşağı Buzqov, Çalxanqala və s. kəndlərin

1. Nax. MR DA. f.613. s.11. iş.98. v.57-192.

də postlar təşkil edilir. Bundan başqa Sədərək karantin postundan Babək rayonu ərazisinədək uzanıb gedən magistral yolun hər 15 km-də postlar yaradıldı. Magistralda 9 post qoyulmuşdur. 1-ci post Babək rayonu sərhəddindən Qıvraq kənd pavilyonuna kimi, 2-ci post pavilyondan Atəşgaha, 3-cü post Atəşgahdan Şam bulağına, 4-cü post Şam bulağından Arpaçay körpüsünə, 5-ci post Arpaçay körpüsündən Maxta yolayrıcına kimi, 6-cı post Maxta yolayrıcından Vəlidağ ərazisinə, 7-ci post Vəlidağ ərazisindən Arpaçay körpüsünə və 9-cu post Arpaçay körpüsündən Sədərək polis postuna kimi olan əraziləri əhatə edirdi.

1-ci posta sahə inspektoru Yunis Mustafayev, 2-ci posta İmran Hüseynəliyev, 3-cü posta Qəzənfər Əhmədov, 4-cü posta Miryaqub Seyidov, 5-ci posta Pənah Eyvazov, 6-cı posta Məmmədcəfər Sadiqov, 7-ci posta Sabir Əhmədov, 8-ci posta dövlət yol polisi inspektoru Arif Babayev, Məmmədəli Məmmədov və 9-cu posta dövlət yol polisi inspektoru Həsən Bayramov təyin edilmişdir. Onların son vəzifəsi magistral yoldan keçən erməni maşınlarının təhlükəsizliyini təmin etmək idi.

Polis podpolkovniki N.Quliyev «Şərur fəryadı» kitabında yazır: «1988-ci ilin noyabr hadisələrindən sonra, 1989-cu ilin martınadək erməni fitnəkarlarının törətdikləri cinayətlər az da olsa səngimişdir. Lakin 1989-cu ilin mart ayından başlayaraq onlar yeni bir fitnəkarlığa əl atdılar. Belə ki, Sədərək kəndinin yuxarı hissəsində yerləşən və həmin kəndə məxusu olan Həsənqulu bağının ərik bağlarına zorakılıqla sahib çıxan ermənilər oraya 8 ağır kürəkli buldozer və iri kotan qoşqusu olan «K-700» markalı şum traktoru gətirdilər. Bu hadisə Şərur və Sədərək əhalisinin haqlı narazılığına səbəb oldu. Öz etiraz səsini ucaldan əhali partiya və sovet təşkilatlarından tələb edirdi ki, Həsənqulu bağı sədərəklilərin ata-baba torpaqları olduğu üçün ermənilər öz texnikalarını təcili olaraq həmin ərazidən çıxarmalıdırlar.

Azərbaycan KP Şərur rayon Komitəsinin birinci katibi M.Abbasov yuxarı təşkilatlar qarşısında məsələ qaldırdı ki, ermənilər Həsənqulu bağına gətirdikləri texnika ilə birlikdə oradan çıxıb getsinlər. Lakin məsələ həll edilmədi. Buna görə də əhali arasında narazılıq daha da artdı».

Müəllif yazır: «27 mart 1989-cu il tarixdə Şərur rayon Partiya Komitəsinin birinci katibi Məmməd Abbasov rayonun bir qrup məsul işcisi ilə birlikdə ermənilərlə danışıq aparmaq üçün görüşə getdi. Mən də onların arasında idim. Çox keçmədi ki, Ararat rayon Partiya Komitəsinin birinci katibi həmin rayonun polis rəisi Akapyan və Ermənistan Dövlət Təhlükəsizlik Komitəsinin nümayəndəsi təyin olunmuş yerə gəldilər. M.Abbasov Ararat rayonundan gələn nümayəndələrə bildirdi ki, Həsənqulu bağına texnika gətirilməsi Şərurda, eləcə də 13 min əhalisi olan Sədərəkdə həyəcan yaratmışdır. Ararat rayon Partiya Komitəsinin birinci katibi bildirdi ki, əlimizdə sizin və bizim rəhbərlərimizin təsdiq etdikləri rəsmi sənədlər var. Həmin sənədlərə əsasən Həsənqulu bağı adlanan yer Ararart rayonuna məxsusdur. Əhali də məndən tələb edir ki, həmin torpaq əkin üçün yararlı hala salınıb əkilməlidir.

M.Abbasov dedi ki, əgər məsələ belədirsə, sənədlər ortaya çıxıncaya qədər iş dayandırılsın, hər iki tərəf bu fikirlə razılaşdı.

Lakin erməni millətçiləri öz hərəkətləri ilə camaatı daim qıcıqlandırırdılar. Belə ki, Həsənqulu bağına gətirdikləri traktorları hərdən işə salır, Qaracalıq deyilən yerdə kötükləri çıxarıb, əkin keçirmək üçün yeri hamarlayırdılar.

Onu da deyək ki, Sədərək camaatı birinci dəfə eşidirdi ki, Həsənqulu bağı və Qaracalıq deyilən sahə ermənilərə məxsusdur. Sən demə 1929-cu ildə 9 kəndimizi «ürəyi yumşaq» rəhbərlərimiz ermənilərə bəxşiş etmişlər.

1982-ci ildə H.Əliyevin Moskvaya getməsindən istifadə edən ermənilər «ürəyi yumşaq» rəhbərlərimizin saqqızını oğurlayaraq, yenidən torpaq «bəxşişi» ala bilmişlər. Ermənilər həmin bəxşiş sahələrdə kömür basdırmaları ilə işarə qoyub, akt tərtib etmişlər. Aktda Şərur rayon XDS İcraiyyə Komitəsinin sədri, «Oktyabırın 60 illiyi» sovxozunun direktoru və Şərur rayon baş yer quruluşcusu imza etmişdilər. Məgər onlar idimi günahkar? Heç də yox. Yuxarıda qeyd etdiyimiz kimi bunlar əsasən «əmirqulu» olmuşdular. Əgər yuxarıdan əmr və göstəriş verilməsəydi onlar heç də bu sənədə imza atmazdılar. Amma ata-babalarımızın dediyi kimi «torpaqdan pay olmaz». Bunlar unudulmamalıdır. Əgər bu gün mən, sən və ya digərləri vətənimizin hər hansı

bir parça torpağını vəzifə hesabına satırsa və yaxıd bağışlayırsa, bunu əlbəttə gələcək nəsil bizə heç vaxt bağışlamacaq».

Qısa bir haşiyə: Bu məsələ ilə əlaqədar arxivlərə müraciət edildi. Həmçinin Bakıdan nümayəndələr dəvət olundu. Araşdırmalar aparıldı. Dövlət Komissiyası yaradıldı. Nəhayət, 10 oktyabr 1989-cu il tarixdə «Naxçıvan MSSR ərazisi və sərhədləri haqqında» verilmiş sorğu əsasında dövlət komissiyasının sədri E.Kərimzadənin məlumatı dinlənildi. Həmin məlumatı olduğu kimi oxucularımıza təqdim edirik.

XI-ci çağırış Naxçıvan MSSR Ali Soveti IX-cu sesiyasının (10 oktyabr 1989-cu il) tapşırığı ilə Naxçıvan MSSR-in ərazisinin və sərhədlərinin məlum Qars müqaviləsinin (1921-ci il) şərtləri ziddinə dəyişdirilməsi barədə verilmiş sorğuda qaldırılan məsələlər komissiya tərəfindən öyrənilmiş və aşağıdakılar müəyyən edilmişdir.

V.İ.Leninin və Mustafa Kamal Atatürkün təşəbbüsü ilə 1921-ci il mart ayının 16-da Moskvada bağlanmış RSFSR-Türkiyə müqaviləsi ilə Naxçıvan Vilayəti Azərbaycan SSR-nin tərkibinə daxil edildi. Həmin müqavilənin 3-cü bəndində deyilir: «Hər iki sazişə girən tərəf razılaşır ki, Naxçıvan vilayəti müqavilənin 1 (s) əlavəsində göstərilən sərhədlər daxilində Azərbaycanın protektaratı altında heç bir üçüncü dövlətə güzəşt etməməlidir.

«Protektarat» latın sözüdür və lüğəti mənası budur ki, bir dövlət (protoektor adlanır-burada Azərbaycan) digər bir dövləti (burada Naxçıvanı) xarici əlaqələrdə təmsil edir və onun xarici siyasətini müəyyən edir».

1921-ci il oktyabr ayının 13-də bir tərəfdən Türkiyə, digər tərəfdən RSFSR iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR və Gürcüstan SSR arasında dostluq haqqında məşhur Qars müqaviləsi imzalandı. Bu müqavilənin Türkiyə tərəfindən Ali Milli Məclisin deputatı, Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir paşa, Ali Milli Məclisin deputatı Vəli bəy, ictimai işlər üzrə «stats» katibin keçmiş köməkçisi Muxtar bəy və Türkiyənin Azərbaycanda səlahiyətli nümayndəsi Memdux Şövkət bəy, RSFSR tərəfdən RSFSR-in Latviyada səlahiyyətli nümayəndəsi Yakov Qanetski, Azərbaycan SSR-dən Dövlət nazarəti üzrə xalq komissarı Behbud Şahtaxtınski, Ermənistan SSR-dən xari-

ci işlər üzrə xalq komissarı Askenaz Mravyan və daxili işlər üzrə xalq komissarı Paqos Makinyan, Gürcüstan SSR-dən hərbi və dəniz işləri üzrə xalq komissarı Şalva Eliava, xarici işlər və mAliyə üzrə xalq komissarı Aleksandr Svanidze imzalamışlar.

Qars müqaviləsinin 5-ci maddəsində göstərilir: «Türkiyə hökuməti ilə Ermənistan və Azərbaycan Sovet Hökumətləri bu müqavilənin 3-cü əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan bölgəsinin Azərbaycanın himayəsində muxtar ərazi təşkil etməsinə razıdır» (1).

Üçüncü əlavə «Naxçıvan ərazisi» başlığı altnda verilir və yuxarıda göstərilən nümayəndələr tərəfindən imzalanmışır. Bu əlavədə Ermənistan SSR ilə Naxçıvan MSSR arasında sərhəd xəttinin keçdiyi əsas nöqtələr qeyd olunmuşdur. Müqavilədə sərhəd aşağıda göstərilən kimi müəyyənləşdirilmişdir. Qərbdən-şərqə: Türkiyədə yerləşən Urmiya kəndindən düz xətdə Arazdəyən stansiyasına (Arazdəyən stansiyası Ermənistanda saxlanılır), sonra düz xətt boyunca Qərbi Daşburun dağı (3142 fut), Şərqi Daşburun dağının (4108) suayrıcı xətti, Cəhənnəm dərəsi çayından keçib cənuba doğru «Rodn» (bulaq), cənub yazısı olan sahədə Bağırsaq dağının (6607) və ya (6587), suayrıcı xətti ilə oradan keçmiş Yerevan dairəsi və Şərur-Dərələyəz qəzasının inzibati sərhəddi boyunca (6629) yüksəklikdən Kömürlü dağına (6839 və ya. 6930), oradan 3080 yüksəkliyinə- Salat dağına (8160)- 8022 yüksəkliyinə, Kükülü dağına (10282) və keçmiş Naxçıvan dairəsinin şərqindəki inzibati sərhəddi boyunca uzanır (2).

Lakin sonralar heç bir əsaslı səbəb olmadan Zaqafqaziya SFSR MİK Rəyasət heyətinin 18 fevral 1929-cu il tarixli qərarı (3№-li protokol) ilə Naxçıvan MSSR ərazisindəki 657 km$^2$ və ya 657 min hektar torpaq sahəsi Ermənistana verilmişdir. Beləliklə, 1921-ci ildə Rusiya ilə Türkiyə arasında bağlanmış Moskva və Qars müqavilələrinin şərtləri kobud surətdə pozulmuşdur. Türkiyə Respublikası və RSFSR burada iştirak etməmiş və onların razılıqları alınmamışdır. Nəticədə Karçivan, Qurdqulaq, Horadiz, Oğbin, Ağxəc, Dağın, Almalı, İtqıran və Sultanbəy

1. Gömrü, Moskva və Qars müqavilələri. Naxçıvan 2004-cü il, s.79-80.
2. Yenə orada. s.70.

kəndləri, Kilit kəndinin bir hissəsi Ermənistan SSR-ə keçmişdir. ZSFSR MİK Rəyasət heyətinin protokolunda həmin torpaqların verilmə səbəbləri belə göstərilməmişdir.

Naxçıvan MSSR Ali Soveti Rəyasət heyətinin məktubu əsasında Azərbaycan SSR Ədliyyə Nazirliyinin tapşırığı ilə bir qrup mütəxəssis, o cümlədən hüquq elmləri doktoru İ.Rəhimov, tarix elmləri namizədi Q.Ağayev, Hüquq elmləri namizədi Z.Qafarov və R.Məmmədov yoldaşlar tərəfindən arxiv materialları və beynəlxalq hüquq sənədlərinə müvafiq Qars müqaviləsinin müddəalarının pozulması məsələsi araşdırılmışdır.

Məlum olmuşdur ki, beynəlxalq müqavilələrin yerinə yetirilməsi şərtləri haqqında 1969-cu ildə bağlanmış məşhur «Vyana» konvensiyasının 26-cı bəndinin əsasnaməsinə görə hər bir qüvvədə olan müqavilənin şərtləri onun iştirakçıları üçün qanundur və onlar tərəfindən vicdanla yerinə yetirilməlidir. Vyana konvensiyasının 27-ci bəndində deyilir ki, müqavilənin iştirakçısı müqaviləni yerinə yetirməməkdə özünə haqq qazandırmaq üçün öz daxili qanunlarına heç də istinad etməməlidir. Özü də (Pakta Synt Sarwanda-müqaviləyə əməl olunmalıdır) prinsipinin tərkib hissəsi olan bu tələbnamələr Vyana konvensiyasına daxil edilərkən SSRİ tərəfindən aktiv müdafiə olunmuşdur.

SSRİ və müttəfiq respublikaların əsas qanunvericiliyinin 129-cu bəndində bu fikir öz əksini tapmışdır. Həmin bənddə göstərilir ki, əgər SSRİ ilə bağlanmış beynəlxalq müqavilələrdə və ya beynəlxalq sazişlərdə qoyulmuş tələblər SSRİ qanunvericiliyinə uyğun gəlmirsə, bu halda beynəlxalq sazişlərin şərtləri qanun kimi tədbiq olunmamışdır.

Beynəlxalq hüquq normalarına görə əgər beynəlxalq müqavilədə iştirak etmiş dövlətlərdən ikisi və daha çoxu birləşib yeni bir dövlət yaradırlarsa, bu halda dövlətlər arasında bağlanmış müqavilə qanun kimi yeni yaranmış dövlət üçün qüvvədə qalır və o müqavilənin şərtlərinə mütləq əməl etməlidir. Bu o deməkdir ki, SSRİ Qars müqaviləsinin müddəalarının yerinə yetirilməsinə bilavasitə cavabdehdir, çünki RSFSR-in və müttəfiq respublikaların bazasında 1924-cü ildə yeni yaranmış Sovetlər İttifaqı ilə Türkiyə arasında sonralar Qars müqaviləsinin əleyhinə heç bir müqavilə bağlanmamışdır.

Mütəxəssislər, ümumiyyətlə, belə bir nəticəyə gəlmişdir ki, Naxçıvan ərazisinin müəyyən hissəsinin Ermənistan SSR-ə verilməsi barədə Zaqfederasiya MİK Rəyasət heyətinin 18 fevral 1929-cu il qərarı qanuna uyğun olmadığına görə Naxçıvan MSSR-nin haqqı vardır ki, Qars müqaviləsini rəhbər tutaraq muxtar respublikadan qeyri-qanuni alınmış 657 km$^2$ sahənin geri qaytarılmasını tələb etsin, onun suverenliyi və ərazi bütövlüyü sahəsində yol verilmiş ədalətsizliyi bərpa etsin.

Daha sonralar, yəni 1969-cu il may ayının 7-də Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin Ermənistan SSR ilə sərhədləri barədə yeni bir qərarı olmuşdur. Həmin sənədi Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin sədri M.İsgəndərov və Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin katibi Z.Şükürova imzalamışdılar. Lakin 1985-ci ilə qədər həmin qərarın icrası həyata keçirilməmişdir. 1985-1986-cı illərdə 1969-cu ildən verilmiş qərarın naturaya keçirilməsi zamanı müəyyən olmuşdur ki, Naxçıvan MSSR-in ərazisindən Azərbaycan xalqı tərəfindən 1985-1986-cı illərə qədər istifadə olunan 199,1 hektar torpaq sahəsi, o cümlədən Şərur rayonundan 196 hektar, «Həsənqulu bağı» adlanan sahədən 94 hektar və Güznüt kəndi yaxınlığında olan ərazidən 102 hektar torpaq sahəsi, Ordubad rayonundan 2,5 hektar əkin yeri Ermənistan SSR-ə verilmişdir.

Ümumiyyətlə, 1985-1986-cı illərdə muxtar respublikanın ərazisindən 58,5 hektar əkin yeri, 5 hektar bağ, 3,2 hektar meşə, 58,7 hektar örüş, 59,2 hektar daşlı örüş və 11 hektar istifadəsiz torpaq sahəsi Ermənistan SSR-ə verilmişdir. Bunun müqabilində 319,5 hektar torpaq sahəsi, o cümlədən Babək rayonunda 151 hektar, əsasən «Qazan» yaylağı adlanan ərazidən, Şərur rayonunda isə 168,5 hektar əsasən «Həsənqulu bağı»nın şərq tərəfindən istifadəsiz torpaq sahəsi və daşlı örüş yeri qaytarılmışdır.

Naxçıvan MSSR-dən 1985-86-cı illərdə bu sənədlərə rayonların icraiyyə komitələrinin sədrləri, yer quruluşçuları, aid təsərrüfat rəhbərləri və Naxçıvan MSSR-dən 1985-86-cı illərdə bu sənədlərə rayonların icraiyyə komitələrinin sədrləri, yer quruluşçuları, aid təsərrüfat rəhbərləri və Ermənistan SSR tərəfindən də eyni qaydada sənədlərə imza etmişlər.

Mən xronoloji qaydada 1921-ci ildən indiyədək Naxçıvan MSSR-in ərazisinin qonşu Ermənistan SSR-i ilə sərhədlərinin dəyişdirilməsi barədə Naxçıvan MSSR Aqrar Sənaye Komitəsində və digər mənbələrdə olan məlumatları sizə çatdırıram. Lakin bəzi uyğunsuzluqlar da var ki, onlar hələ də qalır və fikrimjə aid təşkilatlar bu işlə məşğul olub heç olmazsa ədalət naminə onları dəqiqləşdirməlidirlər.

Komissiya təklif edir ki, 1921-ci ildən sonra Naxçıvan MSSR ərazisindən torpaq sahələrinin və oradakı yaşayış məntəqələrinin Moskva və Qars müqavilələrinin ziddinə olaraq Ermənistan SSR-ə verilməsi səbəblərini aydınlaşdırmaq, eləjə də həmin müqavilələrdə Naxçıvan MSSR ərazisinə aid bəzi məsələləri dəqiqləşdirmək üçün xüsusi səlahiyyətli komissiya yaradılması Qars müqaviləsinin iştirakçısı olan tərəflərin razılığı olmadan Ermənistan SSR-ə verilmiş torpaqların geri alınması barədə iddia qaldırmaq məsələsi Azərbayjan SSR Ali Soveti qarşısında qaldırılsın (1).

Lakin bunun heç bir nətijəsi olmadı, çünki məlumatdan aydın olduğu kimi, 1985-1986-jı illərdə verilən torpaqlar hər iki tərəfin təsdiq etmiş olduğu sənədlər arasında olmuşdur.

Ermənilər Şərurdan xeyli aralı olan, kənarda qalan Kərki kəndini, Şahbuz rayonunun Şada, Batabat yaylaqlarında çobanlara, Babək rayonunun Kərməçataq, Yuxarı Buzqov kəndlərinə, Ordubad-Julfa rayonlarının Ermənistanla həmsərhəd olan kəndlərinə atəş açır, kənd əhalisinin və kolxozun heyvanlarını silah güjü ilə aparır, adamları nalayiq söyüşlərlə təhqir edir, xəsarət yetirirdilər.

Bunu biz Naxçıvan MSSR DİN-nin gündəlik əməliyyat məlumatlarında görürük. Naxçıvan MSSR Daxili İşlər Nazirliynin gündəlik məlumatlarına nəzər yetirək: «17 iyul 1989-ju il. 15 iyul 1989-ju il, səhər saat 8 radələrində erməni məntəqəsindən 9 nəfər silahlı Şərur rayonunun «Vəzir daşı» adlanan ərazisində kənd əhalisindən növbədə olan Məmmədov Ceyhun Hümbət oğluna basqın edərək Şərur rayonunun Güznüt kənd sakinləri Məmməd Məmmədovun, Vəli Əliyevin, Hümmət Məmmədovun, Fəxrəddin Abdullayevin və başqalara məxsus 219 baş xırda buynuzlu

1. Nax. MR DA. f.613. s.11. iş.337. v.1-5.

heyvanını əlindən alaraq Ermənistan SSR Ararart rayonunun Sovetaşen ərazisinə aparmışlar.

C.Məmmədov basqın edən şəxslərdən 3 nəfərini tanıdığı üçün Şərur rayon Daxili İşlər şöbəsinə bildirmişdir ki, heyvanları Sovetaşan kənd sakinlərindən Aşot Karapetiyanı, Albert Markaryanı, Xonoz Totosyanı tanıyıram.

Ziyançəkən şəxslər həmin günü Ararat rayonunun Sovetaşan kənd Sovetinin partiya katibi və kənd sovetinin sədrindən heyvanların haqqında xahiş etmişlər. Əvvəlcə onlar heyvanların qaytarılmasına söz vermişlər, sonra isə etiraz etdilər. Bundan sonra 4 nəfər erməni ziyançəkən Fəxrəddin Abdullayevin üstünə hücum edərək cibində olan 500 manatını, ayaqqabı və pencəyini çıxardaraq soymuşlar. Fakt üzrə cinayət işi qaldırılmış və bu məsələ ilə bağlı Şərur Daxili İşlər şöbəsində istintaq aparılır» (1).

22 iyul 1989-cu il. Əvvəlcədən məlumat verdiyim kimi bir qrup milliyətcə erməni olan şəxslər tərəfindən 13 iyul 1939-cu il tarixdən Şərur rayon Kərki kəndinə gediş-gəliş yolu kəsilmiş və kəndə ərzaq məhsullarının buraxılışı hədsiz çətinləşmişdir.

Vəziyyətin bu cür inkişafı kənd əhalisi arasında böyük narazıçılığa səbəb olmuşdur. Kənddə milis postunun olmasına və aparılmış tədbirlərə baxmayaraq əhali kəndi tərk etməkdədir.

22 iyul 1989-cu il tarixdən 23 iyula keçən gecə Kərki kənd sakinlərindən 70-80 nəfər, əsasən, uşaq və qadınlar kəndi tərk edərək dağ yolu ilə Sədərək kəndinə gəlmişlər. Hazırda kənddə yaşayan 330 nəfərdən cəmi 141 nəfəri kənddə qalmışdır.

22 iyul 1989-cu il tarixdə 686№-li sərnişin qatarının maşinisti İnşallah Orucov dəmir yol xətt daxili işlər şöbəsinə bildirilMişdir ki, bu gün saat 04:20 radələrində Ermənistan SSR Mehri rayonu ərazisində yerləşən Qarçivan stansiyası yaxınlığında naməlum şəxslər tərəfindən dəmir yolu üzərinə 3 ədəd rels atılmış və 685№-li Yerevan-Qafan sərnişin qatarının hərəkəti pozularaq dayandırılmışdır. Dəmir yol xətti Daxili İşlər şöbəsi tərəfindən təhqiqat aparılır.

27 iyul 1989-cu ildə saat 20:05 radələrində Culfa Lokomotiv deposunun maşinist köməkçiləri və digər dəmir yol işçilərindən

1. Nax. MR DA. f.613. s.11. iş.337. v.7-9.

400-500 nəfər iş vaxtından sonra dəmir yol ərazisində olan deponun həyətində toplaşaraq mitinq etmişlər.

Onlar aşağıdakı tələbləri irəli sürmüşlər:

--Ermənistan ərazisindən keçən qatarların təhlükəsiz və fasiləsiz hərəkətləri təmin edilsin.

--Qarçivan stansiyasında təkrar xuliqanlıq və özbaşınalıq hərəkətlərinə son qoyulsun. Qatar xətlərinə beton və digər Əşyalar yığaraq dəmir yolunda gərgin vəziyyət yaratmış günahkar şəxslər məsuliyyətə cəlb edilsinlər.

--Mehri rayonu ərazisində Azərbaycan millətindən olan maşinistlərə və gözətçilərə tez-tez basqınlar edilmiş, onlara müxtəlif dərəcələrdə xəsarət yetirmişlər. SSRİ və Ermənistan SSR Daxili İşlər Nazirliyi təcili həmin xuliqanları aşkar edib cəzalandırsınlar.

--Mitinq iştirakçılarının arzu və təklifləri dinlənilmiş, vəziyyətin normallaşdırılması üçün muxtar respublikanın partiya, sovet və hüquq mühafizə orqanlara tərəfindən həyata keçirilmiş tədbirlər barədə onlara məlumatlar verilmişdir.

Mitinq vaxtı heç bir ictimai qaydanı pozma halları olmamışdır.

Ordubad rayon Kənzə kənd sakinləri adından Rzayev Baxış Mahmud oğlu 12 avqust 1989-cu il tarixdə Naxçıvan MSSR Ali Sovetinə göndərdiyi teleqramda yazır: «Avqust ayının 10-da saat 16 radələrində silahlı erməni dəstələri camaatın 8 baş mal-qarasını aparmış, çobanı döymüşlər, haliyyədə çoban xəstəxanada yatır».

13 avqust 1989-cu il tarixdə Ordubad rayonundakı «Partiyanın XXII qurultayı» adına kolxozun ferma müdiri Hüseynov Rəşid Hüseyn oğlu Ordubad rayon DİŞ-nə bildirmişdir ki, avqust ayının 12-də saat 19 radələrində milliyətcə erməni olan 2 nəfər silahlı şəxs Ordubad rayonunun Ermənistan SSR-i ilə həmsərhəd rayonunda, «Şeh ağılı» yaylağında kolxozun sürüsünə basqın edərək 28 baş ana qoyun və 5 baş keçini sürüb aparmışlar. Sürünü mühafizə edən çoban Cabbarzadə Zakir Həmzə oğlu basqınçılara xəbərdarlıq etmək məqsədi ilə havaya atəş açmış, lakin basqınçılar aparılan heyvanları buraxmamışlar. Fakt üzrə yoxlama Ordubad rayon DİŞ-i tərəfindən aparılır.

15 avqust 1989-cu il tarixdə ssat 21:40 radələrində Şərur rayonunun Sədərək kəndi ilə Ermənistan SSR Ararat rayonu ilə həm-

sərhəd olan «Qaraağac» adlanan ərazidə bir qrup milliyətcə erməni olan şəxs toplaşmışdır. Onların toplaşma səbəbini aydınlaşdırmaq üçün Sədərək kənd sakinlərindən bir qrup şəxs həmin yerə yaxınlaşarkən ermənilər tərəfdən odlu silahdan atəş açılmışdır. Nəticədə Sədərək kənd sakini 1939-cu ildə anadan olmuş Şərur rayonundakı «Oktyabrın 60 illiyi» adına sovxozda fəhlə işləyən Qazıyev Tağı Səfər oğlu döş və sağ qol nahiyyəsindən xəsarət alaraq Şərur rayon xəstəxanasına gətirilmişdir. Bu fakt üzrə Şərur rayon DİŞ-si tərəfindən tədqiqat aparılır.

23 avqust 1989-cu il tarixdə saat 08:00 radələrində Ordubad rayonunun «Tüklü çəmən» yaylağında milliyətcə erməni olan 8 nəfər, Ordubad rayon Tivi kənd sovxozunun çobanına silahlı hücum edərək 73 baş iribuynuzlu qaramalı Ermənistan SSR Qafan rayonu ərazisinə aparmışlar. Silahlı basqın nəticəsində ferma işçiləindən xəsarət alan olmamışdır. Fakt üzrə yoxlama Ordubad rayon DİŞ-si tərəfindən aparılır.

24 avqust 1989-cu il tarixdə saat 04:00 radələrində Şahbuz rayonunun «Gəlin qayası» yaylağında milliyətcə erməni olan 40-50 nəfər Babək rayonunun Şıxmahmud kənd N.Rəfiyev adına sovxozun çobanı Qubuşev Əziz İmamverdi oğluna silahlı basqın etmiş, odlu silahdan atəş açaraq onu yaralamış və mühafizə etdiyi sürüdən 100 baş xırda buynuzlu heyvanı qovaraq Ermənistan SSR Sisyan rayonu ərazisinə aparmışlar. Fakt üzrə yoxlama Şahbuz rayon DİŞ-i tərəindən aparılır.

5 sentyabr 1989-cu il tarixdə SSRİ DİN-in əməkdaşlarının köməyi nəticəsində 25 avqust 1989-cu il tarixdə Şahbuz rayonunun «Keçəl dağ» yaylağında Ermənistan SSR-nin Sisiyan rayonuna aparılmış, Şərur rayonundakı V.İ.Lenin adına sovxoza məxsus 1260 baş qoyundan 1151 başı geri qaytarılmışdır.

Lakin 6 sentyabr 1989-cu il tarixdə saat 05:00 radələrində bir qrup erməni millətindən olan şəxs həmin sürünün çobanına basqın edərək yenidən 1151 baş qoyunu Ermənistan SSR Sisiyan rayonu istiqamətində aparmışlar.

6 sentyabr 1989-cu il tarixdə saat 16:00 radələrində 800 nəfər milliyətcə erməni olan şəxs Şərur rayonu ilə həmsərhədd olan Ararat rayonunun Yeraxsu kəndi yaxınlığındakı milis postuna

toplaşaraq daxili qoşun hissələrinin müşayiəti ilə Şərur rayonundan Kərki kəndinə gedən sərnişin avtobusunun qarşısını kəsmiş, kəndə getməyə buraxmamışlar. Avtobusda olan 16 sərnişin Şərur (Şərur) rayonuna qayıtmışdır.

Qeyd olunan fakt Sədərək kənd əhalisinin böyük narazılığına səbəb olmuşdur. Şərur rayon Daxili İşlər şöbəsi tərəfindən aparılmış profilaktiki tədbirlər sayəsində ciddi bir hadisə baş verməmişdir.

Göstərilən fakt barədə Ermənistan SSR-in Daxili İşlər Nazirliyinə məlumat verilmişdir.

24 sentyabr 1989-cu il tarixdə saat 17:00 radələrində Milliyətcə erməni olan 7 nəfər silahlı şəxs, Babək rayonunun Aşağı Buzqov kəndinə məxsus otlaqlarda çoban Quliyev Kərim Bayram oğluna hücum edərək onu və otardığı 500 baş heyvanı Ermənistan SSR-in Əzizbəyov rayonunun Almalı kəndinə aparmışdır.

Lakin Almalı kənd sakinlərinin səyi və qətiyyəti nəticəsində aparılmış heyvanların hamısı K.Quliyevə verilərək Aşağı Buzqov kəndinə qaytarılmışdır. Yoxlama Babək rayon Daxili İşlər şöbəsi tərəfindən aparılır.

25 sentyabr 1989-cu il tarixdə saat 11:00 radələrində milliyətcə erməni olan 10 nəfər silahlı şəxs Şərur rayonunun Tənnəm kəndi yaxınlığındakı otlaqlarda çoban İsmayılov Xudaverdi Yaqub oğluna hücum edərək onun otardığı 150 baş malı Ermənistan SSR-in ərazisinə aparmağa cəhd göstərmişlər.

Lakin hadisədən xəbər tutan Tənnəm kənd sakinlərinin səyi nəticəsində aparılmağa cəhd edilmiş mallar geri qaytarılmış, basqınçılar isə Ermənistan SSR-nin Əzizbəyov rayonu istiqamətinə qaçmışlar. Yoxlama Şərur rayon DİŞ-i tərəfindən aparılır.

27 sentyabr 1989-cu il tarixdə saat 15:00 radələrində Ararat rayonunun Sovqaşen kəndindən milliyətcə erməni olan 500 nəfərədək adam Şərur rayonu Günnüt kəndinə basqın edərək kənddə olan mal-heyvanı və ev quşlarının hamısını yığıb aparmışlar (64 baş mal, 125 baş qoyun, 3 at, 10 hind quşu).

Hadisə ilə əlaqədar 28 sentyabr 1989-cu il tarixdə Ermənistan SSR Ararat rayonunun partiya-sovet və hüquq mühafizə orqanlarının nümayəndələri ilə Naxçıvan MSSR-in nümayəndələrinin

görüşü keçirilmiş və hər iki tərəfdə tutulmuş mal-heyvanın dəyişdirilməsi üçün razılıq əldə edilmişdir. Razılığa əsasən 28 sentyabr 1989-cu il tarixdə saat 17 radələrində Günnüt kəndindən aparılmış mal-qaradan isə 109 baş qoyun-keçi, 3 baş at Naxçıvan MSSR-ə qaytarılmışdır. Şərur rayonunun Günnüt kəndindən aparılmış mal-heyvanın qalan hissəsinin qaytarılacağı razılaşdırılmışdır. Fakt üzrə Şərur rayon Daxili İşlər şöbəsi tərəfindən iş aparılır.

28 sentyabr 1989-cu il tarixdə saat 18:40 radələrində Şərur rayonunun Kərki kəndində təşkil edilmiş hərbi postu yoxlayıb SSRİ Daxili Qoşun hissələrinin Naxçıvan MSSR-də olan nümayəndələrin sərəncamında olan Naxçıvan sərnişindaşıma bazasına məxsus QAZ-24 markalı 13-05 ACD nömrəli avtomaşında Naxçıvan MSSR-ə geri qayıdarkən, Ermənistan SSR Ararat rayonunun ərazisində SSRİ Daxili qoşun hissələrinin zabitləri polkovnik E.A.Parasuxin, mayor S.A.Tixomirov, baş leytenant V.İ.Lantev və sürücü H.H.Babayev milliyətcə erməni olan bir qrup şəxs tərəfindən odlu silahla atəşə tutulmuşdur. Sürücü H.Babayev avtomaşını çətinliklə idarə edərək Naxçıvan MSSR ərazisinə keçməyə müvəffəq olmuşdur.

Nəticədə hərəkətdə olan avtomaşına 16 güllə dəyərək avtomaşının şüşələri sındırılmış və hər tərəfi dəlmə-deşik edilmişdir. Xəsarət alan olmamışdır. Fakt Şərur rayonunun prokurorluğu tərəfindən yoxlanılır.

19 oktyabr 1989-cu il tarixdə 11:00 radələrində Culfa Rayonunun Ermənistan SSR Sisiyan rayonu ilə həmsərhəd olan Ərəfsə yaylağında Culfa rayon Ərəfsə kənd sakinləri, Culfa Rayon Nizami adına sovxozun çobanı, 1933-cü ildə anadan olmuş, Sov.İKP üzvü, Kənd sovetinin deputatı Bayramov Qəşəm Qaytaran oğlunun və 1934-cü ildə anadan olmuş Qafarov İbrahim Bəylər oğlunun baş nahiyyələrindən güllə yarası ilə meyidləri tapılmışdır.

Hadisə yerinə Culfa rayon DİŞ-in əməliyyat qrupu, başda rəis müavini Əhmədov və Naxçıvan MSSR DİN-in əməliyyat qrupu, başda nazir müavini Ələkbərov getmişdir. İstintaq Culfa rayon prokurorluğu tərəfindən aparılır.

27 noyabr 1989-cu il tarixdə saat 14:25 radələrində Sədərək Şərab zavodunun yanında öz heyvanlarını otaran Sədərək kənd sakini

8-ci sinif şagirdinin qabağından 4-5 nəfər erməni 3 baş iri buynuzlu və 30 baş qoyunu zorla Ararat rayonu ərazisinə aparmışdır.

Ermənilərin bu cinayətlərinə qarşı SSRİ hüquq və mühafizə orqanlarının, həmçinin Sovet İKP və Nazirlər Soveti, yəni dövlətin hakim orqanları rekasiya verməyərək cinayətkarları müdafiə etməsi nəticəsində, həmçinin Azərbaycan SSR rəhbərlərinin heç bir tədbir görməməsi sayəsində Naxçıvan Muxtar Respublikasında Xalq Cəbhəsi nümayəndələrinin rəhbərliyi ilə zəhmətkeşlərin mitinqləri başlanır.

İstər Naxçıvan şəhərində, istərsə də Şərur, Şahbuz, Ordubad, Babək və Culfa rayonlarında Xalq Cəbhəsinin üzvləri istədikləri vaxt meydana toplaşır, mitinqlər keçirir və həlli olan və olmAyan məsələləri irəli sürərək xalqı özlərinə inandırmağa çalışırdılar.

Həmin dövrdə keçirilən mitinqlər haqda Naxçıvan MSSR Dİ naziri F.Rəfiyevin və müavini Ə.Ələkbərovun Naxçıvan MSSR Ali Sovetinə göndərdikləri gündəlik məlumatları bunu bir daha sübut edir.

14 avqust 1989-cu il tarixli məlumatda yazılmışdır: "Saat 09:00 radələrində Naxçıvan şəhəri «Əcəmi seyrangahında» 5000 nəfərdən çox adam toplaşaraq mitinq keçirmişlər. Mitinqdə qeyri-formal «Xalq Cəbhəsi» üzvlərindən 12 nəfər çıxış etmişdir.

Mitinq iştirakçıları əsasən aşağıdakı tələbləri irəli sürmüşlər:

1. Azərbaycan SSR hökuməti tərəfindən «Xalq Cəbhəsi»nin tanınması.

2. Dağlıq Qarabağda Azərbaycan SSR-in hüquqlarının bərpa edilməsi və vilayətdə xüsusi idarə sisteminin ləğv edilməsi.

3. Azərbaycan SSR-dən seçilmiş Xalq Deputatlarının çağırılması.

4. Son bir il yarım ərzində milli məsələlərlə əlaqədar öz xalqının mənafeyi uğrunda mübarizə apararaq inzibati orqanlar tərəfindən məhkum edilmiş vətəndaşlar həbs yerlərindən azad edilsin və haqlarında cinayət işləri ləğv edilsin.

Mitinq iştirakçıları «Azərbaycan Xalq Cəbhəsi» ilə sıx əlaqə yaradaraq onların göstərişləri üzrə hərəkət edəcəklərini bildirmişlər».

Həmin gün saat 11:00 radələrində Şərur şəhərinin mərkəzi meydanında 1500 nəfərdən artıq adam toplaşaraq mitinq keçirmişlər. Mitinqdə 10 nəfər çıxış etmiş və əsas tələbləri Naxçıvan

şəhərindəki mitinq zamanı irəli sürülən tələblər olmuşdur. Mitinq saat 12:30-da qurtarmışdır.

Naxçıvan və Şərurda keçirilən mitinqlər zamanı ictimai asayişin pozulması halları olmamışdır.

15 avqust 1989-cu il tarixdə saat 17:00 radələrində Ordubad rayon İcraiyyə Komitəsinin binası qarşısında mitinq keçirilMişdir. Mitinqdə 250 nəfərə yaxın adam iştirak etmişdir. Mitinq iştirakçıları 10 avqust 1989-cu il tarixli Şuşa rayonunun «Şuşa» qəzetində dərc olunmuş «Şuşalıların Azərbaycan xalqına müraciətini» oxuyaraq müzakirə etmiş və onlarla həmrəy olduqlarını bildirmişlər. Mitinq saat 19:30-da qurtarmışdır. İctimai asayişin pozulması halları olmamışdır.

21 noyabr 1989-cu il tarixdə saat 10:00 radələrində Ordubad rayonunda mitinq keçirilmişdir. Mitinqdə 1000 nəfər iştirak etmişdir. Mitinqdə Qarabağ məsələsinə baxılmasının sürətləndirilməsi, xüsusi idarə sisteminin ləğvinə və 22. XI. 89-cu il tarixdə xəbərdarlıq tətili keçirilməsi məsələləri irəli sürülmüşdür. Mitinq 19:30-da qurtarmış, mitinq zamanı heç bir qanun pozuntuluğuna yol verilməmişdir.

22 noyabr 1989-cu il tarixdə Naxçıvan şəhər və Babək rayon «Xalq Cəbhəsi» idarə heyəti üzvlərinin Naxçıvan şəhərinin Lenin meydanında (indiki H.Əliyev-F.C.) təşkil etdikləri mitinqdə 1500 nəfər iştirak etmişdir. Mitinqdə aşağıdakı qətnamə qəbul olunmuşdur:

1. Azərbaycan SSR Ali Sovetinin 20 sentyabr 1989-cu il tarixli «Suverenlik» haqda qanun təsdiq edilsin.

2. Milli suverenliyi və ərazi bütövlüyünü qorumaq üçün milli ordu yaradılsın.

3. SSRİ Konstitusiyasının 74-cü maddəsinə dəyişikliklər edilsin.

4. Xüsusi idarə, komitə ləğv edilsin, ələhiddə vəziyyətdə Azərbaycan SSR Ali Sovetinin xüsusi idarə forması yaratmaq hüququ bərpa edilsin.

Mitinqin keçirildiyi dövrdə ictimai asayişin pozulması halları müşahidə edilməmişdir.

7 oktyabr 1989-cu il saat 10:00 radələrində başlanan mitinqdə cəbhəçilər iki məsələ irəli sürürdülər. Birinci məsələ belə qoyulmuşdur ki, rayon xalq cəbhəsinin razılığı olmadan dəmir yol

vasitəsi ilə Ermənistan SSR ərazisinə yanacaq və ərzaq məhsulları buraxılmasın, ikinci məsələ isə Şərur rayon dəmir yol stansiyalarında cəbhəçilərin təşkil etdiyi postun fəaliyyətinə yerli partiya və sovet təşkilatları təyziq göstərməsin.

Hər iki məsələ ilə əlaqədar olaraq Şərur rayon xalq cəbhəsi idarə heyətinin üzvləri Fərəməz Allahverdiyev, Mehman Məmmədov, Həsən Mehdiyev də öz fikirlərini söylədilər. Burada SSRİ xalq deputatı Tofiq İsmayılov, Azərbaycan Xalq Cəbhəsi idarə heyətinin üzvü Etibar Məmmədov çıxış edərək Moskvada ayrı-ayrı rəhbər işçilərlə keçirdikləri görüşlərdən Azərbaycana qarşı edilən qanunsuz təyziqlərin aradan qaldırılması yollarından danışdılar.

04 dekabr 89-cu il tarixdə saat 18:15 radələrində Naxçıvan şəhərində də mitinq olmuşdur. Mitinqdə 3000 nəfərə yaxın adam iştirak etmişdir. Mitinqdə aşağıdakı tələblər irəli sürülmüşdür:

1. 1921-ci il Türkiyə, RSFSR və Zaqafqaziya Xalqları arasında bağlanmış Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğuna görə müqavilənin şərtlərinə yenidən baxılması üçün BMT-nin qarşısında məsələ qaldırılsın.

2. Ermənistan SSR-in qanunsuz olaraq Qars müqaviləsi şərtlərini pozaraq Naxçıvan ərazisindən qoparılmış torpaqların qaytarılması məsələsinə hər iki dövlətin nümayəndələrinin iştirakı ilə yenidən baxılsın.

3. Ermənistan SSR tərəfindən Naxçıvan MSSR-in iqtisadi blokadaya alınması və avtomobil yollarının bağlanması ilə əlaqədar olaraq Bakı-Naxçıvan şosse yolunun Mehri ərazisindən çəkilişinin başa çatdırılması təmin edilsin.

4. Sərhəd zonasında yaşayan azərbaycanlıların Arazın o tayından qohumları ilə həftədə bir dəfə görüşməsi təmin olunsun.

5. Azərbaycanın suverenliyi təmin olunsun, əks təqdirdə SSRİ-nin tərkibindən çıxarılması məsələsi qoyulsun.

6. Dekabrın 16-da Xalq cəbhəsinin konfransı keçirilsin.

7. Vətəndaşların maddi ehtiyaclarının ödənilməsində, məhsulların bölüşdürülməsində Xalq cəbhəsinin iştirakı təmin edilsin.

Bu günlər xalq şəhər və rayonlardan Naxçıvan şəhər mərkəzinə yığışırdı. İctimai-siyasi vəziyyət getdikcə ağırlaşırdı. Keçirilən mitinqlər ara vermirdi. Belə bir vəziyyətdə cinayətkar ünsür-

lər bu məqamlardan istifadə edərək öz cinayət əməllərini gücləndirirdilər. Bütün bunlarırn qarşısını almaq məqsədi ilə polis əməkdaşları gərgin iş rejimi ilə yaşayırdılar. Naxçıvan şəhərində, Şərur, Babək, Culfa, Şahbuz, Ordubad rayonlarında polis əməkdaşları var qüvvə ilə işləməli olurlar.

Naxçıvan MSSR Daxili İşlər naziri polis polkovniki F.Rəfiyevin Naxçıvan MSSR Ali Sovetinin Rəyasət heytinə 1989-cu ilin birinci yarısında cinayətkarlığa və hüquq pozuntularına qarşı aparılmış mübarizə işinin nəticələrinə dair göndərdiyi arayışında göstərilir ki, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin Dağlıq Qarabağ hadisələri ilə əlaqədar 24 dekabr 1988-ci il, 05 yanvar 1989-cu il tarixli büro qərarlarının (BO-1:1, BO-3:5) tələbləri muxtar respublika daxili işlər orqanlarında diqqətlə öyrənilmiş, həmin büro qərarlarının icrası ilə əlaqədar olaraq yerlərdə bu işin faktiki və real vəziyyəti öyrənilmiş, Culfa, Ordubad, Babək rayon DİŞ-də iki xalq arasında kəskinləşmiş milli münasibətlərin tənzimlənməsi məqsədi ilə aparılmış tədbirlərin qaneedici olmaması aşkar edilmişdir. Xüsusi ilə Culfa və Ordubad rayon DİŞ-in rəhbərlikləri bu işə laqeyid münasibət bəsləmiş, şəxsi heyəti bu işə səfərbər etməmişdir. Mövcud nöqsanlara görə Culfa rayon DİŞ-nin keçmiş rəisi S.Seyidov, Ordubad rayon DİŞ-in rəis müavini A.Əliyev tutduqları vəzifədən azad edilmiş, bir sıra əməkdaşlar haqqında ciddi intizam tədbirləri görülmüşdür. Culfa və Ordubad rayon DİŞ-in rəhbərlikləri ehtiyyat kadrlar hesabına gücləndirilmiş, həmin DİŞ-də və eləcə də digər DİŞ-də gələcəkdə bu cür nöqsanların aradan qaldırılması məqsədi ilə kompleks tədbirlər həyata keçirilmişdir.

Dağlıq Qarabağ hadisələri ilə əlaqədar olaraq tədbirlər planları hazırlanmış, respublika ərazisindən Ermənistana keçən və oradan qayıdan sərnişin qatarlarının, marşrut və s. avtomobillərin milis işçiləri tərəfindən müşayiət edilməsi məqsədi ilə maksimum imkanlardan istifadə edilmişdir. Hesabat dövründə Naxçıvan MSSR DİN-in və DİŞ-in rəhbərliklərinin təşəbbüsləri ilə dəfələrlə Ermənistan SSR-in şəhər, rayon DİŞ-in, digər təşkilat rəhbərlərinin görüşləri keçirilmişdir ki, həmin görüşlər münasibətlərin tənzimlənməsi və bir sıra mübahisəli məsələlərin həllinə müsbət təsir göstərmişdir.

Muxtar respublika üzrə cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə işinin təhlili göstərir ki, müvəffəqiyyətlə həyata keçirilmiş kompleks profilaktik və s. tədbirlərin nəticəsində bir sıra müsbət göstəricilərə nail olunmuşdur.

1989-cu ilin birinci yarısında cinayət axtarış xətti üzrə qeydiyyata alınmış cinayətlər muxtar respublika üzrə 2, 6% (76 qarşı 74), o cümlədən Babəkdə 25%, Ordubadda 33,3%, Culfada 2 dəfə, ağır cinayətlər muxtar respublikada 15% (20 qarşı 17), Naxçıvanda 30%, Ordubadda 50%, Culfada 100%, cəmi cinayətlər isə muxtar respublika üzrə 4,7% azalmışdır (1).

Konkret cinayətlərin təhlili göstərir ki, muxtar respublika üzrə qeydiyyata alınmış zorlama cinayətləri 33,3%, soyğunçuluq 3 dəfə, dövlət əmək oğurluğu 50%, şəxsi əmlak oğurluğu 14,3%, ölümlə nəticələnmiş avtoqəza cinayətləri 40%, xuliqanlıq 7,7% azalmış, narkomaniyaya qarşı yönəldilmiş mübarizə işinin düzgün tədqiqi nəticəsində isə narkomanlıqla əlaqədar olaraq cinayətlər 20% azalmışdır.

Baş vermiş qapalı cinayətlərin isti izlə açılmasının təşkili, eyni zamanda keçmiş illərdən qalmış cinayət hadisələrinin açılmasının təmin edilməsi işində də müsbət göstəricilər əldə ediIMişdir. Belə ki, 1988-ci ilin 6 ayında muxtar respublika üzrə qeydə alınmış cinayətlərin (cinayət-axtarış xətti üzrə) açılması 88,1% təşkil edirsə, cari ilin müvafiq dövründə cinayətlərin açılması 90,5% olmuşdur (1).

Bütün göstəricilərlə yanaşı qeyd edilməlidir ki, Naxçıvan MSSR DİN və onun yerli orqanlarının iş fəaliyyətində hələ də qüsur və nöqsanlar vardır.

Təhlil göstərir ki, muxtar respublikanın bəzi rayon DİŞ-lərinin kollektivi müsbət göstəricilərə nail olmamış, ayrı-ayrı xətlər və iş sahələri üzrə iş fəaliyyətində dönüş yarada bilməmişlər. Cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə işinin yaxşılaşmAsına baxmayaraq cinayət axtarış xətti üzrə cinayətlər Şərur (15 qarşı 20), ağır cinayətlər Şərur və Babək rayonlarında (5 qarşı 6,2), konkret cinayətlərdən qəsdənadam öldürmə Şərur, bədənə xəsarət yetirilməsi faktları Naxçıvan, Şərur, Babək, xuliqanlıq hərəkətləri Naxçıvan, Babək, şəxsi əmlak oğurluğu Ordubad rayonlarında artmışdır ki,

1. Nax. MR DA. f.1. s.11. iş.139. v.4-9.
2. Nax. MR DA. f.1. s.11. iş.139. v.5.

bu da göstərilmiş DİŞ-də cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə işində, eləcə də profilaktik tədbirlərin həyata keçirilməsində nöqsanların tam aradan qaldırılmaması deməkdir.

Cinayətlərin isti izlə açılmasının təşkili Şərur (93,3%-ə qarşı 90%), Babək (93,7%-ə qarşı 91,5%), Ordubad (91,5%-ə qarşı 75%) qənaətləndirici deyildir. Narkomaniyaya qarşı mübarizə işinin vəziyyəti Şərur, Babək rayonlarında daha qüsurludur. Bu sahədə digər xidmətlərin, xüsusi ilə sahə inspektorlarının rolu zəifdir.

Hesabat dövründə şəxsi əmlak oğurluqlarının ancaq 61,5% açılması təmin edilmişdir ki, bu da narahatçılıq doğurmaya bilməzdi. Bu iş xüsusi ilə Ordubad rayon DİŞ-də tənqidə layiqdir.

İstintaq prosesindən yayınan, xəbərsiz itgin düşən şəxslərin axtarılıb tapılmalarının təmini sahəsində görülmüş işlərdə də nöqsanlar mövcuddur. Bu iş xüsusi ilə Naxçıvan şəhər və Babək rayon DİŞ-də pis təşkil edilmişdir. Cinayət axtarış xidməti əməkdaşlarının bu sahədə digər xidmətlərlə əlaqəsi zəifdir.

Zəhmətsiz gəlirlərlə məşğul olanlara, sosialist və ictimai mülkiyyəti oğurlayanlara qarşı mübarizə işi xeyli kəskinləşmişdir. Ötən 6 ay ərzidə SƏDM əməkdaşları ictimaiyyətin və digər xidmət əməkdaşlarının qüvvəsindən istifadə edərək 68 cinayət hadisəsi aşkar etmişlər ki, bu da ötən ilin müvafiq dövrü ilə müqaisədə 11,4% (63 qarşı 68) çox olmuşdur.

Dövlət əmlakının mənimsənilməsi cinayətləri muxtar respublika üzrə 21% (23 qarşı 28) artmışdır. Asan və qanunsuz yolla gəlir mənbəyi əldə etmək niyyəti ilə ehtikarlıq edənlərə qarşı mübarizə işi fəallaşmış olsa da aşkar edilmiş cinayətlər artmAmışdır (19 qarşı 18).

Naxçıvan MSSR DİN-nin ictimai asayişi mühafizə bölməsinin əhatə etdiyi ayrı-ayrı xidmət sahələri tərəfindən bir sıra tədbirlər hazırlanıb həyata keçirilmişdir. Sahə inspektorları tərəfindən müxtəlif məzmunlu 1413 ərizə icra olunmuşdur ki, onlardan 879-u cinayət tərkibli ərizələr idi. Onlar tərəfindən müxtəlif qanun pozuntularına görə 1811 inzibati protokol tərtib edilmiş və günahkar şəxslər haqda tədbirlər görülmüşdür.

Heç bir yerdə işləməyib tüfeyli həyat tərzi keçirən 36 nəfərə rəsmi xəbərdarlıq edilmiş, sonralar milisin təşəbbüsü ilə işlə tə-

min olunmuşdur. Həbs yerlərindən gəlmiş kantingentlərlə fərdi profilaktiki iş nisbətən yaxşılaşmışsa da bu sahələr üzrə nöqsanlar da davam edirdi.

İnzibati nəzərdə olan 19 nəfərdən 7-si milisin təşəbbüsü ilə inzibati nəzarətə götürülmüşdü. Lakin inzibati nəzarətə götürülənlərlə aparılan fərdi profilaktika işində nöqsanlar az deyildi.

Sərxoşluq və alkoqolizmlə əlaqədar olaraq inzibati qanun pozuntularına görə inzibati məsuliyyətə cəlb olunanların sayı 13,5% azalmış (156 qarşı 135), muxtar respublikada bu işin real vəziyyəti isə yaxşılaşmamışdır. Sərxoşluq zəminində törədilmiş cinayətlərin sayı (CAX xətti üzrə) 3 fakt artmışdır.

Hesabat dövründə dövlət avtomobil müfəttişliyi əməkdaşları tərəfindən bir sıra işlər görülmüş, tədbirlər hazırlanıb həyata keçirilmişdir. Ermənistana gedən və oradan qayıdan marşrut avtomobillərinin müşayiət edilməsi işində DAM-nin böyük rolu olmuşdur. Lakin həyata keçirilmiş tədbirlər az əhəmiyyətli olmuş, işin son nəticəsinə müsbət təsir göstərməmişdir. Yol nəqliyyat hadisələrinin sayı muxtar respublikada 17% (35 qarşı 41), Şərur 25,6% (14 qarşı 18), Ordubad və Şahbuzda 2 dəfə, hadisələr nəticəsində ölən və xəsarət alanlar isə respublikada 36,3%, o cümlədən ŞəRurda 45%, Ordubad və Şahbuzda 4 dəfə artmışdır.

1988-ci ildə dövlətə və ictimai təşkilatlara dəyimiş ziyan 92,7% (47789 manatdan 37209 manatadək) ödənildiyi halda bu ilin müvafiq dövründə 100% (56868-dən 57783 manatadək) ödəmə təmin edilmişdir. Həyata keçirilmiş tədbirlər nəticəsində keçmiş illərdən qalan 3 qapalı cinayət işi açılmışdır. Lakin bu sahədə nöqsanlar da vardır. Qapalı cinayətlərin açılmasının təşkilində, digər xidmətlərlə qarşılıqlı əlaqəli işdə müstəntiqlərin təşəbbüsü zəifdir. Uçot qeydiyyat kartoçkalarının doldurulmasında, vaxtında müvafiq qaydada təqdim edilməsi işində nöqsanlar az deyildir.

Muxtar respublikada profilaktika və digər yanğından mühafizə tədbirlərinin, o cümlədən obyekt yoxlamalarının, inzibati qaydada məsuliyyətə cəlb olunanların, xəbərdarlıq edənlərin artmasına baxmayaraq yanğınların ümumi sayı 2,4 dəfə (28 qarşı 67) artmış, dəymiş ziyan isə 9500 manat çoxalmışdır. Dövlət statistik hesabatına düşən, yəni dəymiş ziyan 50 manatdan çox olan yan-

ğınların sayı da 62% (16 qarşı 26) artmışdır. Bu isə aparılmış yanğın profilaktiki tədbirlərin səmərəsizliklərini göstərir.

Müəssisədən kənar mühafizə şöbəsinin əməkdaşları tərəfindən sosialist mülkiyyətinin qorunub mühafizə edilməsi sahəsində bir sıra işlər görülmüşdür. Şöbə əməkdaşları tərəfindən 280 xalq təsərrüfat obyekti, o cümlədən 16 sənaye müəssisəsi, 100 ticarət və s. obyektlər mühafizə olunur. Obyektlərin 264-də isə yanğın siqnalları çəkilmiş, onların 227-si MNP-a birləşdirilmişdir. Həmin şöbə əməkdaşları tərəfindən 399 manat dəyərində 106 xırda oğurluq faktı aşkar edilərək tədbir görülmüşdür. Bütün görülmüş işlərlə yanaşı qeyd olunmalıdır ki, həmin şöbənin əməkdaşları tərəfindən nizam-intizam, geyim forması qaydalarının pozulması hallarına son qoyulmuşdur.

Milisin xalq kütlələri ilə, xüsusən əmək kollektivləri ilə əlaqələri yaxşılaşdırılmışdı. Əməkdaşlar tərəfindən zəhmətkeşlər qarşısında hüquqi mövzuda 463 məruzə və mühazirələr oxunmuş, radio və televiziya vasitəsi ilə 14, muxtar respublika və rayon qəzetlərində 33 çıxışlar edilmişdir. Naxçıvan MSSR-in mətbuat qrupu siyasi şöbəsi ilə birgə olaraq «Sovet Naxçıvanı» qəzetində ayda 2 dəfə cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə işi haqda rubrikalar verirdi. Siyasi şöbə əməkdaşları şəxsi heyət arasında sosial problemlərin həll edilməsi işinə diqqəti artırmışlar. Mürəkkəb əməliyyat şəraitində xidməti vəzifələrin yerinə yetirilməsinə təminat yaradılmış, əməkdaşlar tərəfindən sosialist qanunçuluğun pozulması hallarına yol verilməmişdir. Lakin bunlarla yanaşı respublika üzrə intizami qaydada cəzalanmış əməkdaşların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 21% (38 qarşı 46) artmışdır.

Şəhər, rayon DİŞ-in, Nazirliyin ayrı-ayrı xidmət sahələrin rəhbər kadrları möhkəmləndirilmiş, əməkdaşların peşə hazırlıqlarının artırılması, kadrların seçilib yerləşdirilməsində kollegiallıq və aşkarlıqdan geniş istifadə edilmişdir. Uzun müddət öz vəzifəsinin öhdəsindən gələ bilməyən, tərbiyəvi təsirlərdən, tənqiddən nəticə çıxarmayan, köhnəlmiş qaydalardan əl çəkmək istəməyən əməkdaşlardan yaxa qurtarmağa başlanmışdır. Lakin kadrların attestasiyalarının keçirilməsində bəzən formalizmə yol verilmiş, şəhər və rayon DİŞ-in rəisləri bu işə yüksək prinsipiallıqla yanaşmamışlar.

1989-cu ilin I-ci yarısında cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə işinin vəziyyəti 20 iyun 1989-cu il tarixdə nazirliyin kollegiyasında geniş müzakirə edilərək mövcud nöqsanların aradan qaldırılması üçün müvafiq qərar qəbul edilmişdir.

Muxtar respublikada cinayətkarlığa və hüquq pozuntularına qarşı tədbirlər davam etdirilir (1).

1989-cu il noyabr-dekabr aylarında muxtar respublikanın bütün şəhər və rayon mərkəzlərində keçirilən mitinqlərdə rus əsgərlərindən ibarət olan sərhəd qoşunlarının muxtar respublika ərazisindən çıxarılması, sərhədlərin açılması, İranda, Türkiyədə olan qohum-əqraba ilə əlaqələr yaradılması tələbləri səslənirdi. Daha doğrusu, bu mitinqlər sovet hökumətinin qoyduğu qadağalara qarşı yönəldilmişdir.

Beləliklə, Şahtaxtı, Culfa, Ordubad kəndləri yaxınlığındakı sərhədə Naxçıvan MSSR-in hər yerindən insan axını başlandı. Buraya gələnlər səsucaldan vasitəsi ilə Arazın o tayındakı adamlarla danışır, hal-əhval tutur, öz qohum-əqrabalarını axtarırdı. Belə danışıq yolu ilə yüzlərlə adam İranda yaşayan qohumunu tapa bildi. İrandakı qohumları ilə əlaqə saxlayan insanlara təkcə hərbçilər deyil, həm də partiya, sovet və inzibati orqan işiləri ilə də pis münasibət bəsləmirdilər. Çünki bu sahələrdə çalışanlar da azadlıq, müstəqillik istəməklə, imperiya boyunduruğundan qurtarmağa cəhd edirdilər. Araz qırağında bu toplantı 30 dekabr 1989-cu ilədək davam etdi.

Bütün bu proseslər sərhədçilərin gözləri qarşısında baş versə də, onlar heç bir tədbir görmür və görmək də istəmirdilər. Sərhədçilər məsələni yuxarı təşkilatlara çatdırmaqla kifayətlənirdilər. Hərbçilər məlumat verəndə əsassız olaraq bildirMişdilər ki, burada toplaşanlar tərkibcə narkoman adamlardır. Əslində isə bu qadınlar, kişilər və uşaqlar xalqın vətənpərvər övladları idilər. Onlar sərhəd məftillərinin götürülməsini, rus ordusunun Azərbaycan sərhədlərindən uzaqlaşdırılmasını, adamların asudə olaraq İran İslam Respublikasına gedib-gəlmələri üçün şərait yaradılmasını tələb edirdilər. Ona görə ki, Böyük Vətən Müharibəsi illərinə kimi Araz çayı boyunca tikanlı məftil çəkilmiş sərhəd olmamışdır.

---

1. Nax. MR DA. f.1. s.11. iş.139. v.409 (partarxiv).

Mitinqlərdə qeyd edildiyi kimi 31 dekabr 1989-cu il tarixdə Ordubaddan Şəruradək, Culfadan Babək zonasınadək sərhəd boyunca tikanlı məftillərin qırılmasına, sökülməsinə və dövlət qurğularının dağıdılmasına başlandı.

31 dekabr 1989-cu il tarixdən 4 yanvar 1990-cı tarixədək sərhədə gedən adamlar Sədərək kəndi yaxınlığında 2 km, Vəlidağ ərazisində 1,5 km, Kərimbəyli kəndi yaxınlığında 2 km, Xələc kəndində 1,8 km, Qarahəsənli kəndində 7 km, Diyadin kəndində 2,5 km, Püsyan kəndində 1,5 km və Şahtaxtı kəndində 4 km ərazidə sərhəd məftillərini kəsmiş, bütün elektrik avadanlığını, aparatları sıradan çıxarmışlar.

Bundan başqa Ordubad rayon sərhəd ərazisindən 10 km-dən çox, Culfa rayon ərazisinədək sərhəd məftillərini kəsmiş və qurğuları dağıtmışdılar.

Muxtar respublika ərazisindəki dövlət sərhəddində baş verən bu hadisələrdən istifadə edən erməni daşnakları 31 dekabr 1989-cu il tarixdən başlayaraq Sədərək karantin postuna və Kərki kəndinə atəş açmağa başladılar. Ermənilərin bu cinayətləri dayandırılması haqda dəfələrlə Naxçıvan Vilayət Partiya Komitəsinin birinci kAtibi A.Cəlilovun və Naxçıvan MSSR DİN tərəfindən Ermənistan KP MK-ya, Daxili İşlər Nazirliyinə, həmçinin Ararat rayon Partiya Komitəsinə və Daxili İşlər şöbəsinə vurulan teleqramların heç birinə cavab verilmədi.

1990-cı ilin yanvar ayında muxtar respublikanın Ermənistanla həmsərhəd olan yaşayış məntəqələri ermənilər tərəfindən atəşə tutulmağa başlandı. Xüsusi ilə Kərki kəndinin vəziyyəti çox ağır idi. Kərki kəndini mühasirəyə alan 5 min nəfər silahlı erməni quldurları 15 yanvar 1990-cı il tarixdə saat 7 radələrində kəndi atəşə tutdular. Bu məsələdən xəbər tutan 23 nəfər kənd sakini, daxili xidmət qoşunlarının 15 nəfər əməkdaşı və 2 nəfər polis əməkdaşı Salah Salahov və Rəfail Əbilov ermənilərə atəşlə cavab verib, hadisələrin qarşısını ala bilmişdilər.

15-16 yanvar 1990-cı il tarixdə erməni basqınlarından sonra Kərki kəndinin yaşlı adamları, uşaq və qadınlar çox çətinliklə qarlı dağları aşaraq Şuruta enib, oradan da Sədərək kəndinə gəlmişdilər. 17 yanvar 1990-cı il tarixdə Kərki kəndində vəziyyət daha da

gərginləşdi. Daxili xidmət qoşunlarının nümayəndələri telefonla Sədərəkdəki komandirlərinə bildirdilər ki, mülkü şəxslər və polis nəfərləri kəndi tərk etməlidirlər. Buna görə də 17 yanvar 1990-cı ildə gecə saat 12 radələrində respublika və yerli hakimiyyət orqanlarının göstərişi ilə Kərkini müdafiə edən 34 nəfər mülkü vətəndaş və iki polis işçisi kəndi tərk edib dağ yolları ilə Sədərəyə gəlməli oldu.

18 yanvar 1990-cı il səhər tezdən Kərkidə hərbçilərin çoxalmAsını görən erməni yaraqlıları oradan uzaqlaşdılar. Lakin mülkü adamların yaşaması və polis postunun qoyulması mümkün olmadı. Kəndi daxili xidmət qoşunlarının əsgərləri qoruyurdu.

Naxçıvan MSSR-in hər yerində, eləcə də Sədərəkdə döyüşlər getdikcə daha geniş miqyas alırdı. Bu, yeni-yeni itkilərlə nəticələnirdi. Dövlət səviyyəsində isə müharibənin qarşısı alınmırdı. Muxtar respublikanın ərazisində yerləşən Sovet qoşunlarının muxtar respublikanın ərazi bütövlüyünün qorunmasına biganə qalması, heç bir yardım göstərməməsi xalq tərəfindən ciddi tənqid olunurdu. Muxtar respublika əhalisinin həyatı təhlükə qarşısında qalmışdı. Bununla əlaqədar olaraq Naxçıvan MSSR Ali Soveti 19 yanvar 1990-cı il tarixdə fövqəladə sessiya çağırıb «Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında» məsələ müzakirə edərək, qərar qəbul etdi. Qərarda deyilir: «SSRİ Əsas Qanunun 81-ci maddəsinə əsasən Azərbayjan SSR, o cümlədən onun tərkib hissəsi olan Naxçıvanın suverenliyi və ərazi bütövlüyü müdafiə edilmədiyindən:

--Azərbaycan SSR və Naxçıvan MSSR Ali qanunverici orqanlarının ittifaq orqanlarına dəfələrlə edilən müraciəti nəticəsiz qaldığından;

--Ermənistan SSR tərəfindən edilən təcavüz nəticəsində Muxtar Respublikanın ərazi bütövlüyü və vətəndaşların həyatı təhlükə qarşısında qaldığından;

--Türkiyə və Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR arasında RSFSR-nin iştirakı ilə bağlanan Qars müqaviləəsinin şərtləri kobud surətdə pozulduğundan Naxçıvan MSSR Ali Sovetinin fövqaladə sessiyası qərara alır:

1. Naxçıvan MSSR SSRİ tərkibindən çıxaraq özünü müstəqil respublika elan edir.

2. Qars müqaviləsinin şərtlərinə uyğun olaraq Naxçıvan Respublikasının ərazi bütövlüyünü qorumaq və kütləvi insan qırğınlarının qarşısını almaq məqsədi ilə Türkiyə RespublikAsına müraciət edilsin.

3. Yaranmış vəziyyətlə əlaqədar olaraq Birləşmiş Millətlər Təşkilatına, İran İslam Respublikasına və dünyanın bütün dövlətlərinə kömək məqsədi ilə müraciət olunsun.

4. Naxçıvan Respublikası ərazisində olan qoşun hissələri respublikadan çıxarılsın.

5. SSR Ali Sovetindən tələb edilsin ki, Naxçıvan Respublikasına edilən təcavüzə son qoyulsun.

6. Qərar Azərbaycan SSR və SSRİ dövlətlərinin nəzərinə çatdırılsın (1).

Naxçıvan MSSR Ali Sovetinin 19 yanvar 1990-cı il tarixli qərarı efir vasitəsi ilə bütün dünyaya elan olundu.

20 yanvar 1990-cı ildə isə deputatlar dünya xalqlarına müRaciət qəbul etdilər. Müraciətdə deyilir: «Azərbaycan xalqı misli görünməmiş təcavüzə məruz qaldı. Naxçıvan Respublikasında hər an kütləvi qırğın baş verə bilərdi. Respublikanın Sədərək kəndi yaxınlığındakı sərhəddə ucuz imperiya siyasətinə uymuş erməni millətçilərinin böyük qüvvəsi cəmləşdirilmişdir. Yanvarın 18, 19, 20-də kəndlərimiz top atəşinə tutulmuş, ən müasir sovet və xarici silahlarla silahlanmış dəstələr ərazimizə basqın etmiş və qırğın törətmişlər. Bakıda hal-hazırda sərxoş rus ordusu həmvətənlərimizə divan tutur. Zalım düşmən heç kəsə aman vermir. Qadınlar, uşaqlar, qocalar belə qətlə yetirilir. Dinc əhali tankların, zirehli maşınların təkərləri altına salınır. Ölənlər və yaralananlar saysız-hesabsızdır. SSRİ dövlət səviyyəsinə qalldırılmış bu murdar əməlləri əhalinin təhlüksizliyini qorumaq kimi təqdim edir. Moskvanın bədnam siyasəti Azərbaycanda demokratik hərakatı boğmaq məqsədi güdür və ona antixristian millətçilik donu geydirir.

Dünya dövlətləri, planetin bütün vicdanlı insanları, bizə kömək əli uzadın, Azərbaycan türklərinin qanının axmasına yol verməyin» (2).

---

1. Nax. MR DA. f.613. s.11. iş.397. v.2-3.
2. Yenə orada. v.22-23.

Naxçıvan hökumətinin dünya xalqlarına bu müraciəti Azərbaycan rəhbərliyi tərəfindən heç də birmənalı qarşılanmadı. Çünki sərhəd bölgələrində gedən müharibəyə biganəlik göstərən Azərbaycan rəhbərlyi nəyin bahasına olursa olsun rus imperiiyasının gücü ilə hakimiyyəti əldən verməmək prinsipi güdürdü. Onlara hərbə-zorba gələn xalq cəbhəsinin üzvləri isə o vaxtki hakimiyyət nümayəndələrini silah və zor gücünə devirib, dövlət aparatlarını ələ keçirmək uğrunda mübarizə aparırdılar. Hakimiyyət uğrunda mübarizə aparan qüvvələr öz şəxsi mənafeləri naminə xalqı, vətəni və demək olar ki, hər şeyi unutmuşdular. Buna görə də sərhəd rayonlarında gedən elan edilməmiş müharibədə günahsız insanlar ölür, şikəst olurdular.

18 yanvardan 21 yanvar 1990-cı il tarixədək ermənilərin istifadə etdikləri toplardan, raket qurğularından atılan mərmilər Sədərək kəndində iki evi, Yeni Sədərək qəsəbəsindəki qərargahı, camışçılıq birliyinin binasını, bir və iki nömrəli şərab zavodlarını dağıtmış, bundan başqa bir çox Sədərək kənd sakinlərinin ev və həyətyani sahələrini yararsız hala salmışdı.

Quduzlaşmış ermənilər bununla kifayətlənməyərək Naxçıvan MSSR-in digər sərhəd bölgələrini, Şadanı, Kərməcətağı, Yuxarı Buzqov kəndlərini də top və pulemyot atəşinə tutmuş, bir çox kənd sakinlərinin evlərini dağıdaraq yandırmış və sakinlərə ciddi bədən xəsarəti yetirmişlər.

1990-cı ilin yanvar ayından başlayaraq polis bölmə və şöbələrinin əməkdlaşları sərhəd rayonlarına xidmətə göndərildilər. Ordusu olmayan xalq çətin imtahan qarşısında qalmışdı. Şərur rayonunun Sədərək kəndinin müdafiəsi üçün bütün qüvvələr səfərbər edilmişdir.

Naxçıvan şəhər polis şöbəsindən rəis müavini, polis kapitanı Xanlar Məmmədovun rəhbərliyi ilə Sədərəyə gəlmiş polis vzvodu, Şərur rayon polis şöbəsinin rəisi, polis podpolkovniki Allahverdi Həsənovun rəhbərliyi ilə şöbənin bütün şəxsi heyəti, Naxçıvan MR Daxili İşlər Nazirliyinin şəxsi heyəti, Culfa rayon polis şöbəsinin bir qrup əməkdaşı və Naxçıvan MR-nın könüllü müdafiə dəstələri torpaqlarımızı müdafiə etmək məqsədi ilə Sədərək kəndinə toplanmışdılar.

1990-cı il yanvar ayının 19-20-də Sədərək kəndi ətrafında gedən ağır döyüşlərdə Naxçıvan polisi ilk şəhidləri verdi: – Polis kapitanı Seyidov Məhərrəm Mirəziz oğlu-sahə müvəkkili (19. 01. 90), polis kapitanı Vəliyev Həsən əli oğlu-sahə müvəkkili (19. 01. 90) Sədərək kəndində gedən döyüşdə qəhrəmancasına həlak oldular. Elə həmin günlər Şərur rayonunun Havuş kəndində də döyüşlər gedirdi. Bu kəndin müdafiəsi zamanı Şərur rayon polis şöbəsinin polis nəfəri, polis serjantı Vəliyev Fikrət Rüstəm oğlu, polis serjantı Şəfiyev Rasim Vəli oğlu, polis sıravisi İmamverdi Həsən oğlu qəhrəmancasına həlak oldu.

Həmin günləri Naxçıvan şəhər polis şöbəsinin rəisi, polis mayoru Səbuhi Novruzov belə xatırlayır:

«O vaxt Daxili İşlər Orqanında işləmirdim. Həvəsim bu orqana daxil olub Vətənə sədaqətlə xidmət etmək idi. 1989-cu ildən başlayaraq erməni quldurları tez-tez Şərur rayonunun Sədərək, Havuş, Günnüt, Kərki kəndlərinə və muxtar respublikanın Ermənistanla həmsərhəd olan yaşayış bölgələrinə hücumlar edirdilər. O vaxt Azərbaycanın Milli Ordusu yaranmamışdı, sərhəd kəndlərimizi polis əməkdaşları və könüllü müdafiə dəstələri qoruyurdular.

1990-cı il yanvar ayının 16-da Siyaqut kəndindən olan hərbi xidmətini başa vurmuş gənclərlə birlikdə Sədərəyə gəldik. Orada dedilər ki, ermənilərin hücumu gözlənilir. Həmin vaxt Naxçıvan şəhərindən, Babək, Culfa, Ordubad rayonlarından çoxlu polis əməkdaşları və könüllü müdafiə dəstələri Sədərəyə gəlmişdilər. Bildiyimiz kimi həmin dövrdə silahlar yığılmışdı. Silah sarıdan çox çətinlik çəkirdik. Lakin bizdə 2 avtomat silahı və 6 ov tüfəngi var idi. Biz polis işçiləri ilə birlikdə idik. Hamımız Sədərəkdə yeni salınmış qəsəbədə yerləşən polis şöbəsinin yaxınlığında yaradılmış qərargaha yığışmışdıq, həmin il hava çox soyuq keçirdi. Qar yağmışdı. Yanvar ayının 18-19-20-də ağır döyüşlər oldu. Polis işçiləri, könüllü müdafiə dəstələri çox mərdliklə vuruşurdular. Erməni quldurları nəyin bahasına olursa olsun Sədərək kəndini almaq üçün aramsız olaraq toplardan, iriçaplı pulemyotlardan, qumbara atanlardan və sair silahlardan istifadə edərək öz çirkin məqsədlərinə nail olmağa çalışırdılar. Bütün naxçıvanlılar mərdliklə, qəhrəmancasına vuruşurdular. Nəticədə ermənilər susdurularaq geri otur-

duldular. Həmin vaxt ölənlər və yaralananlar oldu. Lakin bir qarış da olsun düşmən irəliləyə bilmədi. Həmin vaxtlar Naxçıvan Muxtar Respublikası ağır günlərini yaşayırdı. Bir neçə gündən sonra Naxçıvan Muxtar Respublikasının rəhbərliyi ilə Ermənistan rəhbərliyi arasında Sədərək postunda görüş oldu və atəşi dayandırmaq barədə razılıq əldə olundu. Bir müddət bu razılığa əməl olunsa da 1992-ci il may ayında erməni quldurları yenidən Sədərək kəndinə və muxtar respublikanın digər bölgələrində yerləşən kənd və yaşayış məntəqələrinə hücumlar etdi. Bu dəfə də düşmən susduruldu. Ölənlər və yaralananlar oldu. Lakin erməni quldurları bu dəfə də Sədərəyə girə bilmədilər, geri çəkilməyə məcbur oldular».

1990-cı ilin 27-29 martında Babək rayonunun Kərməçataq, Şahbuz rayonunun Şada kəndlərində də vuruşmalar gedirdi. Bu döyüşlərdə də polis əməkdaşları könüllü müdafiə dəstələri ilə birgə öz torpaqlarını qəhrəmanlıqla müdafiə edirdilər.

Bu döyüşlərin bilavasitə iştirakçısı olmuş, 2-ci qrup hərbi əlil, Qarabağ müharibəsi veteranı, istefada olan gizir Hüseynov Cəfərxan Həsən oğlu xatirələrində yazır: «Kinoda, kitablarda, eləcə də həyatın özündə biz polisi cinayətkara, oğruya, əliəyriliyə qarşı mübarizədə görmüşdük. Heç vaxt fikrimə belə gətirə bilməzdim ki, polis döyüşən bir orduya çevrilə bilər. Bəli məhz bu belə də olmuşdur. Artıq 1988-ci ildən Şahbuz rayon polisləri uzun bir sərhəd ərazisi olan üzdəniraq nankor ermənilər ilə qarşılaşmalı oldular. Şahbuz rayon polis şöbəsi əməkdaşlarının işi çox ağır keçirdi. Ona görə yox ki, Şahbuz rayonu sərhəddə yaxın idi. Başlıca səbəblərdən biri Şahbuz rayonu ərazisində yerləşən yaylaqlar və Naxçıvan MR-ın Şərur, Babək, eləcə də Şahbuz rayonunun kolxoz, sovxoz və eləcə də başqa fərdi mal-qaranın Batabat, Qanlı göl, Cici yurdu, Salvartı yaylaqlarında saxlanması idi. Ermənilər 1988-ci ildən başlayaraq tez-tez bu yaylaqlara silahlı basqınlar edir, çobanları atəşə tutaraq heyvan sürülərin aparırdılar. Bunlara misal olaraq qeyd etmək istəyirəm ki, Badamlı kəndinin sürülərini aparan zaman çoban Rüstəmov Rüstəm Həbib oğlunu ayağından yaralayıb əsir aparmışdılar. Polis əməkdaşlarının apardıqları danışıqlar sayəsində Rüstəm kişi geri alındı. Ümumiyyətlə rayonun polis əməkdaşları erməni basqınlarının qarşısını həmişə alırdılar.

Keçmiş rəhbərlərin göstərişi ilə xalqda olan qanuni ov silahları yığılmışdı. Kimlərdəsə ov silahları vardısa da belə bir vəziyyətdə üzə çıxarmaqdan çəkinirdilər. Həmin vaxt Şahbuz rayonu polis şöbəsinin rəisi Abbas Məmmədov, polis mayoru Qaçay Quliyev və polis mayoru Bəxtiyar Əsgərov rayon əhalisinə dedilər ki, heç kəsdən silah alınmayacaq, kimin silahı varsa çıxarsın, sərhədlərimizi birgə qoruyacağıq. Məhz bu çağırışdan sonra rəis Abbas Məmmədova inanan şahbuzlular polislə çiyin-çiyinə ermənilərə qarşı vuruşmağa başladı. Elə bu döyüşlərdə iştirak edən bir çox gənclər polisdə işə alınıb polis sıralarına qəbul edildilər. Bunlardan rəis sürücüsü kimi İmamquliyev Nazim Adil oğlu, Cəfərov Məhiyyəddin Bulud oğlu (1990-cı ildən polis baş leytenantıdır), Nağıyev Aftandil Əsəd oğlunu və başqalarını qeyd etmək olar.

1988-ci ilin soyuq qış günlərinin birində polis şöbəsinə məLumat daxil oldu ki, Ermənistanın Gömür, Gabıt və başqa kəndlərində yaşayan azərbaycanlıları çıxarıblar və «Qanlı-göl» yaylağına töküblər. Polis dərhal əməliyyat bölüyü yaradıb həmin əraziyə çıxdı. Polislə yanaşı könüllülər də hərəkət edirdi. Çox böyük çətinliklə yolun bir qədərini maşınla getdik. 60-70 sm olan qar maşına getməyə imkan vermədi, qalan məsafəni piyada getməyə məcbur olduq. Qabaqda haliyədə polis mayoru kimi çalışan Qəzənfər Məmmədov gedirdi. Kənardan baxan və bunları çəkən bir kamera olsaydı bu gün Azərbaycan polislərinin nəyə qadir olduqlarını bütün dünyaya göstərib deyərdim ki, bax bu mənim polisimdir. Belə bir çəkilişi isə ermənilər çəkmişdilər və iki gündən sonra həyasızcasına Moskva televiziyası ilə yayımladırdılar ki, azərbaycanlılar erməniləri bu cürə dəhşətlərnən öz evindən-obasından qovublar.

Doğrudan da, dəhşətli mənzərə var idi. Kimisi on günlük körpəsini qarın içinə atmış (nə yaxşı ki, polis işçiləri uşağı sağ tapdılar), kimisi də iki körpə uşağını təlisə salıb birini sinəsində, birini isə arxasında gətirirdi. Qaçanlar son dəfə dönüb dağların arxasından doğma el-obasına, doğma torpağına, qoyub gəldiyi ata yurduna, min bir əzab-əziyyətlə qurduğu komasına həsrətlə baxırdılar. Bu məcburi köçkünləri Şahbuz rayonuna gətirib evlərə böldük və sabahı Naxçıvana yola saldıq.

Ermənilərin həyasız hərəkəti davam edirdi. Bu təcavüzlər polisin işini daha da ağırlaşdırırdı. Dağlıq bir ərazidə yerləşən Şahbuz rayonunun 300 km-dən artıq sərhəd ərazisi var idi. Culfa rayonu Ərəfsə kəndinin ərazisindən başlayan sərhəd: Camal qalası, Üç qardaş, Ayı dərəsi, Camış ölən, El qəbirstanlığı, Salvartı, Kəlin qayası, Dağdan, Söhbət keçməz, Televiziya ötürücüsü, Əyri qar, Qanlı göl, Skatar, Kükü yüksəkliyi (bura Qoqi yüksəkliyi kimi göstərilib), Səfər bəy səngəri, Pirin yalı, Çat dodaq, Qırx bulaq, Cici yurdu, Ov dağından Köküllü dağa qədər bir ərazidə texnika ilə hərəkət etmək heç də asan deyildi.

Məhz bu çətinliyi aradan qaldırmaq üçün rayon polis rəisi Abbas Məmmədov rayon polis şöbəsində atlı polis vzvodunun yaranması təşəbbüsünü irəli sürdü və həmin vzvodu Ağdamdan gətirilən atlarla təşkil etdi. Atlı vzvoduna polis baş leytenantı Rəşidov Dağbəyi Rüstəm oğlu komandir təyin olundu və bununla da bu çətinlikləri qismən də olsa aradan qaldıra bildilər.

27 mart 1990-cı ildə polis şöbəsinə xəbər verdilər ki, Ermənistanın Sultanbəy kəndindən erməni silahlı dəstələri Şada kəndinə basqın edərək heyvanları aparmaq istəmişlər. Lakin kənddə olan polis baş leytenantı Qəzənfər Məmmədovla digər polis işçilərinin fəallığı nəticəsində ermənilər geri çəkilməyə məcbur oldular. Martın 27-si səhər saat 7:00 radələrində Şada kəndi ermənilərin 300-400 silahlı dəstələri tərəfindən atəşə tutulur. Rayonun polis rəisi mayor Abbas Məmmədov dərhal polisdə və xalqda olan silahları səfərbər edib bir neçə bölüklə müdafiəyə keçdi. Saat 11 radələrində artıq Naxçıvan MR-ın bütün qüvvəsi demək olar ki, Şada kəndinə toplanmışdır. Bizim bölüyə rayonun hərbi komissarı Elşad Nağıyev və onun müavini Zaur Rzayev başçılıq edirdi. Ermənilərlə ilk vuruşmamızda həm polis işçilərindən, həm də könüllü dəstə üzvlərindən ağır yaralananlar oldu. O vaxtlar Naxçıvan MR Nazirlər Kabinetinin qərarı ilə polis şöbəsi yanında fəhlə dəstəsi yaradılmışdı və həmin dəstənin üzvü Keçili kənd sakini Nağıyev Həsən Xəlil oğlu yaralandı, haliyədə I-ci qrup əlildir. Sonra Qasım (familiyası yadımda deyil) ayağından, Sadiqov Telman Sadıx oğlu qolundan və ayağından, həmçinin başqaları ağır yaralandılar.

Yaralananların bir neçəsini döyüş yerindən çıxarmaq mümkün oldu. Ancaq Həsən Nağıyevi və onun yanında qalan üç nəfəri çıxarmaq mümkün deyildi. Vəziyyət isə çətin olaraq qalırdı. Həmin vaxt bütün döyüş ərazisində xəbər yayıldı ki, Naxçıvanın qəhrəman oğlu Afiyəddin Cəlilov gəlib və özü ilə birlikdə Naxçıvan MR-də yerləşən diviziya komandirini də gətirib. A.Cəlilov diviziya komandirinə vertalyot gətirilməsinə göstəriş verdi. Az bir vaxtda vertalyot gətirilərək mühasirədə olan yaralı Həsən Nağıyevi və yoldaşlarını çıxarmaq mümkün oldu. Demək olar ki, 1990-1991-ci illərin bütün döyüşlərində polis əməkdaşlarının böyük xidmətləri olmuşdur.

1991-ci ildə Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev cənablarının təşəbbüsü ilə Naxçıvan MR Müdafiə Komitəsi yarandı. Müdafiə Komitəsinin Şahbuz rayonunda da qərargahı yaradıldı. Bu da döyüşən polisin işini xeyli asanlaşdırdı. Polislə birgə müdafiə komitəsinin könüllüləri dağlarda sərhədlərin keşiyində duraraq erməni hücumlarının qarşısını alırdılar. Batabat yaylağına ermənilərin böyük və kiçik silahlardan atılan atəşi zamanı polis nəfəri Novruzov Əkbər Novruz oğlu başından ağır yaralandı və haliyədə I-ci qrup əlildir.

1992-ci ildən artıq Şahbuz rayonunda hərbi hissə yarandı və polis öz işinə döndü. Mən bilirəm ki, bu gün də Şahbuz rayon polis şöbəsinin rəisi polkovnik Bəhlul Əliyev və onun rəhbərlik etdiyi heyət düşmənə həmlə edib, torpaqlarımızın azadlığı uğrunda döyüşməyə hazırdır.

Demək olar ki, muxtar respublikanın Ermənistanla olan bütün sərhədlərində vəziyyət gərginləşmişdi. Xalq sanki öz xilaskarını axtarırdı, belə bir vaxtda 22 iyul 1990-cı ildə Heydər Əliyev öz vətəninə, Naxçıvana gəldi. Həmin gün Naxçıvan şəhərində «Azadlıq» meydanında Naxçıvan camaatı öz xilaskarını hərarətlə qarşıladı. Bütün üzlərdə sevinc hiss olunurdu. Çünki xalqın ümidi, pənahı ancaq və ancaq Heydər Əliyev idi.

Naxçıvan əhalisi Heydər Əliyev cənablarını görmək üçün onun yaşadığı mənzilə axışırdı. Növbə ilə onunla görüşür, bütün ümidlərinin ona olduğunu bildirirdilər. O, bacısı Surə xanımın həyətində, talavarın altında oturaraq camaatla görüşür, onlarla fikir mübadiləsi edirdi. Onun görüşünə gələnlərin sayı günbəgün artırdı.

Xalqın təkidi və tələbi ilə Heydər Əliyev cənabları 1991-ci ilin 3 sentyabrında Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsinə seçildi. Həmin gündən başlayaraq Heydər Əliyev cənabları muxtar respublikanı düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün bütün qüvvə və bacarığını sərf etməyə başladı. Tez bir zaman içində həyata keçirdiyi tədbirlər nəticəsində Naxçıvan MR-də ictimai-siyasi vəziyyət sabitləşdi, şəhərdə, kəndlərdə əmin-amanlıq yaranmağa başlandı.

Naxçıvan MSSR DİN-in müavini Ə.Ələkbərov 12 aprel 1990-cı il tarixdə Naxçıvan MSSR Ali Sovetinə Naxçıvan MSSR-in Ermənistan SSR ilə sərhədyani yaşayış məntəqələrində mart ayının 10-dan aprel ayının 1-dək baş vermiş hadisələrə dair arayışında yazır: «1990-cı ilin yanvar ayından Şərur rayonunun Sədərək kəndi ətrafında, həmçinin Babək, Şahbuz rayonlarının sərhəd kəndlərinə erməni ekstremistləri tərəfindən törədilmiş qanlı hadisələrdən sonra Naxçıvan MSSR-in Ermənistan SSR ilə sərhədyanı yaşayış məntəqələrində nisbətən sakitlik yaransa da ümumi gərginlik qalmaqda idi. Naxçıvan MSSR partiya, sovet və inzibati orqanları tərəfindən fevral ayı və mart ayının əvvəllərində aparılmış bir sıra əməli tədbirlərin nəticəsində muxtar respublikada həyat adi məcrasına qayıtmış, dəmir yolu işə salınmış, sənaye müəssisələri, təsərrüfatlar öz işlərini tamamilə bərpa etmişdilər. Naxçıvanı düşdüyü ağır iqtisadi vəziyyətdən çıxarmaq üçün qüvvələr birləşdirilmiş, mitinqlərə, tətil və nümayişlərə son qoyulmuşdur. Lakin vəziyyətin getdikcə yaxşılaşması, dəmir yolunun ahəngdar işləməsi qonşu respublikalarda çoxlarının xoşuna gəlmirdi. Onlar vəziyyəti gərginləşdirmək, muxtar respublikanın mühasirəyə düşməsini yenidən təşkil etmək üçün hər cür fitnəkarlığa əl ataraq, sərhədyanı kəndlərdə əhalini tez-tez narahat edirdilər».

Mart ayının ortalarından başlayaraq Naxçıvan MSSR-in Ermənistan SSR ilə həmsərhəd olan kəndlərinin ətrafdakı dağlara Ermənistan yaraqlılarının cəmləşməsi müşahidə edildi. Qarşıdan gələn el bayramı «Novruz»un yaxınlaşması ilə əlaqədar erməni ekstremistlərinin fitnəkar hərəkət törədə biləcəkləri gözlənilirdi. Bunu nəzərə alaraq muxtar respublikanın Ermənistanla sərhədyanı məntəqələrində əhalinin təhlükəsizliyini təmin etmək və el bayramı ərəfəsində daha sayıq olmaq məqsədi ilə Naxçıvan MSSR

DİN-in 14 mart tarixli 01 №-li əmri ilə martın 17-dən 21-dək daxili işlər orqanlarının fəaliyyəti gücləndirilmiş xidmət variantına keçirildi. Sərhədyanı yaşayış məntəqələrində martın 16-dan müvəqqəti silahlı milis postları yaradıldı ki, həmin postlara gündəlik xidmət üçün 48 əməkdaş cəlb edildi.

Bundan başqa muxtar respublikanın hər hansı bir sərhədyanı kəndinə edilə biləcək silahlı quldur basqının qarşısını vaxtında almaq və lazımi tədbir görmək məqsədi ilə Naxçıvan MSSR-də, şəhər, rayon DİŞ-də çevik əməliyyat qrupları təşkil edilərək gün ərzində növbətçilik təşkil edildi. Göstərilən qruplar silah və xüsusi vasitələrlə təmin edilmiş, sərəncamlarına avtomaşınlar verilmişdir.

Vəziyyətin pisləşə biləcəyi nəzərə alınaraq SSRİ DİN-in Naxçıvanda yerləşən daxili qoşun hissələrinin hərbi əməliyyat qrupu operativ şəraitlə tanış edilmiş və həmin qrup tərəfindən də müvafiq tədbirlər görülmüşdür.

Mart ayının 24-dək muxtar respublikanın sərhədyanı kəndlərində sakitlik hökm sürsə də gərginlik günü-gündən artırdı. Artıq martın 24-ü səhər saat 10:00-dan Şərur rayonunun Sədərək, Günnüt, Yuxarı Yaycı, Cağazir, Havuş, Babək rayonunun Yuxarı və Aşağı Buzqov, Kərməçataq, Şahbuz rayonunun Şada kəndləri ətrafındakı təpələrdə silahlı erməni dəstələri görünür, həmin ərazilərdə toplar quraşdırırdılar. Elə həmin gün saat 21:00-da Sədərək kəndinə iki top atəşi açıldı. Saat 22:10 radələrində isə Noraşen-Bakı sərnişin qatarı Ermənistan SSR Mehri rayonunun ərazisindən keçərkən güclü partlayış baş verdi. Dəmir yolu relsləri dağıdıldı, teplovoz aşdı. 3 vaqon relsdən çıxdı, lakin xoşbəxt təsadüf nəticəsində vaqonlar dəmir yolunun sağ və solundakı sıldırımlı dərələrə yuvarlanmadı. 1000 nəfər sərnişin təsadüfən erməni quldurlarının toxuduğu ölüm torundan xilas oldu (1).

Martın 25-də erməni yaraqlılarının sərhəd kəndlərimizin ətrafında cəmləşməsi davam edirdi. Vəziyyəti yerində öyrənmək məqsədi ilə Naxçıvan MSSR Daxili İşlər Naziri M. Məmmədov, SSRİ DTK-nın nümayəndələri polkovnik Fedokin, podpolkovnik Voronikov, SSRİ DİN-nin daxili qoşun hissələrinin hərbi əməliyyat

---

1. Nax. MR DA. f.1. s.37. iş.266. v.2-9

qrupunun qərargah rəisi Smexov Sədərək kəndində olaraq kəndə düşmüş mərmi yerlərini nəzərdən keçirmiş, sonra isə kənd ətrafında erməni yaraqlılarının mövqelərinə baxmışlar. Həmin vaxt Sədərək kəndi yaxınlığında 25 nəfər silahlı erməni qulduru müşahidə olunmuşdur. Onlardan Naxçıvan MSSR ərazisini tərk etmək tələb edilsə də onlar hərbiçilərin qanuni tələbinə tabe olmamış və daxili xidmət qoşunlarının həmin yeri dərhal tərk etmələrini tələb etmişlər.

Erməni silahlı dəstələrinin bu cür həyasızlığının dayandırılması, onların yığışdırılıb tutulması, milli zəmində baş verə biləcək toqquşmaların qarşısının alınması üçün müvafiq qəti tədbir görülməsi məqsədi ilə Naxçıvan MSSR Daxili İşlər Naziri M.Məmmədov və SSRİ DTK-nin nümayəndəsi podpolkovnik

Voronikov SSRİ DİN-nin əməliyyat qərargahına və Azərbaycan SSR Dİ nazirinin əvəzi Barannikova 241№-li teletaypla müraciət etmiş və bu haqda tezliklə tədbir görülməzsə olduqca pis nəticələr gözlənildiyi barədə onları xəbərdar etmişdilər.

Vəziyyətin yaxşılaşmadığını nəzərə alaraq Sədərək kəndinin təhlükəsizliyini təmin etmək, yerli camaatı milli zəmində silahlı toqquşmadan çəkindirmək məqsədi ilə saat 18:30-da Naxçıvan MSSR Dİ nazirinin müavini Ə.Ələkbərovun rəhbərliyi altında 6 qrupdan ibarət 30 nəfər əməkdaş kəndə göndərildi. Saat 21:00-da erməni ekstremistləri tərəfindən Sədərək kəndinə 1 top atəşi açıldı. Kənddə olan partiya, sovet və milis işçilərinin apardığı izahat işləri nəticəsində milli zəmində toqquşmanın qarşısı alındı (1).

Martın 26-da ermənistanla sərhədyanı kəndlərdə əməliyyat şəraiti gərgin olaraq qalırdı. Həmin gün saat 14:00-da SSRİ DİN-in I-ci müavini, daxili qoşunların baş komandanı general-polkovnik Şatalin Naxçıvana gələrək, muxtar respublikanın partiya, sovet orqanlarının, Naxçıvan MSSR DİN-in rəhbərliyi ilə birlikdə Sədərək kəndində olaraq operativ vəziyyətlə tanış oldu.

Dəfələrlə edilən xəbərdarlığa baxmayaraq Ermənistan SSR-in səlahiyyətli orqanları silahlı erməni quldur dəstələrinin Naxçıvan MSSR-in sərhədyanı kəndlərinin ətrafından yığışdırılması üçün heç bir tədbir görmədilər. Nəticədə 26 mart 17:15 radələ-

1. Nax. MR DA. f.1. s.37. iş.266. v.4.

rində Ermənistan SSR-in Vaysk rayonunun Borsunu kəndi istiqamətindən 100-120 nəfər milliyətcə erməni olan silahlı quldur dəstəsi Şahbuz rayonunun Şada kəndinə hücuma keçərək kəndi işğal etməyə cəhd göstərdilər. Lakin Şada kəndində yerləşdirilmiş 4 nəfər milis işçisi yerli sakinlərin köməyilə kəndin müdafiəsinə qalxmış, quldurların kəndə girməsinin qarşısını almışlar. Bir neçə dəqiqə sonra Şahbuz rayon DİŞ-in əməkDaşlarından 15 nəfər, saat 18:20-də isə Naxçıvan MSSR DİN-in siyasi şöbə rəisi N.Həsənovun rəhbərliyi altında daha 15 əməkdaş Şada kəndinə göndərildi. Milis əməkdaşlarının və yerli sakinlərin səyi nəticəsində saat 20:30-da quldurlar geri qayıtmağa məcbur edildilər. Lakin quldurlar avtomat silahlarla kənd camaatına məxsus 55-60 baş heyvanı vurub öldürmüş, K.Marks adına sovxoza məxsus QAZ-53 markalı 82-69 AQŞ №-li avtomaşını dağıdaraq sıradan çıxarmışdılar (1).

Şada kəndinə edilmiş quldur basqını barədə Naxçıvan MSSR Daxili İşlər Naziri M.Məmmədov həmin gün Naxçıvanda olan SSRİ DİN-in daxili xidmət qoşunlarının baş komandanı, general polkovnik Şatalinə şəxsən, 244 №-li teletaypla isə SSRİ, Azərbaycan SSR və Ermənistan SSR DİN-ə məlumat verərək silahlı quldur basqının dərhal qarşısının alınması üçün müvafiq və təxirəsalınmaz tədbirlər görülməsini xahiş etmişdir (2).

Bütün bunlara baxmayaraq 27 mart 1990-cı il tarixdə səhər saat 08:00 radələrindən erməni quldur dəstələri aramsız olaraq snayper, avtomat, pulemyot və toplardan istifadə edərək Şada kəndini yenidən atəşə tutmuşlar. Quldur dəstəsinin yanında olan 1 ədəd BMP və 1 ədəd BTR-dən kəndə atəş açılırdı. Kəndin təhlükəsizliyini təmin etmək üçün hadisə yerinə Naxçıvan şəhər DİŞ-nin və mühafizə şöbəsinin 12 nəfər əməkdaşı göndərildi. Lakin milisin qüvvələri olduqca az idi. İctimaiyyət nümayəndələri isə silahsız idilər. Şada kəndi real işğal altında idi. Kənd mühafizəçilərindən ağır yaralananlar da var idi. Daha ciddi nəticələrin qarşısını almaq məqsədilə Naxçıvan MSSR rəhbərliyinin təkidi ilə SSRİ Daxili İşlər Nazirliyi Daxili Xidmət Qoşunun rəhbəri, polkovnik Popov

---

1. Nax. MR DA. f.1. s.37. iş.266. v.4.
2. Yenə orada. v.5.

başda olmaqla 50 nəfər hərbçi zirehli maşınla 13:00-da Şada kəndinə göndərildi. Quldurların hücumu nəticəsində Şahbuz rayon sakinlərindən 5 nəfər: Sadiqov Telman Sadıq oğlu, Sadıqov Süleyman Sadıq oğlu, Quliyev Şəmil Mehbalı oğlu, Nağıyev Həsən Xanəli oğlu (fəhlə milis dəstəsinin üzvü), Əhmədov Rasim Saleh oğlu, Babayev Fəxrəddin Hüseyn oğlu yaralanaraq quldurların mühasirəsinə düşdülər. Yaralıları götürmək istəyən 2 təcili yardım maşını, 3 UAZ-469 markalı avtomaşını və hərbçilərin 1 ədəd BTR maşınları vurularaq sıradan çıxarıldı. Yalnız 18:30 radələrində köməyə gəlmiş vertalyotla yaralıları çıxartmaq mümkün oldu. Saat 21:00-da erməni quldur dəstəsi geri çəkildi və atəş dayandı (1).

Həmin gün, yəni martın 27-də müxtar respublikanın Sədərək, Kərməçataq kəndlərinə də odlu silahlardan atəşlər yağdırılmış, həmin kəndlərin ətrafında erməni yaraqlıları daha çox cəmləşməyə başlamışlar. Saat 17:30-da isə bir dəstə erməni quldurു Şərur rayonunun Günnüt kəndinə soxularaq 5 evi və 1 tövləni yandırmışlar. Kəndin sakinləri təhlükəni əvvəlcədən hiss etdiklərindən kəndi bir gün əvvəl tərk etmişdilər.

Şada, Kərməçataq, Yuxarı və Aşağı Buzqov kəndlərində daha çox təhlükə gözlənildiyindən qadınlar, uşaqlar və qocalar həmin kəndlərdən müvəqqəti olaraq muxtar respublikanın digər kəndlərinə köçürüldülər.

Vəziyyətin daha da ciddiləşdiyi və daha təhlükəli xarakter aldığı barədə, sərhəd kəndlərinin quldur təcavüzünə məruz qalacaqları barədə SSRİ, Azərbaycan SSR və Ermənistan SSR-in səlahiyyətli orqanlarına telefon və teletayplarla məlumat verilmiş, müvafiq tədbir görülməsi xahiş edilmişdir. SSRİ DİN-nin daxili qoşun hissəsinin Naxçıvandakı əməliyyat qrupunun rəhbəri polkovnik Popov 27 martda Kərməçataq kəndində vəziyyətlə tanış olduqdan sonra Babək rayon DİŞ-in rəisi İ.Bayramova bildirmişdir ki, kənd üçün heç bir təhlükə görmür.

28 martda muxtar respublikanını sərhədyanı kəndlərində vəziyyət daha gərgin və ağır oldu. DİN-in Babək, Şərur, Şahbuz rayon DİŞ-nin demək olar ki, bütün əməkdaları, Culfa, Ordu-

---

1. Nax. MR DA. f.1. s.37. iş.266. v.5.

bad və Naxçıvan şəhər DİŞ-in isə əksər əməkdaşları sərhədyanı kəndlərin təhlükəsizliyi üçün cəlb edilmişdir.

Saat 10:30-dan Sədərək kəndi, 13:00-dan Yuxarı Yaycı, Cağazir və Havuş, 13:00-dan Kərməçataq, 14:00-dan isə Şada kəndləri erməni quldur dəstələri tərəfindən şiddətli atəşə tutulmağa başladı (1).

Quldur basqınlarının qarşısını almaq, silahlı qarşıdurmanı dayandırmaq məqsədi ilə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin I-ci katibi A.Cəlilov yoldaşın təşəbbüsü ilə saat 15:00-da (28. 03. 90), Babək rayonu ilə Ermənistan SSR Vaysk rayonunun sərhəddində Ermənistan SSR Nazirlər Soveti Sədrinin müavini Dayanla görüş keçirilmişdir. Lakin görüş Ermənistan tərəfin günahı ucundan heç bir nəticə vermədi. Əksinə saat 17:00-dan Kərməçataq kəndinə erməni quldur dəstələri açıq təcavüz etdilər. Kənd görünməmiş atəşə tutuldu. Kənddə olan hərbiçilər heç bir cavab atəşi açmadılar və bundan 20 dəqiqə sonra, yəni 18:40-da erməni quldurları kəndin yuxarı hissəsinə soxula bildilər. Quldurlar kənddə 10 evi yandırdılar, çoxlu mal-qara əldə edərək apardılar. Kənddə digər evləri və kəndi tərk etməmiş SAkinləri müdafiə üçün Babək rayon DİŞ-nin əməkdaşları ciddi mübarizə apardılar. DİN-dən daha 15 əməkdaş Kərməçataq kəndinə göndərildi. Nəticədə saat 19:40 radələrində quldurlar kənddən çıxarıldılar. Lakin quldur gülləsi ilə həmin vaxt kənddə olan Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin dövlət hüquq şöbəsinin müdiri Vəli Məmməd oğlu Zeynalov ağır yaralandı və o, xəstəxanaya aparılarkən həlak oldu (2).

Muxtar Respublikanın Ermənistanla həmsərhəd olan digər kəndləri də, xüsusi ilə Sədərək kəndi axşamadək aramsız atəşə tutulmuşdur. Top mərmilərinin partlayışı nəticəsində 3 nəfər qadın yaralanmış, 60 ev dağıdılmış, kənd universamında yanğın baş vermişdir.

Ermənistan SSR tərəfindən muxtar respublikanın ərazi bütövlüyünə edilmiş təcavüz, günahsız adamların öldürülməsi, evlərin dağıdılması və yandırılması muxtar respublika əhalisini hədsiz hiddətləndirmişdir. Hər cür gözlənilməz hadisələr baş verə bilərdi. Bütün bunların qarşısını almaq, şaiyələrə və qanunsuz çıxışlara yol verməmək məqsədi ilə yerli televiziya (26-27 mart) və mətbuatda

1. Nax. MR DA. f.1. s.37. iş.266. v.6.
2. Nax. MR DA. f.1. s.37. iş.266. v.6.

(25-31 mart) mütamadi olaraq DİN rəhbərliyinin çıxışları təşkil edilmiş və operativ vəziyyət obyektiv surətdə xalqa çatdırılmışdır.

Televiziya ilə muxtar respublikanın ictimaiyyətinə müraciət edilərək səbirli-təmkinli olmağa və qanunsuz hərəkətlərə yol verməməyə çağırıldı. Əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə görülmüş işlər barədə məlumat verildi.

Bundan başqa 28. III. 90-cı il, saat 22-də Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin I-ci katibi A.Cəlilov yerli televiziya ilə çıxış edərək Ermənistan SSR dövlət nümayəndələri ilə sərhəd kəndlərində vəziyyəti sabitləşdirmək, erməni təcaVÜzünün dayandırılması barədəki görüş nəticələrini xalqa çatdırdı və naxçıvanlıları ağılla, təmkinlə, səbrlə hərəkət etməyə, sovet qanunlarına hörmət etməyə çağırdı.

22:10-da Naxçıvan MSSR Daxili İşlər naziri M.Məmmədov 255 №-li teletaypla muxtar respublikaya qarşı erməni terrorçuları tərəfindən edilmiş təcavüzü və operativ vəziyyəti şəxsən SSRİ Daxili İşlər naziri V.V. Bakatinə çatdıraraq, təcili surətdə müvafiq ölçü götürməsini xahiş etdi.

29 mart ayında 11:20-də Naxçıvan MSSR-in sərhəd kəndlərinin mühafizəsini gücləndirmək, silahlı basqınların qarşısını almaq məqsədi ilə Naxçıvana Bakıdan əlavə olaraq daxili xidmət qoşunlarının 150 nəfərlik qrupu göndərildi ki, onlar yalnız Ermənistanla həmsərhəd kəndlərdə yerləşdirildilər.

Martın 29-da saat 17:00 radələrində davam edən sakitlik yenidən pozuldu. Kərməçataq və Sədərək kəndləri erməni quldurları tərəfindən avtomat və snayper silahlarından atəşə tutuldular. Nəticədə Sədərək kənd sakini A. Həmzəyev ağır yaralandı saat 20:00 radələrində atəş dayandırıldı (1).

30 mart 1990-cı il tarixdə Ermənistan SSR-də həmsərhəd kəndlərdə gərginlik davam etsə də silah və toplardan heç bir atəş olmadı.

31 mart saat 07:00 radələrində Şada və Kərməçataq kəndlərində avtomat silahlardan atəş açıldı. Həm kəndlərdə yerləşdirilmiş daxili xidmət qoşun hissələrinin operativ qrupları tərəfindən görülmüş

1. Nax. MR DA. f.1. s.37. iş.266. v.6-7.

tədbir nəticəsində saat 09:00 radələrində atəş dayandı. Operativ vəziyyət Daxili İşlər naziri M.Məmmədov tərəfindən «VÇ» telefonu ilə şəxsən gerenal polkovnik Şatalinə məruzə edildi.

01 aprel 1990-cı il tarixdə SSR DİN I-ci müavini, daxili xidmət qoşunlarının komandanı general polkovnik Şatalin Naxçıvan MSSR-ə ardı-arası kəsilməyən erməni təcavüzünün nəticələri ilə yerində tanış olaraq müvafiq tədbir görmək məqsədi ilə yenidən Naxçıvana gəldi.

Saat 15:00-da Sədərək kəndi ilə Ermənistan SSR Ararat rayonunun Eras kəndi arasında general polkovnik Şatalinin iştirakı ilə Naxçıvan MSSR və

Ermənistan SSR partiya, sovet və inzibati orqanları rəhbərlərinin görüşü keçirildi. Görüş zamanı sərhəd kəndlərində silahlı toqquşmaların dayandırılması və dəmir yolunun işə salınması müzakirə edildi. Hər iki tərəfdən 5 km-lik ərazidə silah gəzdirilməməsi üzrə razılıq alındı (1).

Naxçıvan MSSR nümayəndə heyəti Kərki kəndinin boşaldılmasını və Mehri rayonunda fövqəladə vəziyyət elan edilməsini təklif etdi. Razılaşdırılmış məsələlərin 4 apreldən qüvvəyə minməsi bildirildi.

Muxtar respublikanın Ermənistan SSR-lə sərhədyanı yaşayış məntəqələrində gərginlik davam edir. Milli zəmində silahlı toqquşmaların baş verməməsi, erməni quldur dəstələrinin silahlı basqınlarının qarşısının alınması və vaxtında dəf edilməsi məqsədi ilə Naxçıvan MSSR DİO-rı, SSRİ DİN-nin daxili xidmət qoşunlarının əməliyyat qrupu ilə birlikdə müvafiq tədbirlər həyata keçirilirdi (2).

Ermənilərin Kərki kəndini işğal etməsi ilə əlaqədar Naxçıvan MSSR Daxili İşlər naziri M.Məmmədov hələ 31 yanvar 1990-cı il tarixdə Naxçıvan MSSR Ali Sovetinin sədri S.A.Əliyevaya göndərdiyi məktubunda yazırdı: «Məlum olduğu kimi 15 yanvar 1990-cı il tarixdə silahlı erməni ekstremistləri tərəfindən Şərur rayonunun Kərki kəndi müxtəlif tipli odlu silahlardan şiddətli atəşə tutulmuş, nəticədə 1 ev dağıdılmış, 2 ictimai bina isə yanmışdır. Kənd sakinləri dağ yolları ilə hərbçilərin müşayiəti altında kəndi tərk etməyə məcbur olmuşlar.

---

1. Nax. MR DA. f.1. s.37. iş.266. v.8-9.
2. Yenə orada. f.613. s.11. iş.98. v.1-7.

Yanvar ayının 17-dən etibarən Kərki və Sədərək kəndləri ətrafında baş vermiş məlum hadisələr yerli əhalinin bir daha Kərki kəndinə qaytmasına imkan verməmişdir. Kəndin mühafizəsi hərbçilər tərəfindən gözlənilmişdir.

Buna baxmayaraq 29-30 yanvar tarixdə Kərki kəndinə kütləvi surətdə erməni ailələrinin köçürülməsinə başlanmışdır.

31 yanvar 1990-cı il tarixdə Kərki kəndində olan podpolkovnik Baybaradovun verdiyi məlumata görə kəndə erməni ailələrin köçürülməsi davam etmişdir. Hazırda Kərki kəndinə 45 nəfərdən ibarət 15 erməni ailəsi köçürülmüşdür.

Bu gün saat 18:30 radələrində vəziyyətin öyrənilməsi üçün SSRİ Xalq deputatı general mayor Surkov, Ermənistan SSR Ararat Rayon Partiya Komitəsinin I-ci katibi Akopyan, Ermənistan SSR Nazirlər Soveti sədrinin müavini Mevsesiyan, Ermənitsan SSR Dİ naziri Arutunyan Kərki kəndində olmuşlar. Lakin hazırda göstərilən ailələr Kərki kəndindən çıxarılmamışlar.

Belə bir vəziyyət muxtar respublikada əməliyyat şəraitini daha da gərginləşdirə bilər (1).

Naxçıvan MSSR-də yaranmış siyasi vəziyyətlə əlaqədar 16 iyun 1990-cı il tarixdə Naxçıvan MSSR partiya fəallarının yığıncağı oldu. Yığıncağa Vilayət Partiya Komitəsinin üzvləri, üzvlüyünə namizədlər, vilayət partiya təşkilatlarının təftiş komissiyasının üzvləri, şəhər və rayon XDS İcraiyyə Komitələrinin sədrləri, nazirlik və baş idarələrinin rəhbərləri, Naxçıvan MSSR Ali Soveti Rəyasət heyətinin, Nazirlər Sovetinin, mətbuat, radio, televiziya, həmkarlar və komsomol təşkilatlarının işçiləri, partiya, müharibə və əmək veteranları, cəmi 300 nəfər dəvət edilmiş, həmçinin fəallar yığıncağının işində Azərbaycan SSR Daxili İşlər naziri M.N.Əsədov və onun I-ci müavini Barannikov iştirak edirdilər. Yığıncağı Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin I-ci katibi A.C.Cəliov açaraq, sözü Azərbaycan SSR Dİ naziri M.Əsədova verdi. M.Əsədov çıxışında dedi :

«Respublikada operativ vəziyyət çox çətindir, mətbuatdan, televiziyadan siz bunu bilirsiniz və artıq bu gün ölkə ictimaiyyətinə yaxşı bəllidir ki, Dağlıq Qarabağda olan hadisələr sovet hö

1. Nax. MR DA. f.613. s.11. iş.132. v.98.

kumətində olan qeyri-sabit vəziyyətin yaranması üçün detanator olmuşdur.

Mən istəyirəm fəallar bunu da bilsinlər ki, bu gün ölkə ictimaiyyətinin bu məsələyə münasibəti artıq 1 il 6 ay qabaqkı münasibət deyil. Bir il bundan qabaq biz hamını inandırmağa çalışırdıq ki, ola bilməz ki, iki dava edənin hərəsinə bir sillə vurasan, axı kimsə günahkardır. Mən açığını deyim, mitinqlərdə, küçə yürüşlərində, iclaslarda, camaatla görüşlərdə də bu məsələlər qalldırılıb və artıq bu gün ölkə ictimaiyyəti, ölkə rəhbərliyi bunu bilir, yerdən sual ola bilər ki, əgər bilirsə niyə tədbir görülmür? Mən bunu deyəcəyəm niyə və hansı problemlər var. Bu gün həmin bu xəstəlik, bu çətin məsələlər artıq bizim sərhəd rayonlarında da vardır. İki il bundan qabaq Dağlıq Qarabağda başlayan məsələlər bu gün sərhəd rayonlarında davam edir. Bizim 12-yə yaxın sərhəd rayonlarımızda qeyri-sabit vəziyyət və açığını deyim ki, hər gün atışmalar var. Bu vəziyyət Azərbaycan SSR Daxili İşlər Nazirliyinin gündəlik işini bir daha çətinləşdirmişdir. Bilavasitə o məsələlər ki, onunla məşğul olmalıyıq, yoldaş Cəlilov dedi, iqtisadiyyatda olan vəziyyət, oğurluğa qarşı mübarizə, adam öldürmə və s. Mən açığını deyim ki, bizim gücümüzün 60-70%-i bu istiqamətə gedib. Mənim bunu deməkdə məqsədim odur ki, qeyri-sabit vəziyyət demək olar ki, bütün nazirlikləri, o cümlədən Azərbaycan SSR Daxili İşlər Nazirliyini öz yolundan, bütün məsələləri öz istiqamətindən yayındırıb. Buna görə də bu gün sərhəd rayonlarının vəziyyətindən danışanda mən qeyd etməliyəm ki, ən çətin vəziyyət Kəlbəcər rayonunda, Laçın, Qazax, o cümlədən Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı yerlərindədir. Bu gün Ermənistan Daxili İşlər Nazirliyi ilə bizim görüşümüz olub. Mövcud gərginlik davam etməkdədir. Mən bir faktı sizin nəzərinizə çatdırmaq istəyirəm: Bu gün Azərbaycanın sərhəd rayonlarında SSRİ Daxili İşlər Nazirliyinin 17 minə yaxın əsgəri, zabiti dayanır. Bunu da müqayisə etmək üçün demək istəyirəm ki, bu, təxminən Azərbaycanla İran sərhəddində xidmət göstərən əsgərlərin sayından 2 dəfə çoxdur.

Uzun müddət Mərkəzə Dağlıq Qarabağ Muxtar Vilayətindən məlumat gedirdi. Bizim verdiyimiz məlumatların əksinə olaraq gedirdi ki, bizi qoymurlar işləməyə. Azərbaycan xalqı bizə ögey mü-

nasibət bəsləyir. Kəndlərimizdə vəziyyət pisdir və s. Qəti tədbirlər görülmədi və məsələlər genişləndi. Əvvəlcə dedilər ki, Mərkəzi Komitənin bir təlimatçısı gəlsin, sonra dedilər Razumovski gəlsin, sonra Liqaçoç, üç aydan sonra isə Qarbaçov gəlməlidir Dağlıq Qarabağa. Bunu deməkdə fikrim odur ki, ölkədə olan qeyri-sabit vəziyyəti ölkə rəhbərliyi məhz Dağlıq Qarabağla bağlayır, mən istəyirəm bunu fəallar bilsin. Deyə bilərsiniz ki, bizi müdafiə edin, bizə güllə atmasınlar. Yuxarı Buzqov, Cağazir kəndinə güllə atırlar. Sədərək kəndində qeyri-sabit vəziyyətdir. Mən bu məsələlər haqqında deyəcəyəm. Ən çətin vəziyyət, yoldaşlar, bu gün yaylaq zonalarında-Kəlbəcərdə, Laçın rayonlarındadır. O yerdə ki, bizim 900-ə yaxın əsgərimiz var. Orada xüsusi qərargah yaradılıb. Moskvalı general Malyuşkin rəhbərlik edir. Azərbaycan SSR Daxili İşlər Nazirinin müavini də orada oturub. Bütün bunlarla bərabər orada olan konfliktlər, insidentlər davam edir. Mən bu barədə yoldaşlara demək istəyirəm bilsinlər ki, bizim həmişə insidentlərimiz olub, hətta adi illərdə də, amma bu insident əlbəttə ondan deyil, yaraqlılar, silahlanmış quldur dəstələri bu gün orada fəaliyyət göstərirlər. Onu da qeyd etmək istəyirəm ki, dörd gün bundan əvvəl Kəlbəcərdə bir nəfər öldürülüb. Cəbrayılov familiyalı bir çoban, 2 nəfər yaralanıb, dünən yox sırağa gün bir erməni yaraqlısı öldürülüb. Dörd nəfər silahlı tutulub gətirilib.

Bu konfliktlər bu gün də davam edir. Bu bizi çox narahat edir. Biz tədbirlər görürük. Bu gün bizim bu barədə görüşümüz oldu. Ermənistan Daxili İşlər naziri Qalustyanla. Bu görüşdə o tərəfdən də iştirak edirdilər, bizim nazirliyin işçiləri də, həmçinin SSRİ Daxili İşlər Nazirliynin işçiləri də iştirak edirdilər. Çox açıq, sərbəst söhbət oldu. Biz 1988-ci ildən bu günə qədər erməni quldurlarının, erməni yaraqlılarının, erməni ekstremistlərinin Azərbaycan millətinin, xalqının başına gətirdiyi müsibətlərin xronoloji siyahısını da yoldaşlara göstərdik. Yoldaşlara sübut etdik ki, ancaq bu ilin 5 ayı ərzində Azərbaycan xalqına, kəndlərinə, bizim təsərrüfatlara 300-dən artıq quldurcasına basqın olundu, bu basqınlar zamanı hərbi hissənin şəxsi heyətindən də ölən və yaralanan var. 27-yə yaxın adam ölüb, yandırılan, partladılan yerlər var. Yeri gəlmişkən deyim ki, bütün bunlar

barədə Azərbaycan KP XXXII qurultayında çıxış edib dedim. Bizim söhbətimizin əsasını 3 amil təşkil edirdi:

Birinci, söhbət ondan gedir ki, bu gün Azərbaycan Respublikasında sabit vəziyyətdən söhbət gedə bilməz, o vaxta qədər ki, Ermənistan Respublikasının ərazisində yaraqlı dəstələr var. Bu dəstələrin sayı bir deyil, 10 mindir, bir deyil 30 mindir. Bizim ayrı-ayrı formal təşkilatlar deyir 200 mindir. İstər bir nəfər olsun, istərsə də 5 nəfər. Söhbət sovet qanunlarına Ermənistan ərazisində tabe olmamaqdan gedir. Əgər bu gün günorta çağı rəsmi olaraq hamının gözü qabağında lap 5 nəfər avtomatla gedirsə, bu, sovet qanunlarına hörmət yox, sovet qanunlarını tapdalamaqdır və bu hamıya meydan oxumaq deməkdir. Bu gün 7 milyonluq Azərbaycan xalqını narahat edən məsələlərdən biri bundan ibarətdir. Ölkədə söhbət hökumətdən getmir. Hamının səs verdiyi və səs verməsi nəticəsində qəbul olunan qanunlar yerinə yetirilmir, orada hansı iqisadiyyatın inkişafından söhbət gedə bilər. Ümumiyyətlə, inkişafın bu təbəqələrində həmişə durğunluq olacaq, həmişə çaşqınlıq olacaq və bu da gətirib böhrana çıxaracaq.

Dedik ki, niyə Ermənistandakı məsələyə, özbaşınalığa baxılmır. Bu məsələ Ermənistan SSR hökuməti səviyəsində həll olunmalıdır. Orada olan vəziyyətə biz biganə qala bilmərik. Bizim vəzifə borcumuz ondan ibarətdir ki, əgər orada söhbətlər, oradakı vəziyyət bilavasitə bizimlə bağlıdır, bizim təhlükəsizliyimizə bağlıdır, hərçənd ki, mərkəzi orqanlar oradakı prosesləri izləyirlər və vaxtlı-vaxtında məlumat verirlər, biz bilavasitə orada olan prosesləri çox dəqiqliyi ilə izləyir, məlumat veririk və tələb edirik. Mərkəzə məlumatlarımız o adamların, silahların hərəkəti barədə olur. Bunun üçün bizim istənilən qədər texnikamız da var, forma və metodlarını da bilirik. Bütün bunlara bərabər orda tərkislah getmir. Bunun üçün mərkəzə təklifimiz ondan ibarətdir ki, Ermənistanın ərazisində bütövlüklə böyük əməliyyat keçirilməlidir, çoxlu ordunun iştirakı ilə əsgərlərin iştirakı ilə, daha doğrusu Ermənistanın ərazisində fövqəladə vəziyyət elan olunmalıdır, o adamların hamısı tərkislah olunmalıdır. Bunun ikinci yolu yoxdur. Söhbət Ermənistan ərazisində qlobal halda böyük miqyaslı əməliyyatların keçirilməsindən gedir və orada adamların tərkis-

lah olunmasından gedir. Bizdə olan məlumatlara əsasən zəlzələ vaxtı təyyarələr nəzarətsiz buraxıldı, silah gətirdilər, o silahdan mərkəzin əlinə də keçib, 7-8 ölkədə istehsal olunan silah növləridir. Ölkə prezidenti M.S.Qorboçov yoldaş dəqiqliyi ilə bunu bilir. Söhbət Azərbaycan xalqının təhlükəsizliyindən gedir, ona görə də biz buna barmaqarası baxa bilmərik. Bizim söhbətimizin əsasını təşkil edən ikinci məsələ Kərki kəndi barədə oldu, bunun tarixini bilirsiniz. Yanvar ayında yüzlərlə ailə zorla oradan köçürülüb, bunu bizim hərbçilər də təsdiq etdilər.

Bir həftə bundan qabaq Cəlilov yoldaş Moskvada idi. Biz Kərki kəndi haqqında Azərbaycan SSR Ali Sovetinin sessiyasında fərman qəbul etmək fikrində idik, lakin yoldaş Mütəllibov və yoldaşların bir çoxu yox idi. Biz belə qərara gəldik ki, növbəti sessiyada bunu qəbul edək. Belə bir fikir vardı ki, Azərbaycan SSR Daxili İşlər Naziriliyi məsələni həll etsin. Söhbət ondan gedir ki, kəndin arxasından yaraqlılar gələ bilər, bunun üçün mərkəz miqyasında fövqaladə vəziyyət olmalıdır, hərbiçilərin gücü ilə orada yaşayan ermənilər çıxarılmalıdır. Oraya qayıdan adamların təhlükəsizliyi təmin olunmalıdır. Lazım olsa 3 ay, 4 ay, 5 ay dayanmalıdır o kənddə. Ondan sonra bu məsələ həll olunmalıdır. Kərki məsələsi respublika rəhbərliyini, Azərbaycan SSR Nazirlər Sovetini düşündürən ən mühüm məsələlərdən biridir. Mən belə hesab edirəm ki, bu məsələ yaxın vaxtlarda həll olunacaq. Çünki ikinci bir yol yoxdur. Söhbət haqqın, ədalətin bərpasından gedir. Burda ikinci söhbət ola bilməz.

Söhbətimizin üçüncü məsələsi dağda olan məsələlər, yaylaqda olan problemlər oldu. O bilavasitə Naxçıvana aiddir. Bizdə olan məlumata görə çoxları şikayət edir ki, yaylağa çıxa bilmir, həqiqətən atışmalar var və bu məsələni də bu günləri biz belə həll etdik ki, Naxçıvan MSSR Dİ naziri Məmmədov yoldaş orada idi, qruplar yaranır, bizim tərəfdən də, o tərəfdən də 15-20 nəfər həmişə bu dağ yerlərinə gedib bu ziddiyətləri həll edəcəkdir. Çünki burada da çoxlu məsələ var. Yoldaş Cəlilov tamamilə düz dedi, bizim rayonlarda belə insidentlər olur. Bir də görürsən ki, məlumat verir ki, sürünün yarısı yoxdur, 100 başı oğurladılar, 500 başı oğurladılar, sonra aydın olur ki, heç də belə deyil. Mən

bunu Naxçıvana aid etmək istəmirəm. Belə faktlar var. Bütün bu konfliktləri yerində həll etmək üçün hər iki tərəfdən ibarət qrup yaradıldı və M.Məmmədov bir nazir kimi buna rəhbərlik etməlidir. Gələcəkdə də mənim xahişim budur ki, konflikt olanda yoldaş Məmmədova məlumat verəsiniz.

Ümumiyyətlə, milisin işi barəsində danışanda mən istəyirəm ki, yoldaşlar bilsinlər ki, milisin işinə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin mart ayının sonunda keçirilən bürosunda düzgün, ədalətli qiymət verildi. Siz bilirsiniz ki, Daxili İşlər Naziriliyinin rəhbərliyi möhkəmlənib. Nazir müavinlərinin hamısına cəza verildi. Bununla əlaqədar indi DİN-də qəti tədbirlər görülür. Açığını deyək ki, peşəsini bilməmək, məsələnin həllinə qeyri-obyektiv münasibət, kadrların seçilib yerləşdirilməsində uyğunsuzluq, zəng ilə, tanışlıqla milisə qəbul etmək, sözün əsil mənasında dövlət malını oğurlayanlara qarşı qəti mübarizə aparmamaq, böyük cinayətkarları azadlıqda qoymaq, yetim-yesirin üstünə düşmək, bütün bu iyrənc hallar milisin nüfuzuna çox böyük təsir edib. İstəyirəm yoldaşlar bilsinlər ki, bu onları camaatın gözündən salır. Ümumi Azərbaycan milisinə aid olan çatışmamazlıqların bir hissəsi də Naxçıvan milisinə aiddir. Dünən biz bu barədə geniş danışdıq. Yoldaş Cəlilov iştirak edirdi, çıxış etdi, bütün bunlarla bərabər təkrar edirəm ki, bu gün normal qayda-qanun yaratmaq üçün sovet qanunlarının keşiyində dayanan vahid real orqan prokuror, mə'hkəmə, digər təşkilatlar və ordudur, bunu hamı bilir. Buna görə milisdə olan çatışmamazlıqlar qabarıq şəkildə camaatın gözündədir, biz çalışırıq elə tədbirlər görək ki, camaatın milisə münasibəti dəyişsin. Bu barədə geniş işlər görülür. Siz bilirsiniz, biz sərhəd rayonlarında vəziyyəti yaxşılaşdırmaq üçün tədbirlər görürük. O tədbirlər əsasən ondan ibarətdir ki, 12 sərhəd rayonunda, o cümlədən Naxçıvan Muxtar Respublikasında milisin sayını artıraq. Naxçıvan Muxtar Respublikasında 200 nəfərə yaxın milis artırılır. Bir nömrəli məqsəd ondan ibarətdir ki, sərhəd rayonlarında qayda-qanun bərpa olunsun, Azərbaycan Ermənistan ərazisi, Qazaxdan tutulmuş Naxçıvana qədər 154 kəndimiz təhlükəsiz olsun. O kəndlərin hər birinə bir sahə müvəkkili ştatı vermişik. Elə kənd var ki, 10-15

evdir, amma sahə müvəkkili vermişik ki, heç olmazsa ordu ilə əlaqə yaratsın, avtomat çiynində gəzsin, zəng vursun. Aydın məsələdir ki, hamımız kənddə böyümüş adamlarıq, işıq yoxdur, yol yoxdur, maşın yoxdur. Elə bir rabitə olsun ki, camaat bilsin ki, heç olmazsa tədbir görülür. Bundan əlavə Daxili İşlər Nazirliyi nəzdində 500 nəfəri əhatə edən xüsusi dəstələr yaradılır. Həmin dəstələr xüsusi vəzifələri yerinə yetirəcək.

Bu «xüsusi» təyinatlı dəstələr fiziki cəhətdən sağlam, çoxları isə Əfqanıstanda xidmət etmiş yoldaşlardır. O dəstəni istənilən vaxt Azərbaycanın bu və ya digər rayonlarına göndərə bilərik.

Milisin maddi-texni bazası çox zəif idi. Vaxtlı-vaxtında çağırışa gedə bilmirlər, maşın, rasiya yoxdur. Bununla əlaqədar biz kömək etmişik, nazirliyə gələn 15 UAZ maşının 10 ədədin Naxçıvana ayırmışıq. Həmçinin rasiya və digər texnika vermişik. Sərhəd rayonlarından söhbət gedəndə, mən gördüm ki, ən çətin, ən qorxulu vəziyyət Naxçıvandadır. Buna görə də mən istərdim ki, fəallar, əhali bilsin biz söhbət etmişik kəndlərdə, biz heç vaxt sizi tək qoymayacağıq, əlimizdən gələni edəcəyik, tez-tez camaatla görüşəcəyik. Bütün bunlarla bərabər sizin özünüzdən də çox şey asılıdır. Mən bu günləri kəndlərdə olanda bir daha gördüm ki, camaatın əhval-ruhiyyəsi bir ay, iki ay bundan qabaq olan əhval-ruhiyyə deyil. Bu çox sevindirici haldır. Əlbəttə bu gün artıq Azərbaycan ictimaiyyəti tam dəqiq başa düşüb ki, mitinq demokratiyası düzgün yol deyil, mitinq demokratiyası bizə imkan vermir ki, gücümüzü cəmləşdirib bizə təcavüz edən düşmənə qarşı mübarizə aparaq. Əksinə içimizdən bizi çürüdür, öldürür, zəiflədir. Aydın məsələdir ki, iqtisadiyyat yoxdursa, camaat acdırsa, burada heç bir siyasətdən söhbət aparmaq olmaz. Biz burada hər gün büro, plenum, kollegiya keçirək. Mərkəzi komitənin bütün qərarlarından danışaq, əgər əhali acdırsa, onların heç birini qəbul etməyəcək. Baxın son iki il ərzində milyard yarım respublika iqtisadiyyatına ziyan dəyib, yoldaşlar, ola bilsin ki, sual olunsun nazirin iqtisadiyyatla nə işi var, xeyir iqtisadiyyatda olan bütün dəyişiklər istər mənfi, istər müsbət bilavasitə Daxili İşlər Nazirliyinin işinə aiddir. Məsələn, biz alverdən danışırıq, söhbət kimisə tutmaqdan getmir. Alverdən danışanda söhbət az tapılan mallardan getməlidir. Nə

qədər ki, mal yoxdur, az tapılır, alver olmalıdır, oğurluq artmalıdır. Bu gün Azərbaycan Respublikasında, xüsusən Bakı şəhərində oğurluğun sayı iki il bundan əvvəlkinə nisbətən üç dəfə artıb.

Mən söhbətimin əvvəlində dediyim kimi, bu günlər bizim gücümüzün başqa istiqamətdə yönəldilməsindən cinayətkar elementlər çox məharətlə istifadə ediblər.

Yoldaşlar! Biz sizinlə açıq danışaq, söhbət millətdən gedir, torpaqdan, namusdan gedir, bütün bunlarla bərabər Azərbaycanda 10 min ağır cinayətin üstü açılmayıb. Onun 500-ü ölümdür. Özü də bunun Ermənistanla heç bir əlaqəsi yoxdur. Oğurluq, qatı xuliqanlıq, zorlama halları bu günləri Azərbaycan Respublikasında adi məsələyə çevrilib, gəlin bu barədə fikirləşək.

Əgər bu gün cinayətkarlığa qarşı hüquq mühafizə orqanlarına bütün ictimaiyyət kömək etməsə, məsələ həll olunmayacaq. Etiraf etməliyik ki, bu sahədə bizim işçilərin böyük günahı var, ancaq ictimaiyyətin də köməyini biz görmürük. Bakıda bir ay bundan qabaq günün günorta çağı Kommunist küçəsində, parkda saat 11:00-dan 13:00 arasında bir dəli, psixi xəstə 4 qadına bıçaq vurmuşdur. Şaiyələr bizim işimizi daha da çətinləşdirir. Bizim naziriliyin 30% vaxtı şaiyələrə cavab verməyə gedir. Elə adamlar var ki, istəyirlər həmişə gərginlik olsun, şaiyələrin sayı artsın. Yüz adamın gözü qabağında biri bıçaq vurur, amma heç bir adam nə onun rəngini, boyunu, buxununu deyir, nə də xəbər verir. Bu problemlər bizi bu gün düşündürməlidir. Bu problemi biz bu gün danışmalıyıq. Mən bunu deməklə məqsədim odur ki, yoldaşlar bu məsələlər hamısı günün ən vacib məsələlərindən biridir. Bu məsələləri heç kim gəlib bizim üçün həll etməyəcək. Nə Moskva, nə ordu. Bunu biz sizinlə həll etməliyik.

Respublikamızda çox güclü qeyri-formal təşkilatlar vardır. Bizim onlara münasibətimiz, Cəlilov da burda dedi müsbətdir. Əgər söhbət cəmiyyətin sağlamlaşmasından gedirsə, söhbət demokratiyanın artmasından, aşkarlıqdan gedirsə, eşq olsun, qoy işləsinlər, lakin demokratiya pərdəsi altında söhbət qatı xuliqanlıqdan gedirsə, söhbət talandan gedirsə, söhbət adam öldürməkdən gedirsə, buna haqqı yoxdur. Onun qarşısında Kommunist parptiyasının üzvü də, nazir də, rayon katibi də, hər hansı qeyri-fomal təşkilatın üzvü də cavab

vermalidir. İkinci söhbət yoxdur. Mən belə hesab edirəm ki, kütlə də bunu deyir. Bu gün Bakı şəhərində bir qrup adam peyda olub respublikada qeyri-sabit vəziyyətin yaranmasına canfəşanlıq edirlər. Özü də onlar çox vaxt qeyri-formal təşkilatların adından istifadə edirlər. Burada gərək öz sayıqlığımızı itirməyək. Mən bilmirəm Naxçıvanda belə qüvvələr var ya yoxdur? Bakıda, ayrı-ayrı rayonlarda belə qüvvələr var, belə qüvvələrə qarşı daxili işlər orqanları çox ciddi mübarizə aparmalıdır. Mən sizin vaxtınızı çox almaq istəmirəm. Mən istəyirəm yoldaşlar bilsinlər və arxayın olsunlar ki, respublika rəhbərliyinin, partiya fəallarının, hüquq mühafizə orqanlarının qarşısında duran ümdə vəzifə ondan ibarətdir ki, xalqın təhlükəsizliyini təmin etsin. Biz əminik ki, Azərbaycan torpağında, o cümlədən Naxçıvan Muxtar Respublikasında buna nail olacağıq» (1).

Naxçıvan MR DİN-də kadrlar şöbəsinin rəisi işləmiş və hazırda Azərbaycan Respublika DİN-də kadrlar idarəsinin rəis müavini işləyən rolis polkovniki Afət Qurbanov xatirələrində yazır: «1989-cu ildən Muxtar Respublikada əhalidə, məktəblərdə, şəhər, rayon milis şöbələrində olan silahların yığılması ilə əlaqədar Azərbaycan KP MK-nın I-ci katibi Ə.Vəzirovun göstərişi ilə həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan əhalisi tam silahsızlaşdırılmışdı. Sonradan bizə məlum oldu ki, muxtar respublika üzrə yığılan bu silah rus hərbçiləri tərəfindən vertalyotlara yığılaraq Rostov şəhərinə aparılmışdır. Demək olar ki, əhali tam əliyalın idi. Muxtar respublikanın Ermənistanla olan sərhədlərini polis əməkdaşları və könüllü müdafiə dəstələri qoruyurdular. Mən çox fikirləşdim nə edək ki, Ermənistanla sərhədlərimizi və o ərazidə yaşayan əhalinin, onun mal-qarasının etibarlı şəkildə qorunmasını təmin edək. Ertəsi gün mən «atçılıq» vzvodunun yaranması təklifi ilə həmin vaxt muxtar respublikanın Daxili İşlər Naziri işləyən polis polkovniki Məmməd Məmmədova müraciət etdim. O mənim bu təklifimi bəyəndi, onunla bu barədə ətraflı söhbət etdikdən sonra göstəriş verdi ki, «atçılıq» vzvodunun yaradılması üçün bütün tədbirləri həyata keçirdim və qısa müddətdə «atçılıq» vzvodunun təşkil olunmasına nail oldum.

-------------------------

1. Nax. MR PA f.1. s.37. iş.312. v.16-24.

Naxçıvan MR Daxili İşlər naziri Məmməd Məmmədov mənim hazırladığım sənədlərə baxdıqdan sonra mənə əmr hazırlanması tapşırığı verdi. Naxçıvan MR Daxili İşlər Nazirliyinin 14 iyun 1990-cı il tarixli 57 №-li əmri ilə «atçılıq» vzvodu yarandı, həmin vzvod Şahbuz rayonunun Ermənistanla sərhəd olan kəndlərində, yaylaqlarında xidmət etməyə başladı. Həmin vzvod Şərur, Culfa, Şahbuz müəssisədən kənar mühafizə şöbələrinin ən cəsarətli, qorxmaz, çevik fiziki cəhətdən sağlam olan əməkdaşları ilə kompleklaşdirildi. Qarabağdan alınmış atlar və avtomat silahlarla təmin olunmuş bu vzvod həmin yerlərə xidmətə göndərildilər. Mən deyərdim ki, bu vzvodun yaranması əhali və muxtar respublika rəhbərliyinin böyük sevincinə səbəb oldu. Uzun müddət bu vzvod öz vəzifəsini layiqincə yerinə yetirdi.

Blokadada olan Naxçıvan çox ağır günlərini yaşayırdı. O vaxt muxtar respublika üzrə şəhər, rayon polis şöbələrində cəmi 15 AKM avtomat silahı var idi. Naxçıvana kömək etmək məqsədi ilə Azərbaycanın müxtəlif yerlərinə zəng edib köməklik istəyirdim. O vaxt Gəncə şəhər polis idarəsinin rəisi Zahid Dünyamalıyev bizim çətin vəziyyətdə olmağımızı bildikdən sonra, 1990-cı il yanvar ayının 19-20-də təyyarə ilə Naxçıvana 90 ədəd AKSU avtomat silahı və çoxlu patron göndərdi.

Erməni silahlı birləşmələri bütün sərhəd rayonlarında Naxçıvan Muxtar Respublikasının sərhəd kənd və qəsəbələlərinə hücumlar təşkil edirdi. Bütün bunların nəticəsində də Muxtar Respublikada gərginlik günbəgün artırdı.

1990-cı ilin may ayında erməni quldurları Şahbuz rayonunun Batabat yaylaqlarında yerləşən Teleötürücü stansiyasına hücum edərək darmadağın etmiş, nəticədə 1 nəfər öldürülmüş, 1 nəfər isə yaralanmışdır. Bu hadisə ilə əlaqədar olaraq Naxçıvan MR Daxili İşlər naziri, polis polkovniki Məmməd Məmmədov, sərhəd rayonlarının milis şöbəsinin rəislərinin iştirakı ilə mən bu bölgədə sabitlik yaratmaq məqsədi ilə Ermənistan Respublikası Daxili İşlər nazirinin müavini Qriqoryan və onunla gəlmiş şəxslərlə görüş keçirdik. Danışıqlarda razılıq əldə edildi ki, bu bölgədə hər iki tərəf atəşkəsə əməl etsin. Bu görüşün müsbət təsiri oldu. Bir müddət bu ərazidə heç bir hadisə olmadı.

Naxçıvan ağır günlərini yaşayırdı. Ermənistanla sərhədlərimizi polis əməkdaşları və könüllü müdafiə dəstələri qoruyurdular.

Böyük strateji əhəmiyyət kəsb edən Sədərək kəndi demək olar ki, hər gün atəşə məruz qalırdı. Belə bir vaxtda Sədərək rayon polis şöbəsini təşkil etmək zəruri idi. Rəhbərliklə danışıqlardan sonra lazım bilindi ki, qısa müddət ərzində Sədərək polis şöbəsi təşkil olunmalıdır. 1990-cı ildə Sədərək rayon polis şöbəsini təşkil etdik. Bir neçə gün içərisində şöbə inzibati bina, silah, sursat və şəxsi heyətlə kompleksləşdirildi və Sədərək şöbəsi fəaliyyətə başladı.

Haqqında söhbət açdığımız dövrdə Naxçıvan MSSR-in hər yerində vəziyyət mürəkkəb olaraq qalmaqda idi. Çətinlikləri aradan qaldırmağa, müharibənin qarşısını almağa, əhalinin rahatlığını təmin etməyə qadir olan bir şəxsin meydana çıxması da müşkül məsələ idi. Çünki iqtidar nümayəndələrinin arasında belə bir bacarıqlı, tanınmış şəxsiyyət yox idi. Buna görə də Naxçıvan zəhmətkeşləri ayağa qalxıb Azərbaycanın dünyada tanınmış görkəmli oğlu Əliyev Heydər Əlirza oğlunun Naxçıvan MR Ali Məclisinə sədr seçilməsini tələb etdi.

Dünya şöhrətli bu siyasətçiyə Moskva və Azərbaycanda edilən təyziqlər, haqsızlıqlar, ədalətsizliklər onu qəlbən incitmişdi. Ona görə də bir daha vəzifəyə gəlmək istəmirdi. Xalq isə təkidlə tələb edirdi. Əhali Naxçıvan şəhərinin mərkəzi meydanına axışdı, Heydər Əliyevdən mitinqə gəlməsi xahiş olundu və bildirildi ki, o, meydana gəlməyincə, möhkəm vəd verməyincə heç kəs meydanı tərk etməyəcək.

Bu arzunu və qəti fikri bacısı evində xəstə yatan Heydər Əliyevə çatdıran xalq nümayəndələri gülərüzlə geri qayıdıb böyük, yenilməz sərkərdədən razılıq aldıqlarını sevinclə, tükənməz bir qürur hissi ilə meydandakılara çatdırdılar. Bunu eşid 1063 ən izdiham coşdu, dalğalandı. Xalq Heydər Əliyevin gəlməsini səbirsizliklə gözləyirdi.

Yataqdan durub xalq arasına gələn müdrik insan çıxış edərək çox səmimi, ürəkdən gələn sözlər dedi və bildirdi ki, həmişə ömrü boyu xalqla bir yerdə olub, bundan sonra da xalqla bir yerdə olacaq.

Heydər Əliyev 3 sentyabr 1991-ci il tarixdə həm xalqın, həm də Naxçıvan MSSR-də fəaliyyət göstərən deputatların tələbi ilə

Naxçıvan MSSR Ali Sovetinə sədr vəzifəsinə seçildi. Bundan sonra əhali arxayınçılıqla yaşamağa başladı.

Heydər Əliyev ardıcıl sessiyalar keçirir, xalqın həyatı, taleyi, təhlükəsizliyi ilə bağlı mühüm qərarlar qəbul edir, Azərbaycan Ali Məclisinin qarşısında ciddi məsələlər qaldırırdı.

Müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağının ilk dəfə məhz Heydər Əliyevin başçılıq etdiyi Naxçıvan MSSR Ali Məclisində qaldırılması, onun dövlət rəmzi kimi qəbul olunması və qərarın təsdiqi üçün Azərbaycan Ali Məclisinə müraciət edilməsi buna ən parlaq misaldır.

Belə uzaqgörənlik, belə risqli addımlar Azərbaycanın o vaxtkı rəhbərliyini qorxuya saldığı üçün Heydər Əliyevə qarşı qısqanclıq, təyziqlər günbəgün artırdı. Buna əhəmiyyət verməyən Heydər Əliyev öz bilik, təcrübə və bacarığına, xalqın inamına arxalanaraq dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqın rifah halının yaxşılaşdırılması üçün yorulmaq bilmədən çalışırdı.

Bəhs etdiyimiz bu dövrdə Azərbaycanın hər yerində olduğu kimi Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən polis orqanlarının əməkdaşları gecəli-gündüzlü işləməli olmuşlar. Məhz bunun sayəsində, eləcə də ölkə başçısı H.Əliyev cənablarının həyata keçirdiyi təsirli tədbirlər nəticəsində respublikada baş verən terror, quldurluq, soyğunçuluq, qəsdən adam öldürmə, dövlət və şəxsi əmlakın oğurluğu və s. ağır cinayətlərin sayı ildən-ilə azalmış, o cümlədən muxtar respublikada siyasi sabitlik təmin olunmuşdur.

1988-1991-ci illərdəki cinayətkarlığın say və açılma faizini göstərən cədvələ nəzər salsaq bunu bir daha görərik (1).

| № | Cinayətin növü. | İllər. | | | |
|---|---|---|---|---|---|
| | | 1988 | 1989 | 1990 | 1991 |
| 1. | Qəsdən adam öldürmə. | 3 | 8 | 11 | 14 |
| 2. | Ölümlə sui-qəsd. | 3 | 8 | 15 | 4 |
| 3. | Qəsdən ağır xəsarət yetirmə. | 6 | 10 | 7 | 6 |
| 4. | Zorlama. | - | 2 | 4 | 1 |
| 5. | Dövlət əmlakı oğurluğu. | 9 | 12 | 19 | 46 |
| 6. | Şəxsi əmlak oğurluğu. | 32 | 29 | 61 | 101 |
| 7. | Soyğunçuluq. | 4 | 3 | 4 | 2 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 8. | Quldurluq. | 2 | 15 | 6 | 5 |
| 9. | Dələduzluq. | - | 2 | 5 | 3 |
| 10. | Ağır cinayətlərin cəmi. | 42 | 65 | 90 | 69 |
| 11. | Qəsdən az xəsarət yetirmə. | 19 | 18 | 27 | 30 |
| 12. | Xuliqanlıq. | 26 | 28 | 15 | 30 |
| 13. | Ölümlə nətcələnən YNH-si. | 12 | 19 | 35 | 16 |
| 14. | Avtomaşın qaçırma. | 6 | 4 | 6 | 9 |
| 15. | Narkomaniya. | 9 | 10 | 13 | 8 |
| 16. | Sair cinayətlər: CAX. | 33 | 20 | 60 | 64 |
| 17. | CAX üzrə cəmi. | 164 | 188 | 288 | 239 |
| 18. | Açılma faizi. | 89,0% | 84,5% | 84,9% | 78,2% |
| 19. | Azyaşlı tərəfindən | 13 | 7 | 6 | 14 |
| 20. | İSCQM üzrə cəmi. | 114 | 116 | 94 | 103 |
| 21. | Mənimsəmə. | 52 | 45 | 29 | 49 |
| 22. | Möhtəkirlik. | 21 | 22 | 27 | 16 |
| 23. | Rüşvətxorluq. | 2 | - | - | - |
| 24. | Sair cinayətlər. | 39 | 49 | 43 | 38 |
| 25. | Başqa xidmət sahəsi üzrə cəmi | 83 | 74 | 76 | 70 |
| 26. | Cəmi. | 361 | 378 | 457 | 512 |
| 27. | Açılma faizi. | 92.5% | 91,2% | 91,2% | 85,7% |

1. Cədvəl və dinamika Nax. MR DİN-in cari arxivindən götürülmüşdür.

# V FƏSİL
# MÜSTƏQİL DÖVLƏTÇİLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ NAXÇIVAN POLİSİNİN ROLU

1991-ci ilin axırlarında muxtar respublikada müvəqqəti sabitlik olsa da bəzi qruplar, xüsusi ilə Şərur və Sədərək (Sədərək 1991-ci ildən rayon adlandırılıb) rayonlarında olan müdafiə dəstələri və başqa qruplar respublikada sabitliyi pozmağa çalışırdılar. Həmçinin hüquq qanunlarını pozaraq, polis əməkdaşlarını təhqir edərək ölümlə hədələyirdilər. Bu faktlarla əlaqədar Sədərək rayon Daxili İşlər Şöbəsinin şəxsi heyəti tərəfindən Naxçıvan MR Ali Məclisi sədri H.Əliyevə, həmçinin Naxçıvan MR Baş Naziri B.Fərzəliyevə, Naxçıvan MR Daxili İşlər Naziri M. Məmmədova və Naxçıvan Dövlət Müdafiə Komitəsinin sədri E.Abbasova Sədərək rayon DİŞ əməkdaşlarının 11 yanvar 1992-ci il tarixdə ümumi iclasda qəbul edilmiş müraciətlərini göndərmişlər. Müraciətdə deyilir: «Son illərdə muxtar respublikanın DİO-rı, o cümlədən Sədərək rayon DİŞ əməkdaşları erməni silahlı qüvvələrinin dəf edilməsində xüsusi fəallıq göstərmişlər. Yalnız bir faktı qeyd etmək kifayətdir ki, təkcə 1991-ci il ərzində Sədərək rayon DİŞ-si əməkdaşları erməni quldurlarının rayon ərazisinə etdikləri 11 hücumun dəf etmiş, 26-30 aprel 1991-ci il tarixdə arası kəsilmədən davam edən 5 günlük əsil müharibədə mərdlik nümunəsi göstərərək erməni quldurlarını məhv etməklə onların texniki qüvvələrinə də ciddi zərbə vurmuş və qeyd olunduğu kimi erməni milli ordusu tərəfindən hazırlanmış hücum planının qətiyyətlə qarşısını almışdır. Həmin vuruşmalarda 4 milis nəfəri ağır yaralanmış, 2 milis nəfəri isə yüngül xəsarət almışdır. Həmin vurşumalardan sonra DİŞ-in əməkdaşları sərhəddə döyüş üçün əhəmiyyəti olan bütün mövqeləri ələ keçirərək həmin yerlərdə milis postları qoyulmuş və həmin postlar bu günə qədər əldə saxlanılmaqla vəziyyətə tam nəzarət edildi. Lakin milis əməkdaşlarının bu kimi fədakarlığı rayon ərazisində yaranmış bəzi qruplar tərəfindən lazımınca qiymətləndirilmir və ya qəsdən onların nüfuzunu xalq qarşısında aşağı salmağa səy göstərir. Hətta vəziyyət o yerə çatmışdır ki, erməni silahlı quldur dəstələri ilə üzbəüz dayanan milis

postlarına arxadan müxtəlif odlu silahlarla atəşlər açılır. Fəal milis postlarına arxadan müxtəlif odlu silahlarla atəş açılır. Fəal milis işçilərindən hissə komandiri milis kapitanı V.Həsənov və CAX-ti üzrə baş əməliyyat müvəkkili milis mayoru A.Seyidov həmin qüvvələr tərəfindən ölümlə hədələnmişdir.

Bütün bunlardan özləri üçün bir müsbət nəticə əldə etmədiklərinə görə həmin qüvvələrin, daha doğrusu, müdafiə komitəsinin «liderlərindən» biri olan Süleymanov Cəlil Bilal oğlu 10 yanvar 1992-ci il tarixdə şöbənin həyətinə gələrək heç bir əsası olmadan bütün milis işçilərinin ünvanına nalayiq söyüşlər edərək onları ölümlə hədələmişdir. Bütün bunlar gələcəkdə milis işçiləri ilə xalq arasında silahlı toqquşmalar baş verməsinə şərait yaradır.

Bundan başqa həmin şəxslər rayon ərazisində sabitliyi pozmaq və rayon rəhbərliyini nüfuzdan salmaq niyyəti ilə 27 dekabr 1991-ci il tarixdə rayon Aqrar Sənaye Birliyinin VAZ markalı minik avtomaşının qaçırmışlar. Bu isə Maxta, KəRimbəyli, Qarabürc və Axamət kənd sakinləri arasında kütləvi narazılıq yaratmış və nəticədə həmin kənd sakinlərində 100-ə yaxın ağsaqqallar, o cümlədən xalq cəbhəsinin üzvləri milis şöbəsinin və rayon sovetinin qarşısına yığışaraq cinayətkarın cəzalandırılmasını tələb etmişlər.

Əlavə olaraq əldə olunan məlumata görə həmin şəxslər tərəfindən öyrədilmiş müəyyən adamlar gecə vaxtları naməlum istiqamətlərdən hərbi postlara da atəş açaraq hərbiçilərlə milis işçiləri və xalq arasında narazılıq salmaq istəyirlər.

Yuxarıda göstərilən bütün faktları nəzərə alaraq Sədərək rayon DİŞ-in şəxsi heyəti müraciət edir:

1. Müraciətdə göstərilən faktların dəqiq araşdırılması üçün səlahiyyətli şəxslərdən ibarət xüsusi komissiya yaradılsın.

2. Şəxsi heyətin ümumi rəyini nəzərə alaraq bildiririk ki, DİŞ-in əməkdaşları heç bir siyasi partiya mənafeyinin müdafiə etmir, yalnız və yalnız xalqın ümumi mənafeyini və asayişinin keşiyində dayanır.

3. Şəxsi heyət bildirir ki, son bir ildə DİŞ-in əməkdaşları milis xidməti fəaliyyəti ilə deyil, yalnız sərhədlərin mühafizəsi ilə məşğul olurlar. Ona görə də hazırda rayon müdafiə komitəsinin yaranması ilə əlaqədar olaraq bu vəzifə həmin komitəyə həvalə edilməli, şöbə əməkdaşları isə öz xidməti vəzifələrini yerinə yetirməlidir.

4. Milis postlarının atəşə tutulması, əməkdaşların ölümlə hədələnməsi və təhqir edilmələri faktları üzrə qanunla nəzədə tutulan müddətdə tədbir görülməlidir.

5. Şəxsi heyətin ümumi rəyi yuxarıda göstərilən səlahiyyətli şəxslər tərəfindən icraya yönəldilməsə Sədərək rayon DİŞ-in əməkDaşları öz fəaliyyətini dayandırmaqla xidmətdə olan postlar çıxarılacaqdır.

Hörmətli Heydər Əliyev, Sədərək rayon DİŞ-in əməkdaşları Sizin rəhbərliyiniz altında işləməyi özlərinə fəxr hesab etməklə, iqtisadi və fiziki çətinliklərə dözməklə sizin ideyalarınızın həyata keçirilməsi uğrunda ölümə belə hazırdılar.

Buna görə də Sizdən xahiş edirik ki, vəzifə səlahiyyətlərinizdən və ağsaqqalıq nüfuzundan istifadə edərək rayon ərazisində bir qrup şəxslər tərəfindən yaradılan münaqişənin aradan qaldırılmasında öz müdrük fikrinizi irəli sürəsiniz.

Biz sizin mürdrüklüyünüz, ağsaqqallığınız və dahiliyiniz qarşısında baş əyirik.

Hörmətlə: Sədərək rayon DİŞ-in şəxsi heyəti» (1).

1 may 1992-ci ildə sabitlik yenidən pozuldu. Erməni yaraqlıları muxtar respublikanın bütün sərhəd kəndlərini müxtəlif döyüş texnikasından və iri çaplı silahlardan atəşə tutdular.

Mayın 3-də Günnüt kəndində növbədə olan polis işçiləri hava telefonu ilə Şərur rayon DİŞ-in növbətçisinə bildirmişdilər ki, Ermənistanın Sovetaşen, Yelpin və Areni kəndləri tərəfindən qalxan 2 vertalyot onların olduqları ərazidə müşahidə aparır və hərdən atəş açır. Məlumatda qeyd edilirdi ki, həmin gündən bu vertalyotlar polis postunun yerləşdiyi əraziyə və Günnüt kəndinin özünə 64 raket mərmisi atmış və xeyli dağıntı törətmişdir.

Mayın 5-də Günnüt polis postundan məlumat verildi ki, silahlı ermənilər yenə də kəndlin yaxınlığında toplaşmışlar. Həmin yerdə 1 tank və 2 BTR-in olduğu da xəbər verildi. Bu məlumatdan 15-20 dəqiqə sonra postda duran Cəfər Cabbarov bildirdi ki, daşnakların bir hissəsi zirehli texnika ilə Günnüt kəndinə hücuma keçmiş və polis postunu zirehli texnika ilə güclü atəşə tutmuşdur.

Ermənilərin Günnüt kəndinə basqını ilə əlaqədar oraya kö-

1. Nax. MR DA. f.613. s.13. iş.28. v.74.

mək göndərilir. Oraya gedən polis əməkdaşları oradakılarla birləşərək 21 nəfər zabit və sıravi polis işçisi erməni yaraqlıları ilə vuruşa-vuruşa dağlara çəkilirlər. Polis nəfəri Mərdan Abbasov yaralandığı üçün polis nəfəri Zakir Qənbərov onu UAZ maşını ilə mərkəzi xəstəxanaya gətirmişdir. Polis baş serjantı Rəhimov Asəf Bayram oğlu mərdliklə vuruşaraq bir addım da olsun geri çəkilməmiş, polis işçilərinə mühasirədən çıxmağa kömək göstərmiş, özü isə son anda mühasirədə qalmışdır.

Bu dəhşətli anı hiss edən Asəf Rəhimov silahında qalan yeganə güllə ilə özünü vurmuşdur. Onun igidliyi və dönməzliyi heç vaxt unudulmayacaq. Onu da qeyd edim ki, 1992-ci il 6 iyunda milisin adı dəyişdirilmiş, 0 72 ildən sonra yenidən polis adlandırılmışdır (1).

1992-ci ilin may-iyul aylarında erməni silahlı qüvvələrinin basqınları nəticəsində polis əməkdaşlarından şəhid olanlar və yaralananlar oldu. Xüsusən Sədərək, Havuş, Günnüt, Yuxarı Buzqov, Kərməçataq və Şada kəndləri ətrafında gedən ağır döyüşlərdə polis əməkdaşlarımızdan Əsgərov Əli Şirzad oğlu-polis mayoru, Rəhimov Asəf Bayram oğlu-polis starşinası, İsmayılov Elman Cabbar oğlu-polis serjantı, Həsənov Abdulla Vəli oğlu-polis serjantı, Seyidov İlkin Mirnəzir oğlu-polis sıravisi, Kazımov İlham Cəbrayıl oğlu-polis serjantı, Vəliyev Şükür Məhərrəm oğlu-polis serjantı, Hüseynov Etibar İslam oğlu- polis serjantı, Seyidov Mirəyyub Yusif oğlu-polis serjantı və başqaları Naxçıvan MR-nın ərazi bütövlüyü və torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak oldular.

Bu döyüşlərdə neçə-neçə polis əməkdaşlarımız ağır yaralandılar. Bektaşi Ağabala Hidayət oğlu-polis baş leytenantı, Əhmədov Rasim Əhməd oğlu-polis serjantı, Yusifov Əhəd Fərman oğlu-polis serjantı, Rəhimov Qulu Qəhrəman oğlu-polis serjantı, Ağayev Firdovsi Dostəli oğlu-polis serjantı, Novruzov Ənvər Novruz oğlu-polis serjantı, Novruzov Tofiq Məsimalı oğlu-polis serjantı, Musayev Oruc Sərtif oğlu-polis serjantı, Rəhimov İnşallah Xəlil oğlu-polis serjantı, Həsənov Fazil Cəlal oğlu-polis serjantı, Vəliyev Kərəm Səfər oğlu - polis serjantı, Rzayev Hüseyn Məmməd oğlu-

1. E.Şahmar. Azərbaycan Polisi. Bakı 1997, s.7.

polis serjantı, Məhərrəmov Niyazi Səhlab oğlu-polis serjantı, Məmmədov Səfər Əhməd oğlu-polis serjantı, Zeynalov Qurban İslam oğlu-polis serjantı, Əliyev Eyvaz Ələkbər oğlu-polis serjantı, Sadiqov Nəsir Məmməd oğlu-polis serjantı, Abdullayev Vəzir Yusif oğlu-polis serjantı və başqalarını qeyd etmək olar.

Erməni hərbi birləşmələrinin 1992-ci il may ayında Şərur və Sədərək rayonlarına geniş miqyaslı hücumları dünyanın 60-dək ölkəsi tərəfindən təcaüz adlandırıldı. Elə buna görə də BMT-nin səlahiyyətli nümayəndələri baş vermiş hadisələri öyrənmək məqsədi ilə Naxçıvana gəldilər. Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev nümayndə heyətini qəbul edib, onlara erməni birləşmələrinin Naxçıvan MR ərazsində törətdiyi ağır cinayətlər barədə geniş məlumat verdi. Nümayəndə heyətinin üzvləri bu məlumatı bütün dünya ictimaiyyətinə çatdırdı.

Erməni daşnaklarının basqınları çox böyük itkilərlə nəticələnsə də bu, Sədərəyin, Günnütün, Havuşun, Kərməçatağın, Şadanın, ümumiyyətlə muxtar respublikanın qeyrətli oğul və qızlarının iradəsini sarsıda bilmədi. 1992-ci ildə «REAL» agentliyinin buraxdığı «Naxçıvan yaşayır, döyüşür» kitabından sətirləri oxucularımızın nəzərinə çatdırırıq: «Sədərək Ermənistana göz dağı, Türkiyə açılan pəncərədir. Üç tərəfdən dağlarla əhatə olunub. O dağlar ki, Şah İsmayılın, Qaçaq Nəbinin ayaq izlərini özündə saxlayır. Bura soyğunçu daşnakların ağır zərbəsinə tab gətirərək, onları öz yuvasınadək qovan Şərur partizanlarının məskəni olub. Amma görünür 1905-1907-ci illər və 1917-1920-ci illərin hadisələri ermənilədə dərs olmayıb. Aradan illər keçsə də öz həyasız əməllərindən əl çəkməyənlər yenə Naxçıvanı öz hakimiyyəti altına almaq xəyalına düşüblər. İlkin hədəf isə Sədərək kəndidir. Düşmən yaxşı bilir ki, bu kənd yurdumuzun döyünən ürəyi, qeyrət qapısıdır. Kəndi ələ keçirmək isə bütün Naxçıvana sahib olmaq, muxtar respublikanı, eləcə də Azərbaycanı Türkiyə ilə əlaqələrindən məhrum etmək deməkdir. Amma xam xəyala düşüblər. Sədərəklilər Naxçıvanın hünərvər oğulları, doğma torpağın hər qarışı uğrunda ölər, kəndi əldən verməzlər. Elə götürək ermənilərin 18 may 1992-ci ildəki qəfil hücumlarını. O zaman qeyri-bərabər döyüş sədərəklilərin, onlara köməyə

göndərilənlərin qələbəsi ilə nəticələndi. Təpədən-dırnağa qədər silahlanmış erməni quldurları geri oturdulmuşdur» (1).

Sədərəklə Ermənistan sərhəddində belə gərgin vəziyyətin yaranması qonşu ölkələrin, Türkiyə və İranın başçılarını da narahat edirdi. Kitabda Türkiyənin baş naziri Süleyman Dəmirəlin «Cumhuriyyət» qəzetində dərc olunmuş müsahibəsi verilmişdir. Müsahibədə deyilir: «Bütün dünyanın müdafiə etmədiyi hərəkətlər həm Türkiyəyə, həm də Naxçıvana böyük zərər vura bilər» (2).

Ermənilərin Naxçıvana təcavüzləri ilə bağlı Süleyman Dəmirəl Ermənistan prezidenti L.Ter-Petrosyan ilə telefonla əlaqə saxlamış və ondan təcavüzü dayandırmağı tələb edərək deMişdir ki, əks təqdirdə acınacaqlı nəticələr baş verə bilər. ABŞ prezidenti C.Buş ilə də telefon danışığı olmuşdur. S.Dəmirəl erməni təcavüzü nəticəsində bölgədə yaranmış vəziyyəti ona izah etmişdir.

Ermənilərin Şərur ərazisində, eləcə də Naxçıvanın sərhəd kəndlərində törətdikləri qırğınların qarşısını nə Azərbaycan hökuməti, nə də silah gücünə hakimiyyətə gəlmək istəyən cəbhəçilər ala bildi. Daha doğrusu, onlar bunu bacarmadılar. Şərur əhalisini bu fəlakətdən xalqın təkidi ilə Naxçıvan Ali Məclisinə sədr seçilmiş Heydər Əliyev cənabları xilas edə bildi. Onun dünya şöhrətli bir insan, müdrük siyasətçi olması, Ermənistan rəhbərləri ilə tez-tez apardığı məqsədyönlü danışıqlar Şərurun sərhəd kəndlərinə basqınların qarşısına sipər çəkməklə, dağıntılara, nahaq qan tökülməsinə, quldurluğa, qarətçiliyə son qoydu.

Bu nəhəng siyasətçinin şərurlulara ən böyük köməyindən biri də bu oldu ki, başçılıq etdiyi Naxçıvan Ali Məclisi Sədərək kəndinin ayrıca rayon kimi fəaliyyət göstərməsi barədə qərar qəbul etdi. Həmin qərarda Sədərək rayonunun ərazi bölgüsünə Sədərək, Dəmirçi, Kərki, Maxta, Qarabürc, Kərimbəyli və Axaməd kəndləri daxil edildi. Sədərəyin ayrıca rayon kimi fəaliyyət göstərməsinin əhəmiyyəti ondan ibarətdir ki, bu kənd müharibə zonasında rayon mərkəzi kimi qeydə alınmış, idarələrin, müəssisələrin və orada işləyən işçilərin sayı xeyli artmışdır. Nəticədə əhalinin başqa yerlərə köçüb getməsinin qarşısı alınmışdır.

---

1. N.Quliyev «Şərur fəryadı», Bakı 1999-cu il. s.348-349.
2. Yenə orada. s.349.

Heydər Əliyevin Naxçıvan Ali Məclisində sədirlik etdiyi dövrdə uzaqgörənliklə həyata keçirdiyi belə tədbirlər istər Azərbaycan Respublikasında hakimiyyətdə olan, istərsə də Naxçıvan MR yerli hakimiyyət orqanlarında möhkəmlənən cəbhəçilər tərəfindən heç də birmənalı qəbul edilmirdi. Ona görə də arada kəskin ziddiyətlər yaranırdı. Heydər Əliyevin müdrikcəsinə apardığı siyasət onun nüfuzunu gündən-günə möhkəmləndirir, xalq tərəfindən daha da sevilməsinə, dəstəklənməsinə səbəb olurdu.

Təbii ki, bütün bunlar bəzi qüvvələri narahat edirdi. Ona görə də onlar yenə də meydanlarda mitinqlər keçirir, Heydər Əliyevin hakimiyyətinə qarşı çıxır və nəyin bahasına olursa olsun əhalini onun üzərinə qaldırmağa çalışırdılar. Bu hərəkətlər ən çox Naxçıvan və Şərur şəhərlərində idi. Lakin xalqın Heydər Əliyevlə, Heydər Əliyevin xalqla bağlılığı, onların bir-birinə Sarsılmaz inamı el arasında deyildiyi kimi, bir çoxlarının «işqırığını» içində qoymuşdur.

1992-ci il oktyabr ayında Naxçıvan MR-də fəaliyyət göstərən cəbhəçilər, o cümlədən Şərur cəbhəçiləri Naxçıvan şəhərinə toplaşaraq, Heydər Əliyev hakimiyyətini silahlı yolla devirməyə cəhd göstərdilər.

Onlar silah gücünə Naxçıvan Dövlət Radio və Televiziya Şirkətini, Daxili İşlər Nazirliyini ələ keçirib, orada öz adamlarını yerləşdirə bildilər.

Muxtar Respublikada dövlət hakimiyyətinin varlığı açıq-aşkar təhlükə altında idi.

Vəziyyət hər an gərginləşirdi.

Bəs belə ekstrimal bir məqamda nə etməli, vəziyyətdən necə çıxmalı? Hamını bu sual düşündürürdü.

Uşaqdan böyüyə kimi hamı xalqımızın böyük oğlu Heydər Əliyevə, onun ağlına, zəkasına, qüdrətinə ürəkdən inanırdı. Onun bircə sözü, çağırışı lazım idi ki, xalq ayağa qalxıb bu mənsəb, vəzifə hərislərini kürüyüb bir kənara atsın. Heydər Əliyevin səbri, təmkini hələ son həddə çatmamışdı. Mübarizələrdən, sınaqlardan həmişə qalib çıxmış, ellərimizin tükənməz sevgisini, məhəbbət və inamını qazanmış bu mərd insan bir rəhbər kimi, sərkərdə kimi, hələ dözür, səbr edir, gözləyirdi. Gözləyirdi ki, bəlkə onlar tutduqları əməllərdən əl çəkdilər, bu yoldan döndülər.

Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev həmişə olduğu kimi yenə də müdriklik göstərərək bir daha onları silahı yerə qoymağa, iddialarından çirkin əməllərindən əl çəkməyə çağırdı.

Hadisələrin qorxunc axarı qəti addım atmağı tələb edirdi.

Xalq Heydər Əliyevin qüdrətinə, Heydər Əliyev də xalqın ona arxa olacağına, arxasınca gedəcəyinə inanırdı, özünə inanan kimi inanırdı. Ona görə də son məqamda Heydər Əliyev xalqa üz tutdu, xalqın, dövlətçiliyin, milli dəyərlərin qorunması yolunda birliyə və bu yolda qəti mübarizəyə səslədi.

Onun çağırışı ürəklərdə əks-səda verdi. Muxtar respublikanın hər yerindən Naxçıvan şəhərinə insan axını başlandı. Necə qüdrətliydi bu insan axını. Uzun yolları piyada keçib gələn, silah qabağına balta və dəyənəklə çıxan, ölümün gözünə dik baxan sadə xalq kütlələri, ziyalılar, qocalar və qadınlar, azyaşlı uşaqlar azadlıq naminə, Heydər Əliyev naminə hər şeyə hazır idi.

Hüquq mühafizə orqanlarının işçiləri bu çətin, gərgin vaxtda hadisələrin mərkəzində idi. Onlar canları, qanları bahasına dövlətçiliyimizə, onun qarantı olan Heydər Əliyevə öz yenilməz sədaqətlərini bir daha nümayiş etdirdilər.

H.Əliyevin rəhbərliyi altında güc, silah işlədilmədən Naxçıvan Radio və Televiziya Şirkəti, Daxili İşlər Nazirliyi öz ahəngdar iş rejiminə qayıtdı. Xalq rahat nəfəs aldı...

Bu illər ərzində bacarıqsız, savadsız, həyat təcrübəsi olmayan kadrlar irəli çəkilirdi. Belə bir hal bütün sahələrdə olduğu kimi Daxili İşlər Orqanlarında da özünü büruzə verirdi. Polisdə işləməyən, hüquq təhsili olmayan ayrı-ayrı ixtisas sahiblərinin polis orqanlarında rəhbər vəzifələrə təyin olunması böyük narazılığa gətirib çıxarmışdı.

1992-ci il avqust ayının 22-də heç bir hüquqi təhsili, rütbəsi olmayan AXCP üzvü Səyavuş Mustafayev Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əmri ilə Naxçıvan MR Daxili İşlər naziri vəzifəsinə təyin olunur. Bu xəbəri eşidən polis əməkdaşları Naxçıvan MR DİN-də fövqəladə iclas çağırıb bu məsələni müzakirə etmək qərarına gəldilər. Əməkdaşlar elə həmin gün, yəni 22 avqust 1992-ci il tarixdə Naxçıvan MR DİN-in iclas zalına toplaşaraq bu təyinatın müzakirəsinə başladılar. Bütün şəxsi heyətə təəc-

cüblü gəlirdi ki, daxili işlər orqanlarında işləməmiş rütbəsiz, qeyri ixtisasa malik olan bir idmançını Daxili İşlər naziri təyin etmişlər.

Əməkdaşlar tərəfindən edilən bütün çıxışlar protokollaşdırılaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə və Naxçıvan MR Ali Məclisinə göndərildi. Onlar haqlı olaraq tələb edirdilər ki, bizə təcrübəli, daxili işlər orqanlarında müəyyən təcrübəyə və yüksək hüquqi biliyə malik olan bir əməkdaş təyin edilsin.

Muxtar Respublika Daxili İşlər Nazirliyi əməkdaşlarının və Muxtar Respublika ictimaiyyətinin təklif, müraciət və bəyanatından sonra, 15 sentyabr 1992-ci il tarixdə Muxtar Respublika Nazirlər Kabineti Naxçıvan MR DİN-nin müavini, polis polkovniki Ələkbərov Əsgər Ələkbər oğlunu Naxçıvan MR Daxili İşlər naziri vəzifəsinə təyin etmək üçün Ali Məclisə təqdimat göndərmişdir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirinin S.Mustafayevin təyin olunmasına dair razılıq məktubu və Naxçıvan MR Nazirlər Kabinetinin Naxçıvan MR Konstitusiyasının 92-ci maddəsinin 10-cu bəndinə əsasən, polis polkovniki Əsgər Ələkbər oğlunun Naxçıvan MR-in Daxili İşlər Naziri vəzifəsinə təyin olunması barədə təqdimatı alternativ qaydada Naxçıvan MR Ali Məclisinin sessiyasının gündəliyinə salınmış və 17 sentyabr 1992-ci il tarixli sessiyada 86 səsdən 69 səslə Ə.Ələkbərov Naxçıvan MR Daxili İşlər naziri vəzifəsinə təyin edilMişdir. S.Mustafayev isə 86 səsdən 3 səs toplamaqla nazir vəzifəsinə təsdiq edilməmişdir.

Bundan sonra Azərbaycan Respublikası və Muxtar Respublika Konstitusiyasına hörmətsizliklə yanaşan təkəbbürlü nazir İ.Həmidov muxtar respublikanın Ali Məclisinin sessiiyasında nazir vəzifəsinə təyin edilmiş polis polkovniki Ə.Ələkbərovu, nazir müavini, polis polkovniki N.Həsənovu, nazirliyin kadr bölməsinin rəisi, polis mayoru A.Qurbanovu, nazirliyin Mühafizə şöbəsinin rəisi, polis podpolkovniki A.Məmmədovu, nazirliyin qərargah rəisi polis podpolkovniki O.Zalovu, nazirliyin İctimai təhlükəsizlik və asayişi mühafizə şöbəsinin rəisi, polis podpolkovniki B.Əyyubovu, İstintaq şöbəsinin rəisi, polis podpolkovniki M.Həsənovu 17 sentyabr 1992-ci il tarixli 601№-li əmri ilə daxili işlər orqanlarından xaric etmişdir. (Ə.Ələkbərov istisna olmaqla digər adları qeyd olunan əməkdaşlar növbəti məzuniyyətdə olmuşlar).

Ona görə də Naxçıvan MR DİN Polis Nəfəri və zabitlərin hüquq və şərəfini Müdafiə Komitəsi müraciət edərək Azərbaycan Respublikası Dİ naziri polis general-mayoru İ.Həmidovun siyasi məqsəd güdən qərəzli və qeyri-obyektiv verilən 17 sentyabr 1992-ci il tarixli, 601№-li əmrinin ləğv edilməsi, əməkdaşların hüquqlarının pozulmasının qarşısının alınması üçün tədbirlər görülməsini xahiş etdi» (1).

Həmin şikayətlə bağlı 01 sentyabr 1992-ci il tarixdə Naxçıvan MR Daxili İşlər Nazirliyi polis əməkdaşlarının Azərbaycan Daxili İşlər nazirinin müavini, polis general-mayoru R.Quliyevin iştirakı ilə keçirilmiş birgə iclasında bəyanat qəbul etmişdir.

Bəyanatda aşağıdakılar bildirilirdi:

1. Yuxarıdakı müraciət və bəyanatları nəzərə almayaraq özünün 18 avqust 1992-ci il tarixli antidemokratik əmrini icra etmək barədə daxili işlər naziri, general-mayor İ.Həmidovun qərarının şəxsi heyətin ciddi etirazına səbəb olduğu bildirilsin və Azərbaycan DİN-in rəhbərliyinə çatdırılsın ki, Naxçıvan MR DİN-in polis əməkdaşları daxili işlər orqanlarını siyasi mövQelərə tabe etdirən hərəkətlərə və cəhdlərə heç vaxt yol verməyəcək.

2. Təkrar olaraq Azərbaycan Prezidentinə, Ali Sovetə, Naxçıvan MR Ali Məclisinə, Azərbaycan DİN kollegiyasına müraciətlə xahiş edilsin ki, Naxçıvan MR DİN-in polis əməkdaşlarının mitinq və yığıncaqlarında qəbul edilmiş müraciət və bəyanatlarda irəli sürülmüş haqlı tələblərinə üç gün müddətində baxılsın və hər hansı bir xoşagəlməz nəticələrə apara bilən hadisənin qarşısının alınması üçün təcili tədbirlər görülsün.

3. Azərbaycan DİN-in respublikada cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə işinə yönəldilmiş əmr və sərəncamları istisna olmaqla, muxtar respublika daxili işlər orqanlarında kadrla əlaqədar siyasi məqsədlər güdən bütün əmr və sərəncamları etibarsız hesab edilsin və gələcəkdə icra edilməyəcəyi bildirilsin.

4. Naxçıvan MR Daxili İşlər Nazirliyinin rəhbərliyi ətrafında 11 gündən çox davam edən və siyasi ambisiyalara əsaslanan hadisələrin, Naxçıvan Muxtar Respublikasında onsuz da gərgin və mürəkkəb olan ictimai-siyasi və psixoloji vəziyyətin hədsiz dərə-

1. Qayıdış 1990-1993. Azərnəşr. Bakı 2008. s.453-457.

cədə gərginləşdiyini nəzərə alınaraq bildirilsin ki, DİN-in 18.08.1992-ci il tarixli əmrinin həyata keçirilməsi ilə əlaqədar hər hansı zor və təzyiq işlədilərsə, silahlı qarşıdurma baş verərsə bütün bunların məsuliyyəti Azərbaycan Respublikası Prezidentinin, Ali Sovetin Sədrinin və şəxsən Azərbaycan Respublikası daxili işlər naziri İ.Həmidovun üzərinə düşür.

5. Həmin bəyanat kütləvi informasiya vasitələri ilə Azərbaycan xalqına çatdırılsın.

6. Azərbaycan Daxili İşlər Nazirliyinin xüsusi məqsədlər güdən yoxlama komissiyasının bu gündən Bakı şəhərinə qaytarılması tələb edilsin (1).

Naxçıvan MR Daxili İşlər Nazirliyinin polis əməkdaşları «Ayna» qəzetinin 1 oktyabr 1992-ci il tarixli nömrəsində buraxılmış «Naxçıvan MR DİN hələ də rəhbərsiz qalmışdır» başlıqlı məqaləsinə görə Azərbaycan Respublikasının Daxili İşlər naziri, polis general-mayoru İ.Həmidovun həmin qəzetin məsul redaktoru C.Hüseynovu döyməsin pisləyir, baş vermiş hadisəni vəzifəli şəxsə, xüsusən də qanunçuluğu qorumalı olan nazirə yaraşmayan bir hərəkət kimi qiymətləndirirdi.

Həm də göstərilirdi ki, onun son aylar kadr sahəsində yeritdiyi siyasəti, Naxçıvan MR Konstitusiyasının (əsas qanunun) 62-ci maddəsinin 12-ci bəndini və 92-ci maddəsinin 10-cu bəndini kobud surətdə pozması, polis əməkdaşlarını siyasətə qoşması Naxçıvan MR Ali Məclisinə, Nazirlər Kabinetinə təzyiq göstərməsi kimi başa düşürük.

Həmçinin İ.Həmidovun «7 gün» qəzetinin 3 oktyabr 1992-ci il tarixli 38-ci nömrəsindəki «Qulaqlarınızı açın, eşidin» sərlövhəli müsahibəsində işlətdiyi «Mən Konstitusiyaya zidd hərəkət etməmişəm» fikrini təkzib edərək Naxçıvan MR Konstitusiyasının aşağıdakı maddələrini açıqlamağı və nazirin nəzərinə çatdırmağı özümüzə borc bilirik.

Naxçıvan MR Konstitusiyasının 68-ci maddəsinin 12-ci bəndinə əsasən Naxçıvan MR Ali dövlət hakimiyyəti və idarə orqanları simasında daxili işlər və milli təhlükəsizlik orqanlarına rəhbərlik etmək Naxçıvan MR Ali Məclisinin səlahiyyətinə aiddir.

---

1. Qayıdış 1990-1993. Azərnəşr. Bakı 2008. s.451-453.

92-ci maddənin 10-cu bəndinə görə Naxçıvan MR Baş nazirinin təqdimatı üzrə Naxçıvan MR Nazirlər Kabinetinin təsdiq olunması, bu tərkibdə dəyişikliklər edilməsi Naxçıvan MR Baş nazirinin təklifi ilə, Naxçıvan MR dövlət komitələrinin təşkili və ləğvi Naxçıvan MR Ali Məclisinin müstəsna səlahiyyətinə aiddir.

Biz, Naxçıvan MR DİN-nin polis əməkdaşları İ.Həmidovun 4 oktyabr 1992-ci il tarixdə Azərbaycan Milli Televiziyası ilə «215 KL» verilişində işlətdiyi «Boz qurdun» kimi isə öldürəcəyi ilə hədələməsi fikrini tənqid edərək ona etiraz edir və bildiririk ki, azad fikirli adamların təqib olunması sahəsində baş verəcək hər hansı bir hadisə üstündə məsuliyyət Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Daxili İşlər naziri İ.Həmidovun üzərinə düşür.

Azərbaycan ictimaiyyətini qanımızla qazandığımız demokratiyanın diktaturaya çevrilməsinə yol verməməyə çağırırıq.

Bəyanat 5 oktyabr 1992-ci il tarixdə Naxçıvan MR Daxili İşlər Nazirliyinin polis əməkdaşları tərəfindən qəbul edilmişdir.

Bu müraciətlər elə həmin gün lazımi ünvanlara: Azərbaycan Respublika Prokurorluğuna, Bakı şəhər Baş Polis İdarəsinə, Cəlilabad, Şəki, Gəncə, Beyləqan, Şamaxı, Yevlax, Ağcabədi, Bərdə, Fizuli, Cəbrayıl, Astara, Qazax, Zaqatala, Quba, Qusar, Xaçmaz, Dəvəçi, Lənkəran, Lerik, Sumqayıt, Xətayi, Yasamal, Binəqədi, Suraxanı, Əzizbəyov, Sabunçu, Qaradağ, Abşeron, Saatlı, Əlibayramlı, İmişli, Kürdəmir, Ağdaş, Şəmkir, Neftçala, Səlayan, Sabirabad DİN-nə, «Ədalət», «Xalq» qəzetlərinə göndərildi və Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev cənabları da bu haqq işi müdafiə etdiyini bildirdi.

Uzun illər Naxçıvan MR DİN-də işləmiş polis general-mayoru Mürsəl İsayev 1997-ci ilin avqustunda «Azərbaycan» qəzetinə verdiyi müsahibəsində göstərirdi ki, 1992-ci il avqust ayının 21-də İ.Həmidov Naxçıvan MR Ali Məclisində olarkən əvvəlki nazirin vəzifədən azad olunmasını, həmin işə daha layiqli, bacarıqlı və təcrübəli adamın təyin olunmasının zəruriliyini bildirir. Ali Məclisin rəhbərliyi onun təklifi ilə razılaşır. Bu cür razılıq da olur ki, nazirin vəzifəsi hələlik birinci müavin Ə.Ələkbərova həvalə olunsun. On gündən sonra isə Naxçıvan MR Ali Məclisi respublika DİN ilə

muxtar respublikanın Daxili İşlər naziri vəzifəsinə namizəd barədə qəbul etdiyi son qərarı Ali Məclisin sessiyasının müzakirəsinə verir.

İ.Həmidov ayın 21-də Bakıya yola düşür. Polis polkovniki Ə.Ələkbərov Naxçıvan DİN-də naziri əvəz edir. Ondan dörd gün sonra isə Heydər Əliyev İranda olarkən Səyavuş Mustafayevin nazir təyin olunması haqqında məlumat alır. Təəccüblü həm də o idi ki, 1718№-li əmr 18 avqust 1992-ci il tarixdə imzalanmışdır. Halbuki həmin tarixdən iki gün sonra İ.Həmidov Naxçıvanda idi.

Sonrakı hadisələrdən məlum olur ki, bura gələrkən XC-nin fəal üzvlərindən biri sayılan, heç bir hüquqi təhsili, təcrübəsi və səriştəsi olmayan S.Mustafayevin Naxçıvan MR Dİ naziri təyin edilməsi haqqında əmr də gətirmiş, Heydər Əliyevlə söhbətindən sonra bu vəzifəyə kadr təyin etməyin onun səlahiyyətlərinə aid olmadığını bilib, özü ilə bərabər həmin əmri də Bakıya aparmışdır.

17 sentyabr 1992-ci il tarixdə Naxçıvan MR Ali Məclisinin sessiyası Konstitusiya ilə ona verilən hüquq və səlahiyyətlərdən istifadə edərək Daxili İşlər naziri haqqında məsələni müzakirə edir. Xalq deputatlarının əksəriyyətinin səs çoxluğu ilə Ali Məclisin sessiyasında qəbul olunmuş qərarla Ə.Ələkbərov Naxçıvan MR Daxili İşlər naziri vəzifəsinə təyin edilir.

Məsələnin ədalətli həlli yenə təkəbbürlü nazirin xoşuna gəlmir. Həmin günü daha bir hüquqa zidd hərəkət baş verir. Azərbaycan Respublikası DİN-i Naxçıvan MR Daxili İşlər Naziri vəzifəsinə yenicə təyin olunmuş polis polkovniki Ə.Ələkbərov, nazir müavini muxtar respublikanın Xalq deputatı H.Həsənov, qərargah rəisi podpolkovnik O.Zalov, İstintaq bölməsinin rəisi polis polkovniki M.Həsənov, bölmə rəisi polis podpolkovniki B.Əyyubov, kadr və şəxsi heyətlə iş şöbəsinin rəisi, polis mayoru A.Qurbanov və başqalarının çıxarılması haqqında əmr verir.

Naxçıvan polisi özünün ən şərəfli ən çətin imtahanını 1992-ci ilin oktyabr ayında verdi. Həmin dövrdə ilk dəfə olaraq polis əməkdaşları İsgəndər Həmidov tərəfindən verilən qanuna zidd göstərişlərə, təyinatlara öz etiraz səsini qaldırdılar. Edilən təzyiqlər, polis əməkdaşlarının qanunsuz olaraq Daxili İşlər Orqanlarından azad edilmələri onların iradəsini sındıra bilmədi.

Polis əməkdaşlarının bu etirazları Azərbaycan rəhbərliyinə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə heç bir təsir etmədi və nəticəsiz qaldı. Polis əməkdaşları isə öz qanuni tələblərinin yerinə yetirilməsi üçün hüquqlarını tələb etməkdə davam edirdilər. Muxtar Respublikanın bütün şəhər, rayon polis şöbələrinin əməkdaşları bu təyinata öz etirazlarını günbə gün artırırdılar.

Bu təyinatla əlaqədar olaraq Azərbaycan Respublikası DİN-in nümayəndələri nazir müavini polis general-mayoru Rəhim Quliyev başda olmaqla Naxçıvana gəlmişdir. Bir neçə yüksək rütbəli polis əməkdaşları onları inandırmağa çalışdılar ki, S.Mustafayev bacarıqlı, işgüzar, savadlı bir adamdır. Lakin bütün polis əməkdaşları qəti etirazlarını bildirərək onlar tərəfindən qəbul olunmuş qərarın, bəyanatların yerinə yetirilməsini tələb edirdilər. Uzun sürən danışıqlardan, etirazlardan sonra S.Mustafayev barədə olan əmr ləğv edildi. Sonradan polis polkovniki T.Allahyarovun Naxçıvan MR Daxili İşlər naziri vəzifəsinə təyin olunmasına razılıq verildi. T.Allahyarov 1993-cü ilin iyul ayına kimi nazir vəzifəsində işləmişdir.

Onu da qeyd edək ki, Heydər Əliyev Bakıya getdikdən sonra qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlər xalq arasında gərginlik yaratmış, ictimai asayiş, demək olar ki, pozulmuşdur. Bunların qarşısının alınması üçün möhtərəm prezidentimiz Heydər Əliyev cənabları Ramil Usubovu ikinci dəfə 3 iyul 1993-cü ildə Naxçıvana Daxili İşlər naziri göndərdi.

R.Usubov o günləri belə xatırlayır: «1994-cü ilin iyul ayı idi. Mən DİN-də kadrlar idarəsinin şöbə rəisi işləyirdim. Nazir əvəzi R.Cavadov məni çağırıb dedi: prezident səninlə danışacaq. Heç bir dəqiqə keçməmiş dəstəkdən Əliyev cənablarının möhtəşəm səsi gəldi: Ramil, mən bura gələndən sonra Naxçıvanda vəziyyət dəyişib. Sən 1987-89-cu illərdə orada işləmisən, şəxsi heyət arasında hörmətin olduğu barədə məlumatım var. Təcili get işləri yoluna qoy». Mən təcili Naxçıvana yola düşdüm.

R.Usubovu Naxçıvanda xalq və şəxsi heyətin böyük əksəriyyəti gülər üzlə, böyük ümidlərlə qarşılasa da ona zor tətbiq edəcək qüvvələr də tapılır. Kimdi onlar? AXCP rəhbərliyi vaxtında DİN-nin daxili qoşunları adı altında maskalanıb küçələrdə silah oyna-

dan 150-200 nəfərlik dəstə. Təbii ki, belə anlarda dövlət zora qarşı zor tədbiq etməyə məcbur olur. Çox mədəni insan kimi mülayim nazirin «həlimliyini» görən bəzi qüvvələr yeni nazirə ultimatum verirlər ki, iki günə Naxçıvanı tərk etsin. Əgər bu qərarı qəbul etməsə daha onlardan küsməsin. Nazir o günü belə xatırlayır: «Təbii ki, deyilənə qol qoymadım. Dedim ağlınızı başınıza cəmləyib yerinizdə oturun, mən vəzifə bocumu yerinə yetirirəm. Nəticə çıxarmaq əvəzinə polisə zor tətbiq etmək xəyalına düşdülər. Biz də bunun qarşısını aldıq, polis ilə silahla danışmaq istəyənləri məsuliyyətə cəlb etdik. Sonra başladılar vay-şivənə, ay-haray qoymayın Naxçıvanda polis xalqı qırıb qurtardı. Belələrinə onda dediyimi indi də təkrar edirəm: Siz hara xalq hara? O xalq deyildi ki, istədiyiniz kimi qorxu, vahimə altına salıb qarabağır eləmişdiniz?» (1).

R.Usubov işə başladığı ilk gündən ona qəsd etməyə çalışdılar. 04 iyul 1993-cü il tarixdə, gecə saat 03:00 radələrində naməlum şəxslər tərəfindən nazirin iş otağına avtomat silahdan atəş açılır. O vaxt vəziyyət ağır olduğu üçün Ramil müəllim nazirlikdə xidməti otağında gecələməli olmuşdu. Təsadüf nəticəsində R.Usubov cənablarına heç bir xəsarət dəyməmişdir.

R.Usubov Muxtar Respublikada yuxu bilmədən on bir ay yaxın müddətdə onlarca silahlı dəstənin zərərsizləşdirilməsində, neçə-neçə açılmamış ağır cinayətlərin açılması və cinayətkarların tutulmasında, bir sözlə respublikada asayişin qorunmasında böyük xidmətlər göstərmişdir.

General-leytenant R.Usubovun muxtar respublikada SAbitliyi və ictimai asayişin qorunması sahəsində göstərdiyi böyük xidmətləri polis polkovniki Afət Qurbanov belə xatırlayır:

«Təkcə bir hadisəni qeyd etmək istəyirəm: «AXC-nin hakimiyyəti dövründə onların rəhbərləri, bir çox üzvləri qanuna zidd olan işlərlə məşğul olurdular. Həmin vaxt onlar Naxçıvanda «Gömrük polisi» adlı bir qeyri-qanuni olaraq fəaliyyətə başladığı dövrdə qeyri-neqativ işlərlə məşğul olurdular. Ona görə də bu qurumun ləğvi zəruri idi. Bununla əlaqədar olaraq mən R.Usubov cənabları ilə birlikdə Şərur rayonuna getməli olduq. Həmin gün Şərur rayon

1. E.Şahmar. Azərbaycan polisi. «Dünya nəşriyyatı». B.1997. s.64.

polis şöbəsində bu qurumun üzvləri ilə görüş keçirdik. R.Usubov cənabları bu görüşdə qətiyyətlə bildirdi ki, bu təşkilat qeyri-qanuni yarandığından ləğv olunmalıdır, lakin bu qurumun üzvləri R.Usubov cənablarının bu tələbi ilə heç cür razılaşmırdılar. Çalışırdılar ki, ləğv olunmasın. Hətta həmin qurumun üzvləri tərəfindən bizə müqavimət göstərmək istəyənlər də oldu. AXC-üzvü Ramiz adlı bir şəxs «Makarov» tipli silahdan da istifadə etmək istədi.

Bu vaxt R.Usubov cənabları cəsarətli, çevik hərəkətləri ilə əsil əməliyyat işçisi kimi soyuqqanlıqla onun qarşısını aldı və onu bir anda zərərsizləşdirdi. Elə həmin gün qeyri-qanuni yaradılmış «Gömrük polisi»nin ləğvinə nail olduq» (1).

General-leytenant R.Usubovun 1993-cü ilin iyulundan 1994-cü ilin mayına kimi işlədiyi dövrdə vətəndaşlarda olan qanunsuz silah və sursatların yığılmasında böyük əməyi olmuşdur. Bunu biz R.Usubovun 1994-cü ilin təkcə fevral-mart aylarında Naxçıvan MR Ali Məclisinə göndərdiyi gündəlik məlumatlarından da görürük. Həmin məlumatlarda yazılırdı: «17 fevral 1994-cü il tarixdən 25 fevral 1994-cü il tarixədək Sədərək rayon vətəndaşları tərəfindən 3 ədəd RQD-5 qumbarası, 1 ədəd F-1 qumbarası, 858 ədəd 5,45 mm-lik patron könüllü polis şöbəsinə təhvil verilMişdir.

28 fevral 1994-cü il tarixdə naməlum şəxs Naxçıvan şəhər polis şöbəsinə zəng vurub bildirmişdir ki, 2№-li hərbi şəhərcikdə yolun sağ tərəfində komission mağazasının arxasında 1 ədəd əldə düzəltmə tapança qoyulmuşdur. Tapança Naxçıvan şəhər polis şöbəsi tərəfindən götürülmüşdür.

28 fevral 1994-cü il tarixdə naməlum şəxs Naxçıvan şəhər polis şöbəsinə zəng vurub demişdir ki, Naxçıvan şəhər mülkü müdafiə qərargahının hasarının yanına 20 ədəd 120 mm-lik mərmi qoymuşdur.

18 fevral 1994-cü il tarixdə Şahbuz rayon PŞ-nin polis nəfəri Tağıyev Rəhim rayonun Şada kəndində xidmətdə olduğu vaxt 1 ədəd F-1 qumbarası taparaq şöbəyə vermişdir.

28 fevral 1994 -cü il tarixdə Naxçıvan şəhər Vəzirov küçəsi 38-də yaşayan Əliyev Əli Məmməd oğlu özündə olan 1 ədəd 37823№-li tüfəngini, 1ədəd xəzinəni və 8 ədəd patronu könüllü olaraq Naxçıvan şəhər PŞ-nə təhvil vermişdir.

1. A.Qurbanovun xatirələri. 1999-cu il.

01 mart 1994-cü il tarixdə daxil olmuş naməlum telefon zənginə əsasən Babək rayon PŞ-nin əməkdaşları Qahab kəndi yaxınlığındakı körpünün altından 4 ədəd avtomat xəzinəsi, 210 ədəd avtomat patronu, 1 ədəd pulemyot silahının lentası və 89 ədəd əldə düzəldilmiş əl qumbarası müəyyən edib götürmüşlər.

04 mart 1994-cü il tarixdə Naxçıvan MR DİN-nin əməkDaşlarının apardıqları əməliyyat tədbirləri nəticəsində AXC-nin Naxçıvan bölgəsindən aşağıdakı hərbi sursatlar aşkar edilərək götürülmüşdür: 82 mm-lik mina, 20 ədəd alazan mərmisi, 6 ədəd NR-30 mərmisi, 37 ədəd alazan üçün partlayıcı, 10 ədəd TA-5, 18 ədəd PQ-7, 12,7 mm-lik, B-23, 580 ədəd patron, 2 ədəd tank üçün mina, 1 ədəd OMZ-A72, pulemyot üçün 1000 göz, 168 ədəd 14, 5 MDZ patron, 5 ədəd kaska, 60 ədəd 7,62 mm-lik patron, 2 ədəd AKM (№: 28022167, 30000295), iri çaplı pulemyot üçün 12,7 mm-lik 2 ədəd xəzinə, 2 ədəd FDŞK (№: T-224, N-114), 2 ədəd iri çaplı pulemyot (B-2751, DN-114), 12 lüləli TN-10 zenit qurğusunu Naxçıvan şəhərində yerləşən 705 №-li hərbi hissəyə təhvil verilmişdir.

09 mart 1994-cü il tarixdə Babək rayonunun Xətai kənd SAkini Qulamov Namiq Əkbər oğlu evində qanunsuz saxladığı 162 ədəd pulemyot patronunun, 3 m pulemyot lentasını, 2 ədəd əldə düzəldilmiş əl qumbarasını könüllü olaraq Babək rayon PŞ-nə təhvil vermişdir.

09 mart 1994-cü il tarixdə Şahbuz rayonunun Kükü kənd sakini Şükürov Hüseyn Allahverdi oğlu evində saxladığı 1 ədəd beşaçılan silahı, 1 ədəd xəzinəni, 7 ədəd patronu, həmin kənd sakini Bədəlov Fəxrəddin Əli oğlu isə 1 ədəd beşaçılan silahı, 1 ədəd xəzinəni, 7 ədəd patronu könüllü olaraq Şahbuz rayon PŞ-nə təhvil vermişlər.

10 mart 1994-cü il tarixdə Babək rayon Qoşadizə kənd sakini Fərəcov Elburus Hüseynqulu oğlu 2 ədəd BMP mərmisi, 1 ədəd BRDM mərmisi və 120 ədəd avtomat patronunu könüllü olaraq Naxçıvan hava limanı PŞ-nə təhvil vermişdir.

10 mart 1994-cü il tarixdə Şərur rayon Məmmədsabir kənd sakini Cəfərov Şahmərdan Məmməd oğlu 8 ədəd AKM markalı avtomat silahları (№: 2905649, 2912023, 2806800, 2005029, 28011995, 2811436, 10128659) və 3 ədəd boş xəzinəsini könüllü olaraq RPŞ-nə təhvil vermişdir.

10 mart 1994-cü il tarixdə Şahbuz rayon Kükü kənd sakini Nəcəfov Asəf Fərrux oğlu 1 ədəd nömrəsiz, əldə düzəltmə tapançanı könüllü olaraq Şahbuz rayon PŞ-nə təhvil vermişdir.

10 mart 1994-cü il tarixdə Şahbuz rayon PŞ-nin əməkdaşları rayonunun Keçidli kənd ərazisində 1 ədəd F-1 qumbarası və 3 ədəd iri çaplı pulemyot patronu tapıb götürmüşlür.

10 mart 1994-cü il tarixdə Naxçıvan ŞPŞ-nin əməkdaşları Atabəylər məhəlləsindəki binaların zirzəmilərindən 14 ədəd aminal partlayıcı, 5 ədəd müxtəlif növlü mərmi, 2 ədəd avtomat xəzinəsi, 1 ədəd pulemyot xəzinəsi, 775 ədəd avtomat patronu, 1 ədəd əldə düzəltmə qumbara və 248 ədəd pulemyot patron lentası ilə birlikdə aşkar edilib götürmüşlər.

10 mart 1994-cü il tarixdə Culfa şəhər sakini Əliyev Təmleyxa Oruc oğlu 2 ədəd RPQ-18 və RPQ-22 №-li qumbara atan silahı 5 ədəd mərmisi ilə könüllü olaraq RPŞ-nə təhvil verMişdir.

21 mart 1994-cü il tarixdə Culfa RPŞ-nin əməkdaşları Culfa şəhər Nizami küçəsində 20 ədəd əldə düzəltmə qumbara aşkar edib götürmüşlər.

22 mart 1994-cü il tarixdə Babək RPŞ-i və Prokurorluq tərəfindən birgə aparılmış tədbirlər nəticəsində rayonun XC-si tərəfindən 2 ədəd AKM markalı (№: 2514310, 2930952) avtomat silahları, 150 ədəd avtomat patronu, 5 ədəd xəzinə, 1 ədəd F-1 qumbarası, 1 ədəd qumbara partlayıcısı, 36 ədəd dəbilqə, 5 ədəd zirehli gödəkcə, 7 ədəd qoruyucu plaş və 22 ədəd müxtəlif geyim üçün hərbi formalar könüllü olaraq RPŞ-nə təhvil verilmişdir.

22 mart 1994-cü il tarixdə Şərur rayon Çərçiboğan kənd SAkini Zamanov Xanbəyi Elbəyi oğlu 1 ədəd Mİ-8751 №-li AKM markalı avtomat silahı və 1 ədəd boş xəzinəni, Şərur rayon SAkini Allahverdiyev Əli Oruc oğlu isə 54 ədəd avtomat patronunu könüllü olaraq Şərur RPŞ-nə təhvil vermişlər.

22 mart 1994-cü il tarixdə Babək rayon Şəkərabad kənd SAkini Zeynalov Zeynal Həsən oğlu 2 ədəd zirehli geyim, 10 ədəd dəbilqə və 108 ədəd BMP mərmisini könüllü olaraq Naxçıvan hava limanı PŞ-nə təhvil vermişdir.

23 mart 1994-cü il tarixdə Naxçıvan Hava Limanı PŞ-nə daxil olan naməlum telefon zəngi əsasında quşçuluq fabrikinin yaxınlığın-

dan 1 ədəd qradatan mərmisi, 2 ədəd avtomat xəzinəsi, 1 ədəd tank əlehinə qumbara, 1 ədəd F-1 qumbarası, 16 ədəd BRDM mərmisi aşkar edilərək hava limanı PŞ əməkdaşları tərəfindən götürülmüşdür.

23 mart 1994-cü il tarixdə Şərur rayon M.Sabir kənd sakini Cəfərov Şahmərdan Məmməd oğlu 1 ədəd qradatan silahı və minomyot oturacağı və dayanacağı hissəsini (lüləsiz) könüllü olaraq PŞ-nə təhvil vermişdir.

23 mart 1994-cü il tarixdə naməlum şəxs Şərur rayon PŞ-in polis kapitanı Hüseynalı Kərimovun iş otağına zəng vuraraq bildirmişdir ki, ona məxsus VAZ - 2106 markalı avtomaşına İtalyan istehsalı bir ədəd 2573 №-li tapanca qoyulmuşdur. Həmin tapanca aşkar edilərək götürülmüşdür.

23 mart 1994-cü il tarixdə Babək rayonu Əliyabad kənd SAkini Bayramova Durna Hüseyn qızı çöldə tapmış olduğu 68 göz pulemyot lentasını, 121 ədəd pulemyot patronunu, 78 ədəd 5,45 mm-lik patronu və 1 ədəd 14,5 mm-lik iri çaplı pulemyot patronunu könüllü olaraq Naxçıvan MR DİN-nə təhvil vermişdir.

27 mart 1994-cü il tarixdə Naxçıvan şəhər sakini Vəliyev İlqar Saleh oğlu tapdığı 440 ədəd 7,62 mm-lik patronu və bir ədəd radiostansiya qurğusunu könüllü olaraq Naxçıvan hava limanı Polis Şöbəsinə təhvil vermişdir.

27 mart 1994-cü il tarixdə Şərur rayon Maxta kəndi yaxınlığındakı körpünün altından 1 ədəd əldə düzəltmə əl qumbarası, tüstülü şaşka, 29 ədəd 7,62 mm-lik patron sahə müvəkkili Yadulla Hüseynov tərəfindən aşkar edilərək götürülmüşdür.

30 mart 1994-cü il tarixdə Babək rayon Polis Şöbəsinin əməkdaşları rayonun Payız kəndi yaxınlığındakı meşənin içərisindən 60 ədəd 5,45 mm-lik avtomat patronu və 3 ədəd boş xəzinə aşkar edib götürmüşlər.

30 mart 1994-cü il tarixdə Culfa rayon Yaycı kənd sakini Tağıyev Ramiz Yusif oğlu 1ədəd AKM markalı NT-8945 №-li avtomat silahı könüllü olaraq Rayon Polis Şöbəsinə təhvil vermişdir» (1).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hü-

---

1. Nax. MRDA. f.613. s.11. iş.98. v.42-49.

quq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında» 9 avqust 1994-cü il tarixli fərmanı hüquq mühafizə orqanlarının əməkdaşları qarşısında çox mühüm və təxirəsalınmaz vəzifələr qoymuşdur.

Fərman verildiyi gündən 21 avqusta ayına kimi polis əməkdaşları tərəfindən 4 nəfər axtarışda olan şəxs tutulmuş, 1 ədəd UAZ markalı avtomaşın, 3 ədəd avtomat silah, 458 ədəd patron, 6 avtomat xəzinəsi, 2 ədəd qanunsuz ov tüfəngi aşkar edilib götürülmüş, aparılan tədbirlər nəticəsində 5 mənimsəmə faktı müəyyən edilərək Azərbaycan Respublikası cinayət məcəlləsinin 86-cı maddəsi ilə cinayət işi qaldırılmışdır (1).

Ümumiyyətlə, 1994-1995-ci illərdə polis əməkdaşları tərəfindən 7 ədəd zirehli texnika, 2 ədəd minaatan, 6 ədəd odatan, 54 ədəd qumbaraatan, 3 ədəd qrad qurğusu, 12 ədəd alazan qurğusu, 4 ədəd zenit qurğusu, 6 ədəd snayper silahı, 40 ədəd pulemyot, 800 ədəd kalaşnikov avtomatı , 50 ədəd beşaçılan, 35 ədəd TOZ-8 silahı, 148 ədəd tapança, 34 ədəd İTRUS qurğusu, 285 ədəd qumbara, 1400 ədəd müxtəlif ölçülü mərmi, 630 ədəd mina, 1,5 milyon müxtəlif ölçülü patron, 10 ədəd müxtəlif markalı hərbi maşın və küllü miqdarda digər hərbi vəsait aşkar edilərək götürülmüşdür.

Aparılan bu kimi tədbirlər, xüsusi ilə Naxçıvan MR Parlament seçkilərinin müvəffəqiyyəti, parlamentin yeni sədrinin həyata keçirdiyi səmərəli və məqsədyönlü tədbirlər bəzi cinayətkar ünsürləri ciddi narahat etdiyindən onlar yeni-yeni ağır cinayətlər törətməklə dövlət orqanlarının fəaliyyətinə mane olmağa çalışmışlar.

Lakin muxtar respublikanın hüquq mühafizə orqanlarının əməkdaşları baş verə biləcək hər hansı bir təxribat hərəkətlərinin qarşısını almaq, cinayətkarların tərkislah edilərək zərərsizləşdirilməsi üçün bir sıra əməliyyat axtarış və profilaktiki tədbirlər hazırlayıb həyata keçirmişlər. Ordubad rayonunun Kələki, Dırnıs, Unus kəndlərində, Culfa rayonunda və Naxçıvan şəhərində aparılmış tədbirlər nəticəsində 1996-cı ilin birinci rübündə 90 ədəd kalaşnikov avtomatı, 5 ədəd pulemyot, 2 ədəd snayper tüfəngi, 14 ədəd beşaçılan, 24 ədəd tapanca, 5 ədəd qumbaraatan, 1 ədəd minaatan, 365 ədəd qumbara, 117 ədəd mərmi, yüz minlərlə müxtəlif ölçülü

---

1. «Şərq qapısı» qəzeti, 25 avqust, 1994-cü il.

patron və küllü miqdarda digər silah və sursat götürülmüşüdür (1).

Bununla y anaşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 70, 70-2, 191-1 maddələri ilə axtarışda olan Məmmədov Əhəd Bəhlul oğlu, 207-ci maddənin 3-cü hissəsi ilə axtarışda olan İsmayılov Ələsgər Abbas oğlu Kələki kəndində həbs edilmişlər.

Müxtəlif qüvvələr, Azərbaycanda silahlı çevrilişlər keçirməyə cəhd edən bütün daxili və xarici düşmənlər görürlər ki, oktyabr 1994-cü il, mart 1995-ci il hadisələri nəinki Azərbaycanda iqtidarı gücdən və nüfuzdan saldı, əksinə bu hadisələr Azərbaycan dövlətçiliyini daha da möhkəmləndirdi, xalqın öz prezidentinə nə dərəcədə sadiq olduğunu, eləcə də müstəqil Azərbaycan dövlətinin gücünü və qüdrətini bir daha nümayiş etdirdi.

1993-1995-ci illərdə Ordubad rayonunun Üstüpü, Kələki, Çənnəb kəndlərində, Şərur və Culfa rayonlarında möhkəm silahlanmış dəstələr mövcud idi. Hüquq mühafizə orqanları tərəfindən dəfələrlə onlara tərkislah olmaları tövsiyyə edilmişdir. Lakin bu cinayətkar ünsürlər buna əhəmiyyət verməmişlər. Bu illərdə muxtar respublikada ümumi respublika zəhmətKeşlərinin, bir çox siyasi partiyaların, müharibə və əmək veteranların ayrı-ayrı təşkilatların fəhlə və qulluqçularının müşavirə, mitinq və yığıncaqlarında bu dəstələrə müraciətlər qəbul olunmuşdur. Bu müraciətləri hesaba almayan cinayətkarlar öz əməllərindən əl çəkməmiş, silahları təhvil vermək əvəzinə yeni cinayətlər törətməyə səy göstərmişlər.

8 may 1994-cü il tarixdə Naxçıvan MR Ali Məclisində keçirilən görüş iştirakçısı olan muxtar respublika veteranları AXC-nin sədri Ə.Elçibəyə, Ordubad rayon veteranlarına və ictimai-siyasi təşkilatlarına müraciət qəbul etmişlər.

Müraciətdə deyilir: «Hörmətli Elçibəy. Hörmətli həmvətənlər. Əziz oğul və qızlarımız. Bu gün Ordubad rayonunda baş verən hadisələr dərin nigarançılıq və narahatlıq doğurur. Respublika prezidentinin fərmanı ilə təyin olunmuş icra hakimiyyətinin başçısına qarşı çevrilən hərəkətlər onsuz da ağır olan vəziyyəti daha da gərginləşdirir. Etibarın, inamın itməsinə, qarşı-durmaya gətirib çıxarır. Amansız düşmənə qarşı çevirməyin, səfərbər etməyin lazım gəldiyi

1. «Şərq qapısı» qəzeti, 4 may 1996-cı il.

bir zamanda daxildə əlavə gərginlik yaratmaq kimə lazımdır?

Əziz Ordubadlılar!

Sizə müraciət edirik. Sizi barışığa, vətəndaş həmrəyliyinə dəvət edirik. Əl-ələ verin, adamları mənasız qarşıdurmaya vadar etməyin. İndiki halda yeganə yol prezident fərmanlarının icrasına əməl etmək, vahid dövlətçiliyimizi qoruyub saxlamaqdır.

İnanırıq ki, Siz birgə səylərlə çıxış yolu tapacaq, razılığa gəlməyi, ən vacibi isə ağsaqqal sözünü eşitməyi bacaracaqsınız.

Sizi bir daha milli dövlətçiliyimizi qorumaq, qanunlara hörmət naminə birliyə çağırırıq» (1).

20 yanvar 1995-ci ildə bir qrup silahlı cinayətkarın Ordubad rayon Polis Şöbəsinə basqını, həmçinin 29 yanvar 1995-ci ildə gecə saat 01:00 radələrində vətəndaşın telefon zənginə əsasən xidməti vəzifələrini yerinə yetirən kənd polis işçilərinə silahlı hücum və s. buna bənzər cinayətlər respublikada aradan qalxmaqda olan qarşıdurmanın canlanmasına, iqtidarla müxalifət arasında sağlam siyasi rəqabətin açıq düşmənçiliyə çevrilməsinə gətirib çıxarmışdı.

1995-ci ildə muxtar respublikada cinayətkarlığın qarşısını almaq məqsədi ilə bir sıra təsirli tədbirlər həyata keçirilmişdir. 1995-ci ilin 9 ayında həyata keçirilən tədbirlər nəticəsində 1994-cü ilin müvafiq dövrü ilə müqayisədə muxtar respublikada cinayət hadisələrinin sayı 68 hadisə azalmışdır. Belə ki, ağır cinayətlərdən qəsdən adam öldürmə 2, bədənə ağır xəsarət yetirmə 6, soyğunçuluq 1, dövlət əmlakının oğurlanması 2, şəxsi əmlakın oğurlanması 27, dələduzluq 3, ölümlə nəticələnən yol nəqliyyat qəzası 4, xuliqanlıq 4, avtomaşın qaçırılması 4 hadisə azalmışdır. Bununla yanaşı qeyd olunmalıdr ki, cinayət hadisələrinin açılma faizi də yüksələrək keçən ilin müvafiq dövrü ilə müqaisədə 82,6%-dən 90,7%-ə çatmışdır.

Lakin buna baxmayaraq 1994-cü ilin 9 ayı ilə müqayisədə yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayət hadisələrinin sayı 19 hadisə artmışdır.

29 aprel 1994-cü ildə Ramil Usubov Azərbaycan Respublika Daxili İşlər naziri vəzifəsinə irəli çəkildiyindən Naxçıvan MR Daxili İşlər Nazirliyinə rəhbərlik etmək uzun illər DİO-da çalı-

-----------------------

1. «Şərq qapısı» qəzeti, 6 may 1994-cü il.

şan və nazir müavini vəzifəsini icra edən polis polkovnik (hal-hazırda istefada olan general mayor - F. C.) Mürsəl Məhəmməd oğlu İsayevə həvalə olunur.

Möhtərəm prezidentimizin «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluq və hüquq qaydaların möhkəmləndirilməsi tədbirləri haqqında» 9 avqust 1994-cü il tarixli fərmanı mühüm işlərin həyata keçirilməsi üçün təşkilati amil oldu. Bu tədbirlərin ardıcıl davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən qəbul olunmuş bir neçə hüquqi sənəd işlərin lazımi səviyyədə həyata keçirilməsinə imkan yaratdı.

Son illər Naxçıvan MR Daxili İşlər Orqanları əməkdaşları cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində bir sıra nailiyyətlər əldə etmişlər. Xüsusi ilə narkomaniyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsində, qanunsuz saxlanılan silahaların yığılmasında, axtarışda olan cinayətkarların yerinin müəyyənləşdirib tutulmasında, soyğunçuluğa, quldurluğa, terrorçuluğa, vətəndaş əmlakını oğurlayanlara, dövlət əmlakını talayanlara, rüşvətxorluğa, korrupsiyaya qarşı ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirirlər.

1993-2000-ci illərdə şəhər, rayon polis şöbələrində və ayrı-ayrı bölmələrində həyata keçirilən əməliyyat axtarış tədbirləri nəticəsində qanunsuz saxlanılan 4280 ədəd odlu silah götürülmüş, 2 milyondan çox hərbi sursat və ləvazimat aşkar edilərək polis əməkdaşları tərəfindən müsadirə edilmişdir.

Narkotik maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 1993-cü ildəki 45 fakta qarşı, 1999-cu ildə 86 fakt, yəni 47, 6% artıq aşkar edilərək qanunla müəyyən olunmuş qaydada tədbirlər görülmüşdür.

Bu illər ərzində polis əməkdaşlarının gərgin fəaliyyətləri nəticəsində ildən-ilə cinayətlərin azalması davam etmişdir. Muxtar Respublikada baş verən hadisələrin sayı 55%, o cümlədən cinayət axtarış xətti ilə 52% azalmışdır. Qəsdən adam öldürmə 55,5%, azyaşlı və yeniyetmələr tərəfindən törədilən cinayətlər isə 85% azalmışdır. Bütün bu nailiyyətlər möhtərəm prezidlentimiz Heydər Əliyevin daxili işlər orqanlarına gündəlik diqqət və qayğısı nəticəsində əldə edilmişdir.

24 dekabr 1998-ci ildə ümummilli liderimiz Heydər Əliyev cənabları Azərbaycan Respublikasının Konstitusiya dövlət quru-

luşunun müdafiəsində, əmin-amanlığın təmin edilməsində, mütəşəkkil cinayətkarlığa, terrorçuluğa, banditizmə və digər təhlükəli cinayətlərə qarşı mübarizədə xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, o cümlədən Naxçıvan MR DİN-in və onun yerli orqanlarının bir qrup əməkdaşını «Azərbaycan bayrağı» ordeni və «İgidliyə görə» medalı ilə təltif etmişdir ki, bu təltif olunanların siyahısında muxtar respublikadan Naxçıvan MR DİN-in cinayət-axtarış şöbəsinin rəisi Məmmədov Azad Abbasqulu oğlu, nazirliyinin cinayət-axtarış şöbəsinin əməliyyat müvəkkili polis leytenantı Talıbov İbrahim Qasım oğlu «Azərbaycan bayrağı» ordeni, nazirliyin cinayət-axtarış şöbəsinin əməliyyat müvəkkili polis leytenantı Hüseynov Elxan Məmməd oğlu, rayon polis şöbəsinin rəisi, polis mayoru Qurbanov Qurban Həsən oğlu və Şərur rayon polis şöbəsinin sahə inspektoru, polis kapitanı Şəfiyev Mübariz Məmməd oğlu «İgidliyə görə» medalı ilə təltif olunmuşlar (1).

Ataların gözəl bir misalı var «Aslanın erkəyi-dişisi olmaz». Muxtar Respublikanın, eləcə də Azərbaycan Respublikası DİN orqanlarında mərd, mübariz qadın və qızlarımız da kişilərlə çiyin-çiyinə dövlətçiliyimizin, həmçinin asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə var qüvvə ilə çalışmışlar. Onların içərisində polis kapitanı Cəfərova İradə İbrahim qızını, polis mayoru Əhmədova Elmira Gülməmməd qızını, polis mayoru Məmmədova Gülbahar, Məmmədova Validə Eldar qızını və başqalarını göstərmək olar.

Ulu öndərimiz Heydər Əliyev cənablarının yeritdiyi düşünülmüş və məqsədyönlü dövlət siyasəti sayəsində əvvəlki illərdə olduğu kimi 2000-ci ildə Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi ardıcıl sürətdə davam etmiş, ictimai siyasi sabitliyin dönməzliyi bir daha təsdiqlənmiş, ölkəmizin müstəqilliyinin və dövlətçiliyimizin inkişafı istiqamətində mühüm addımlar atılmışdır.

Naxçıvan MR Daxili İşlər Orqanları da bu prosesdə Azərbaycan Respublikası DİN-in əmr və göstərişlərini əsas tutaraq öz səlahiyyətləri daxilində yaxından iştirak edərək Respublika-

---

1. «Xalq qəzeti», 25 dekabr 1998-ci il.

da qanunçuluq və insan hüquqlarının təmin olunması, cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin mühafizəsində qarşıya qoyulmuş proqram vəzifələrinin yerinə yetirilməsi üçün kompleks əməli tədbirlər həyata keçirmişlər.

Naxçıvan MR DİN və onun yerli orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, axtarışda olan cinayətkarların tutulması və narkomaniyaya qarşı mübarizə sahəsində əsaslı tədbirlər görülmüş, əhalidə qanunsuz saxlanılan odlu silah və sursatların yığılması, insan hüquqlarının təmin edilməsi sahəsində konkret işlər görülmüş, təşkilatçılıq fəaliyyətinin təkmilləşdirilməsi, şəhər, rayon və xətt polis orqanlarına idarəçilik təsirinin artırılması istiqamətində əməli tədbirlər görülmüşdür.

2000-ci ilin iyun ayından Naxçıvan MR Daxili İşlər naziri vəzifəsinə təyin olunan polkovnik-leytenant Əhmədov Əhməd Hüseyn oğlunun xidmətləri böyükdür.

6 yanvar 1969-cu il tarixdə Şərur rayonunun Vayxır kəndində anadan olan Ə.Əhmədov 1996-cı ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasını bitirdikdən sonra Naxçıvan MR DİN-in cinayət axtarış şöbəsinin baş əməliyyat müvəkkili, MCQMB-in rəisi, Naxçıvan şəhər Polis şöbəsinin rəis müavini olmuş və 2000-ci ildən isə Naxçıvan MR Daxili İşlər naziri vəzifəsində işləyir.

Bu illərdə (2000-2008) Ə.Əhmədovun rəhbərliyi ilə Naxçıvan MR DİN və onun yerli orqanlarının əməkdaşları tərəfindən cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, axtarışda olan cinayətkarların tutulması və narkomaniyaya qarşı mübarizə sahəsində tədbirlər görülmüş, əhalidə qanunsuz saxlanılan silah və sursatların yığılması, nizam-intizamın, qanunçuluğun möhkəmləndirilməsi sahəsində əsaslı işlər görülmüşdür.

Nazir Ə.Əhmədovun səyi və aparılmış məqsədyönlü profilaktiki və əməliyyat tədbirləri nəticəsində bu illərdə (2000-2008-ci illərdə F. J.) əhalidə qanunsuz saxlanılan 3 mindən çox silah və küllü miqdarda müxtəlif növ patron və digər hərbi ləvazimatlar aşkar edilərək götürülmüşdür.

Naxçıvan MR Daxili İşlər naziri Ə.Əhmədovun gecəli-gündüzlü səyi nəticəsində 90-cı illərdə açılmamış neçə-neçə ağır cinayətlər açılmışdır.

Ə.Əhmədovun Azərbaycan polisində danılmaz və şərəfli xidmətləri dövlətçiliyin qorunmasında, sabitliyin təmin edilməsində, ictimai asayişin qorunmasında rəhbərlik və eyni zamanda dövlətçiliyimizə və konstitusiyamıza sədaqəti nəzərə alınaraq ona dövlətimiz və dövlətimizin başçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmiş və 2004-cü ildə ona general-mayor və 2006-jı ildə isə general-leytenant rütbəsi verilmişdir.

2000-ci il ərzində Naxçıvan MR DİN və onun yerli polis orqanları əməkdaşları tərəfindən aparılmış məqsədyönlü tədbirlər nəticəsində əhalidə qanunsuz saxlanılan 459 ədəd odlu silah /1999-cu il ərzində 425 ədəd/ o cümlədən 48 ədəd avtomat silahı, 72 ədəd tapança, 37 ədəd toz-8, 21 ədəd qumbaraatan, 21 ədəd beşaçılan, 258 ədəd ov silahı, 1 ədəd pulemyot, 1 ədəd qradqurğusu, 20195 ədəd müxtəlif növ natron, 69 ədəd qumbara, 28 ədəd mərmi, 3 ədəd radio stansiya və digər silah sursat və hərbi ləvazimatlar aşkar edilərək götürülmüşdür.

2000-ci il ərzində Naxçıvan MR DİN və onun yerli polis orqanlarının apardıqları tədbirlər nəticəsində ümumi cinayətlər 284-ə qarşı 249 olmaqla 35 hadisə, yəni 12,3 %, cinayət-axtarış xətti (CAX) üzrə 227-yə qarşı 189 olmaqla 38 hadisə, yəni 16,7 % azalmışdır. 90-cı illərə nisbətən 2000-ci illərdə Naxçıvan Muxtar Respublikasında cinayətkarlığın sayının ildən-ilə azalması parlaq faktdır və hər birimizdə iftixar hissini doğurur.

Qeydə alınmış cinayətlərin xüsusi çəkisi təhlil olunarkən aydın olmuşdur ki, 2000-ci il ərzində CAX üzrə aşkar edilən cinayətlər ümumi cinayətlərin 75,9 %-ni /189/ təşkil edir. O cümlədən qəsdən adam öldürmə cinayəti CAX üzrə cinayətlərin /3/ 1,6 %-ni, bədənə ağır xəsarət yetirmə /4/ 2,1 %, şəxsi əmlak oğurluğu /24/ 12,9 %, bədənə az ağır xəsarət yetirmə /4/ 2,1 %, ölümlə nəticələnən yol nəqliyyat qəzası /13/ 7 %, narkomaniya /95/ 51,3 %, xuliqanlıq /16/ 8,6 %, 220-ci maddə ilə /8/ 4,3 %-ni və ağır cinayətlər isə CAX üzrə cinayətlərin /46/ 24,8 %-ni təşkil edir.

Aparılmış tədbirlər nəticəsində CAX üzrə cinayətlər ötən ildəki 227-ə qarşı 189 olmaqla 38 fakt azalmış, CAX üzrə ağır cinayətlər isə 56-ya qarşı 57 olmaqla 1 fakt artmışdır. Bu da narkomaniya cinayətlərinin artması hesabına olmuşdur. O cümlədən, qəsdən adam

öldürmə 5 fakt /8-3/, bədənə ağır xəsarət yetirmə 2 fakt / 6-4/, dələduzluq 13 fakt /16-3/, bədənə az ağır xəsarət yetirmə 10 fakt /14-4/, xuliqanlıq 5 fakt / 21-16 / azalmış, şəxsi əmlak oğurluğu 4 fakt /20-24/, narkomaniya ilə əlaqədar cinayətlər isə 9 fakt /86-95/ artmışdır. 2000-ci il ərzində ölümə sui-qəsd cinayəti Şərur rayonunda /0-2/ 2 fakt, bədənə ağır xəsarət yetirmə Naxçıvan şəhərində /0-2/ 2 fakt, soyğunçuluq cinayəti Babək rayonunda /0-1/ 1 fakt, şəxsi əmlak oğurluğu Şərur rayonunda /3-13/ 10 fakt, Sədərək rayonunda /0-1/ 1 fakt, Şərur rayonunda dələduzluq cinayəti /0-3/ 3 fakt, bədənə az ağır xəsarət yetirmə Culfa rayonunda /0-2/ 2 fakt, ölümlə nəticələnən yol nəqliyyat qəzası Şərur rayonunda /2-7/ 5 fakt, Babək rayonunda /1-4/ 3 fakt, Ordubad rayonunda /0-1/ 1 fakt, Şahbuz rayonunda /0-2/ 2 fakt və xuliqanlıq cinayəti Babək rayonunda /1-4/ 3 fakt, Culfa rayonunda isə /1-3/ 2 fakt artmışdır.

Naxçıvan MR DİN və onun yerli orqanlarında axtarış işlərinin vəziyyətini yaxşılaşdırmaq və bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq sahəsində bir sıra işlər həyata keçirilmiş, Nazirliyin əməliyyat müşavirəsi və kollegiyasında müzakirə edilməklə bu iş daima Nazirlik rəhbərliyinin diqqət mərkəzində saxlanılmışdır.

2000-ci il ərzində Nazirliyin CAX və şəhər, rayon PŞ əməkdaşlarının icraatlarında 230, /ötən ildə 291/ axtarış işi olmuşdur. Onlardan 154-nün /ötən ildə 210-nun/ yeri müəyyənləşdirilərək tutulma 66,9% təşkil etmişdir.

2000-ci il ərzində MR ərazisində narkomaniyaya qarşı mübarizəni gücləndirmək məqsədi ilə Nazirliyin CAX-si, Narkotiklərlə Mübarizə Şöbəsi, Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Bölməsi (MCQMB) və yerli polis orqanları tərəfindən Möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının 26 avqust 1996-cı il tarixli fərmanı, Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov yoldaşın 30 avqust 1996-cı il tarixli sərəncamı və Azərbaycan Respublikası DİN-nin müvafiq əmr və göstərişləri əldə rəhbər tutularaq bu sahədə bir sıra məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Aparılmış məqsədyönlü tədbirlər nəticəsində narkomaniya sahəsində ötən illə müqayisədə 9 fakt artıq, yəni 86-ya qarşı 95 cinayət faktı aşkar edilmişdir.

Respublika ərazisində tərkibində narkotik maddə olan yabanı halda bitmiş 74 kq. olan 672 ədəd çətənə kolu, 3757 kq. yəni 36,552 ədəd isə xaş-xaş kolu yığılaraq məhv edilmişdir. İl ərZində 3 kq. 77 qram, 64 mlq. heroin, 2 kq. 397 qram 517 mlq. tiryək, 152 qram 6 mlq. həşiş, 2 kq. 667 qram 64 mlq. marixuana aşkar edilərək götürülmüşdür.

2000-ci il ərzində narkomaniya ilə bağlı qeydə alınmış 95 faktdan Nazirliyin CAX-5, NMŞ (narkotiklər mübarizə şöbəsi)-6 və MCQMB-4 cinayət faktı müəyyən etmişlər. Bütün bunlarla yanaşı DYPŞ-ni xüsusi qeyd etmək lazımdır ki, narkotiklərlə bağlı 2 böyük həcmli fakt aşkar etmişlər ki, bu da Azərbaycan Respublikası və Naxçıvan MR DİN tərəfindən yüksək qiymətləndirilmişdir. Qeydə alınan 95 cinayət faktının 7-si İİR-ın vətəndaşları ilə bağlı olmuşdur. Həmçinin narkotik maddələrə meyl göstərən 42 şəxs barəsində inzibati qaydada tədbir görülmüşdür. Naxçıvan ŞPŞ 6, Şərur RPŞ 10, Babək RPŞ 5, Ordubad RPŞ 4, Culfa RPŞ 1, Şahbuz RPŞ 1, Sədərək RPŞ 2, Dəmir Yol Nəqliyyat polis şöbəsi 12 və Nazirliyin NMŞ 2 fakt aşkar etmişlər.

2000-ci il ərzində Nazirliyin MCQMB-nin əməkdaşları Respublika ərazisində sərhəd boyu xidməti əraziləri olan rayon PŞ-ri, Gömrük Komitəsi və Sərhəd qoşunları ilə qarşılıqlı əlaqələr yaratmışlar. Bölmə əməkdaşları tərəfindən 4 narkomaniya cinayəti aşkar edilmişdir. İran İslam Respublikası vətəndaşından götürülmüş 1 kq. 499 qram tiryək narkotik vasitəsi həmin cinayət faktlarından biridir. Əhalidə qanunsuz saxlanılan 2 ədəd AK-74, 3 ədəd tapança, 1 ədəd beşaçılan, 1 ədəd minaaxtaran, 10 ədəd qumbara və 2173 ədəd patron aşkar edilib götürülmüşdür.

Naxçıvan MR DİN-nin İctimai Təhlükəsizlik Şöbəsi (İTŞ) və onun yerlərdəki orqanları tərəfindən 2000-ci il ərzində cinayətkarlığa və hüquq pozuntularına qarşı bir sıra profilaktiki tədbirlər hazırlanıb həyata keçirilmişdir. İl ərzində şəhər, rayon PŞ-də fəaliyyət göstərən sahə inspektorları tərəfindən 1078 vətəndaşın ərizə və şikayətinə baxılmış, 11193 nəfərin üzərinə inzibati protokol tərtib olunmuş, 437 nəfər xırda xuliqan, 2047 nəfər pasport rejimi qaydalarını pozan, 326 nəfər ictimai yerdə sərxoş görünən, 296 nəfər yol hərəkət qaydasını pozan, 65 nəfər polisin qanuni

tələbinə tabe olmayan, 313 nəfər yanğın təhlükəsizlik qaydalarını pozan, 720 nəfər icazə sistemi qaydalarını pozan, 5062 nəfər elektrik enerjisindən qanunsuz istifadə edən, 22 nəfər qanunsuz balıq ovu edən və 57 nəfər qanunsuz ağac kəsən şəxs aşkar edilmiş, 75 nəfər qanunsuz ov edən vətəndaşdan 42 ədəd ov silahı müsadirə edilmiş və haqlarında müvafiq tədbirlər görülmüşdür.

Müstəntiqlər tərəfindən il ərzində heç bir prossesual pozuntulara yol verilməmiş, məhkəmə və prokurorluq orqanları tərəfindən əlavə istintaqa qaytarılan işlər olmamışdır.

2000-ci il ərzində Naxçıvan MR DİN-nin DYPŞ-si və onun yerlərdəki əməkdaşları tərəfindən yol nəqliyyat hadisələrinin baş vermədən qarşısının alınması məqsədilə müəyyən işlər görülmüşdür. Belə ki, yol hərəkəti qaydalarını pozan sürücülərin sayı 12947-yə qarşı 18963 olmaqla 6016 sürücü, yəni 31,6 %, nəqliyyat vasitələrini sərxoş vəziyyətdə idarə edənlər isə 865-ə qarşı 1218 olmaqla 353 sürücü, yəni 29,1 % artmışdır.

2000-ci il ərzində Naxçıvan MR DİN-in Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi və onun yerlərdəki əməkdaşları tərəfindən yanğın və alışmalara qarşı bir sıra profilaktiki tədbirlər hazırlanıb həyata keçirilmişdir. Aparılmış tədbirlər nəticəsində Respublika ərazisində yanğından dəyən ziyanın miqdarı ötən il ərzində 57 yanğın hadisəsindəki 336,836,786 manatdan 2000-ci il ərzində 53 hadisədəki 247,409,130 manata yenmişdir. Respublika ərazisində yanğın hadisələrinə qarşı mübarizə məqsədi ilə 1563 obyekdə əsaslı yoxlamalar aparılmış, 528 nəfərin üzərinə protokollar tərtib edilmiş, 361 nəfərə isə inzibati qaydada xəbərdarlıq edilmişdir. İl ərzində 28654 şəxsi və 566 dövlət yaşayış binası yoxlanılmış, 75958 nəfər vətəndaş yanğına qarşı təlimatlandırılmışdır. Yanğına qarşı müxtəlif mövzularda 24 dəfə televiziya, 23 dəfə radio və 15 dəfə isə yerli qəzetlərdə çıxışlar edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Daxili İşlər Orqanlarının işinə gündəlik qayğısı və nəzarəti, ciddi tələbkarlığı nəticəsində Naxçıvan MR Daxili İşlər Nazirliyi və onun yerli orqanları 2002-ci il ərzində Muxtar Respublika ərazisində kriminogen durumu tam nəzarətdə saxlamış və baş verə biləcək bütün cinayət hallarını aradan qalldırmağa, dön-

məz xarakter almış sabitliyi qoruyub saxlamağa qadir olmaqla yanaşı üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirmişlər.

Naxçıvan MR DİN-in şəxsi heyəti 24 avqust 2002-ci il tarixdə keçirilmiş ümumxalq referendumunda Naxçıvan MR ərazisində ictimai təhlükəsizliyi qənaətbəxş təşkil etmiş, Möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin iyun və avqust aylarında Muxtar Respublikaya tarixi səfərlərini yüksək səviyyədə qarşılamış və bütün təhlükəsizlik tədbirlərini həyata keçirərək asayişi qorumuşlar.

Naxçıvan MR DİN-in əldə etdiyi nailiyyətlər, Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Talıbovun Nazirliyin gündəlik fəaliyyətinə diqqət və qayğı göstərməsi nəticəsində olmuşdur.

Naxçıvan MR DİN və onun yerli orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə gücləndirilmiş, axtarışda olan cinayətkarların tutulması və narkomaniyaya qarşı mübarizə sahəsində əsaslı tədbirlər görülmüş, əhalidə qanunsuz saxlanılan odlu silah və sursatların yığılması, insan hüquqlarının təmin edilməsi sahəsində konkret işlər görülmüş, təşkilatçılıq fəaliyyətinin təkmilləşdirilməsi, şəhər, rayon və xətt polis orqanlarına idarəçilik təsirinin artırılması istiqamətində əməli tədbirlər görülmüşdür.

2002-ci il ərzində Naxçıvan MR DİN və onun yerli orqanları əməkdaşları tərəfindən əhalidə qanunsuz saxlanılan 394 ədəd odlu silah /2001-ci ildə 463/, o cümlədən 24 ədəd avtomat silahı, 91 ədəd tapança, 18 ədəd TOZ-8, 7 ədəd qumbaraatan, 5 ədəd beşaçılan, 1 ədəd karabin, 236 ədəd ov silahı, 1 ədəd pulemyot, 25 ədəd mərmi, 61 ədəd qumbara, 7 ədəd pnevmatik silah, 30700 ədəd müxtəlif növ patron, 3 ədəd üçaçılan və digər silah-sursat, hərbi ləvazimatlar aşkar edilərək götürülmüşdür.

Naxçıvan MR Daxili İşlər Nazirliyi və onun yerli polis orqanlarının əməkdaşları tərəfindən həyata keçirilən məqsədyönlü və düşünülmüş tədbirlərin nəticəsidir ki, 2002-ci il ərzində cinayətkarlığa və hüquq pozuntularına qarşı aparılan mübarizə işi yaxşılaşmış, ümumi və ağır cinayətlərin sayı xeyli azalmışdır.

Ümumi cinayətlərin sayı keçən ildəki 281-ə qarşı 215 olmaqla 66 fakt, yəni 23,5% azalmış, açılması isə 98,2%-ə qarşı 99, % təmin edilmişdir. CAX üzrə baş vermiş cinayətlərin sayı keçən ildəki 182-yə qarşı 121 olmaqla 61 fakt, yəni 33,5% azalmış, açıl-

ması isə 98,3%-ə qarşı 98,3% təmin edilmişdir. Eyni zamanda CAX üzrə ağır cinayətlərin sayı ötən ilin müvafiq dövründəki, 47 hadisəyə qarşı 28 olmaqla 19 hadisə, yəni 40,4% azalmışdır.

Qeydə alınmış cinayətlərin xüsusi çəkisi təhlil olunarkən aydın olmuşdur ki, 2002-ci il ərzində CAX üzrə aşkar edilən cinayətlər ümumi cinayətlərin 57,6%-ni təşkil edir. Şəxsi əmlak oğurluğu /13/ 6,0%-ni, dələduzluq /7/ 3,2%-ni, narkomaniya /65/ 30,2 %-ni, xuliqanlıq /5/ 2,3%-ni, qəsdən adamöldürmə /5/ 2,3%-ni, bədənə ağır xəsarət yetirmə /8/ 3,7%-ni, ağır cinayətlər isə ümumi cinayətlərin /28/ 13,0%-ni təşkil edir.

Aparılmış tədbirlər nəticəsində CAX üzrə cinayətlər ötən ildəki 182-ə qarşı 121 olmaqla 61 fakt azalmış, həmçinin ağır cinayətlər də 47-ə qarşı 28 olmaqla 19 fakt, yəni 40,4 % azalmışdır. Belə ki, şəxsi əmlak oğurluğu 2 fakt /15-13/, qəsdən sağlamlığa az ağır zərər vurma 4 fakt /6-2/, xuliqanlıq 5 fakt /10-5/, ölümə sui-qəsd 1 fakt /2-1/ azalmış, ötən ilin müvafiq dövründə 1 soyğunçuluq və 5 avtonəqliyyat qaçırılması qeydə alınsa da bu il bu növ cinayətlər baş verməmişdir.

Aparılmış tədbirlər nəticəsində Naxçıvan MR DİN və onun yerli polis orqanları tərəfindən narkomaniya sahəsində 65 cinayət faktı, 20 inzibati məsuliyyət faktı aşkar olunmuşdur. 2001-ci illə müqayisədə, bu rəqəm 105 fakt olmuşdur. Götürülmüş narkotik tərkibli vasitələrin növlərinə və çəkisinə nəzər saldıqda 2002-ci ildə yüksək nailiyyətin əldə olunması göz qabağındadır. Belə ki, 2001-ci ildə 105 faktla 5 kq 89 qr 655 mq narkotik vasitə aşkar olunmuşdursa, 2002-ci ildə bu rəqəm 8 kq 249 qr 422 mq olmuşdur. Sadəcə 1 rəqəmə fikir verin 2001-ci ildə 841 qr 765 mq heroin aşkar olunmuşdursa, 2002-ci ildə 4 kq 391 qr 354 mq heroin aşkar olunmuşdur. Son rəqəm Naxçıvan MR DİN-in və onun yerli polis orqanlarının narkomaniya ilə mübarizədə əzmlə çalışmalarını sübut edir. Həmçinin "Xaş-xaş 2002" şərti adlı plan əsasında aparılmış tədbirlər nəticəsində 2002-ci il ərzində MR ərazisində 126338 $m^2$ sahədən yabanı halda bitmiş narkotik tərkibli kollar, 60344 ədəd çəkisi 7359,6 kq xaş-xaş kolu, 2814 ədəd çəkisi 382 kq 400 qr isə çətənə kolu yığılaraq məhv edilmişdir.

Naxçıvan MR DİN-in İTŞ-si və onun şəhər, rayon, xətt Polis Şöbələrindəki əməkdaşları 2002-ci il ərzində cinayətkarlığa və hüquq pozuntularına qarşı bir sıra tədbirlər həyata keçirmişlər. Hesabat dövründə 429 vətəndaşın /807-429/ ərizə və müraciətinə baxılmış, 7822 /7093-7822/ nəfərin üzərinə inzibati protokol tərtib edilmiş, o cümlədən 440 nəfər /295-440/ xırda xuliqan, 140 nəfər /219-140/ pasport rejimi qaydalarını pozan, 121 nəfər /246-121/ icazə sistemi qaydalarını pozan, 24 /27-24/ nəfər ov qaydalarını pozan, 30 /13-30/ nəfər polisin qanuni tələbinə tabe olmayan, 112 nəfər /91-112/ yol hərəkəti qaydalarını pozan, 736 nəfər /641-736/ sanitariya epidemologiya qaydalarını pozan, 18 nəfər /138-18/ qanunsuz ağac kəsməklə ekologiya qaydalarını pozan, 502 /336-502/ nəfər qanunsuz alver edən, 361 /276-361/ nəfər özbaşına tikinti işləri aparan, 4478 nəfər /3858-4478/ elektirik enerjisindən istifadə qaydalarını pozan və digər inzibati xəta törətmiş şəxslər barəsində qanuni tədbirlər görülmüşdür.

2002-ci il ərzində DYPŞ-si və onun yerlərdəki əməkdaşları tərəfindən yol nəqliyyat hadisələrinin baş verməndən qarşısının alınması məqsədi ilə müəyyən işlər görülmüşdür.

Yol hərəkəti qaydalarını pozan sürücülərin sayı 13662-yə qarşı 11832 olmaqla 1830 sürücü, yəni 13,4% azalmış, nəqliyyat vasitələrini sərxoş vəziyyətdə idarə edənlər isə 1333-ə qarşı 1358 olmaqla 25 sürücü yəni 1,8% artmışdır. Hesabat dövrü ərzində keçən ilin müvafiq dövrünə nisbətən sərxoş sürücülərə qarşı mübarizə işi gücləndirilmişdir. 2002-ci ilin 12 ayı ərzində DYP əməkdaşları tərəfindən 1407 nəfər nişanın tələbini pozan, 2643 ötmə qaydalarını pozan, 91 işıq cihazlarından düzgün istifadə etməyən, 721 sığortasız, 1454 qeydiyyatsız və digər yol nəqliyyat qaydaları pozuntusu qeydə alınaraq müvafiq tədbirlər görülmüşdür (1).

Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2002-ci il tarixli fərmanı ilə qüsursuz xidmətlərinə görə Şərur rayon polis şöbəsinin sabiq polis nəfəri Rəhimov Asəf Bayram oğlu (ölümündən sonra) "Azərbaycan bayrağı" ordeni ilə, Sədərək rayon polis şöbəsinin sabiq polis nəfəri İsmayılov Elmar Cabbar oğlu (ölümündən sonra) və Ka-

1. Nax. MRDA. f.613. s.13. iş.618. v.10-18.

zımov İlham Cəbrayıl oğlu (ölümündən sonra) "Vətən uğrunda" medalı ilə, Naxçıvan MR DİN-in İTŞ-nin bölmə rəisi Əliyev Yulət Yavər oğlu və Ordubad rayon polis şöbəsinin baş inspektoru Adıgözəlov Zülfü Hüseyn oğlu "İgidliyə görə" medalı ilə təltif olunmuşlar.

Muxtar Respublikada sabitliyi qorumaq, qanunsuz saxlanılan silahları yığmaq, dövlətə qarşı xəyanətdə təqsirləndirilənləri zərərsizləşdirmək, müxtəlif təxribatların qarşısını operativ şəkildə almaq, hər bir vətəndaşın əmin-amanlığını qorumaq, dövlətimizin tərəqqisi və qüdrətlənməsini təmin etmək, ictimai-siyasi SAbitliyi etibarlı qorumaq və daha da möhkəmləndirmək Naxçıvan MR Ali Məclisinin sədri hörmətli Vasif Talıbov cənabları tərəfindən Naxçıvan MR Daxili İşlər orqanlarının qarşısında əsas bir vəzifə kimi qoyulmuşdur. Bu vəzifələrin Qüsursuz icrasına nail olmaq üçün əvvəllər olduğu kimi 2005-ci ildə də Naxçıvan MR DİN-in polis orqanları ciddi səy göstərmişdir. İlk növbədə Muxtar Respublikada cinayətkarlığa qarşı mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi iə əlaqədar kriminogen durum tam nəzarətdə saxlanılmış, ictimai asayişin keşiyində sayıq dayanılmış, vətəndaşların əmin-amanlıq şəraitində yaşaması üçün əsaslı tədbirlər görülmüşdür.

Muxtar Respublika daxili işlər orqanları tərəfindən əllərdə qanunsuz saxlanılan 306 odlu silah, o cümlədən 21 avtomat, 5 tapança, 14 TOZ-8, 7 beşaçılan, 181 ov silahı, 14 əldədüzəltmə silah, 25752 döyüş sursatı və hərbi ləvazimat götürülmüşdür.

Son illərdə olduğu kimi 2005-ci ildə də cinayətkarlıqla mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində qarşıda duran vəzifələr layiqincə yerinə yetirilmişdir. Əhalinin hər yüz min nəfərinə düşən cinayətlərin sayı minimuma endirilərək 27,6 fakt olmuşdur (376000).

Cinayətlərin strukturunda soyğunçuluq 100%, döymə 100%, avtomaşın qaçırma 100% azalmışdır.

Cinayətlərin açılması göstəriciləri 2004-cü ilin müvafiq dövrü ilə müqayisədə 96,3 faizdən 100 faizədək yüksəlmiş, qeyri-aşkar şəraitdə baş vermiş bütün cinayətlərin "İsti izlərlə" üstünün açılması təmin edilmişdir. Muxtar Respublikada banditizm, Adamları girov götürmə, adam oğurluğu, hədə-qorxu ilə tələb etmə və bu kimi digər ağır cinayətlər qeydə alınmamışdır.

2005-ci ildə Muxtar Respublikada uçot subyektlərindən fərqli olaraq ən çox cinayət DİN üzrə 104 cinayət qeydə alınmışdır (cəmi uçot subyektləri üzrə 117-114). Keçən ilin müvafiq dövründə DİN üzrə 109 cinayət olmuşdur (cəmi uçot subyektləri üzrə 2004-cü ildə 126-122). 2005-ci ildə Muxtar Respublikanın uçot subyektləri üzrə 2 cinayət Vergilər Nazirliyi üzrə, 1 cinayət isə Dövlət Sərhəd Xidməti üzrə bağlı qalmışdır. DİN üzrə qeydə alınmış cinayətlərdən 19-u (2004-26) şəxsiyyət əleyhinə olan, 23-ü (2004-18) iqtisadi sahədə, 54 (2004-58) ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan, 8-i isə (2004-7) dövlət hakimiyyəti əleyhinə olan cinayətlərdir.

Cinayətlərin təsnifatına görə 24-ü ağır və xüsusilə ağır (004-23), 59-u az ağır (2004-61), 21-i böyük ictimai təhlükə törətməyən (2004-25) cinayətlər olmuşdur.

Cinayətlərin ümumi sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə azalmış, lakin Şərur (+7), Sədərək (+4), Şahbuz (+2), Ordubad (+4), Culfa (+6) rayonlarının ərazisində cinayət artımı qeydə alınmışdır. Cinayətlərin azalması isə Naxçıvan şəhəri (-10) və Babək rayonu ərazisində (-13) olmuşdur.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə işi ölkə Prezidentinin 26.08.1996-cı il tarixli fərmanı və "Azərbaycan Respublikasında 2006-cı ilədək narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə "Ümummilli proqram əsasında qurulmuş və 2005-ci ildə bu sahədə görülən işlərin daha məqsədyönlü və səmərəli olması üçün bir sıra işlər görülmüşdür.

Narkotiklərlə bağlı cinayət məsuliyyətinə cəlb olunmuş şəxslərdən 3 kq 295 qr 123 mq-a yaxın müxtəlif növ narkotik vasitələr aşkar olunub götürülmüşdür. 27 cinayət faktı aşkar edilmişdir (2004-40). Narkotik vasitələrin satışı ilə bağlı 18 fakt olmuşdur. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8 fakt azdır. Qeydə alınmış ümumi cinayətlərin 8,6%-ni (9) narkomanlar törətmişdir. Qaçaqmalçılıq yolu ilə Muxtar Respublikaya narkotik vasitə gətirilməsi ilə bağlı 8 fakt aşkar edilmişdir.

Narkomaniya ilə əlaqədar Nazirliyin Narkotiklərlə Mübarizə Şöbəsi 2, MCMŞ 1, Naxçıvan şəhər Polis İdarəsi 15, Şərur 3,

Babək 2, Ordubad və Hava Limanı Polis Şöbələrinin hərəsi 1 cinayət faktı aşkar etmişlər.

İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə cinayətlər ümumi cinayətlərin 51,9%-ni təşkil etməklə 2004-cü ilin müvafiq dövrünə nisbətən 4 fakt azalmışdır (2004-58, 2005-54).

İctimai mənəviyyat əleyhinə cinayətlərə qarşı ciddi tədbirlər görülərək fahişəliyə cəlb etmə və əxlaqsız yuvaları saxlamaya görə 5 cinayət faktı aşkar edilmiş və müvafiq tədbirlər görülmüşdür.

Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər üzrə isə cəmi 8 fakt aşkar edilmişdir.

2005-ci ildə törədilmiş 104 cinayətdən 51-i qeyri-aşkar şəraitdə törədilmiş, onlardan 50-si əməliyyat yolu ilə açılmışdır.

Hesabat dövründə Muxtar Respublikada mütəşəkkil dəstə tərəfindən törədilən cinayət halları olmamışdır.

Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan 9 cinayət qeydə alınmışdır.

Nazirliyin İstintaq və təhqiqat aparatı tərəfindən cinayətlərin açılması, cinayətlər nəticəsində dəymiş maddi ziyanın ödətdirilməsi, istintaq və təhqiqatın keyfiyyətinin yaxşılaşdırılması sahəsində bir sıra işlər görülmüşdür.

Nazirliyin Pasport Qeydiyyat xidməti əməkdaşlarının 2005-ci il ərzində icraatlarında 26695 ümumvətəndaşlıq pasportu almaq istəyənlərin sənədi olmuşdur. Həmin sənədlərdən 23908-i hazırlanaraq vətəndaşlara təqdim olunmuşdur. Ümumvətəndaşlıq pasportlarının verilməsi ilə əlaqədar 2.854.124.000 manat dövlət rüsumu ödənilmişdir.

Naxçıvan MR DİN-in strukturunda yeni yaradılmış Miqrasiya Xidməti tərəfindən 228 nəfər əcnəbi vətəndaşa xidmətlər göstərilmişdir. Miqrasiya xidmətinin fəaliyyətində hər hansı bir nöqsan və çatışmazlıqlara yol verilməmişdir.

2005-ci ilin yekunları üzrə daxili işlər orqanlarının cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində fəaliyyətinin nəticələri göstərir ki, əvvəlki illərdə olduğu kimi 2005-ci ildə də Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanları üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, Muxtar Respublikada sabitlik, əmin-amanlıq şəraiti tam nəzarətdə saxlanılmışdır.

Naxçıvan MR Daxili İşlər Nazirliyi və onun daxili işlər orqanlarında çalışan polis əməkdaşlarından bir qrupu Muxtar Respublikada cinayətlərin qarşısının alınması və açılmasında, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamı ilə hərbi rütbə, orden və medallarla təltif olunmuşdur.

Azərbaycan Respublikasının Prezidentinin 30 iyun 2004-cü il tarixli sərəncamı ilə Naxçıvan MR DİN-nin TŞ-nin kiçik inspektoru Bayramov Ədalət Fərman oğlu, Şərur rayon polis şöbəsinin bölük komandiri Bağırov Rizvan Rəşid oğlu, Babək rayon polis şöbəsinin bölmə rəisi Quliyev Mübariz Həsən oğlu və Şahbuz rayon polis şöbəsinin baş əməliyyat müvəkkili Quliyev Nürəddin Əziz oğlu "İgidliyə görə" medalı ilə təltif olunmuşlar (1).

Prezidentin 30 iyun 2006-cı il tarixli sərəncamı ilə Abbasov Alməmməd Eldar oğlu-Babək rayon polis şöbəsinin rəisi, Həsənov Elxan Rəhim oğlu-Şərur rayon polis şöbəsinin CAB-nin rəisi, Hüseynov Məmməd Həsən oğlu-Naxçıvan MD DİN-nin CAB-nin rəisi, İbrahimov Ələşrəf İbrahim oğlu-Naxçıvan şəhər Polis şöbəsinin İTB-nin rəisi, Quliyev Bəhruz Vaqif oğlu-Naxçıvan MR DİN-nin Katibliyinin rəisi və Novruzov Səbuhi Məhərrəm oğlu-Naxçıvan şəhər polis şöbəsinin rəisi "İgidliyə görə" medalı ilə təltif olunmuşlar (2).

"Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı" nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üzrə işlər 2006-cı ildə də Muxtar Respublikada davam etdirilmişdir.

2006-cı il iyulun 2-də Naxçıvanda Polis gününə həsr edilmiş mərasim keçirilmişdir. Bayram tədbirində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov şəxsi heyəti Azərbaycan Polisinin 88-ci ildönümü münasibətilə təbrik etməklə yanaşı, polis işçiləri qarşısında duran vəzifələrdən danışmışdır. Cənab sədr qeyd etmişdir ki, "Dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün Azərbaycanda birinci növbədə sabitlik la-

1. «Azərbaycan qəzeti», 1 iyul 2004-cü il.
2. «Azərbaycan qəzeti», 1 iyul 2006-cı il.

zımdır. Azərbaycan dövlətinin, xalqının əmlakı qorunmalı, ölkədə sağlam cəmiyyət olmalıdır. Müstəqil Azərbaycan öz sərvətləri ilə zəngin bir ölkədir. Azərbaycanın ən qiymətli sərvəti isə Azərbaycan vətəndaşlarıdır. Əgər biz, insanlar üçün sağlam düşüncəli cəmiyyət yetişdirməsək, deməli bu sərvətlərdən Azərbaycan xalqının rifah halı üçün istifadə olunmayacaqdır. Ona görə də polis orqanları təkcə cinayətkarlığa qarşı mübarizə ilə kifayətlənməməlidir. Polis orqanları əsasən profilaktika işinə üstünlük verməlidirlər. Hər bir polis işçisi elektirik enerjisindən, sudan, qazdan israfçılıqla istifadə edənlərə qarşı da mübarizə aparmalı, flora və faunamızın, ekologiyamızın keşiyində dayanmalıdır". Qarşıya qoyulmuş bu vəzifələrlə əlaqədar 2006-cı ildə əsaslı işlər görülmüş, 2007-ci ildə bu yönümdə vəzifələrin icrasına daha da üstünlük verilməsi şəxsi heyətdən bir daha tələb olunur.

Muxtar Respublika Ali Məclisinin sədri cənab Vasif Talıbovun polis orqanlarına göstərdiyi diqqət və qayğı 2007-ci ildə də davam etdirilmiş, hər bir əməkdaş bu diqqət və qayğıdan lazımınca bəhrələnmişdir. Belə ki, əvvəllər iş şəraiti qeyri qənaətbəxş olan Şərur rayon PŞ-nin inzibati binası əsaslı təmir olunaraq yenidən qurulmuş, İbadulla PB-si üçün isə müasir standartlara cavab verən yeni inzibati bina tikilərək istifadəyə verilMişdir. Həmin binalar son model mebel avadanlıqları və istilik qazanxanaları ilə təmin edilmişdir. Polis sahə inspektorlarının xidmət apardıqları inzibati ərazilərdə xidmətin səmərəli təşkili və vətəndaşları narahat edən problem məsələlərə operativ və yerindəcə baxılması məqsədilə polis dayaq məntəqələrinin tikintisinə və yenidən qurulmasına başlanılmışdır. Son illər ərzində 17 belə məntəqə tikilərək polis sahə inspektorlarının istifadəsinə verilmiş və bu sahədə həyata keçirilən tədbirlər davam etdirilməkdədir. Ərazi polis orqanlarının maddi texniki bazaları möhkəmləndirilmiş, istifadədə olan köhnə, istismar müddəti başa çatmış avtomaşınlar yenisi ilə əvəz edilmişdir. 7 ədəd Rusiya istehsalı olan «Şevrolit Niva», 1 ədəd QAZ-3110 və 4 ədəd Türkiyə istehsalı olan «Fiat Dablo» markalı avtomaşınlar alınaraq ərazi polis orqanlarının istifadəsinə verilmişdir. İnformasiya texnologiyalarının inkişafı nəzərə alınaraq nazirliyin mərkəzi aparatının bütün xidmətləri yeni komputer dəstləri ilə təmin edilmişlər.

Əllərdə olan qanunsuz silahların yığılması istiqamətində aparılmış məqsədyönlü tədbirlər nəticəsində Muxtar Respublika ərazisindən 247 odlu silah, o cümlədən 1 ədəd pulemyot, 12 avtomat silahı, 4 TOZ-8, 5 beşaçılan, 7 tapança, 155 ədəd ov silahı, 4 ədəd əldədüzəltmə silah, 20380 döyüş sursatı və hərbi ləvazimat aşkar edilərək yığılmışdır (1).

2007-ci ildə Muxtar Respublikanın bütün uçot subyektləri üzrə 69 (113) cinayət qeydə alınmış, həmin cinayətlərdən də 57-i (2006-89) Daxili İşlər Nazirliyi və Prokurorluq üzrə olmuşdur. Uğurla həyata keçirilən profilaktik tədbirlər nəticəsində cinayətlərin sayı Muxtar Respublika üzrə 38,9% azalmış, həyata keçirilən əməliyyat-axtarış və istintaq hərəkətləri ilə qəsdən adam öldürmə, quldurluq, qaçaqmalçılıq, oğurluq, adam oğurluğu və digər cinayətlərin üstü isti izlərlə açılmışdır. Həyata keçirilmiş profilaktik tədbirlər nəticəsində Şahbuz rayonunda heç bir cinayət qeydə alınmamışdır.

2006-cı illə müqayisədə əhalinin hər yüz min nəfərinə düşən cinayətlərin sayı 23-dən 18-dək azalmışdır.

Cinayətlərin dinamikası və strukturu təhlil edilərkən müəyyən edilmişdir ki, DİN və Prokurorluq üzrə törədilmiş ümumi cinayətlərin 28,1%-ni ağır və xüsusilə ağır cinayətlər, 64,9%-ni az ağır cinayətlər, 7,0%-ni isə böyük ictimai təhlükə törətməyən cinayətlər təşkil edir. Ötən ilin müvafiq dövrünə nisbətən ağır və xüsusilə ağır cinayətlər 18-ə qarşı 16 olmaqla 2 fakt, az ağır cinayətlər 49-a qarşı 37 olmaqla 12 fakt, böyük ictimai təhlükə törətməyən cinayətlər isə 22-ə qarşı 4 olmaqla 18 fakt azalmışdır (2).

Qeydə alınan cinayətlərin strukturunda şəxsiyyət əleyhinə olan cinayətlər 19-a qarşı 9 olmuş və 52,6% azalmışdır. Həmin cinayətlər Naxçıvan şəhərində, Şərur, Ordubad, Sədərək rayonlarında azalmış, Babək rayonunda artmış, Kəngərli rayonunda isə sabit qalmışdır. Qəsdən adam öldürmə 6-a qarşı 3 olmaqla 50%, yəni Naxçıvan şəhərində, Ordubad və Kəngərli rayonlarında azalmış, Şərur rayonunda isə 1 fakt artmışdır. Qəsdən sağlamlığa yüngül zərər vurma cinayətləri 7-ə qarşı 1 olmuş və

---

1. Nax. MRDA. f.613. s.13. iş.618. v.65-74.
2. Nax. MRDA. f.613. s.13. iş.618. v.66.

85,7% azalmışdır. Bu tip cinayətlər Naxçıvan şəhərində və Şərur rayonunda 100% azalmış, o cümlədən qəsdən sağlamlığa ağır zərər vurma, zorlamaya cəhd, dələduzluq, soyğunçuluq, xuliqanlıq cinayətləri 100% azalaraq qeydə alınmamışdır.

İctimai qayda və ictimai təhlükəsizlik əleyhinə olan cinayətlər 49-a qarşı 31 olmaqla 36,7% azalmışdır. Həmin cinayətlər qrupuna daxil olan narkotiklərlə əlaqədar cinayətlər 31-ə qarşı 27 olmuş, 12,9% azalmışdır. Azalma Naxçıvan şəhərində 25%, Şərur rayonunda 66,6%, Ordubad rayonunda 80%, Sədərək rayonunda 100% olmuşdur. Narkotiklərlə əlaqədar cinayətlər Culfa rayonunda 1-ə qarşı 6 fakt olmaqla 83,3%, Kəngərli rayonunda və DYNXPŞ-də 100% artmış, Babək rayonunda və HLXPŞ-də isə sabit qalmışdır. Yol hərəkəti və nəqliyyat Vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər 10-a qarşı 3 olaraq 70% azalmışdır. Həyata keçirilmiş tədbirlər nəticəsində bu tip cinayətlər Naxçıvan şəhərində, Şərur, Kəngərli və Şahbuz rayonlarında 100% azalmış, Babək və Culfa rayonlarında hər birində 1-ə qarşı 1 olmaqla sabit qalmışdır. Digər rayonlarla müqayisədə Ordubad rayonunda 1 yol nəqliyyat hadisəsi artmışdır.

Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər 11-ə qarşı 2 olmuş və 81,8% azalmışdır. Həmin 2 cinayətdən 1-i korrupsiya ilə, 1-i isə vəzifə səlahiyyətləri ilə bağlı cinayətlər olmuşdur.

DİN üzrə baş vermiş 57 cinayətdən 30-u qeyri aşkar şəraitdə baş vermiş və həmin cinayətlərin əməliyyat yolu ilə açılması təmin edilmişdir.

2007-ci il ərzində müxtəlif cinayətlər törətdiklərinə görə 61 nəfər cinayətkar zərərsizləşdirilmişdir.

2007-ci ildə Muxtar Respublikada 12 yol nəqliyyat hadisəsi qeydə alınmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 7 hadisə azdır. Həmin hadisələr nəticəsində 12 nəfər ölmüş, 8 nəfər isə yaralanmışdır. Baş vermiş yol nəqliyyat hadisələri nəticəsində 2 ölüm faktı, 14 yaralı azalmışdır.

Ötən illə müqayisədə baş vermiş cinayətlərin açılma faizi 98,8%-ə qarşı 100% olmuş, o cümlədən qeyri-aşkar şəraitdə baş vermiş 30 cinayətin hamısının açılması təmin edilmişdir.

2007-ci ildə ümumvətəndaşlıq pasportu almaq məqsədilə Nazirliyin Pasport Qeydiyyat Şöbəsinə 21019 nəfər vətəndaş, ərazi polis orqanlarının Qeydiyyat və Şəxsiyyət Vəsiqəsi xidmətlərinə isə 20096 vətəndaş müraciət etmiş və müraciətləri müsbət həll olunmuşdur. Cəzaçəkmə müəssisələrindən azadlığa buraxılan 74 nəfər şəxsiyyət vəsiqəsi ilə təmin edilmişdir. İl ərzində 555 nəfər qeydiyyatdan çıxarılmışdır (1).

Daxili işlər orqanlarında qanunçuluğun, insan hüquq və azadlıqlarının qorunması, şəxsi heyətin xidməti hazırlığının, nizam-intizamının, həvalə olunmuş sahəyə məsuliyyət hissinin yüksəldilməsi istiqamətində əməli işlər görülmüşdür. Bunun nəticəsidir ki, Azərbaycan Respublikası Rrezidentinin 29 iyun 2007-ci il tarixli fərmanı ilə Naxçıvan MR Daxili İşlər nazirinin müavini Quliyev Qaçay İsmayıl oğluna general-mayor rütbəsi verilmişdir və qeyd etdiyimiz kimi 6 nəfər polis əməkdaşı: Naxçıvan MR DİN-nin TİŞ-nin rəisi Tağıyev Əli Tağı oğlu, Naxçıvan MR DİN-nin CAŞ-nin baş əməliyyat müvəkkili polis mayoru Rüstəmov Qulu Fəxrəddin oğlu, Naxçıvan MR DİN-nin DYPİ-nin Əlahidə yol patrul xidməti bölüyünün komandiri polis mayoru Abbasov Fəxrəddin Zakir oğlu, Culfa rayon polis şöbəsinin Əlincə PB-nin rəisi Musayev Anar Müzəffər oğlu, Sədərək rayon polis şöbəsinə rəisi polis kapitanı Məmmədov Fariz Əmirullah oğlu və Naxçıvan şəhər polis şöbəsinin CAB-nin rəisi, polis baş leytenantı Gözəlov Zahid Əfdər oğlu "Vətən uğrunda" medalı ilə, 421 nəfər əməkdaş Azərbaycan Respublikası daxili işlər nazirinin əmri ilə «DİO-da qüsursuz xidmətə görə» medalları ilə təltif edilmişdir. Bütövlükdə daxili işlər orqanları üzrə 727 əməkdaş mükafatlandırılmışdır (1).

2008-ci ilin iyulun 1-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ictimai asayişin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xidməti vəzifələrin və qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində fərqləndirdiklərinə görə Azərbaycan polisinin yaranmasının 90 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşı orden və medallarla təltif olunmuşlar.

---

1. Nax. MRDA. f.613. s.13. iş.618. v.68.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları da vardır. Onlardan Əhmədov Əhməd Hüseyn oğlu- Naxçıvan MR Daxili İşlər Naziri, polis general leytenantı "Azərbaycan bayrağı" ordeni ilə, Eynalov Əziz Əmir oğlu-polis polkovnik-leytenantı və Qasımov Rasim Salman oğlu-polis mayoru "Vətən uğrunda" medalı ilə, Abdullayev Famil İsmayıl oğlu-polis polkovnik-leytenantı və Cəfərov Malik Cəlal oğlu-polis kapitanı "İgidliyə görə" medalı ilə təltif olunmuşlar.

2008-ci ilin iyul ayının 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə Ali Məclisin Sədri Vasif Talıbovun məruzəsində muxtar respublikanın hüquq-mühafizə orqanlarının fəaliyyətinin yaxşılaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması işinin daim diqqət mərkəzində olduğu vurğulanmış və qeyd olunmuşdur ki, muxtar respublikamızda hüquq-mühafizə orqanlarının səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Bunun nəticəsidir ki, cari ilin 6 ayı ərzində muxtar respublika ərazisində ötən ilin müvafiq dövrü ilə müqayisədə hüquqpozma hadisələrinin sayı 9 fakt azalmış, ictimai asayişin təmin edilməsi sahəsində səmərəli tədbirlər həyata keçirilmişdir.

11 avqust 2008-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində keçirilmiş geniş kollegiya iclası da qarşıda duran bu mühüm vəzifələrə və onların həlli üçün görülən işlərə həsr olunmuşdu. Kollegiya iclasında çıxış edən Naxçıvan Muxtar Respublikası Daxili İşlər naziri, polis general-leytenantı Əhməd Əhmədov cari ilin birinci yarısında görülən işlərdən, 2008-ci ilin sonunadək qarşıda duran vəzifələrdən danışaraq demişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı son sərəncamlarla daxili işlər orqanları əməkdaşlarının və mülki işçilərin əmək haqlarının əhəmiyyətli dərəcədə artırılması, çoxlu sayda əməkdaşların yüksək dövlət mükafatlarına və fəxri adlara layiq görülməsi ölkə başçısının hüquq-mühafizə orqanlarına göstərdiyi yüksək diqqət və qayğının bariz nümunəsidir. Daxili işlər orqanlarına göstərilən bu qayğının nəticəsidir ki, 2008-ci ilin birinci yarısında muxtar respublikada kriminogen durum tam nəzarətdə saxlanıl-

1. «Azərbaycan qəzeti», 30 iyun 2007-ci il.

maqla qarşıya qoyulan vəzifələr qüsursuz icra edilmişdir. Hesabat dövründə muxtar respublika Daxili İşlər Nazirliyi və Prokurorluğu üzrə 11 cinayət faktı qeydə alınmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 18 fakt azdır. Daxili İşlər Nazirliyi üzrə qeydə alınmış cinayətlərdən 2-si iqtisadi sahədə, 7-si ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə, 2-si şəxsiyyət əleyhinə olan cinayətlərdir.

Göstərilən dövrdə muxtar respublika ərazisində banditizm, quldurluq, adam oğurluğu, insanların girov götürülməsi və bu kimi digər ağır və xüsusilə ağır cinayətlər qeydə alınmamışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cinayətlərin ümumi sayı 65,5 faiz və ya 3 dəfəyədək, ağır və xüsusilə ağır cinayətlər 25 faiz, az ağır cinayətlər isə 5 dəfəyədək azalmışdır. Ötən 6 ay ərzində muxtar respublika ərazisində 161 odlu silah, o cümlədən 8 avtomat silahı, 9 TOZ-8, 5 ədəd beşaçılan, 6 ədəd tapança, xeyli sayda döyüş sursatı və hərbi ləvazimat aşkar edilərək yığılmışdır. Bu dövrdə narkotiklərlə bağlı 3 cinayət faktı aşkar edilmişdir ki, bunun da hər 3-ü narkotik vasitələrin satışı ilə bağlı olmuşdur. Narkotiklərlə bağlı aşkarlanmış cinayətlər nəticəsində məsuliyyətə cəlb olunmuş şəxslərdən 3 kiloqram 500 qrama yaxın müxtəlif növ narkotik vasitələr götürülmüşdür (1).

Bu gün Azərbaycanda eləcə də Naxçıvanda mövcud olan sabitlik, insanların təhlükəsizliyi, dövlətçiliyin möhkəm olması ilk növbədə polis orqanlarının xidmətidir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev demişdir: "Hər bir ölkədə polis orqanlarının çox böyük əhəmiyyəti var. İlk növbədə cinayətkarlığa qarşı mübarizə daha da güclənməlidir. Bu sahədə böyük uğurlar var. Azərbaycanda krimenogen vəziyyət bütün MDB məkanında və hətta geniş mənada bölgədə ən müsbətdir. Biz bunu həm statistik göstəricilərdə, eyni zamanda, gündəlik həyatda görürük. Azərbaycanda insanlar rahat yaşayırlar. Azərbaycanda sabitlik var, ictimai təhlükəsizlik var. İnsanlar günün istənilən vaxtında-gündüz, günorta, gecə rahat gəzirlər, dincəlirlər. Yəni bütün bunlar Azərbaycanın reallıqlarıdır. Biz bütün bunları əldə etmişik. Ulu öndər Heydər Əliyevin siyasəti nəticəsində, onun

1. «Şərq qapısı» qəzeti, 12 avqust 2008-ci il.

Azərbaycana xidmətləri nəticəsində biz bugün bunu yaşayırıq və Azərbaycanı, müstəqil dövlətimizi daha da gücləndiririk".

Bəli, fakt budur ki, Azərbaycanda, həmçinin Naxçıvanda sabitliyi, inkişafı gözü götürməyən qüvvələr polisin qətiyyətli və peşəkar olmasından narahatdır. Onun fəaliyyətini bildikləri kimi yozur, yenə də Azərbaycana təzyiq etmək istəyirlər. Buyurub desinlər görək, öz ölkələrində polisin cinayətkarlıqla mübarizəsini belə pisləyirlərmi? Konstitusiyaya zidd əməllərin qarşısını alan polisə mükafat verirlər, yoxsa cəzalandırırlar? Qanuna zidd əməllərin qarşısını alanda mitinqçiləri təlim görmüş atlarla, itlərlə qovurlar, lazım gələndə odlu silahdan istifadə edirlər. Azərbaycanda qanunsuz mitinq edənlərə, asayişi pozanlara, xaos, anarxiya yaratmağa cəhd göstərənlərə qarşı belə sərt tədbirlər görülmür. Amma yenə də Ölkəmizə qarşı tənqidi mövqedən yanaşanlar var. Belə ikili münasibət olmamalıdır.

Asayişi pozan, dövlət çevrilişinə cəhd göstərən qüvvələrə qarşı dövlət, onun bir strukturu olan polis orqanları hansı mövqeyi tutmalıdırlar? İmkan verilməlidir ki, onlar niyyətlərini həyata keçirsinlər, ölkə yenidən xaos, anarxiya girdabına düşsün? Hansı dövlət bunu edər? Beş-on nəfərin istəyinə görə böyük bir xalqı fəlakətə atmaq heç bir məntiqə sığışmır.

Bu gün kim istəsə polisin fəaliyyətini şəffaf izləyə bilir. Amma məqsədli şəkildə onun fəaliyyətini düzgün qiymətləndirməyənlər də tapılır. Polis cinayətkarı saxlayır. Əlbəttə, bu cinayətkar da polisə qarşı müsbət rəy yaradası deyil. Polis cəmiyyətdə mənfi ünsürlərin əməllərinin qarşısını aldıqca, onlar da polis haqqında mənfi rəy formalaşdırıb, cinayətlərinə haqq qazandırmaq istəyirlər. Odur ki, polisi mənəvi təcavüzdən qorumaq vacib məsələdir. Cəmiyyətin cinayətə meyilli məqsədlərinə mane olan polis həmin zümrə tərəfindən ardıcıl olaraq mənəvi təcavüzə məruz qalır. Bu zaman o özünü müdafiə edə bilmir. Onun yüksək xidmətlərini qiymətləndirməyənlər belə polis əməkdaşı cinayətkarlarla mübarizədə həlak olanda, deyirlər ki, bu onun borcu idi. Bəli, bu mübarizə onun borcudur. Göründüyü kimi ən qatı cinayətkar dəstələri zərərsizləşdirən polis ona qarşı edilən mənəvi təcavüzdən özünü qoruya bilmir. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham

Əliyevin polisin yaranmasının 89-cu ildönümünə və Polis Akademiyasının 2006-2007-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasimdəki nitqi polis əməkdaşlarının mənəvi təcavüzdən qorunması istiqamətində çox böyük bir addım oldu.

İnkaredilməz faktdır ki, cinayətkarlığa qarşı mübarizədə müvəffəqiyyət məhz kadrların yüksək mədəniyyətindən, siyasi yetginliyindən, peşə hazırlığından, hər bir şəraitdən baş çıxarmaq, əsas sözləri qanunçuluğa və hüquq qaydalarına əməl etməklə, ideya mətinliyindən, təşəbbüs və işgüzarlıqdan asılıdır. İndiki dövr hər bir polis əməkdaşından məhz bu keyfiyyətləri tələb edir.

Azərbaycanda və eləcə də Naxçıvan Muxtar Respublikasında hər bir vətəndaşın hüququnun qorunması hüquq-mühafizə orqanlarının əsas vəzifələrindən biridir. Bu sahədə həyata keçirilən tədbirlər müəyyən qədər öz bəhrəsini verir.

Azərbaycan, onun ayrılmaz parçası olan Naxçıvan polisi dövlətçiliyin keşiyində mətin dayanıb, peşəkardır, əqidəlidir. O, dövlət rəhbərinin və xalqının etimadını bundan sonra da yüksək xidməti ilə doğruldacaqdır.

Əminik ki, ölkəmizdə gedən demokratik, hüquqi dövlət quruculuğu prosesində qədim tarixi ənənələri olan Naxçıvan MR Daxili İşlər Orqanlarının əməkdaşları bütün səy və bacarığını bu işə sərf edəcək və yüksək göstəricilərə nail olacaq.

İnanırıq ki, müstəqil Azərbaycan dövlətinin çiçəkli gələcəyi naminə Naxçıvan polisi öz qüvvə və bacarığını heç bir zaman əsirgəməyəcək.

İnanırıq ki, İlham Əliyev kimi sərkərdəsi olan hər bir polis öz tarixi salnaməsinə qızıl hərifləriə mübarizələr dolu unudulmaz, yaddaşlardan silinməyən yeni-yeni uğurlu səhifələr yazacaq.

İnanırıq ki, müstəqil dövlətimizin çiçəkli gələcəyi naminə XXI-ci əsrdə də mübarizələrdə mətinliklə sınaqdan çıxmış və bərkimiş Naxçıvan polisi öz qüvvə və bacarığını heç bir zaman əsirgəməyəcək, öz tarixi səlnaməsinə mübarizələrlə dolu unudulmaz, yaddaşlardan silinməyən səhifələr yazacaq.

# MÜNDƏRİCAT


ÖN SÖZ....................................................................4

MÜQƏDİMMƏ..........................................................6

**I FƏSİL.** Naxçıvan polisi Sovet hakimiyyətinin ilk illərində (1920-1940-cı illər)....................................11

**II FƏSİL.** Naxçıvan Polisi 1941-1945-ci illər müharibəsi dövründə..................................................40

**III FƏSİL.** Naxçıvan Polisi quruculuq dövründə............49

**IV FƏSİL.** Erməni işğalçılarına qarşı mübarizə..............78

**V FƏSİL.** Müstəqil dövlətçiliyin möhkəmləndirilməsində Naxçıvan polisinin rolu..........................................139

**Fəxrəddin Cəfərov.**
**Naxçıvan polisinin inkişaf yolu (1920-2008-ci illər).**
Bakı, «Nurlan», 2008.

Nəşriyyat direktoru:
**Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ruhəngiz Əlihüseynova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Ramin Abdullayev**

Yığılmağa verilmiş: 24. 10.2008
Çapa imzalanmış: 14. 11. 2008
Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 184 səh.
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, "Nurlan" NPM-də
ofset üsulu ilə çap olunmuşdur.